# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

# TRANSACTIONS

## OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

*Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası*

*Series of humanitarian, social and pedagogical-psychological sciences*

**2020, C. 68, № 2**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası**
**Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

**PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,* 2020, C.68, №2**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov *(baş redaktorun müavini),* f.e.d., prof. V.H.Əliyev, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. B.Ə.Xəlilov, f.e.d., prof. Z.A.Xəlilov, f.e.d., prof. N.M.Xudiyev, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova, f.e.ü.f.d. N.Q.Aslanova *(məsul katib)*

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov *(ass. editor*), prof. Dr. V.Q.Aliyev, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. B.A.Khalilov, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. N.M.Khudiyev, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Ass. prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Phd N.T.Huseynova, Phd N.G.Aslanova (*executive secretary*)

***©ADPU, 2020***
***©ASPU, 2020***

# MÜNDƏRİCAT

## Humanitar elmlər

***Abbasov Ə.M.***
QEYRİ-MÜƏYYƏN ŞƏXSLİ CÜMLƏLƏRDƏ SİNTAKTİK-SEMANTİK MƏZMUNUN QEYRİ-MÜƏYYƏNLİYİN DƏRƏCƏSİNƏ GÖRƏ FORMALAŞMASI ....... 9
***Abdullayeva Ü.Ə.***
ƏMİN ABİD (GÜLTƏKİN) VƏ TURANÇILIQ ....... 19
***Bədəlova T.K.***
NİZAMİ GƏNCƏVİ İRSİ VƏ "QABUSNAMƏ" ....... 25
***Ələkbərli S.Ə.***
MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN NƏSRİNDƏ QƏHRƏMANLARIN DAXİLİ MONOLOQUNDA PSİXOLOJİ KİMLİK ....... 39
***Həsənova A.S.***
SEMANTİK İNKİŞAFIN TƏFƏKKÜR PROSESLƏRİ BAXIMINDAN İZAHI ....... 48
***Rzayeva F.Ə.***
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBƏLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİNİN ELMİ-NƏZƏRİ DİDAKTİK ƏSASLARI ....... 57

## İctimai elmlər

***Zamanov A.D., Əliyev R.İ.***
MÜNAQİŞƏDƏN MÜHARİBƏYƏ: SOSİAL-PSİXOLOJİ TƏHLİL ....... 68
***Zamanova S.X., Məmmədova N.M.***
AZƏRBAYCAN XALQINA QARŞI SOYQIRIMI VƏ DEPORTASİYALAR (1905-1906-cı illər) ....... 75
***Fərhadov Ə.R.***
"MOLLA NƏSRƏDDİN" JURNALI VƏ CƏNUBİ AZƏRBAYCAN TARİXİ ....... 82
***Həsənova S.N.***
SƏFƏVİLƏR DÖVLƏTİNİN TƏNƏZZÜLÜ DÖVRÜNDƏ İMPERİYANIN ŞƏRQ ƏRAZİLƏRİNDƏ SEPARATÇILIQ HƏRƏKATLARI (T.KRUŞİNSKİNİN "XRİSTİAN SƏYYAHIN TARİXİ" ƏSƏRİ ƏSASINDA) ....... 92
***Qasımzadə Ə.H.***
QƏBƏLƏNİN XI-XIII ƏSRLƏRƏ AİD DAMĞALI QABLARI ....... 99
***Qədirova N.F.***
HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCAN-YUNESKO ƏMƏKDAŞLIĞINDA YERİ VƏ ROLU ....... 107
***Mustafayeva S.R.***
RUSİYA VƏ TÜRKİYƏNİN CƏNUBİ QAFQAZDA NÜFUZ UĞRUNDA MÜBARİZƏSİNDƏ AZƏRBAYCANIN YERİNƏ DAİR ....... 115
***Təhmazova A.B.***
AZƏRBAYCANIN YENİ NEFT STRATEGİYASI VƏ UĞURLU NƏTİCƏLƏR ....... 123

## Pedaqoji-psixoloji elmlər

***Aslanova G.Ç.***
AŞIQLARIN YARADICILIĞINDA QADIN OBRAZLARININ TƏRBİYƏ FUNKSİYASI HAQQINDA ....... 131

***Əhmədova G.X.***
İBTİDAİ SİNİFLƏRDƏ İNNOVATİV TƏLİM FƏALİYYƏTİNİN TƏŞKİLİNİN MAHİYYƏTİ VƏ VƏZİFƏLƏRİ ........ 138
***Əliyeva N.M.***
DÜZGÜN DƏB, GEYİM, ADƏT VƏ DAVRANIŞLAR YENİYETMƏ QIZLARIN MİLLİ–MƏNƏVİ DƏYƏRLƏR ƏSASINDA TƏRBİYƏSİNDƏ MÜHÜM VASİTƏ KİMİ ........ 144
***Hümbətova A.A.***
TƏLİM PROSESİNDƏ ŞAGİRD MÜVƏFFƏQİYYƏTİNİN TƏMİNİ: VALİDEYN, MÜƏLLİM FƏALİYYƏTİNİN PSİXOLOJİ ASPEKTLƏRİ ........ 150
***İlyasov M.İ.***
PEDAQOJİ PROSES TAM VƏ DİNAMİK SİSTEM KİMİ ........ 155
***İsmayılova N.R.***
MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN AİLƏ TƏRBİYƏSİNDƏ VALİDEYNLƏRLƏ İŞİN TƏŞKİLİ YOLLARI ........ 162
***Qafarov Q.A.***
AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLALANLAR KONTEKSTİNDƏ QİYMƏTLƏNDİRİLMƏSİ ........ 170
***Musayev D.M.***
«TƏHSİL KOMPETENSİYASI» VƏ «TƏHSİL KOMPETENTLİYİ» ANLAYIŞLARININ MÜQAYİSƏLİ TƏHLİLİ ........ 184
***Rzayeva P.H.***
“ŞƏRQ QADINI” JURNALINDA XƏLİL FİKRƏT İMZASI ........ 192

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Аббасов А.М.***
ФОРМИРОВАНИЕ СИНТАКСИЧЕСКИ-СЕМАНТИЧЕСКОГО СОДЕРЖАНИЯ В НЕОПРЕДЕЛЕННЫХ ЛИЧНЫХ ПРЕДЛОЖЕНИЯХ ПО СТЕПЕНИ НЕОПРЕДЕЛЕННОСТИ ………………………………………………………….. 9
***Абдуллаева У.А.***
АМИН АБИД (ГЮЛЬТЕКИН) И ТУРАНИЗМ ........................................................ 19
***Бадалова Т.К.***
НАСЛЕДИЕ НИЗАМИ ГЯНДЖЕВИ И «КАБУС-НАМЕ» ...................................... 25
***Алакбарли С.А.***
ПСИХОЛОГИЧЕСКАЯ ИДЕНТИЧНОСТЬ ВО ВНУТРЕННЕМ МОНОЛОГЕ ГЕРОЕВ В АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ .......... 39
***Гасанова А.С.***
ОБЪЯСНЕНИЕ СЕМАНТИЧЕСКОГО РАЗВИТИЯ С ТОЧКИ ЗРЕНИЯ МЫСЛИТЕЛЬНЫХ ПРОЦЕССОВ ......................................................................... 48
***Рзаева Ф.А.***
НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ДИДАКТИЧЕСКИЕ ОСНОВЫ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ ......................................................................................... 57

## *Общественные науки*

***Заманов А.Д., Алиев Р.И.***
ОТ КОНФЛИКТА К ВОЙНЕ: СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ 68
***Заманова С.Х., Мамедова Н.М.***
ГЕНОЦИД И ДЕПОРТАЦИИ ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА (1905-1906-е гг.) ......................................................................................... 75
***Фархадов А.Р.***
ЖУРНАЛ “МОЛЛА НАСРЕДДИН” И ИСТОРИЯ ЮЖНОГО АЗЕРБАЙДЖАНА 82
***Гасанова С.Н.***
СЕПАРАТИСТСКИЕ ДВИЖЕНИЯ НА ВОСТОЧНЫХ ГРАНИЦАХ В ПЕРИОД ПАДЕНИЯ ГОСУДАРСТВА СЕФЕВИДОВ ........................................................... 92
***Гасымзаде А.Г.***
ЧЕКАННЫЕ ПОСУДЫ ГАБАЛЫ XI-XIII ВЕКОВ ……...........................…... 99
***Гадирова Н.Ф.***
РОЛЬ ФОНДА ГЕЙДАРА АЛИЕВА В СОТРУДНИЧЕСТВЕ АЗЕРБАЙДЖАНА И ЮНЕСКО ......................................................................................... 107
***Мустафаева С.Р.***
О РОЛИ АЗЕРБАЙДЖАНА В БОРЬБЕ РОССИИ И ТУРЦИИ ЗА ВЛИЯНИЕ НА ЮЖНОМ КАВКАЗЕ ......................................................................... 115
***Тахмазова А.Б.***
УСПЕХИ НОВОЙ НЕФТЯНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА ........................ 123

## *Педагогико-психологические науки*

***Асланова Г.Ч.***
О ВОСПИТАТЕЛЬНОЙ ФУНКЦИИ ЖЕНСКИХ ОБРАЗОВ В ТВОРЧЕСТВЕ АШЫГОВ ...................................................................................... 131
***Ахмедова Г.Х.***
СУЩНОСТЬ И ЗАДАЧИ ОРГАНИЗАЦИИ ИННОВАЦИОННОЙ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ В НАЧАЛЬНЫХ КЛАССАХ ...................................................... 138
***Алиева Н.М.***
ПРАВИЛЬНАЯ МОДА, ОДЕЖДА, ПРИВЫЧКИ И ПОВЕДЕНИЕ КАК ВАЖНОЕ СРЕДСТВО В ВОСПИТАНИИ ДЕВОЧЕК ПОДРОСТКОВ НА ОСНОВЕ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ ...................................... 144
***Гумбатова А.А.***
ОБЕСПЕЧЕНИЕ УСПЕВАЕМОСТИ УЧАЩИХСЯ В УЧЕБНОМ ПРОЦЕССЕ: ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ДЕЯТЕЛЬНОСТИ РОДИТЕЛЕЙ И ПРЕПОДАВАТЕЛЕЙ ........................................................................................................ 150
***Ильясов М.И.***
ПЕДАГОГИЧЕСКИЙ ПРОЦЕСС КАК ЦЕЛАЯ И ДИНАМИЧЕСКАЯ СИСТЕМА 155
***Исмаилова Н.Р.***
СПОСОБЫ ОРГАНИЗАЦИИ РАБОТЫ С РОДИТЕЛЯМИ В СЕМЕЙНОМ ВОСПИТАНИИ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА .......................................... 162
***Гафаров Г.А.***
ОЦЕНКА ПРОФЕССИОНАЛЬНО-ТЕХНИЧЕСКИХ УЧИЛИЩ В АЗЕРБАЙДЖАНЕ В КОНТЕКСТЕ ОБУЧАЮЩИХСЯ ........................................... 170
***Мусаев Д.М.***
СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ПОНЯТИЙ «ОБРАЗОВАТЕЛЬНАЯ КОМПЕТЕНЦИЯ» И «ОБРАЗОВАТЕЛЬНАЯ КОМПЕТЕНТНОСТЬ» .................. 184
***Рзаева П.Г.***
ПОДПИСЬ ХАЛИЛА ФИКРЕТА В ЖУРНАЛЕ "ШАРК КАДИНИ" ...................... 192

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Abbasov A.M.***
FORMATION OF SYNTACTIC-SEMANTIC CONTENT IN UNKNOWN SENTENCES BY DEGREE OF UNCERTAINTY .................................................... 9
***Abdullayeva U.A.***
AMIN ABID (GULTEKIN) AND TURANISM ........................................................ 19
***Badalova T.K.***
LEGACY OF NIZAMI GANJAVI AND “QABUS NAMA” ……………………....... 25
***Alakbarli S.A.***
PSYCHOLOGICAL IDENTITY IN THE INTERNAL MONOLOGUE OF HEROES IN THE AZERBAIJANI PROSE DURING INDEPENDENCE ................................. 39
***Hasanova A.S.***
THE EXPLANATION OF SEMANTIC DEVELOPMENT FROM THE ASPECT OF THINKING PROCESSES ………………………………………….……….. 48
***Rzayeva F.A.***
SCIENTIFIC-THEORETICAL DIDACTIC BASES OF THE ORGANIZATION OF INDEPENDENT WORKS OF STUDENTS IN THE PROCESS OF TEACHING ENGLISH AT HIGHER EDUCATIONAL INSTITUTIONS ……………...……….. 57

## *Social sciences*

***Zamanov A.D., Aliyev R.I.***
FROM CONFLICT TO WAR: SOCIO-PSYCHOLOGICAL ANALYSIS ..........…..... 68
***Zamanova S.X., Mammadova N.M.***
GENOCIDE AND DEPORTATIONS AGAINST THE PEOPLE OF AZERBAIJAN (1905-1906 yy.) ....…………………………………………………………..….…..... 75
***Farhadov A.R.***
JOURNAL “MOLLA NASREDDIN” AND HISTORY OF SOUTH AZERBAIJAN 82
***Hasanova S.N.***
THE SEPARATIST MOVEMENTS IN THE EASTERN BORDERS DURING COLLAPSE OF THE SAFAVID EMPIRE ……………………………….……….. 92
***Gasimzade A.H.***
STAMPED DISHES OF GABALA BELONGING TO XI-XIII CENTURIES ……..... 99
***Gadirova N.F.***
THE ROLE OF THE HEYDAR ALIYEV FOUNDATION IN THE AZERBAIJAN-UNESCO COOPERATION ……………..…………………………….………… 107
***Mustaphayeva S.R.***
ABOUT THE ROLE OF AZERBAIJAN IN THE STRUGGLE OF RUSSIA AND TURKEY FOR INFLUENCE IN THE SOUTH CAUCASUS ……………….……….... 115
***Tahmazova A.B.***
SUCCES OF AZERBAIJANI NEW OIL STRATEGY ………………………….….... 123

## *Pedagogical-psychological sciences*

***Aslanova G.Ch.***
ON THE EDUCATIONAL FUNCTION OF FEMALE IMAGES IN THE WORK OF ASHYGS ....................................................................................................... 131

***Ahmedova G.X.***
THE ESSENCE AND OBJECTIVES OF THE ESTABLISHMENT OF INNOVATIVE LEARNING ACTIVITIES IN THE ELEMENTARY GRADES ........ 138

***Aliyeva N.M.***
CORRECT FASHION, CLOTHING, HABITS AND BEHAVIOR AS AN IMPORTANT MEANS IN EDUCATION BASED ON THE NATIONAL AND SPIRITUAL VALUES OF ADOLESCENT GIRLS ..................................................... 144

***Humbatova A.A.***
ENSURING STUDENT SUCCESS IN THE LEARNING PROCESS: PSYCHOLOGICAL ASPECTS OF PARENTING, TEACHER ACTIVITY ............... 150

***Ilyasov M.I.***
THE PEDAGOGICAL PROCESS AS A WHOLE AND DYNAMIC SYSTEM .......... 155

***Ismayilova N.R.***
METHODS OF ORGANIZATION OF WORK WITH PARENTS IN FAMILY PARENTING OF PRESCHOOL CHILDREN ............................................................... 162

***Gafarov G.A.***
EVALUATION OF VOCATIONAL EDUCATION INSTITUTIONS IN AZERBAIJAN IN THE CONTEXT OF STUDENTS .................................................... 170

***Musayev D.M.***
COMPARATIVE ANALYSIS OF THE NOTIONS OF “EDUCATIONAL COMPETENCY” AND “COMPETENCE OF EDUCATION” .................................... 184

***Rzayeva P.H.***
KHALIL FIKRET'S SIGNATURE IN "SHARG GADINI" JOURNAL ...................... 192

# Humanitar elmlər

*UOT 811.512.162*

***Ə.M.Abbasov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*abbasov-edalat@mail.ru*

## QEYRİ-MÜƏYYƏN ŞƏXSLİ CÜMLƏLƏRDƏ SİNTAKTİK-SEMANTİK MƏZMUNUN QEYRİ-MÜƏYYƏNLİYİN DƏRƏCƏSİNƏ GÖRƏ FORMALAŞMASI

***Açar sözlər:*** *subyekt, predikat, hökm, qeyri-müəyyən, ümumi, şəxssiz, struktur, nominativ xarakter, leksik vahid*

Qeyri-müəyyənlik anlayışının tarixi mövcudluq faktına əsasən müəyyənlik məfhumu sayəsində təşəkkül tapmasını söyləmək mümkündür. Bu tarixi-fəlsəfi situasiya təfəkkürdə formalaşma prosesini reallaşdırdıqdan sonra qrammatik struktur mühitinə keçdi. Beləliklə, qeyri-müəyyən şəxsli cümlələr müəyyən şəxsli cümlələrin diferensiasiya prosesinin nəticəsi olaraq sintaktik-konstruktiv vahid şəklində faktlaşdı. Deməli, müəyyən şəxsli cümlələrin tərkibində baş verən dəyişiklik (cümlə üzvlərinin reduksiyaya uğrayaraq morfoloji kateqoriya ilə əvəz olunması) qeyri-müəyyən şəxsli cümlələrin təşəkkül tapmasına səbəb olmuşdur.

Qeyri-müəyyənlik anlayışının dil təfəkküründə çətin anlaşılan mürəkkəb idraki proses olması kommunikativ funksiyanın ilk mərhələsində qeyri-müəyyən şəxsli cümlələrin ləng mövcud olmasını şərtləndirir. Lakin mübtədasız müəyyən şəxsli cümlələrin qeyri-müəyyən şəxsli cümlələrə çevrilməsi dinamik təkamül prosesinin nəticəsində mövcud olmuşdur. Qeyri-müəyyən şəxsli cümlələrdə iş, hərəkət, hadisə haqqında söylənilən hər hansı mülahizə ümumilikdə hisslərin hamısına aid ola bilər. Bu səbəbdən də hissələrdə əks olunan qeyri-müəyyənliyin məna həcmini və semantik tutumunu aşkara çıxarıb müəyyənləşdirmək olmur, qeyri-müəyyənlik anlayışı öz naməlum semantik cildində qalır.

Bu idraki proses qeyri-müəyyənliyin məzmun dərəcəsini mətndəki semantik çəkisinə görə təyin etmək imkanına malikdir. Ümumiyyətlə, mətn situasiyası qeyri-müəyyənlik anlayışını məzmunluq dərəcəsinə görə fərqləndirir.

***А.М.Аббасов***

## ФОРМИРОВАНИЕ СИНТАКСИЧЕСКИ-СЕМАНТИЧЕСКОГО СОДЕРЖАНИЯ В НЕОПРЕДЕЛЕННЫХ ЛИЧНЫХ ПРЕДЛОЖЕНИЯХ ПО СТЕПЕНИ НЕОПРЕДЕЛЕННОСТИ

***Ключевые слова:*** *субъект, предикат, суждение, неопределенный, общий, безличный, структура, номинативный характер, лексическая единица*

Можно сказать, что понятие неопределенности формируется тем фактом, что понятие неопределенности основано на историческом факте. Эта историко-философская ситуация перешла в грамматическую структурную среду после процесса формирования мышления. Таким образом, неопределенные предложения были сформированы как синтаксически-конструктивная единица в результате процесса дифференциации определенных предложений.

Следовательно, изменение состава отдельных предложений (включая замену членов предложения морфологической категорией) привело к формированию неопределенных предложений.

Тот факт, что понятие неоднозначности является сложным когнитивным процессом, который трудно понять в лингвистическом познании, подразумевает задержку в первой фазе коммуникативной функции. Однако преобразование некоторых определенных отдельных предложений в неопределенные стало результатом процесса динамической эволюции. Любой комментарий, высказанные о работе, действии и событии в неопределенных личных предложениях может применяться ко всем чувствам в целом.

Действия в предложении с неопределенными предложениями и любые комментарии, сделанные в рассказе, обычно могут относиться ко всем эмоциям. Следовательно, значение и семантическая способность неопределенности, выраженной в разделах, не может быть определена, и понятие неопределенности остается в его семантическом объеме.

Этот когнитивный процесс позволяет определить степень неопределенности по смысловой массе текста. В целом текстовая ситуация отличается от понятия неопределенности до степени содержания.

***A.M.Abbasov***

## FORMATION OF SYNTACTIC-SEMANTIC CONTENT IN UNKNOWN SENTENCES BY DEGREE OF UNCERTAINTY

***Keywords:*** *subject, predicate, verdict, indefinite, general, impersonal, structure, nominative character, lexical unit*

It is possible to say that the notion of uncertainty is formed by the fact that the concept of uncertainty is based on historical fact. This historical-philosophical situation has moved into the grammatical structural environment after the process of formation in thinking. Thus, indeterminate sentences have been fabricated as a syntactic-constructive unit as a result of the process of differentiating certain sentences. Consequently, a change

in the composition of certain individual sentences (including the substitution of members by morphological category) led to the formation of indefinite sentences.

The fact that the concept of ambiguity is a complex cognitive process that is difficult to comprehend in the linguistic cognition implies that there is a delay in the first phase of the communicative function. However, the conversion of certain definite individual sentences into indefinite ones has been the result of a process of dynamic evolution. Actions in the sentence of uncertain sentences, and any comments made in the story can generally relate to all emotions. Therefore, the meaning and semantic capacity of the uncertainty expressed in the sections cannot be determined, and the notion of uncertainty remains in its semantic volume.

This cognitive process allows the degree of uncertainty to be determined by the semantic weight of the text. In general, the text situation differs from the concept of uncertainty to the degree of content.

**Giriş**

Qeyri-müəyyənlik anlayışının tarixi mövcudluğunun müəyyənlik məfhumu sayəsində təşəkkül tapması fikrinin idraki analoqu qeyri-müəyyən şəxsli cümlələrin müəyyən şəxsli cümlədən bölünərək formalaşması mülahizəsinin doğruluğu düşüncəsini şərtləndirir. Çünki varlığın bu iki forması daim dialektik vəhdətdədir.

Qeyri-müəyyən şəxsli cümlənin etimoloji təşəkkülü cəhətdən yaranmasını şərtləndirən xüsusiyyətlərdən ən mühüm olanı qeyri-müəyyənlik vahidinin qrammatik ifadə vasitəsinin sonrakı inkişaf dövrünə təsadüf etməsidir. Müəyyən şəxsli cümlələr öz mütəhərrikliyini dəyişərək zəngin üslub səriştəsinə sahib olduqdan sonra qeyri-müəyyən şəxsli cümlələr formalaşma prosesinə qədəm qoyur.

Qədim Azərbaycan və türk yazılı abidələrinin (Kitabi-Dədə Qorqud, Orxon-Yenisey abidələrinin) dilində qeyri-müəyyən şəxsli cümlə modelinə təsadüfi hallarda rast gəlinir. Lakin tədqiqatın müşahidələrinin epizodik tapıntıları dil tarixinin əski mərhələlərində belə bir cümlə strukturunun mövcudluğu faktını inkar etmir.

"Cümlənin bu növü dastanların dilində işlənən ən fəal təktərkibli cümlə növüdür. Demək olar ki, hər bir boyun əvvəlində yeni obraz qeyri-müəyyən şəxsli cümlənin köməyi ilə təqdim edilir. Məsələn, Məgər Dirsə xan deyirlərdi, bir bəgin oğlı-qızı yoxdu. Məgər xanım, Oğuzda Duxa oğlu Dəli Domrul deyirlərdi, bir ər var idi" [120, s.593].

Qeyri-müəyyənlik anlayışının dil təfəkküründə çətin anlaşılan mürəkkəb idraki proses olması kommunikativ funksiyanın ilk mərhələsində qeyri-müəyyən şəxsli cümlələrin ləng mövcud olmasına səbəb olmuşdur.

Əslinə qalsa, müəyyən şəxsli cümlələrin özündə də çağdaş struktur formasını etimoloji dayaqları üzərində inkişaf etdirərək yeni struktur-semantika qazanması mürəkkəb təkamül prosesi ilə müşahidə edilir. Yəni müəyyən şəxsli

cümlələr ilk əvvəl özünün leksik modeli ilə ifadə olunub, sonra isə işlənmə tezliyi statusuna malik olub istifadə kommunikasiya sferası genişləndikcə orijinal ifadə formasını – qrammatik ifadə formasını qəbul edib. “Ümumiyyətlə, müxtəsər cümlə strukturunda subyektin morfoloji ifadəsi dildə sonrakı hadisədir. Nominativ quruluşlu sadə cümlə modelləri dilin əvvəlki dövrləri üçün səciyyəvidir. Deməli, müəyyən şəxsli cümlələrin tərkibində baş verən struktur dəyişiklik (cümlə üzvünün reduksiyaya uğrayaraq morfoloji kateqoriya ilə əvəz olunması) qeyri-müəyyən şəxsli cümlələrin təşəkkül tapmasına səbəb olub” [70, s.33].

Lakin mübtədasız müəyyən şəxsli cümlələrin qeyri-müəyyən şəxsli cümlələrə çevrilməsi dinamik təkamül prosesi nəticəsində mövcud olmuşdur. Əvvəlki formanın tələbi ilə yeni məzmun yaranmır, əksinə yeni məzmun öz strukturuna uyğun forma tələb edir. “Deməli, mübtədasız müəyyən şəxsli cümlələrdən qeyri-müəyyən şəxsli cümlələr əmələ gəlmişdir” mülahizəsini semantik strukturların təkamülü mənasında başa düşmək lazımdır” [147, s.315-339]

Əşyanın icraçısının birdən artıq miqdarını bildirmək üçün -lar$^2$ morfoloji əlamətindən istifadə edilir. Bu morfemi (-lar$^2$) qəbul etmiş isimlərin miqdarı qeyri-müəyyəndir. Subyektin kəmiyyətcə çoxluğu onun öz müəyyənlik – dəqiqlik anlayışından uzaqlaşaraq itməsinə səbəb olur. Odur ki, bəzi stilistik məqamlar istisna olmaqla, qeyri-müəyyən şəxsli cümlələr subyekti birdən çox olan cümlələrdir. Bu səbəbdən subyekti kəmiyyətcə birdən çox olan cümlələr məzmunca qeyri-müəyyənlik anlayışı kəsb edir. Beləliklə, nəzəri fikirlərimizi əyaniləşdirsək, belə bir sxem alınar. Sxematik təsəvvürümüzü aşağıdakı nümunə üzərində quraq: Bizi iclasa çağırdılar.




İcraçısı çox olan qeyri-müəyyən şəxsli cümlə forması.

Qeyri-müəyyən şəxsli cümlələrdə iş, hərəkət, hadisə və prosesin müəyyən hissəsi haqqında söylənilən hər hansı mülahizə ümumilikdə hissələrin hamısına aid ola bilər. Bu səbəbdən də hissələrdə əks olunan qeyri-müəyyənliyin məna həcmini və semantik kəmiyyətini aşkara çıxarıb müəyyənləşdirmək olmur, qeyri-müəyyənlik anlayışı öz naməlum potensialında qalır. Bu idraki proses qeyri-

müəyyənliyin məzmun dərəcəsini mətndəki semantik çəkisinə görə müəyyənləşdirmək imkanına malikdir. Mətn situasiyası qeyri-müəyyənlik anlayışını məzmunluq dərəcəsinə görə fərqləndirir.

**Qeyri-müəyyənliyin dərəcəsinə görə qeyri-müəyyən şəxsli cümlələrin növləri.**

Bu baxımdan da qeyri-müəyyən şəxsli cümlələr qeyri-müəyyənliyin dərəcəsinə görə iki qismə ayrılır: 1. Struktur məzmununda qeyri-müəyyənlik anlayışı çox olan cümlələr. 2. Struktur məzmununda qeyri-müəyyənlik anlayışı nisbətən az olan qeyri-müəyyən şəxsli cümlələr.

**Qeyri-müəyyənlik anlayışı çox olan qeyri-müəyyən şəxsli cümlələr.**

Əslində bunun səbəbi qeyri-müəyyən şəxsli cümlələrdə subyektin (icraçı) bir və ya bir neçə şəxsə aid ola bilməsidir. Qeyri-müəyyənliyin özünün bir anlayış olaraq nisbi xarakter daşıması mülahizəsi də dil təfəkküründə artıq sabitləşmişdir. Belə ki, mətn şəraitinə görə bir məqamda subyekti ümumiyyətlə təsəvvürə gətirmək qeyri-mümkün olduğu halda, digər bir məqamda işin icraçısı dinləyici üçün nisbətən bəlli olur.

Qeyri-müəyyən şəxsli cümlələrdə qeyri-müəyyənliyin məzmunundakı nisbilik anlayışı mətn daxilində daha asan anlaşılır. Haqqında bəhs olunan iş və prosesin şəraitindən, icra zamanından asılı olaraq icraçını bəzən qismən açıq canlandırmaq imkanı vardır.

"Hər bir elm sahəsində geniş anlayışlar aparatından istifadə olunur. Onların məntiqi təhlilini vermək elmlərin səmərəli inkişafının zəruri şərtidir. Anlayışların məntiqi təhlilini vermək insanların praktiki fəaliyyətində və elmi idrakda geniş yayılmış məntiqi üsullardandır" [262, s.145].

Qeyri-müəyyənlik anlayışı çox olan cümlələrin subyekti dinləyici üçün ümumiyyətlə məlum olmur. Məsələn,

1) Hələ aralıdan Əsməri görüb pıçıldaşmağa başlamışdılar.

2) Uca binaların, evlərin arasında vurnuxurdular.

3) Əsmərə sarı yüyürüb çamadanlarını götürdülər [269, s.318-319].

Bu nümunələrə diqqətlə nəzər saldıqda, qeyri-müəyyənlik anlayışının tam semantik potensialı ilə mövcud olduğunu görmək mümkündür. Odur ki, işin subyekti obyektiv gerçəklikdən uzaqlaşaraq məlum olmayan bir varlığa çevrilir.

**Qeyri-müəyyənlik anlayışı az olan qeyri-müəyyən şəxsli cümlələr.**

Qeyri-müəyyənlik anlayışı çox olan cümlələrlə yanaşı, struktur məzmununda qeyri-müəyyənlik anlayışı nisbətən az olan cümlələr də mövcuddur. Aşağıdakı mətnə diqqət etsək, bu idrak prosesinin təzahürünü müşahidə edə bilərik.

...Hacı arvadı ilə üz-üzə əyləşib çay içirdilər. Tofiqin gətirdiyi pula hələ toxunmamışdılar, beş dənə iyirmibeşlik qarışdığından, qatından açılıb şeşəlib, elə bil göz gətirib ona baxırdı. Arvadın arxası pulaydı, amma pulun o cür açılıb şeşəldiyini hiss eləyir, ürəyinə sıxıntı çökürdü. Arvadının bu təmizliyini

qorxaqlıq kimi başa düşsə də, onun halallığından kişi həmişə ləzzət almışdı, indi də ləzzət alırdı; yavaş-yavaş yorğunluğu canından çıxır, hirsi-hikkəsi yuyulurdu.

- Özünə yazığın gəlsin, - dedi arvad, - mənə də, gördün, itin başına nə oyun açdılar. Nə desən eləyərlər.

- Qələt eləyərlər. Elə belə gedəcək deyirsən ?... [269, s.341]

Mikromətni təhlil etdikdə məlum olur ki, "Tofiqin gətirdiyi pula hələ toxunmamışdılar" qeyri-müəyyən şəxsli cümləsindəki fakt, qrammatik kriteriyalar həmin struktur konstruksiyaya uyğun gəlsə də, məzmun cəhətdən etimoloji müəyyənliyə yaxındır. Qeyd edilən cümlədəki qeyri-müəyyənlik anlayışı nisbətən azdır. Həmin cümlənin ifadə etdiyi hökm Hacı və arvadına aiddir. Bu mülahizəni mətn situasiyasının yaratdığı imkana əsasən söyləmək mümkündür. Ümumiyyətlə, mətn müəyyənləşdiricilik xüsusiyyətinə malikdir. "Mətn elə bir nitq parçası, elə bir söyləmdir ki, onda hər şey öz yerində olur, cavabsız heç nə qalmır. Mətndə hər cümlənin və cümlə qrupunun daxili semantika ilə yanaşı, funksional rolu vardır [49, s.132].

"Müəyyən cəhətlərlə bağlı fərqli fikirlərin olmasına baxmayaraq bütün mülahizələrdə mətnin mütləq məzmunlu olması göstərilir. Əlbəttə, mətn üçün, doğrudan da, məzmun başlıca şərtdir. Burada dilin bütün quruluşuna dair əlaqələrin vəhdəti mövcud olur" [132, s.6].

Qeyri-müəyyən şəxsli cümlələrin təsəvvürümüzdə canlandırdığımız qeyri-müəyyən subyekti onlardır. Struktur cəhətdən "n" bitişdirici samiti vasitəsilə üçüncü şəxs təki və üçüncü şəxs kəmiyyət şəkilçisinin vəhdətindən yaranan "onlar" semantik xarakteri və çəkisi baxımından qeyri-müəyyənlik ifadə edir. Mətn daxilində olan qeyri-müəyyən şəxsli cümlələrin təsəvvürdə canlanan qeyri-müəyyən subyekti olan "onlar"ın qeyri-müəyyənlik əhatəsi məzmun semantikasına görə həcmcə daralır və nisbilik xarakteri qazanır. Qeyd etdiklərimizi nəzəri fikir müstəvisindən praktik sferaya çevirsək, aşağıdakı rəngarəng sxem alınar:

1. Mətn daxilində işlənən qeyri-müəyyən şəxsli cümlələrdə qeyri-müəyyənlik dərəcəsinin variasiyalarına məxsus (şək.)






Mətn daxilində olan qeyri-müəyyən şəxsli cümlələrin quruluş forması (şək.)

2) Mətndən kənarda ayrıca işlənən qeyri-müəyyən şəxsli cümlələrin sintaktik-semantik məzmun dairəsinə aid (şək.)




Şək. Mətndən kənarda olan qeyri-müəyyən şəxsli cümlə strukturu.

Qeyri-müəyyənlik kəmiyyətcə, semantik həcminə görə geniş olan cümlələrin subyekti danışan və dinləyən üçün qeyri-müəyyəndir. Bu cür konstruksiyalarda semantik çəki məzmun ağırlığına görə qeyri-müəyyənlikdən daha çox ümumilik istiqamətinə yönəlmiş olur. Məsələn,

1) Pendirlərin üstünə ağzı çilikli qarınlarda yağ doldururdular.
2) Elə həmin gün yaylağa hazırlaşmağa başladılar [262, s.160-161].

"Təfəkkür praktikasında bəzən qeyri-müəyyənlik anlayışı ilə ümumilik anlayışı arasında semantik artım birindən-digərinə kəmiyyətcə məzmun bazasının genişlənməsi ilə müşahidə edilir".

"Anlayışların ümumiləşdirilməsi elə məntiqi əməliyyatdır ki, onun köməkliyi ilə bir az həcmli anlayışlardan çox həcmliyə keçirik. Anlayışların məhdudlaşdırılması isə çox həcmlidən az həcmliyə, başqa cür desək, cinsdən növə məntiqi keçiddir" [109, s.170].

Qeyri-müəyyən şəxsli cümlə ilə ümumi şəxsli cümlə arasında məzmun və həcm ölçüsünü aşağıdakı şəkildə göstərmək olar:




Qeyd etdiyimiz nümunələr söylədiyimiz nəzəri fikrin təcrübi göstəricisi hesab edilə bilər. Belə ki, hər iki nümunədə qeyri-müəyyənlik anlayışının həyati təcrübəsi əsasında intellektual norma kimi semantik məzmun deformasiyası nəticəsində subyektlərinin kəmiyyətcə çoxluq təşkil etməsi səbəbindən ümumilik

anlayışına çevrilə bilir.

Qeyri-müəyyənlik məzmununun həcmcə geniş təzahür etdiyi cümlələrdə həlledici amil olaraq ümumilik anlayışının məzmun koordinasiyasının şaxələnməsi önə çəkilir. Qeyri-müəyyənliyi az olan qeyri-müəyyən şəxsli cümlələrdə isə qeyri-müəyyənliyin öz etimoloji əsasına – müəyyənlik mühitinə yaxınlaşması müşahidə edilir.

Qeyri-müəyyənliyi çox olan qeyri-müəyyən şəxsli cümlələrin qeyri-müəyyənlik bazası məzmun sərhədini keçərək semantik əhatə dairəsi genişlənir və tədricən semantik limitini aşaraq ümumiləşir.

Qeyri-müəyyənliyi kəmiyyətcə zəif olan qeyri-müəyyən şəxsli cümlələrdə iş və proseslə bağlı olan subyekt və yerinə yetirilən işin azlığı əsas şərtdir.

Qeyri-müəyyən şəxsli cümlələrin sintaktik semantikasında olan əlvan çalarlıqdan biri də mücərrədlik anlayışıdır. Bu cür cümlə konstruksiyasının naməlum canlandırılan subyekti özü də abstrakt mövqedən çıxış edir.

Bu cümlə məzmunca abstrakt səciyyə daşıyır. Cümlənin sintaktik semantikasına abstrakt məzmun verən əslində qaranlıq təsəvvür olunan subyektin mücərrəd varlıq olaraq təzahür etməsidir.

Qeyri-müəyyən şəxsli cümlələr işlənmə mövqeyi baxımından da rəngarəngdir. Öz strukturu və məzmun potensialı cəhətdən təktərkibli cümlə kimi çıxış edərək kommunikativ funksiyanın subyekti vəzifəsini icra etməklə yanaşı, həm də mürəkkəb cümlənin komponenti olaraq da işlənir. Bu da təbiidir, çünki mürəkkəb cümlələr komponentləri baxımından struktur cəhətdən müxtəlif sadə cümlələrdən təşkil edir [189, s.116].

“Tabesiz mürəkkəb cümlələr bərabərhüquqlu sadə cümlələrdən təşkil olunur. Tabeli mürəkkəb cümlələr isə qeyri-bərabər hüquqlu sadə cümlələr əsasında yaranır [7, s.93]. Məsələn,

Dedilər ki, “Səni çox istəyir Xan,
Çıx ona arvad ol!

**Nəticə**

Qeyri-müəyyən şəxsli cümlələr mürəkkəb cümlənin komponenti mövqeyində çıxış etdiyi məqamda onun xəbəri ayrı-ayrı feil formalarında təzahür edə bilir. Məsələn,

1) İcazə verərsən, işimizə mane olsunlar? – 2) İstəyərsən, işimizə mane olalar? – 3) Əminsən ki, mənim işimə mane olasıdırlar? – 4) Mənim işimə mane olsalar, özünü rahat hiss edərsən? – Mənim işimə mütləq mane olmalıdırlar?

Göründüyü kimi, feilin bütün şəkillərində xəbər üçüncü şəxsin cəmində işlənir.

Qeyri-müəyyən şəxsli cümlələrin xəbəri ədəbi dildə üçüncü şəxsin cəmində işləndiyi kimi, dialekt və şivələrdə də eyni leksik – morfoloji vasitə ilə ifadə edilir.

“Ədəbi dildəki kimi, belə cümlələrin xəbəri feilin bütün zamanları ilə və

üçüncü şəxsin cəmi ilə ifadə edilir. Onu işə yollayıblar Zazalıya".

"Hər hansı bir dilin qrammatik quruluşu öyrənilərkən onun müxtəlif yaruslarına iki cəhətdən yanaşmaq tələb olunur, bunlardan birincisi, həmin dildə mövcud olan semantik imkanların məcmusu, ikincisi isə həmin imkanları reallaşdıran müxtəlif strukturlarda ifadə edən qrammatik formalardır. Təfəkkür abstraksiyası, hissi-emosional, bir sözlə, insan ağlı ilə dərk olunmayan bütün reallıq öz maddi formasını dildə tapır" [146, s.4].

Xəbəri feilin məchul növü ilə ifadə edilən passiv cümlə konstruksiyası da mövcuddur. Məsələn,

1) Nəhayət, cinayətin üstü açıldı. 2) Elə təzəcə oturmuşduq, zəng çalındı. 3) Ölkələrarası saziş imzalandı və s.

Bu tip cümlələr semantik müəyyənliyi cəhətdən qeyri-müəyyən şəxsli cümlələrə oxşasa da, struktur xüsusiyyətləri baxımdan kəskin şəkildə onlardan fərqlənir. Belə konstruksiyaya malik cümlə tiplərini asanlıqla morfoloji deformasiya nəticəsində qeyri-müəyyən şəxsli cümlələrə çevirmək olur. Bu səbəbdən yuxarıda verilən örnəkləri aşağıdakı formada qeyri-müəyyən şəxsli cümlələrlə əvəz etmək mümkündür. Məsələn,

1) Nəhayət, cinayətin üstünü açdılar. 2) Elə təzəcə oturmuşduq, zəngi çaldılar. 3) Ölkələrarası sazişi imzalatdılar.

Bu cümlələrin semantik məzmununda qeyri-müəyyənlik mövcuddur, lakin onlar öz struktur əlamətləri cəhətdən, yəni qrammatik şəxsin müxtəlif qrammatik səviyyələrdə (leksik və morfoloji) cümlədə iştirakı baxımından fərqlənirlər.

Eyni qrammatik xüsusiyyətlərinə görə passiv cümlələr şəxssiz cümlələrə də bənzəyir. Qeyri-müəyyən şəxsli cümlələrlə morfoloji əlamətləri baxımdan fərqlənsə də, passiv cümlələr şəxssiz cümlələrə eyni əlaməti cəhətdən oxşayır. Struktur müxtəlifliyi isə bu iki cümlə konstruksiyasını quruluş əlamətinə görə bir-birindən ayırır. Belə ki, şəxssiz cümlələr adından bəlli olduğu kimi, mübtədasız təktərkibli cümlə olduğu halda, passiv tipli cümlələr isə cüttərkibli cümlələrdir.

Qeyri-müəyyən şəxsli cümlələr şəxsli cümlə ilə şəxssiz cümlələr arasında keçid təşkil edir: a) Subyektin naməlum halda canlandırılması cəhətdən şəxsli cümlələrə; b) Qaranlıq təsəvvür edilən subyektin cümlənin struktur semantikası ilə kontakta girməməsinə, yəni belə cümlə tiplərinin quruluşca qrammatik şəxssiz mövcud olması bunu şəxssiz cümlələrə oxşadır.

Qeyri-müəyyən şəxsli cümlələr tərkibində ikinci dərəcəli üzvlərin iştirakına görə, quruluşca müxtəsər və geniş olur:

a) Müxtəsər qeyri-müəyyən şəxsli cümlələr – bunlar yalnız xəbərdən ibarət olan cümlələrə deyilir. Məsələn,

1) Ələ saldılar. 2) Gözlərindən pərdə asdılar. 3) Qan qaraltmazlar.

b) Geniş qeyri-müəyyən şəxsli cümlələr xəbərlə yanaşı, ikinci dərəcəli üzvlərin də iştirak etdiyi cümləyə deyilir.

1) Ellərin-elatların üstündən illər gəlib keçdi, gözlərini açdılar, Allah adını eşitdilər. 2) Olanları, olacaqları unudub gülüşməyə başladılar. 3) Qaçanda ceyran kimi tullana-tullana qaçırdılar.

**ƏDƏBİYYAT**

1. *Bəyzadə Q.* Mətn dilçiliyi. Bakı: Qorqud, 1997, 175 s.
2. *Cəfərov N.Q.* Seçilmiş əsərləri: 5 cilddə, V c., Bakı: Elm, 2007, 315 s.
3. *İsrafilov M.M.* Məntiq kursu. Bakı: Turan, 2001, 530 s.
4. *Mirzəzadə H.* Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: ADU, 1990, 374 s.
5. Muğanna İ. İlan dərəcəsi. Bakı: Hədəf nəşrləri, 2013, 319 s.
6. *Süleymanlı M.* Üç roman. Bakı: Azərbaycan, 2004, 583 s.
7. *Севартян Э.* О некоторых вопросах структуры предложения в узбекском языке. Ташкент: ФАН, 1977, 141 с.

Redaksiyaya daxil olub 24.02.2020

*UOT 82.(091)*

***Ü.Ə.Abdullayeva***
*Xəzər Universiteti*
*ulviyya.abdulla1@gmail.com*

# ƏMİN ABİD (GÜLTƏKİN) VƏ TURANÇILIQ

***Açar sözlər:*** *Gültəkin, Əmin Abid, istiqlal, türkçülük, cümhuriyyət*

Zəngin və qədim ənənələrə malik olan ədəbiyyatımızda yaradıcılığı ilə gec tanış olduğumuz, 1990-cı illərin sonundan daha geniş araşdırılan, lakin çox zəngin bir irsə sahib olan əvəzsiz şair, tənqidçi, araşdırmaçı Gültəkin Əmin Abid xüsusi yer tutur. Məqalədə Gültəkin Əmin Abid yaradıcılığı böyük türkçü alim, türkçü şair, mühacir şair yanaşmasından araşdırılır. Şairin türkçü kimi formalaşmasında türkçülük məfkurəsinin böyük carçısı Əli bəy Hüseynzadənin "Turançılıq" ideologiyasının böyük rolu var idi. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Ziya Göyalp və b. məqalələrində Turançılıq məfkurəsini türkçülüyün yayılması üçün ən yaxşı vasitə kimi görürdü. Gültəkin Əmin Abid məhz bu ideoloqların yolunu izləyirdi. Əmin Abidin ən böyük amalı, əqidəsi Türklük olmuşdur. Türkün ayaqlanmağına, türk yurdunun talanmağına dözməyən, millətini, Vətənini canından çox sevən, vətənpərvər şairin həyatı bu yolda mübarizələrlə keçmişdir. Məqalədə toxunulan digər bir problem isə şairin cümhuriyyətdən əvvəl, cümhuriyyət dövründə və cümhuriyyətdən sonrakı yaradıcılıq yoludur. Əmin Abid üsyankar ruhlu, mübariz şair olmaqla yanaşı nəzəriyyəçi, ədəbiyyat tarixçisi, qorqudşünas və axundovşünas alim olmuşdur.

***У.А.Абдуллаева***

## АМИН АБИД (ГЮЛЬТЕКИН) И ТУРАНИЗМ

***Ключевые слова:*** *Гюльтекин, Амин Абид, свобода, пантюркизм, республика*

В нашей богатой, обладающей насыщенными старинными традициями литературе особое место занимает незаменимый поэт, критик, исследователь Гюльтекин Амин Абид, чьё богатое наследие исследовалось полностью очень поздно, с конца 1990 года. В этой статье творчество Гюльтекин Амин Абида исследуется как тюрколога-учёного, тюрколога-поэта и эммигранта-поэта. В формировании поэта как тюрколога играл большую роль Али-бек Гусейнзаде, который был вестником пантюркизма, идеологизма «Туранизм». Али-бек Гусейнзаде, Ахмед-бек Агаоглы, Зия Гёйальп и др. в своих статьях идеологию «Туранизм» считали самым продуктивным методом для распространения пантюркизма. Гюльтекин Амин Абид преследовал именно таких идеологов, как они. Пантюркизм был самой большой мечтой, идеей и деянием Гюльтекин Амин Абида. Жизнь патриотического поэта прошла в борьбе за угнетенным тюркским народом, за его разоренным и разграбленным кров и очаг, за Родину, которую

он любил больше своей жизни. В статье затрагтвается творческий путь поэта до создания Азербайджанской Демократической Республики, во время АДР и после АДР. Как борец-поэт с бунтарским духом и характером, Гюльтекин Амин Абид также был теоретиком, историком литературы, ученым, изучавшим «Деде-Коркут» и М.Ф.Ахундова.

***U.A.Abdullayeva***

**AMIN ABID (GULTEKIN) AND TURANISM**

***Keywords:*** *Gultekin, Amin Abid, independence, turkism, republic*

Gultekin Amin Abid, an invaluable poet, critic and researcher, whose work has been widely studied since the late 1990s, but has a very rich heritage, occupy a special place in our literature, which has rich and ancient traditions. The article discusses the work of Gultekin Amin Abid from the point of view of the great Turkish scientist, Turkish poet, emigrant poet. The great messenger of Turkic ideology The ideology of "Turanism" Ali bey Huseynzadeh played a big role in the formation of the poet as a Turk. Ali Bey Huseynzade, Ahmad Bey Agaoglu, Zia Goyalp and others. In his articles, he considered Turanian ideology as the best means of spreading Turkism. Gultekin Amin Abid followed the path of these ideologists. The biggest goal and faith of Amin Abid was Turkism. The life of the patriotic poet, who could not stand the rebellion of the Turks, robbing the Turkish land, who loved her people and homeland more than her life, went through this struggle. Another problem raised in the article is the poet’s creative path before, during and after the republic. Amin Abid was a rebellious, warlike poet, as well as a theorist, literary critic, scientist of fear and Akhundovsky scientist.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan xalqının milli oyanışında, əsası Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabi tərəfindən qoyulan milli maarifçilik hərəkatının, islamçılıq və qərbçilik ideyalarının davam və inkişaf etdirilməsində müstəsna rol oynamış Əli bəy Hüseynzadə özünün irəli sürüb əsaslandırdığı “türkləşmək, islamlaşmaq, avropalaşmaq” milli dirçəliş və milli istiqlal formulu ilə türkçülüyün siyasi məramnaməsini, elmi-nəzəri əsaslarını vermiş, milli tariximizdə öz əbədi imzasını atmış oldu. Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik ideologiyasına çevrilən bu üçlü formul milli bayrağımızda əbədiləşdi və həmişəlik olaraq Azərbaycan xalqının qan yaddaşına daxil oldu. Unutmamalıyıq ki, bu gün başımız üzərində əzəmətlə dalğalanan milli bayrağımızdakı üç rəngin bildirdiyi simvolik məna görkəmli mütəfəkkir Əli bəy Hüseynzadəyə aiddir.

Böyük türkçü alim, millətpərvər şair Əmin Abidin (Gültəkin) şeirlərində də istiqlal və milli bayrağa sanki bir səcdə ilə qarşılaşırıq. O, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə və başqa ideoloqların yolunu izləyir və türkü daim mübarizəyə səsləyirdi. Əli bəy Hüseynzadə kimi

ziyalıların gördüyü işlər, onların "Həyat", "İrşad", "Füyuzat" kimi mətbuat orqanlarında çap etdirdikləri məqalələr, şeirlər Əmin Abidə güclü təsir göstərir, onda milli ruh, üsyankarlıq duyğuları aşılayırdı. Müəllifin aşağıdakı misraları onun necə mübariz ruhlu şair olduğunu təsdiqləyə bilər. Müəllif azadlığın bizə hədiyyə verilmədiyini, xalqımızın onu imperializm zəncirini qıraraq əldə etdiyini yazır:

Kurtuluş... ey nazlı, sevimli peri,
Gönüldən vurğundur sana azeri.
Dişimlə kırarım bir gün gelir de
Bağrına saplanan kanlı hançeri
Yaşa ey hasretle doğan istiklal!
Yaşa ey Türk, yaşa ey güzel hilal! [7, s.25]

M.Ə.Rəsulzadə 28 may 1953-cü ildə "Azərbaycanın İstiqlaliyyət Günü" münasibətilə Amerikanın səsi radiosundan öz millətini bu məşhur, hal-hazırda dillər əzbəri olan şeirin misraları ilə təbrik etmişdir:

Sen bizimsin, bizimsin, durduqca bende can
Yaşa, yaşa, çok yaşa, ey şanlı Azərbaycan! [7, s.30]

Bu şeirin müəllifi Stalin repressiyalarının qurbanı Əmin Abid Gültəkin tərəfindən 1919-cu il 28 mayında yazılmışdır. Şeirin yazılmasından bir (1) əsr müddət keçsə də, böyükdən kiçiyə hər kəsin dillər əzbəri olan bu misralarla hər il 28 May "Müstəqillik Günü"nü bayram sevinci ilə qeyd etməyi necə də qürurvericidir.

Təəssüf ki, uzun illər haqqında çox az məlumat var idi. 1990-cı illərin sonunda alimin həyatını araşdıran tədqiqatçı, filoloq-alim Əli Şamil onun haqqında əsl həqiqətləri üzə çıxara bilib. Ölkəsində Əmin Abid, Türkiyədə isə Gültəkin kimi tanınan şair 1898-ci ildə Bakıda daşyonan ailəsində doğulub. Əsl adı Zeynalabdin, atasının adı Mütəllib, soyadı isə Əhmədov olub. İlk təhsilini III Aleksandr adına Oğlan gimnaziyasında alıb. 1919-cu ildə İstanbul darülmüəllimində təhsil almaq üçün Osmanlı İmperiyasına yola düşüb. Təhsili başa vurub Bakıya qayıdan şair Azərbaycanda qurulan yeni hökumətin icazəsi ilə təhsilini darülfünündə davam etdirmək və "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsərini yazmaq üçün yenidən İstanbula qayıdıb. Sovet hökuməti ona ayda 35 manat təqaüd verib. Təhsil müddətində Vyanada, Qəzvində, Ərzurumda, Budapeştdə də olmuşdur. Bakıya qayıtdıqdan sonra Qəzvində və Ərzurumda olduğunu gizli saxlamışdır. Əmin Abidin universitetdə oxuduğu dövr M.Ə.Rəsulzadənin İstanbula gəlməsi ilə eyni vaxta düşüb. M.Ə.Rəsulzadənin nəşr etdiyi "Yeni Qafqasiya" jurnalında şöbə müdiri olmuş, "İstiqlal uğrunda" dərgisi ilə əməkdaşlıq etmiş, "Gültəkin" imzası ilə öz şeirlərində rus işğalına məruz qalmış xalqın istiqlaliyyət ideallarını qələmə almışdır. Şair ölkədən kənarda "İstiqlal" deyə haray çəkir, xalqının azadlığa

çıxması üçün var gücü ilə mübarizə aparırdı. Türkiyədə təhsil almağa, “Azərbaycan türklərinin ədəbiyyatı tarixi” əsərini yazmağa gedən Əmin Abid Gültəkin öz poetik yaradıcılığı ilə Azərbaycan mühacirət poeziyasının əsasını qoyur. Əmin Abidin mühacirət şeirlərinin pafosunu Azərbaycan istiqlalı və bu istiqlal uğrunda canından keçməyə hazır olan gəncliyin mübarizəsi təşkil edir. Şair rəsmən mühacir deyildi, İstanbulda təhsil alıb vətəninə dönmüşdü. Əmin Abid Bakıya dönmüş, Gültəkin isə İstanbulda qalmışdır.

Əmin Abidi bir tərəfdən mühit bu cür yetişdirmişdirsə, digər tərəfdən də ondakı mübarizlik kökdən, irsdən, qandan gəlmədir. Əmin Abid və böyük qardaşı Əliabbas Müznib Bakının son hökmdarı olan Hüseynqulu xanın nəslindəndirlər. Rusiyaya qarşı barışmaz mövqe tutan, nəinki özünü, bütün nəslini də məhv olmaq təhlükəsi qarşısında qoyaraq rus generalı Sisyanovun başını qala divarları qarşısında kəsdirən bir xanın törəmələrinin yüz ildən sonra da belə üsyankar və vətənpərvər olması çox təbiidir. Əliabbas Müznibin araşdırıcısı ədəbiyyatşünas İslam Ağayevin qənaətinə görə, xan nəslindən sağ qalan tək-tük adamlardan biri Novruz adlı bir uşaq olur. O, Əmin Abidin babası olub. Babası Novruz indiki “Nizami” metrosunun yanında kiçik bir yer alaraq orada yaşayıb. O məhəlləyə “Novxanılar məhəlləsi” deyərmişlər. Rəsulzadələr də o məhəllədə yaşamış, qonşu olmuşdular.

M.Ə.Rəsulzadə “Çağdaş Azərbaycan ədəbiyyatı” əsərində Gültəkinə yüksək qiymət verərək yazır: “Millətin parlaq gələcəyinə böyük ümidlər bağlayaraq hürriyyətə susamış, mübarizə həyəcanının gərginliyini daşıyan bu igidlərin əsil qəhrəmanlığı ilə bizi həqiqi mənada tanış edən şeir bolşevik senzurasından azad olaraq mühacirətdə nəşr edilən Azərbaycan ədəbiyyatıdır. Bu ədəbiyyatda,

İstiklal, o yaşayan milletin kalbində can
İstiklal, o saadet, hayat, zefer, şeref, şan.
İstiklal, o sönməyən müebbed bir meşale
Gönüllərdə tutuşur, gözlerde sönse bile!..

deyən, Gültəkin adını daşıyan alovlu şairin yazıları xüsusi yer tutur. Gültəkinin şeirlərində biz həqiqi, milli-inqilab mübarizəsinin nəşidələrini görürük” [6, s.76-77].

Ə.Abid Gültəkin müstəqilliyi millətin canı kimi dəyərləndirir, onu əbədi məşəl hesab edirdi.

Məqalədə elmi yenilik olaraq qeyd edim ki, şairin yaradıcılığını üç dövrə ayırmaq istərdim:

I dövr – filoloq alim Əli Şamilin araşdırmalarına əsasən, 1913-1919-cu illərdə “Məktəb”, “Dirilik”, “Övraqi-nəfisə” jurnallarında Abid, Abid Mütəllibzadə, Abid Mütəllib oğlu, Abid Alp Mütəllib oğlu imzası ilə şeirlər yazdığı və 1912-1919-cu illərdə “Kəlniyyət”, “Leylək”, “Məzəli”, “Molla Nəsrəddin”, “Sovqat” “Azərbaycan” və başqa qəzet-jurnallarda şeir, məqalələr

və eləcə də, 1923-25-ci illərdə “Kommunist” qəzetində, “Gənc pedaqoq”, “Şərq qadını” jurnallarında Əmin Abid imzası ilə şeirlər, məqalələr və tərcümələr dövrü. Bu dövrü daha çox cümhuriyyətdən əvvəlki yaradıcılığı kimi qiymətləndirə bilərik. (1923-25-ci illərdə “Kommunist” qəzetində, “Gənc pedaqoq”, “Şərq qadını” jurnallarında Əmin Abid imzası ilə yazdığı üçün birinci dövrə aid etmişəm).

II dövr – Cümhuriyyətdən sonrakı dövr: İstanbulda “Yeni Qafqasiya”, “İstiqlal uğrunda” dərgilərində “Gültəkin” imzası ilə dərc olunmuş üsyankar ruhlu, döyüşkən, mübariz şeirlər yazdığı mühacirət dövrü. Şair I dövrdə intiqam almağa səslədiyi düşmənin adını çəkmirdisə, II dövrdə yazdığı şeirlərdə düşmənin Rusiya olduğunu qəzəblə göstərir və xalqı ondan intiqam almağa çağırırdı. Bu intiqam şəxsi intiqam deyil, Vətənin istiqlalı, azadlığı uğrunda bir çarpışmadır.

Şairin 1918-ci ildə yazdığı “Qılıncım və başım” şeirində düşmənə nifrəti belə əks etdirir:

Ey düşmən, əya, ləinü qəhhar,
Qorxutma bəni ölümlə, zinhar.
Vəqta ki, məmatdır həyatım,
Yoxluqla edərmi xof zatım?
Türkəm, kılıcım başında parlar. [7, s.73]

Üsyankar ruhlu Əmin Abidin 1924-cü ildə yazdığı “Bayrağım və istiklalım” şeirində isə düşmənə nifrəti açıq şəkildə göstərilir:

Azəri kanı ilə yıkandan yeter
Yaptığın Neronun zülmündən beter...
Bir zehir sunsa da, emel doğurdu
Türklüğün kalbinə vurduğun neştər.
Kaldıkca Ruslarda diyarım benim;
İntikam olacaktır şüarım benim! [7, s.25]

III dövr – Əmin Abid nəzəriyyəçi, ədəbiyyat tarixçisi, qorqudşünas və axundovşünas alim olmuşdur. Şair qorduqşünaslığın əsasını qoymuşdur. “Dədə Qorqud” dastanının Drezden nüsxəsinin surətini ilk dəfə Azərbaycana gətirən və bu əvəzsiz dastan barədə Azərbaycanda ilk elmi fikir söyləyən, bu abidəni bizdə ilk dəfə nəşrə hazırlayan da Əmin Abid olub. Təəssüf ki, Azərbaycanda nəşr etdirə bilməyib.

Əmin Abid “Füzulinin tədqiq olunmamış bir əsəri” adlı məqaləsində onun tərəfindən ilk dəfə aşkara çıxarılan “Söhbətül-əsmar” məsnəvisindən yazıb. Azərbaycan maniləri və bayatılarından, heca vəzninin tarixi, Qazi Bürhanəddin tuyuqları haqqında məlumat verir, Firdovsi, Həbibi kimi şairlərin həyatını tədqiq edir, “Molla Nəsrəddin” jurnalı barədə hadisələri xatırlayır.

Əmin Abid həmçinin axundovşünaslığın banilərindəndir və Axundov haqqında bir sıra məqalənin müəllifidir. Müəllif Axundovun yaradıcılığını

yüksək qiymətləndirmişdir: "Mirzə Fətəli yaradıcılıq dühası ilə XIX əsri əhatə edə bilmiş geniş bir aləmdir" [3, s.135].

Ədəbiyyat tarixini öyrənənlər dəfələrlə "İlk dəfə bu mövzunu Əmin Abid araşdırmışdır" yazmalı olurlar. 39 yaşında güllələnmiş türk oğluna bu qədər əsər yaratmağa güc verən Vətən məhəbbəti, xalq məhəbbəti olmuşdur:

Türk oğlu, türk oğluyam,
Millət vətən quluyam.
Düşmənin qarşısında
Vətənin zor qoluyam. [7, s.78.]

Sonda qeyd edim ki, bir çox sənətkar öz dövrünün, mühitinin yaradıcısı olub. Əmin Abid isə onlardan fərqli olaraq yaşadığı zamanla düşünməyib, yaşamayıb və yazmayıb. Onun "Türkçülük" eşqi ilə döyünən böyük ürəyi daima xalqımızın azadlığı, istiqlalı üçün mübarizə aparıb. Əmin Abidin (Gültəkin) "Turançılıq", "Türkçülük" ideologiyasına sevgisinin təzahürü kimi bəxş etdiyi əsərləri bu gün də ədəbiyyatımızda müstəsna yer tutur.

**ƏDƏBİYYAT**


1. *Dilqəm Ə.* Fərqlilər. Bakı: TEAS Press, 2015, 216 s.
2. *Əhmədli B.* Mühacirət ədəbiyyatı. Təşəkkülü, problemləri, şəxsiyyətləri . Bakı: Elm və təhsil, 2017, 376 s.
3. *Əhmədov B.* (tərtib edən). Əmin Abid. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 288 s.
4. *Xəyal S.* Bakı gülzarının bülbülləri. Bakı: MBM, 2011, 128 s.
5. *Nuri E.* Cümhuriyyət, anılar və anlar. Bakı: Zərdabi LTD, 2018, 416 s.
6. *Rəsulzadə M.Ə.* Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 112 s.
7. *Şamil Ə.* (tərtib edən). Gültəkin Əmin Abid. Buzlu cəhənnəm. Bakı: Günəş, 1999, 96 s.
8. *Şamil Ə.* "Sən bizimsən, bizimsən, durduqca bədəndə can..." kimin qələmindən çıxıb? Radio: İz mədəniyyət proqramı, mart 05, 2014


Redaksiyaya daxil olub 06.08.2020

*UOT 82-1.512.162*

***T.K.Bədəlova***
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*tehmine_b@mail.ru*

# NİZAMİ GƏNCƏVİ İRSİ VƏ "QABUSNAMƏ"

***Açar sözlər:*** *Nizami Gəncəvi, "Qabusnamə", ədəbi təsir, bədii ənənə, didaktik ədəbiyyat, ortaq mövzu və motivlər, fərqli və oxşar yanaşmalar*

XI əsr farsdilli nəsrin dünya ədəbiyyatında məşhur abidəsi – "Qabusnamə" əxlaqi-didaktik nəsihətlər, sosial problemlərin işıqlandırılması baxımından Şərq bədii-fəlsəfi ədəbiyyatının ən geniş yayılmış və özündən sonrakı yazılı irsə təsir göstərmiş, dəfələrlə üzü köçürülmüş və nəşr edilmiş, bir çox Avropa və Şərq dillərinə tərcümə edilərək ümumbəşəri sərvətə çevrilmiş örnəklərindəndir. Təbii ki, özündən əvvəl yaradılmış maddi-mədəniyyət abidələrini dərindən öyrənmiş və bu mənbələrdən yaradıcılıqla bəhrələnmiş XII əsrin dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığında müəllifin oğlunun və onun qismində də bütün gənclərin xoşbəxt həyat qurmasına yardımçı olmaq üçün qələmə alınmış "Qabusnamə"nin də mövzu və motivlərinə rast gəlmək olur. Nizami Gəncəvi irsi ilə XI əsr İran abidəsinin müqayisəli araşdırılması şairin irsinin ədəbi-estetik qaynaqları haqqındakı məlumatımızın daha da genişlənməsi üçün əhəmiyyətlidir və dahi sənətkarın özünəqədərki mədəni nailiyyətlərə dərindən bələd olduğunu, bilik və məlumat dairəsinin genişliyini, mənbələrə yaradıcı münasibətini bir daha təsdiqləmiş olur. Tədqiqat göstərir ki, "Qabusnamə" nə qədər müdrik kəlamlar və nəsihətlər toplusu olsa da, sonucda nəfs və təbii ehtiyaclara bağlı sıradan bir insan oğlunun zehninin məhsuludur. Nizami əsərləri isə fövqəlbəşər düşüncə və zəka sahibi olan, bütün bəşəriyyətin, insanlığın qayğısını çəkən mütəfəkkir filosofun təfəkküründən süzülərək qələmə alınmışdır.

***Т.К.Бадалова***

## НАСЛЕДИЕ НИЗАМИ ГЯНДЖЕВИ И «КАБУС-НАМЕ»

***Ключевые слова:*** *Низами Гянджеви, «Кабус-наме», литературное влияние, художественная традиция, дидактическая литература, общие темы и мотивы, сходные и различные подходы*

Широко известный в мировой литературе памятник персидской прозы XI века – «Кабус-наме» является одним из самых известных с точки зрения наличия морально-дидактических наставлений, постановки и освещения социальных проблем литературных образцов восточной художественно-философской мысли, а также влияния на дальнейшее письменное наследие, который, будучи многократно скопированный и опубликованный, был переведен на многие европейские и восточные языки и превратился в уникальное сокровище. Нет сомнений, что в творчестве гениального азербайджанского поэта XII века

Низами Гянджеви, который изучал материальные и культурные памятники, созданные до него, и творчески воспользовался, можно найти темы и мотивы из «Кабус-наме», который был написан чтобы помочь сыну и другим молодым людям строить счастливую жизнь. Сравнительное изучение произведений Низами Гянджеви с персидским памятником XI века имеет важное значение для расширения наших знаний о литературно-эстетических источниках наследия великого поэта, а также доказывает его глубокие знания о предшествующих культурных достижениях и творческом подходе к ним. Проведенное исследование показывает, что «Кабус-наме» – это собрание мудрых мыслей и советов, являющееся продуктом ума человека, обладавшего харизмой и природными способностями. Произведения же Низами представляют нам мысли философа, который обладал сверхчеловеческим умом и интеллектом и заботился обо всем человечестве.

***T.K.Badalova***

## LEGACY OF NIZAMI GANJAVI AND "QABUS NAMA"

***Keywords**: Nizami Ganjavi, "Qabus nama", literary influence, artistic tradition, didactic literature, common themes and motives, similar and different approaches*

The famous monument of the XI century Persian prose in the world literature - "Qabus nama" is one of the most widespread samples of Eastern artistic-philosophical literature in terms of moral and didactic advice, social problems and influenced the written heritage that followed, copied and published many times, translated into many European and Eastern languages, and has become a universal treasure. Of course, in the creativity of genius Azerbaijani poet Nizami Ganjavi of the XII century who studied the material and cultural monuments created before him and creatively benefited from these sources, it is possible to come across the themes and motives of "Qabus nama" written to contribute the author's son and all young people to live happy life. A comparative study of Nizami Ganjavi's heritage with the Persian monument of the XI century is essential for expanding our information about literary-aesthetic sources of poet's legacy and it proves genius poet's deep knowledge of cultural achievements until his time, and creative approach to these sources. The study shows although "Qabus nama" is the collection of wise words and advice, as a result it is the product of the mind of human being who has the passion and natural needs. However works by Nizami were written through the thinking of a philosopher who had a superhuman mind and intellect and cared for all mankind.

Erkən orta əsrlərdə Yaxın Şərqdə mədəniyyətin – ədəbiyyat, elm və incəsənətin inkişafında müşahidə olunan xüsusi canlanmanın, söz və sənət sahiblərinin saraylara toplanması və himayə olunmasının bir çox əsaslı sosial-siyasi səbəbləri – "əbədilik" iddiasında olan, adını tarixə yazmaq istəyən hökmdarların yürüş və istilalarının mədhi, daxili islahatların qələmə alınıb

gələcək nəsillərə ötürülməsinin vacibliyi, hakimlik şan-şöhrətinin geniş yayılması, tarixi salnamələrin yaradılması, ayrı-ayrı sultanların adlarına kitabların bağlanması, çox vaxt özləri də şairlik edən hökmdarların elm və şeirə marağı və s. olsa da, nəticədə, minillər boyunca yaşayan, yarandığı dövrün ensiklopedik məlumat mənbəyi, mənəvi-əxlaqi dəyərlərinin daşıyıcısı kimi qiymətli qaynaq olmaqla yanaşı, bütün zamanların ədəbi örnəklərinin bədii-estetik bünövrəsini təşkil edən misilsiz nümunələrin yaranmasına şərait yaratmış oldu.

XI əsr farsdilli nəsrin dünya ədəbiyyatında məşhur abidəsi – "Qabusnamə" əxlaqi-didaktik nəsihətlər, sosial problemlərin işıqlandırılması baxımından Şərq bədii-fəlsəfi ədəbiyyatının ən geniş yayılmış və özündən sonrakı yazılı irsə təsir göstərmiş, dəfələrlə üzü köçürülmüş və nəşr edilmiş, bir çox Avropa və Şərq dillərinə tərcümə edilərək ümumbəşəri sərvətə çevrilmiş örnəklərindəndir. "Qabusnamə"nin tədqiqi və nəşri ilə məşğul olan alimlərin – Aqafangel Krımski, Səid Nəfisi, Yevgeni Bertels, Rəhim Sultanov və başqalarının əsərin müəllifi və yazılma tarixi ilə bağlı müxtəlif fikirləri olsa da, onu Ziyarilər xanədanının sonuncu hökmdarı Ünsürülməali Keykavusun 1082/83-cü illərdə oğlu Gilanşaha nəsihətnamə kimi yazdığı qəbul edilmişdir. Əsərin Azərbaycan dilinə tərcüməçisi professor Rəhim Sultanov "Qabusnamə"nin səciyyəsini qısa və dəqiq şəkildə ifadə edərək yazır: *"Qabusnamə" dünyanın acı-şirinini dadmış, isti-soyuğunu, ara vermədən bir hökmdarın taxta çıxaraq başqa birisinin şahlığı itirdiyini görmüş, müxtəlif təriqətlər, dini çarpışmalar, saray çəkişmələri, ticarət hiyləgərlikləri, insan dəllallığı, qul alveri şahidi və iştirakçısı olmuş qoca bir atanın öz oğluna vəsiyyəti – nəsihət kitabıdır"* [9, s.4].

Keykavus, özünün də müqəddimədə qeyd etdiyi kimi, kitabı qırx dörd fəslə bölmüş, hər fəsildə həyat, yaşayış üçün gərəkli hesab etdiyi müəyyən bir mətləbdən bəhs etmiş, yeri gəldikcə, fikirlərini təsdiqləyən, mövzu ilə əlaqədar başına gələn, bəzən də eşidib-bildiyi əhvalatlardan ibrətamiz misallar gətirmişdir. Oğlunun gələcəyindən nigaran olan ata həyat təcrübəsindən çıxış edərək qələmə aldığı kitabın eyni zamanda bütün gənclərin və öyüd-nəsihət eşitmək istəyən hər kəsin gərəyi olacağına inanır. Bu baxımdan müəllifin nəsihətləri arasında belə bir qeydi diqqəti çəkir: *"Sən (yəni oğlu – T.B.) mənim dediklərimdən yaxşı fayda götürə bilməsən də, elə adamlar tapıla bilər ki, onlar dəyərli sözlərə qulaq asıb, ona əməl etməyi qənimət* sayarlar" [3, s.19]. Və ya: *"...mənim bu nəsihət və öyüdlərimə canla-başla qulaq as və elə də et. Qulaq asmayıb qəbul etməsən, məcburi deyil. Allah kimi xoşbəxt yaradıbsa, o oxuyub anlayar, çünki buradakıların hamısı hər iki dünyanın xoşbəxtləri üçün yazılmışdır"* [3, s.194].

Təbii ki, özündən əvvəl yaradılmış maddi-mədəniyyət abidələrini dərindən öyrənmiş və bu mənbələrdən yaradıcılıqla bəhrələnmiş XII əsrin dahi

Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığında müəllifin oğlunun və onun qismində də bütün gənclərin xoşbəxt həyat qurmasına yardımçı olmaq üçün qələmə alınmış "Qabusnamə"nin də mövzu və motivlərinə rast gəlmək olur. İran abidəsinin şairin yaradıcılığa başladığı dövrdən təxminən bir əsr əvvəl yaranıb məşhurlaşmasını və əsərdə də göstərildiyi kimi, müəllifin bir neçə il Nizaminin doğma yurdu Gəncədə qaldığını [3, s.44] nəzərə alsaq, gəncəli müdrikin "Qabusnamə" ilə tanışlığı və ümumi yaradıcılıq qayəsinə uyğun gələn bu mənbədən faydalanması tamamilə mümkün və təbii görünər. Təsadüfi deyil ki, professor Rəhim Sultanov Şərq abidəsinin nəşri və tədqiqi ilə məşğul olan İran alimi Səid Nəfisiyə istinadən onun təsir etdiyi ədəbi nümunələrin adlarını sadalayarkən əlavə heç bir məlumat vermədən Nizaminin "Xosrov və Şirin" əsərinin də adını çəkmişdir: *"...Sənai Qəznəvi (bir hekayəni olduğu kimi nəzmə çəkmişdir) "Hədiqətül-həqiqə", Məhəmməd Ovfi – "Cəvameül-hekayat", Qazi Əhməd Qəffari – "Nigaristan", Nizami Gəncəvi "Xosrov və Şirin", Fəridəddin Əttar Nişaburi – "Əsrarnamə" və "Məntiqüt-teyr", İbn İsfəndiyar – "Tarix-e Təbəristan", Xosrov Dəhləvi "Mətləül-ənvar", Əbdürrəhman Cami – "Silsilətüz-Zəhəb", Məcdəddin Məhəmməd Hüseyni Məcdi – "Ziynətül-Məcalis" və Məhəqqiq Səbzəvari adı ilə məşhur olan Məhəmməd Bağır "Rövzətül-ənvar" əsərində "Qabusnamə"dən geniş istifadə etmiş"*lər [3, s.11]. Əlbəttə, belə geniş təsirin səbəblərindən biri də əsərdəki tarixi hadisələrə işarələr, bir çox Şərq və antik dövr alim və filosoflarının fikirlərinə istinadlar, kitabın "məktub-nəsihət" çərvivəsindən çıxaraq dövrünün tarixi mənbəsinə çevrilməsidir.

Maraqlıdır ki, Nizami Gəncəvi irsinin bədii-estetik qaynaqlarından bəhs edən görkəmli nüzamişünaslar – Həmid Araslı, Qəzənfər Əliyev, Qulamhüseyn Beqdeli, Azadə Rüstəmova, Xəlil Hüseynov, Xəlil Yusifli, Nüşabə Araslı, Teymur Kərimli, Mehdi Kazımov, Zəhra Allahverdiyeva və başqaları Nizami Gəncəvi yaradıcılığı ilə Şərqin bir çox məşhur söz-sənət abidələri və folklor nümunələri – "Qurani-Kərim", "Kəlilə və Dimnə", "Min bir gecə nağılları", Nüzamülmülkün "Siyasətnamə" əsəri, Sənainin "Hədiqətül-həqiqə", Firdovsi, Xaqani və şairdən əvvəl yazıb-yaratmış digər sənətkarlar, eləcə də dini rəvayət və əsatirlər, Azərbaycan nağıl və əfsanələri və s. ilə əlaqələrindən geniş və əhatəli bəhs etsələr də, "Qabusnamə" ilə uzlaşan məqamlarından danışmamışlar. Bəlkə də bu, birbaşa əlaqələrin, mövzu, süjet eyniliyinin qabarıq olmamasından irəli gəlmişdir. Lakin "Qabusnamə"də toxunulan məsələlərə Nizami əsərlərində də münasibətə və hətta "bədii həll" yollarının kəsişməsinə rast gəlirik. Məsələn: Allahın birliyinə və yeganə Yaradan olmasına, əbədi və əzəliliyinə, Peyğəmbərin Tanrının tanınması və insanlara bilmədiklərini öyrətmək üçün göndərildiyinə inam, eşq, sənətkarlıq, əmanətə sədaqət, sufiliyin keyfiyyətləri, münəccimlik və ulduzlara dair biliklər, şahlıq, vəzirlik, rəiyyətlik, ticarət işləri, sənət öyrənmək, övlad tərbiyə etməyin

qaydaları, ədalət, söz sənətinə, musiqiyə münasibət, bir çox peşələr – məsələn, hakimliyə dair fikirlər, dövlət adamları ilə dostluq etməyin nəticələri və s. Təbii ki, sadalanan məsələlərə "Qabusnamə" müəllifi ilə Nizaminin münasibətlərində, problemin həlli yollarının axtarışında fərqli məqamlar da vardır və olmalıdır. Çünki birinci bir feodal-zadəgan, hökmdar baxışının məhsulu, onun doğru bildikləri, "özünə bəyəndikləri" idisə, şairin yaradıcılığı bir mütəfəkkirin, bəşəri ideallar və amallar carçısı, humanizm fəlsəfəsinin Şərq ədəbiyyatında tamamamilə fərqli və orijinal sistemini işləyib təqdim etmiş filosofun görüşləri, fikirləri idi. Bu baxımdan xüsusi qeyd etmək lazımdır ki, dahi şair bütün yaradıcılığı boyu zəhmətkeşliyi, nəfsinə hakim olmağı, bir tikə çörək üçün heç kimin qarşısında alçalmamağı təbliğ edirdisə, "Qabusnamə"də feodal əxlaqından doğan, "həyata, maddiliyə aludəlik", hansı yolla olursa-olsun maddi rifahı təmin etmək üçün lazım gələrsə, hər cür saxtakarlıqdan çəkinməmək və s. kimi "nəsihətlərə" də rast gəlinir. Məsələn: *"Öz istedadınla qürrələnmə, dolanmaq üçün ağılsız və istedadsız olmaq lazımsa, ağılsız və istedadsız ol"* [3, s.37]; *"Kimə ehtiyacın varsa, özünü ona qarşı nökər və qul kimi apar"* [3, s.122] və s. Yəni "Qabusnamə" nə qədər müdrik kəlamlar və nəsihətlər toplusu olsa da, sonucda nəfs və təbii ehtiyaclara bağlı sıradan bir insan oğlunun zehninin məhsuludur. Nizami əsərləri isə fövqəlbəşər düşüncə və zəka sahibi olan, bütün bəşəriyyətin, insanlığın qayğısını çəkən mütəfəkkir filosofun təfəkküründən süzülərək qələmə alınmışdır. Bu faktın özü də, şairin xələflərinin və nizamişünasların da etiraf etdikləri kimi, Nizami kəlamının ilahiliyindən xəbər verir. Necə ki, XVI əsr şairi, Nizami ədəbi məktəbinin davamçılarından olan, üç beşlik müəllifi Əbdi Bəy Şirazi şairin doğrunu, gerçəkliyi bəyan edən "nəzm qələmini" "həkimin (Allahın) xəzinəsinin qapısının açarı" adlandırmışdı:

**خامهٔ نظمش ببیان سلیم**        **هست کلید در گنج حکیم** [14, s.34]

*(Sağlam (məntiqli) bəyanı ilə şeirinin qələmi Həkimin xəzinəsinin qapısının açarıdır).*

Akademik Teymur Kərimli də bunu özünəməxsus incəliklə ifadə edərək yazır: *"İlahi hikmət qarşısında şairin (Nizaminin) ağlı heyran qaldığı kimi, biz də Nizami təfəkkürünün və sənətinin sirləri qarşısında hələlik yalnız heyranlığımızı bildirməklə kifayətlənirik"* [2, s.16].

Lakin təqdirəlayiqdir ki, hakim sinfin nümayəndəsi olan "Qabusnamə" müəllifi zorakılığı pisləyir, ona qarşı çıxır, hətta kobudluğu belə, zorakılıq kimi qəbul edərək oğlunu bu hərəkətdən çəkindirir. Əsərin səciyyəvi xüsusiyyətylərindən bəhs etmişkən bir məqamı da diqqətə çatdırmaq istərdik. Abidədə müxtəlif xalqların nümayəndələri, onlara xas keyfiyyətlər, müsbət və mənfi cəhətlər haqqında da fikirlər vardır və bu fəsildə müəllifin türklər barədə dedikləri rəğbət doğuran mülahizələr diqqəti çəkir. Müəllif yazır: *"Türklərin*

*gözəllikləri ümumi görünüşlərindən məlum olar, onların yaxşı cəhətlərini tərif, pis cəhətlərini tənqid etməkdən bir şey çıxmaz. ...çəldlikdə türklərə çatan olmaz, türklərin nəyi gözəldirsə – ən gözəldir, nəyi pisdirsə – ən pisdir. ...Gecələr daha cürətli olarlar, gecə göstərdikləri şücaəti gündüzlər göstərə bilməzlər. Onların ən üstün cəhəti odur ki, çox igiddirlər, qorxmadan, açıqdan açığa düşmənçilik edər, tapşırılan bütün işləri hərisliklə yerinə yetirərlər"* [3, s.96] və s.

"Qabusnamə" ilə Nizami yaradıcılığının kəsişmə nöqtələrindən biri Tanrıya münasibətdə ağıl və insan zəkasına verilən qiymətdə özünü göstərir. İran abidəsində də Yer üzündəki hər şeyin bir izahı olduğu halda, təkcə Allahın dərk edilməzliyinə, Tanrının yaratdıqlarında təcəssümünə və yalnız yaradılmışı ağıl vasitəsilə dərk etməklə Tanrını dərk etməyin mümkünlüyünə inam diqqəti çəkir: *"Ey oğul, bil və agah ol ki, dünyada olan, olmayan və ola bilən hər nə varsa, hamısını olduğu kimi adam dərk edə bilər, yalnız o böyük Yaradandan başqa. ...Ona görə də sən özünə bax, yaradana baxma. Sən yaradılmışa diqqət et ki, Yaradanı əql ilə dərk edə biləsən"* [3, s.21].

Eyni fikirlərlə Nizami Gəncəvi əsərlərində, xüsusilə də məsnəvilərin Tovhid hissələrində qarşılaşırıq. Məsələn, "Məxzənül-əsrar"dan gətirilən parçaya diqqət edək:

پرورش آموختگان ازل
مشکل این کار نکردند حل
کز ازلش علم چه دریاست این
تا ابدش ملک چه صحراست این
[11, s.2]

*Əzəldən tərbiyə almış kəslər belə*
*Bu işin düyününü aça bilmədilər.*
*Əzəldən onun elmi nə (nəhayətsiz) dərya imiş,*
*Onun mülkü nə sonsuz səhra imiş.* [4, s.19]

Şair hətta Tanrının elçiləri olan peyğəmbərlərin belə, Onun mahiyyətinin sirlərini açmaqda aciz qaldıqlarını, Onun elminin və hökmranlığının sonsuzluğunu özünməxsus tərzdə ifadə etmişdir.

Peyğəmbərin Allahın hikmət və qanunlarını insanlara öyrətmək üçün göndərilməsi fikri "Qabusnamə"də bir neçə yerdə təkrar edilir. Nizamidə də bənzər fikirlərlə rastlaşırıq.

راهروان سحری را تو ماه
یاوگیان عجمی را تو راه
ره به تو یابند و تو ره ده نه‌ای
مهتر ده خود تو و در ده نه‌ای
[11, s.21]

*Sən səhər yolçuları üçün Aysan,*
*Sən Əcəm şahlarının şahısan.*
*Sən onlara yol vermirsən, (lakin) onlar yolu sənə gör tapırlar,*
*Sən kəndxudasan, lakin kənddə deyilsən.* [4, s.40]

Əlbəttə, müsəlman Şərqində yaranan əsərlər üçün göstərilən bu kimi fikirlərin üst-üstə düşməsində elə də təəccüblü bir hal yoxdur və Nizaminin həmin fikirləri mütləq şəkildə hansısa konkret bir əsərdən faydalanaraq qələmə aldığını da hökm kimi söyləmək doğru olmazdı. Odur ki, bu misallar üzərində dayanmayıb Nizami yaradıcılğı ilə "Qabusnamə"ni bağlayan konkret məqamlara keçmək daha məqsədəuyğundur.

Bu baxımdan İran abidəsindəki söz, elm və bilik öyrənmək, ədalətli olmaq, şahlarla dostluq etmək haqqındakı fikirləri xüsusilə qeyd etmək lazımdır.

Kitabdan göründüyü kimi, dövrünün elmlərinə, söz sənətinə yiyələnmiş ata oğluna da elmin yollarını tapmağı, hər bir təcrübədən, hətta nadanların əməllərindən də "qəlbin gözü və ağlın nəzəri ilə" nəticə çıxarmaqla bilmədiklərini öyrənməyi məsləhət görür: *"Elm və sənət öyrənmək, istər böyük olsun, istərsə kiçik, hamıya vacibdir, çünki insan öz tay-tuşları arasında üstünlüyü yalnız elm və sənətə görə əldə edə bilər"* [3, s.38]. Yalnız elmlə üstünlük əldə etməyin mümkünlüyünə dair bu fikirlər Nizaminin "İqbalnamə" əsərində yer alan eyni məzmunlu, Mikayıl Rzaquluzadənin poetik tərcüməsində aforizmə çevrilmiş "*Elmlər, hünərlə! - Başqa cür heç kəs heç kəsə üstünlük eləyə bilməz"* [8, s.37] məşhur beyti yada salır:

**نجوید کسی بر کسی برتری**
**مگر کز طریق هنر پروری**
**ز هر پایگاهی که والا بود**
**هنرمند را پایۀ بالا بود** [15]

*Bizim nəzərimizdə alim qiymətlidir*
*Hünərpərvərlik (burada: elmə bələd olmaq) yolu müstəsna olmaqla,*
*Heç kəs heç kəsdən üstün olduğunu axtarmamalıdır*
*Hər uca rütbədən alimin rütbəsi daha ucadır.* [7, s.446]

Şərqdə yaranan klassik əsərlərin hər birində rast gəldiyimiz, sözün ilahi başlanğıcına inam, yersiz danışmağın, yalan söyləməyin ziyanlarına dair müdrik fikirlərə "Qabusnamə"də də tez-tez rast gəlirik: *"Nə sənətin sahibi olursan ol, ancaq sözü yerində deməyi bil, çünki yersiz deyilən söz nə qədər gözəl olsa, yenə də çirkin görünər. Faydasız sözlərdən qaç, çünki faydasız*

*sözlərdən həmişə ziyan gələr. Yalan iyi verən və hikmət ətri saçmayan sözlər deyilməsə, daha yaxşıdır”* [3, s.34].

Eyni fikirlərin Nizami düşüncəsindən süzülüb gələn poetik ifadəsinə “Xosrov və Şirin” əsərində də rast gəlirik:

چو بتوان راستی را درج کردن        دروغی را چه باید خرج کردن
ز کژ گوئی سخن را قدر کم گشت        کسی کو راستگو شد محتشم گشت

[12, s.32]

*Amma düzlüyü yazmağı bacarırsansa,*
*Bir neçə yalanı xərcə vermək nəyə gərək?*
*Yalan deməklə sözün qədri azaldı,*
*Kim doğru danışsa, şöhrəti ucalır.* [5, s.48]

Və yaxud az danışmağın gözəlliyinə dair “Qabusnamə”dəki aşağıdakı fikirlərə diqqət edək: *“Çox bilən, lakin az danışan ol, az bilib çox danışan olma. Deyiblər ki, susmaq salamatlığa, çox danışmaq isə ağılsızlığa bərabərdir. Çox danışan adam ağıllı olsa da, onu ağılsız hesab edərlər, az danışan ağılsız olsa da, az danışdığı üçün camaat onu ağıllı hesab edər”* [3, s.47].

Bütün əsərlərində insanın zəka və düşüncə baxımından ən yüksək pillədə qərar tutmasını müxtəlif süjet və hekayətlər daxilində əyani nümunələrlə göstərən Nizami Gəncəvi canlılar içərisində yalnız insana əta olunmuş nitqin gözəlliyinə, lakonikliyinə və səlisliyinə də xüsusi diqqət yetirmiş, artıq, yerinə düşməyən sözün insanı hörmətdən saldığını, bu səbəbdən də özünə sayğı duyan hər kəsin ilk növbədə danışığına, seçdiyi sözlərə fikir verməli olduğunu əsərlərində qeyd etmişdir:

سخن کم گوی تا بر کار گیرند        که در بسیار بد بسیار گیرند
ترا بسیار گفتن گر سلیم است        مگو بسیار دشنامی عظیم است

[12, s.31]

*Sözü az de, qoy vecə gəlsin,*
*Çox olsa, ona çox (irad) tutarlar.*
*Sənə çox demək asan olsa da,*
*“Çox demə” desələr, böyük qəbahətdir.* [5, s.47]

Nəsrlə nəzmin növbələşdiyi “Qabusnamə”də müəllif bəzən fikirlərinin doğruluğunu təsdiləyən özünün və ya digər sənətkarların şeirlərindən nümunələr də verir. Bu bədii örnələrdən biri də məhz qısa sözün gözəlliyinə aiddir:

*Hikmətə bax, gör nə demiş atalar:*
*“Qisa sözdə olar dərin mənalar!”* [3, s.159]

Sirr saxlamağın vacibliyinə dair "Məxzənül-əsrar"dakı "Sirr saxlayan ilə Cəmşidin dastanı" adlı on səkkizinci hekayətdə oxuduğumuz –

پیر زنش گفت مبر نام کس
همدم خود هم دم خود دان و بس
هیچ کسی محرم این دم مدان
شایه خود محرم خود هم مدان

[11, s.223]

*Qarı ona dedi: "Heç kimin adını çəkmə,*
*Özünə yalnız öz dəmini (nəfəsini) həmdəm et.*
*Heç kəsi bu dəmin məhrəmi hesab etmə,*
*Hətta öz kölgəni belə özünə məhrəm hesab etmə..."* [4, s.216]

- öyüd-nəsihət dolu beytlərdə səsləndirilən fikir "Qabusnamə"dəki *"...özündən başqa heç kəsə sirr demə, desən, onu artıq sirr hesab etmə"* [3, s.46] cümləsinin məzmunu ilə yaxından səsləşir.

Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərindəki "İt saxlayan padşah" hekayəsi çox məşhurdur. Professor Xəlil Yusifli həmin hekayə haqqında yazır: *"Çox vaxt bu hekayə əsərin əsas mövzusu ilə o qədər də bağlı olmayan bir əlavə kimi şərh olunur. Əslində isə həmin hekayə əsərin ideyası ilə birbaşa əlaqəlidir və ancaq dövrün şahlarının zülmkarlığını tənqid etmək üçün qələmə alınmış bir hekayə deyil; on il şaha sədaqətlə xidmət eləyən, ancaq sonra şah tərəfindən quduz və yırtıcı itlərə atdırılan gənc əslində Məcnundur. Çöldə Məcnunla dost olan, ona toxunmayan, əksinə, onu qoruyan vəhşilər isə həmin quduz itlərdir"* [10, s.9-10]. Təbii ki, Nizaminin məqsədi Məcnunun halının hərtərəfli təsviri, ilahi eşq yolunda usanmadan, bezmədən çəkdiyi cövrü cəfanın böyüklüyünü göstərmək olsa da, hər halda şairin fikrini çatdırmaq üçün seçdiyi hekayət ibrətamizdir və onun həyat amalını, şəxsi təcrübəsini, özünün də şahlardan, saraylardan uzaq durmasının bir növ səbəblərini açıb görtərmiş olur.

Maraqlıdır ki, özü hakim təbəqədən olan və ata-babaları uzun müddət hökmranlıq etmiş Keykavus da oğluna nəsihətlərində şahlardan uzaq durmağı məsləhət görür: *"Bil, ey oğul, əgər təsadüf səni gətirib şah sarayı adamları içərisinə çıxarsa, sən ona xidmət etməli olsan və şah sənə yaxınlaşmaq istəsə, bu, sənin gözünü tutub başını gicəlləndirməsin, ondan uzaqlaşmağa çalış... Şah hansı gün sənə desə ki, arxayın ol, sənə zaval yoxdur, sən o günü daha çox qorx"* [3, s.152]. Təsadüfi deyil ki, professor Rəhim Sultanov əsəri həm də *"Ziyarilər xanədanının son nümayəndəsinin son sözü, özünüifşa məktubu"* [9, s.13] adlandırır.

Nizami, demək olar ki, bütün əsərlərində söz sənətinin əsas qaydaları, şeir qoşmağın məziyyətləri, şairliyin əsas keyfiyyətlərini xırdalamış, ən kiçik

detalları təhlilə çəkmişdir. Akademik Teymur Kərimlinin də qeyd etdiyi kimi, *"Nizami Gəncəli yetkin bir alim-şair kimi, mütəfəkkir, filosof-sənətkar kimi ədəbiyyatda, söz sənətində yeni üslub, yeni şivə yaratdığını, şeirə necə bir dəyər qazandırdığını çox gözəl bilirdi və bunun elmi-nəzəri əsaslarını da istedadlı bir ədəbiyyatşünas, şeirşünas kimi oxucunun diqqətinə çatdırırdı"* [1, s.19]. Dünyanın söz vasitəsilə var olması məsələsinə toxunan şair sözdən daha çox "ədəbi-nəzəri kateqoriya" kimi bəhs etmiş, "Söz qoşmağın fəzilətini", "ölçülü sözün, yəni nəzmin ölçüsüz sözdən, yəni nəsrdən daha üstün olmasını" incələmişdir.

**نکته نگهدار ببین چون بود**
**نکته که سنجیده و موزون بود**
**قافیه سنجان که سخن برکشند**
**گنج دو عالم به سخن درکشند**

[11, s.42]

*(Bu) incə fikri yadında saxla, gör ki,*
*İncə fikir ölçülüb mövzun olanda (necə olar).*
*Sözü ucaldan qafiyəsənclər*
*Hər iki aləmin qafiyəsini sözə çəkərlər.* [4, s.63]

Şairin bu fikirləri "Qabusnamədə"ki *"...nəsrdə işlənən sözləri şeirdə işlətmə, nəsr rəiyyətdir, şeir şah"* [3, s.147] mülahizəsi ilə tam üst-üstə düşür. Şeir yazmağın qaydalarını incələyən müəllifin əruzun bəhrləri və onların xüsusiyyətlərindən bəhs etməsi, ayrı-ayrı poetik terminləri yerində işlətməsi, şeir şəkillərinin səciyyəvi məziyyətlərini izah etməsi onun poeziyadan, sözün əsl mənasında, xəbərdar olduğunu göstərir.

"Qabusnamə"də müəllif "Qocalıq və cavanlıq qaydaları haqqında"kı fəsildə otuz yaşdan başlayaraq ömrün mərhələlərinə (bir növ vücudnamə kimi) "qiymət verir" və bunları bir kitabdan oxuduğunu bildirir: *"Adam otuz dörd yaşına qədər hər gün boyca və qüvvətcə artar, otuz dörddən qırx yaşa qədər olduğu kimi qalar, artıb əksilməz (Günəş də zirvəyə çatdıqda batana qədər yavaş hərəkət edir), qırxdan əlliyə qədər hər il keçmiş ilə nisbətən özündə daha çox zəiflik hiss edər, əllidən altmışa qədər hər ay keçmiş aylara nisbətən daha çox zəifləməyə başlar, altmışdan yetmişə qədər hər həftə keçən həftəyə nisbətən daha çox gücdən düşər, yetmişdən səksənə qədər hər gün özünü dünənə nisbətən daha pis hiss edər. Əgər səksəndən çox yaşasa, saatbasaat dərdi və əziyyəti artar"* [3, s.57].

Məlumdur ki, Nizami Gəncəvinin "Xosrov və Şirin" məsnəvisinin "Kitab üçün üzr" hissəsində qəlbə yaxın dostu şairin qələmə aldığı Şirin dastanından bir parçanı dinlədikdən sonra onun sənətinə, qələminin gücünə

heyranlığını bildirir, lakin təvazökar şair bu təriflərdən heç də xoşlanmayıb Tanrının yaratdığı adi bir bəndə olduğunu, onun da ömrünün bir gün sona yetəcəyini və vaxtı gələndə bu fani dünyadan köçünü çəkəcəyini söyləyir. Nizami bu hissədə, eynilə "Qabusnamə"də olduğu kimi, ömrün pillələrini, yaş dövrlərini hər birinin özünəxas xüsusiyyətləri ilə təsvir edir. Həm də maraqlıdır ki, şair də İran abidəsində olduğu kimi, "vücudnamə"yə iyirmi-otuz yaşlardan başlayır.

**چو عمر از سی گذشت یا خود از بیست　　نمی شاید دگر چون غافلان زیست**
**نشاط عمر باشد تا چهل سال　　چهل ساله فرو ریزد پر و بال**
**پس از پنجه نباشد تندرستی　　بصر کندی پذیرد پای سستی**
**چو شصت آمد نشست آمد پدیدار　　چو هفتاد آمد افتاد آلت از کار**
**به هشتاد و نود چون در رسیدی　　بسا سخنی که از گیتی کشیدی**
**وز آنجا گر به صد منزل رسانی　　بود مرگی به صورت زندگانی**
**اگر صد سال مانی ور یکی روز　　بباید رفت ازین کاخ دل افروز**

[12, s.38]

*Ömür iyirmidən və ya otuzdan ki, keçdi,*
*Daha qafillər kimi yaşamağa yaramaz.*
*Ömrün şadlığı qırxillədək olur,*
*Qırx yaşında qol-qanad tökülür.*
*Əllidən sonra sağlamlıq olmaz,*
*Göz kütləşər, ayaq susdalar.*
*Altmış ki çatdı, oturmaq vaxtıdır.*
*Yetmiş olan kimi alət işdən düşür,*
*Səksənə, doxsana elə ki yetdin,*
*Dünyadan çoxlu məşəqqətlər görərsən.*
*Əgər oradan mənzili yüzə çatdırsan,*
*Zahirən diri olsan da, ölü kimisən.* [5, s.53]

"Qabusnamə"də xüsusi ehtiramla bəhs edilən peşələrdən biri də həkimlikdir. Dövrünün əsas xəstəliklərini və onların zahiri görünüş, nəbs, ifrazat və s. kimi əlamətlərə görə "növünün, səbəbinin" təyin edilməsi qaydalarını, müalicə yollarını göstərən Keykavus fəslin sonunda yazır: *"Bu barədə ona görə çox danışıram ki, mən bu tibb elmini həddindən artıq sevirəm. Çünki faydalı elmdir. Ona görə bu barədə çox danışdım"* [3, s.141]. Professor Rəhim Sultanov Keykavusun həkimliyə xüsusi rəğbətinin maraqlı izahını verir: *"Yəqin burada Şəmsülməali ("Qabusnamə" müəllifinin babası – T.B.) sarayında özünə sığınacaq tapmış İbn Sinanın şöhrəti və təsiri də böyük rol oynamışdır"* [9, s.15].

Maraqlıdır ki, müəllif qədim yunan təbiblərinin, 10-dan çox tibb kitabının adını çəkir, onların ayrı-ayrı fəsillərinin nədən bəhs etdiyini səliqə ilə sadalayır. O, oğluna peşələrdən, tibb elmindən danışmağa başlayarkən mövzuya Peyğəmbərin *"Elm ikidir: din elmi, bədən elmi"* [3, s.135] fikri ilə keçid edir. Nizami Gəncəvi də "Leyli və Məcnun"da oğluna sənət seçməyi məsləhət görərkən eyni fikri daha poetik şəkildə ifadə edir:

**در ناف دو علم بوی طیب است          و ان هر دو فقیه یا طبیب ا**
**گر هر دو شوی بلند گردی...          پیش همه ار جمند گردی**

[13, s.39-40]

*İki elmin göbəyində xoş ətir (mişk) var,*
*Hər ikisi ya fəqih – ruhani alim, ya təbibdir.*
*...Hər ikisi (fəqih və təbib) olsan, yüksələrsən!*
*Hamının yanında qiymətli olarsan.* [6, s.70]

Şair oğluna nəsihət edərkən yaxşı həkimi insanlara can verən İsa ilə müqayisə edir:

**می باش طبیب عیسوی هش          اما نه طبیب آدمی کش**

[13, s.40]

*İsa nəfəsli təbib ol!*
*Adam öldürən təbib olma.* [6, s.70]

Məlum olduğu kimi, Nizami Gəncəvinin "Məxzənül-əsrar" məsnəvisində "İki həkimin hekayəti"ndə (on ikinci məqalətin hekayəti) bu peşə sahibinin xalqa fayda verə bilməsi üçün, elmi ilə yanaşı, dürüst əxlaqının və saf qəlbinin olmasını illüstrativ şəkildə oxucusuna çatdıra bilmişdir. Qeyd edək ki, bəzən buradakı "həkim" sözünü "filosof" kimi qəbul edənlər də vardır. Lakin fikrimizcə, bir halda ki, hekayətdə söhbət zəhər hazırlamaqdan gedir, demək, şair burada məhz sözün birbaşa mənasında "təbib"i nəzərdə tutmuşdur.

"Qabusnamə"də "Əmanət saxlamaq haqqında" ayrıca fəsil var. Müəllif burada müasir ədəb-əxlaq normaları baxımından da olduqca dəyərli fikirlər səsləndirir: *"Cavanmərdlik və kişilik ondadır ki, əmanəti qəbul etməyəsən, qəbul etsən, qoruyub sağ-salamat sahibinə qaytarasan"* [3, s.91]**.** Bu və əmanət saxlamağa, verməyə aid bu kimi digər fikirləri, hekayətləri oxuduqca göz önündə istər-istəməz Nizami Gəncəvinin "Məxzənül-əsrar" məsnəvisindəki "Xain sofu və hacının dastanı" canlanır.

Nizami Gəncəvi irsi ilə İran abidəsini birləşdirən ortaq motivlərdən biri də ədalətə çağırış və zülmün pislənməsidir. Dahi şairin yaradıcılığının əsas qayəsini təşkil edən və əsərdən əsərə inkişaf etdirilən adil hökmdar obrazı,

dövlətin ədalətlə idarə edilməsi, xalqa zülm edən məmurların kəskin ifşası və s. məhz ən çox öyrənilən, haqqında yazılan mövzulardandır. Odur ki, bu barədə çox geniş bəhs etmədən yalnız bir vacib məqamı xatırlatmaq istərdik ki, Nizami Gəncəvi üçün ədalət və humanizm prinsiplərinə uyğun idarə edilən dövlət məhz Türklərin dövlət quruluşu idi. Şair bunu açıq-aydın şəkildə ifadə edir:

**دولت ترکان که بلندی گرفت**
**مملکت از داد پسندی گرفت**
[11, s.11]
*Türklərin dövləti ona görə ucaldı ki,*
*Məmləkətdə ədalət hakim oldu.* [4, s.19]

"Qabusnamə"də də bu baxımdan dəyərli və bu gün üçün də müasir səslənən fikirlərlə qarşılaşırıq: *"...vəzirlikdə qurucu, abadedici və ədalətli ol ki, dilin və əlin uzun olsun"; "...ədalət və insafı unutmaq olmaz"; "Zülm sevən şahın aqibəti fəlakətli olar"* [3, s.192] və s.

Nizami Gəncəvi irsi ilə XI əsr İran abidəsi "Qabusnamə"nin müqayisəli araşdırılması şairin irsinin ədəbi-estetik qaynaqları haqqındakı məlumatımızın daha da genişlənməsi üçün əhəmiyyətlidir və dahi sənətkarın özünəqədərki mədəni nailiyyətlərə dərindən bələd olduğunu, bilik və məlumat dairəsinin genişliyini, mənbələrə yaradıcı münasibətini bir daha təsdiqləmiş olur.

## ƏDƏBİYYAT


1. *Kərimli T.* Epik şeirə yeni şivə gətirən sənətkar // Nizami Gəncəvi. Sirlər xəzinəsi. Tərcümə edən Xəlil Rza. Bakı: Şərq-Qərb, 2017, s.19-22
2. *Kərimli T.* Nizami və tarix. Bakı: Elm, 2002
3. Qabusnamə. Farscadan tərcümə edəni, qeyd və şərhlərin müəllifi Rəhim Sultanov. Bakı: Şərq-Qərb, 2006, 216 s.
4. *Nizami Gəncəvi.* Sirlər xəzinəsi. Filoloji tərcümə Rüstəm Əliyevindir. Bakı, "Qanun nəşriyyatı", 2014. 328 səh.
5. *Nizami Gəncəvi.* Xosrov və Şirin. Filoloji tərcümə Həmid Məmmədzadənindir. Bakı: Elm, 1981, 370 s.
6. *Nizami Gəncəvi.* Leyli və Məcnun. Filoloji tərcümə Mübariz Əlizadənindir. Bakı: Qanun, 2017, 384 s.
7. Nizami Gəncəvi. İskəndərnamə. İqbalnamə. Filoloji tərcümə Vaqif Aslanovundur. Bakı: Elm, 1983, 653 s.
8. *Nizami Gəncəvi.* İskəndərnamə. İqbalnamə. Poetik tərcümə Mikayıl Rzaquluzadənindir. Bakı: Lider, 2004, 256 s.
9. *Sultanov R.* Ön söz / Qabusnamə. Farscadan tərcümə edəni, qeyd və şərhlərin müəllifi Rəhim Sultanov. Bakı: Şərq-Qərb, 2006, s.4-16

10. *Yusifli X.* İnsan dühasının əlçatmaz nümunəsi / Nizami Gəncəvi. Leyli və Məcnun. Tərcümə edən Səməd Vurğun. Bakı: Lider, 2004, s.9-13
11. نظامی گنجوی. مخزن الاسرار. متن علمی و انتقادی بسعی واهتمام عبدالکریم علی اوغلی علی زاده. باکو. نشریات فرهنگستان علوم جمهوری آذربایجان. ۱۹۶۰
12. نظامی گنجوی. خسرو و شیرین. ویرایش و تایپ: امین بابایی پناه. Elektron nəşr, 386 s.
13. نظامی گنجوی. لیلی و مجنون. ویرایش و تایپ: امین بابایی پناه. Elektron nəşr, 205 s.
14. عبدی بیگ شیرازی. مظهرالاسرار. م. "دانش".۱۹۸۶
15. نظامی گنجوی. اسکندرنامه. خردنامه. https://ganjoor.net/nezami/5ganj/kheradname/sh8/

Redaksiyaya daxil olub 18.05.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2020, C.68, №2, s. 39-47
Transactions of Pedagogical University. Series of humanitarian, social and pedagogical-psychological sciences – 2020, V.68, №2, pp. 39-47

*UOT 82(091)*

***S.Ə.Ələkbərli***
*Azərbaycan Dillər Universiteti*
*suqra.alakbarli@mail.ru*

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN NƏSRİNDƏ QƏHRƏMANLARIN DAXİLİ MONOLOQUNDA PSİXOLOJİ KİMLİK

***Açar sözlər:*** *Azərbaycan ədəbiyyatı, nəsr, psixologizm, daxili monoloq, psixoloji təhlil*

Nəsrdə qəhrəmanın psixoloji kimliyinin açılmasında daxili monoloq mühüm rol oynayır. Nəsr əsərlərində qəhrəmanın daxili nitqi düşüncələrinin öz-özünə etirafı, yaxud yuxuları şəklində təzahür edir.

İkimininci illərdə yazılan nəsr nümunələrində yer alan daxili nitq və yuxular qəhrəmanların psixoloji portretini zəngin şəkildə yaratmağa kömək edir. Bu faktları Kamal Abdulla, Şərif Ağayar, Saday Budaqlı, Sabir Əhmədli, Afaq Məsud, Nəriman Əbdülrəhmanlı, Aqil Abbas, Səfər Alışarlı, Elçin Hüseynbəylinin əsərlərində izləyə bilərik.

Müstəqillik dövründə yazılan nəsr əsərlərində biz sıx şəkildə obrazların daxili monoloqlarına, etiraflarına və yuxularının ifadəsinə rast gəlirik. Məqalədə elə daxili monoloqlara və yuxulara diqqət yetirilib ki, onlar məhz obrazın psixoloji durumunun açılmasına xidmət edir.

***С.А.Алакбарли***

## ПСИХОЛОГИЧЕСКАЯ ИДЕНТИЧНОСТЬ ВО ВНУТРЕННЕМ МОНОЛОГЕ ГЕРОЕВ В АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ

***Ключевые слова:*** *Азербайджанская литература, проза, психологизм, внутренний монолог, психологический анализ*

Внутренний монолог играет важную роль в раскрытии психологической идентичности героя в прозе. В прозе внутренняя речь главного героя проявляется в форме самопризнания мыслей или в форме его сновидений.

Внутренняя речь и сны, отражающиеся в образцах прозы, написанных в 2000 г., помогают создать богатый психологический портрет героев. Мы можем проследить эти факты в работах Камала Абдуллы, Шарифа Агаяра, Садая Будакли, Сабира Ахмадли, Афаг Масуда, Наримана Абдулрахманлы, Агиля Аббаса, Сафара Алышарли, Эльчина Гусейнбейли.

В работах, написанных в период независимости мы часто встречаемся с внутренними монологами персонажей, их признаниями и выражением их снов. В статье уделено внимание внутренним монологам и снам, которые служат для раскрытия психологического состояния образа.

***S.A.Alakbarli***

# PSYCHOLOGICAL IDENTITY IN THE INTERNAL MONOLOGUE OF HEROES IN THE AZERBAIJANI PROSE DURING INDEPENDENCE

***Keywords:*** *Azerbaijani literature, prose, psychologism, internal monologue, psychological analysis*

The inner monologue plays an important role in revealing the psychological identity of the hero in the prose. The prose works in the form of self-acknowledgment or dreams of the protagonist's inner speech.

The internal discourses and dreams of the second-generation prose patterns help to create a rich psychological portrait of the heroes. These facts can be seen in the works of Kamal Abdullah, Sharif Aghayar, Saday Budaqli, Sabir Ahmadli, Afag Masud, Nariman Abdulrahmanli, Aqil Abbas, Safar Alisharli, Elchin Huseynbayli.

In the works of independence, we often meet with the internal monologues of the characters, their confessions and the expression of their dreams. In the article, we paid attention to the internal monologues and dreams that serve to reveal the psychological state of the image.

Nəsrdə qəhrəmanın psixoloji kimliyinin açılması üçün bir çox ədəbi priyomlardan və vasitələrdən istifadə edilməkdədir. Bunların içərisində daha çox dramaturji əsərlərdə istifadə olunan monoloqların böyük rolu vardır. Nəsr əsərlərində monoloqlara tez-tez rast gəlinir. Dramaturji əsərlərdən fərqli olaraq nəsr əsərlərində monoloqlar qəhrəmanın daxili nitqi, düşüncələrinin özü-özünə etirafı, yaxud yuxuları şəklində təzahür edir.

Müstəqillik dövründə yazılan nəsr əsərlərində biz sıx şəkildə obrazların daxili monoloqlarına, etiraflarına və yuxularının ifadəsinə rast gəlirik. Müəlliflərin istifadə etdiyi bu ədəbi vasitələr obrazların mənəvi-psixoloji dünyasının aşkarlanmasına, onların "mən"inin daha dəqiq ifadəsinə birbaşa xidmət edir. T.Hüseynoğlu "Söz – tarixin yuvası" əsərində bu haqda qeyd etmişdir ki, bədii ədəbiyyatda insanın əməl və işindən başqa, bir də onun içərisini, düşüncələr aləmini əks etdirmək lazım gəlir ki, bunun üçün sənətkar bir vasitə kimi daxili nitqdən, daxili monoloqdan istifadə edir [4, s.40].

Ümumiyyətlə, psixoloji nəsrdə rast gəlinən daxili monoloqlar oxucunu qəhrəmanın daxili aləminə yönəldən əsas vasitələrdən biridir. Daxili monoloq texnikasında duyğu və düşüncələr nizamlı şəkildə verilir. Linqvistik nöqteyi-nəzərdən daxili monoloq texnikasında danışıq dilinin təbiiliyi mətn üzərində üstünlük təşkil edir.

Qeyd etdiyimiz fikirlərə ikimininci illər nəsrindən gətirəcəyimiz ən gözəl nümunə Nəriman Əbdülrəhmanlının "Yalqız" romanıdır.

Müəllifin roman-assosiasiya kimi təqdim etdiyi əsər olduqca maraqlı dil-üslub xüsusiyyətlərinə, həmçinin Azərbaycan ədəbiyyatında roman ənənəsində

yenilik hesab edilə biləcək forma və struktura malikdir. Roman "şüur seli" texnikasından istifadə etməklə bitib-tükənməz enerji ilə yazılıb. Bu haqda ədəbiyyatşünas alim T.Əlişanoğlu deyir: "Əsərdə güclü dil enerjisi var: təhkiyə ritmini götürüb idarə edən, roman müstəvisini qurub-sökən də dildir. Ağına-qarasına baxmadan qəhrəmanın iç şüuruna açılır: qəzəbi qəzəb, ikrahı aşkar, ittihamı birbaşa, etirafı düzünə – assosiasiyalar lənətlənmiş təki bir yerdə sayır, bütöv bir ömür sıxıntıda nədən dilin yorulmadığı, şirədən düşmədiyi hətta heyrət doğurur" [7, s.177].

"Yalqız" romanı M.Baxtinin təsbit etdiyi "özgə sözü"nün qəhrəmanın monoloji nitqində ifadəsi ilə başlayır: "...dedi, gəlməyinə xoş gəlibsən, həmişə gəlib-getdiyin yer deyilmi, amma belə iş vardısa, gərək qabaqcadan zəng eləyəydin, ona görə ki, mən sadəcə, burda olmaya bilərdim, adamın o qədər dərdi-azarı var, adını da yadından çıxardır; ya da sənin istədiyini vermək imkanım olmazdı, - bütün bunları əyilib, yazı masasının siyirmələrini çəkə-çəkə, o siyirmələrdəki kağızları qurdalaya-qurdalaya deyirdi, elə bil, mənim istədiyimi cibindən yox, o kağız-kuğuzun arasından çıxarıb verəcəkdi, ya da axtarıb-axtarıb, üz-gözündə həmin məhrəmanə ifadə yazıq-yazıq gülümsəyəcəkdi - yoxdu, vallah, taxsır özündədi, qabaqcadan desəydin, təltül eləyib, bir şey düzəldərdim, niyə saldat kimi ayaq üstdə durubsan, hələ bir otur görək, bəlkə, Allah üzümüzə baxdı, gözləmədiyimiz yerdən bir qapı açıldı... - amma tamam ayrı söz dedi, - hərdən fikirləşirəm ki, kaş, sənin yerinə olaydım, kimsənin dərdini çəkməyəydim, - bunu deyəndə, buxağı əsdi, alnına bir balaca tər gəldi, gözləri nəmləndi, siyirməni örtüb, əlini göbəyinin üstünə qoydu, qəfildən hıqqıldaya-hıqqıldaya güldü, - bir anekdot var, eşidibsənmi, bilmirəm, o gün danışıblar, gülməkdən qarnımda ət qalmayıb, - eləcə uğuna-uğuna əlini yellədi, - otur... otur... sən canın, danışım, sənin də beynin açılsın, yoxsa rahat ola bilməyəcəm" [3, s.3].

Nümunədən göründüyü kimi, bu birinci şəxsin nəqletməsidir və üstəlik qəhrəmanın monoloji nitqi öz təsvir və düşüncələri ilə yanaşı, özgə replikaları ilə də bəzədilib. Əsərin qəhrəmanı əslində yaşadığı zamanla bütün parametrlərdə ziddiyyətdə olan bir şəxsdir. Bu yaradıcı şəxs özünü oxucuya bu şəkildə təqdim edir: "Aha, yenə yel başlayıb; ölümüm ağdımı-qaradımı: razıyam, yağış yağa, qar yağa, lap elə də daş yağa, amma yel əsməyə, çünki belə vaxtlarda içimin yeli çölün yelinə qarışır, məni götürüb, dibsiz uçurumlara atır, olan-qalan iştahımı da itirirəm, evdən eşiyə çıxmağa həvəsim qalmır, dörd divar arasında oturub dünyanın hayıfını canımdan alıram, aranı dağa, dağı arana daşıyıram, axırda da baxıb görürəm ki, yox ey, elə beş abbasın bir manat eləyir; əslində, yelə qarşı nifrətim uşaqlıqdan yaranıb.

... O gedən gedirəm, dayanmağa, durub-dincəlməyə, keçdiyim yolları, yaşadığım illəri, çəkdiyim ağrıları götür-qoy eləməyə nə macalım var, nə də taqətim; gəlib çıxdığım bu şəhərin də yad evlərinə öyrəşdim, saxta adamlarına

alışdım, əlim çatmayan qadınlarınnan barışdım, amma cürbəcür adları olan yelinə (nə bilim, xəzrisi belə, gilavarı elə, hələ bir ikisi də var, adlarını yadımda saxlaya bilmirəm) ürək qızdıra bilmədim ki, bilmədim; amma arada bunun xeyri də olub: günlərlə küçəyə çıxmamışam, dörd divarın arasında oturub, əlimə keçəni oxumuşam, beynimə gələni yazmışam: nəyinsə yolunu tapmağa çalışmışam, düzdü, nə oxuduqlarımdan xeyir görmüşəm, nə də yazdıqlarımdan, fikirlərimin də ucunu bir tərəfə aparıb çıxara bilməmişəm, ancaq o xeyri olub ki, heç olmasa, görmək istəmədiyim adamları görüb qanımı it qanına döndərməmişəm" [3, s.7-8].

Romanda bəhs edilən bütün təsvir və əhvalatlar birinci şəxsin özü-özünə nəqletməsində təqdim olunur. Bu məqam obrazın mənəvi aləminin daha detallı ifadəsi ilə yanaşı, eyni zamanda təsvir edilən hadisənin psixoloji gərginliyini də artırmağa xidmət etmişdir. Azərbaycan nəsrində yer alan bu səpkili məqamlar üzərində dərin araşdırmalar aparan alim akademik Muxtar İmanov qeyd edir: "Müəllif sözü təbii ki, qəhrəmanın duyğu və düşüncələrini əks etdirməklə məhdudlaşmır, eyni zamanda, duyğu və düşüncələri doğuran hadisələrin təsvirini təmin edir. Bu mənada daxili monoloq üzərində qurulan nəsr əsərlərində müəllif təhkiyəsinin xüsusi rolu vardır. Müəyyən situasiyadan sonrakı daxili monoloqu, eləcə də, müəyyən daxili monoloqun real nəticəsi olan hər hansı hərəkət və hadisəni qələmə almaqla müəllif qəhrəmanın daxili aləmi ilə süjet xətti arasında əlaqə yaradır. Həm daxili monoloqları quran konkret əhvalatların müstəqil təsviri, həm də yeri gəldikcə monoloqlara verilən müəllif şərhləri (özünütəhlili təhlil) qəhrəmanın subyektiv aləminin müəyyən ideya istiqamətində dərkinə kömək edir" [5, s.75-76].

Qəhrəmanların psixoloji durumunun qabarıq ifadə olunduğu romanlarda şüur axınının və daxili monoloqların tez-tez istifadə olunması dünya ədəbiyyatında olduğu kimi, qeyd etdiyimiz nümunə əsasında görürürk ki, Azərbaycan ədəbiyyatında da müşahidə edilməkdədir. Hazırda psixoloji roman tipində tez-tez istifadə olunan bu iki üsul haqqında türk ədəbiyyatşünas alim Mehmet Tekin yazır: "Şüur axını texnikası psixologiyanın roman janrına hədiyyəsidir. Şüur axını texnikası romanın keyfiyyətinə də müəyyən mənada təsir göstərir. Çünki bu texnikanı sınamaq istəyən bir roman mütləq psixoanalizə müraciət edir və buna görə psixoloji bir dərinlik qazanır" [9, s.323].

Bu yazı texnikasında qəhrəman daxili nitqdən fərqli olaraq sintaktik quruluşu pozulmuş, qırıq cümlələrlə, məntiqi bir bağlantı olmadan nizamsız bir şəkildə düşdüyü durumu ifadə etməyə çalışır.

Daxili monoloqu şüur axınından fərqləndirən qəhrəmanın fikir və sarsıntılarının xaotik olması, məntiqi rabitənin pozulması və aralarındakı bağlılığın assosiativ olaraq qalmasıdır. Bu termini ilk dəfə ədəbiyyata U.Ceyms gətirmişdir.

"Şüur axını texnikasında təkcə obrazın düşüncələri deyil, hisslər və obrazlar da yer alaraq şüurun ən qaranlıq hissələri ilə bərabər oxucuya təqdim olunur" [6, s.64].

Qeyd olunan dövrdə qələmə alınmış nəsr əsərlərinin bir çoxu gərgin psixoloji kontekstdə təqdim olunduğundan insan obrazlarının taleyini həyəcansız izləmək olmur. Ümumiyyətlə, "Müasir Azərbaycan nəsrində psixologizmin inkişafını və tədrici dərinləşməsini şərtləndirən, psixologizmi ünsür, element yox, bir prinsip, sistem səviyyəsində araşdırmağa imkan verən cəhətlərdən biri odur ki, gerçəkliyi personajların subyektiv qavrayışında əks etdirmək meyli güclənir" [5, s.112]. Bu nəsr nümunələrini səciyyələndirən ən mühüm məqamlardan biri burada psixologizmin obraz və xarakterlərin "subyektiv qavrayışında" təqdim olunması ilə bağlıdır ki, bu cəhət qəhrəmanların daxili dünyasının gizlinlərini bütün təfərrüatı və incəlikləri ilə aşkarlamağa imkan verir.

Məhz bu nəsr əsərlərinin bəzilərində obrazın psixoloji portretinin açılmasında daxili monoloqlarla yanaşı, müəllif dilindən və ya obrazın öz dilində danışılan yuxuların da önəmli rolu vardır.

Kamal Abdullanın "Sehrbazlar dərəsi" romanında qəhrəmanın psixoloji durumunun tez-tez dəyişməsi, süjetin inkişafına uyğun olaraq daha da dərinləşməsi danışdığı və ya xatırladığı yuxuların vasitəsilə daha effektiv şəkildə göstərilmişdir. Əsərdən bir nümunəyə baxaq: "Vallah o bir olan Allah qarşısında da, Şah qarşısında da mən təmizəm. Atamın mənə yedirtdiyi çörək tutmazdımı gözlərimdən məni, hər gecə yuxuma girib, "bala, sən mənim balam deyilsən məgər, bəs sən nə cürə yata bilirsən gecələr, atanı öldürən kəslər hər gecə girirlər onun yatağına, namusumu tapdalaya-tapdalaya Söyürlər doyunca goruma, nə təhər dözürsən bəs sən buna, bala, Məmmədqulu?" soruşurdu atamın ruhu məndən. O hadisədən sonra daha gəlmir yuxuma, heç nə də soruşmur. Rahat olmuşdur yəqin" [1, s.114].

Göründüyü kimi, burada qəhrəmanı əsərdə bəhs edilən gərgin situasiyalara düşməyə vadar edən məhz onun öz dilindən verilən yuxusudur. Əsərdə bu mənada yuxu detalından lazımınca istifadə edilərək psixologizmin obrazın şəxsiyyətini süjet xətti boyu yaşadığı hadisələrin içində deyil, onu daima narahat saxlayan yuxuların da içinə daxil olduğunu müəllif bu şəkildə ifadə edir.

Psixoanaliz bizim gördüyümüz yuxuları tamam yeni rakursdan şərh edir. Tarix boyu yuxulara gələcək haqqında bilik, soraq qaynağı kimi baxıblar. "Ziqmund Freyd isə yuxuya başqa bir şərh verir: yuxular gələcəkdən yox, keçmişdən soraq verir. Daha doğrusu, bilincaltına bütün keçmiş, yaşam boyu yığılmış istəklər, görklər donlarını dəyişdirib yatan adamın şüuruna yuxular kimi girirlər.

Freyd söyləyir: yuxuların dilini, xarakterik simvollarını bilmək gərəkdir. Yuxularda dəyişməz, davamlı təkrar olunan obrazlar var. Onlar simvollardır və özlərində çox vaxt eyni məzmunu gizlədirlər. Həmin simvolların dilini öyrənmək gərəkdir" [8, s.68].

"Sehrbazlar dərəsi" əsərində yuxu ilə əlaqəli başqa bir nümunəyə diqqət yetirək:

"– Amma gecələr sən və ağabəyim daim yuxuma girirsiniz, doğru sözümdü, inan mənə. Tutursuz boğazımdan, boğursuz ikiniz də məni. Üzünüzü də düz-əməlli görməmişəm ki, mən, amma yuxularımdan çıxmırsız, birindən o birinə, birindən o birinə… Bilirsən nə deyirsiz mənə? Bilmirsən? "İntiqam, intiqam!" deyirsiz, ağa, gah pıçıldayırsız, gah qışqırırsız, eynən indiki kimi. Məndən nə istəyirsiz?" [1, s.166].

Yuxarıda verilən sitatda yuxudan bəhs edən müəllif sonra obrazın daxili monoloqunda məsələni daha da kəskinləşdirərək intiqam hissinin qəhrəmanın düşüncəsində hələ uşaqlıqdan mövcud olduğuna işarə edir:

"Uşaqlıqdan ağlım kəsəndən üzü bu yana mən ancaq "intiqam" deyib yaşamışam, biləsən. Gecələr "intiqam" sözü yapışıb qalıb dodaqlarımda, o sözlə yuxuya getmişəm, səhərlər o söz bir parça palçıq kimi quruyub düşüb dodaqlarımdan o biri gecənin qoynuna. Sən mənə indi nə demək istirsən? Qarı nənəm hər Allahın verən günü bu sözü qulaqlarımda sırğa eləmişdi, öləndə də artıq dili söz tutmurdu, gözlərilə dedi: intiqam!.. Bir də gözlərilə bunu dedi mənə: birdən intiqamını unudarsan ha, göyçək balam, unutmazsan ki? Yoxsa, Damdabaca… Tez dedim yox, unutmaram, rahat ver nəfəsini, unutmaram. Unutsan bax ha… dedi bu gözlər yenə. Mən dedim: Unutsam qoy damdabaca gəlib məni aparsın" [1, s.184].

İntiqam hissi insanı hər cür vasitələrlə öz məqsədinə çatmağa vadar edən ən güclü dağıdıcı qüvvəyə malik hissdir.

Məhz "Sehrbazlar dərəsi" romanının qəhrəmanı da belə bir gərginlik içərisindədir. Onu yeni bir cinayətə sürükləyən də məhz bu hissdir. Müəllif Kamal Abdulla yaratdığı obrazı belə bir gərgin vəziyyətə salmaqla yanaşı, daxili monoloq, yuxu, dialoq və başqa ədəbi texnikalardan da məqamında istifadə edərək psixologizmi daha da gücləndirmişdir.

Psixoanalitik rakurs da onu deməyə əsas verir ki, "Sehrbazlar dərəsi" əsərinin qəhrəmanı cəllad Məmmədqulu əslində həm də "edip kompleksi"ndən əziyyət çəkir, məhz bu psixoloji durum onu intiqam hissi ilə yaşamağa vadar edib. Bu əsərdəki yuxu da psixoanalitiklərin şərhindəki kimi, əslində gələcəyə işarə deyil, keçmiş haqda informasiyadır. Məhz bu informasiyalar obrazın psixoloji vəziyyətini müəyyənləşdirir, onu qatilə çevirir.

Şərif Ağayarın "Kərpickəsən kişinin dastanı" hekayəsində də hekayənin ümumi məzmununa və xüsusən də finalının uğurlu alınmasına səbəb olan

əsərdəki qəhrəmanın gördüyü yuxu müəllif tərəfindən əsərə ustalıqla daxil edilmişdir.

Əsər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı öz doğma yurdundan didərgin düşmüş bir ailənin başçısının özlərinə yeni ev tikmək istəməsindən bəhs edir. Hekayədəki təsvirlər və obrazların daxili aləminə tutulan işıq durumun nə qədər gərgin olduğunu ortaya qoymaqdadır. İnsanlar həm özlərinə gün-güzəran qurmaq niyyəti ilə çalışırlar, olmazın əzab-əziyyət çəkirlər, bu azmış kimi həm də qarşılarını kəsən maneələrlə də savaşmaq, mübarizə aparmaq məcburiyyətində qalırlar. İşğalın nəticəsində ev-eşiyini itirən bir insanın ailəsinə yeni yuva qurmaq istəyinə qarşı çıxan, həm də gəlib məskunlaşdıqları mühitdə onları qarşılamağa hazır olmayan insanlardır və ya mühitin özüdür. Atasına atdığı hər bir addımda kömək olmağa çalışan uşaq da problemin həlli üçün önəmli bir məqamda əsərə vacib bir missiyanı həyata keçirmək üçün daxil edilir. Əslində bu uşaq əsərdə lap başdan var, amma bir məqamda müəllifin "olum, ya ölüm" məsələsini – ailənin məskunlaşdıqları kənddə qalıb-qalmayacaqlarını məhz uşağın atacağı addım müəyyən etməlidir. Uşaq bir müddət əvvəl onunla savaşıb döyülmüş birinə öz yerini göstərməli, hansı vasitə ilə olursa-olsun, o şəxsi döyməlidir. Bu məqamda uşaq belə bir yuxu görür: "… hər işıqla bir tanış mənzərə görünürdü: Kərimin qəzəbli sifəti, dədəmin kepqası, baltası, sovet sədrinin tüksüz başı, sahə müvəkkilinin paqonları, qoyunlarımız, pambıq tarlası, Teylurun arvadının hədələri, hətta Teylura atılan güllənin səsi, Sənəm arvadın danışığı, qardaşımın hönkürtüsü, mağazanın qarşısındakı mərəkə, sifətimə dəyən yumruqlar, Sonya, anam, Kərimin anasının səsi, atasının titrəyən dodaqları, Şofir Zülfüqarın fısıltısı, kolxoz sədrinin bozarmış gözü… Qamçının parlatdığı işıqda Sonyanın, bacımın, qardaşımın və anamın sifəti daha çox görünməyə başladı. Basabasda imkan tapıb Sonyanın üzündən öpdüm. Sonya çevrilib bacım oldu. Bacım əvvəl Sonya kimi, sonra özü kimi danışdı, amma danışan Sonya idi. Kərim qardaşımın sifətində öz yumruqları ilə vurdu məni. Tutmaq istədim, əlim qalxmadı. Kərim qardaşımın sifəti ilə ağlayır, öz yumruqları ilə döyür, dədəmin səsi ilə danışırdı. Getdikcə sifəti də, səsi də özünün oldu - əlim-ayağım işə düşdü. Saçlarından yapışıb qarnını yumruqlamağa başladım. İki qatlandı. Sonra dizimlə ağzına… Başını qaldırdı. Sifəti qanın içində idi. Ancaq qan görünmürdü. Uğultu ilə axan buludlar, kəndin üstündən sürüşən göy Kərimi əlimdən alıb aparmaq istədi, yaxasını buraxmadım. Kərimlə birlikdə mən də buludlarla axır, kəndlə birlikdə göyün altından sürüşürdüm. Təkrar-təkrar Kərimin ağzına yumruqlar vurmağa başladım. Kərim arxası üstə yıxılır, torpaq olmadığından yıxıla bilmir, mən isə döyməkdən yorulurdum. Kərimi bir də yaxalayıb vurmaq istədim - o, qardaşım idi. Ancaq sifəti də, səsi də özününküydü. Hətta səsini açıqca eşidirdim də: «Dur, dur, dur». Bilmirdim

mənə deyir, yoxsa sürüşən göyə, axan buluda. Kərim «dur» kəlməsini təkrarladıqca səsi dədəmin səsinə çevrildi: «Dur! Dur! Dur!” [2, s.32].

K.Yunq “analitik yuxu nəzəriyyəsi”ndə yuxunun qaynaqları ilə bağlı xüsusən 3 mənbə üzərində dayanır. Bunlardan biri fərdi təhtəlşüur, ikincisi kollektiv təhtəlşüur, üçüncüsü isə arxetiplərdir. Yuxarıda göstərilən nümunədəki yuxunun nəyin əsasında formalaşdığına və müəllifin bu priyomdan necə yaralandığına baxaq. Hekayənin məzmununa əsasən deyə bilərik ki, yuxunu görən şəxs həm fərdi təhtəlşüurun (çünki hekayənin bir yerində yuxu görən şəxsin Kərim tərəfindən döyülməsi faktı vardır) – bu xüsusən intiqam hissi ilə bağlıdır, həm kollektiv təhtəlşüurun (hekayədə yuxu görənin Kərimi döyməsi onun qarşısına dədəsi tərəfindən bir şərt kimi qoyulur və bu şərt ailənin gəldikləri yerdə yaşayıb-yaşamayacağı qərarına birbaşa təsir edir), həm də arxetiplərin (ölüm və ya yaşam, qəhrəmanlıq, ailə şərəfi və b.) və ya arxetipik motivlərin təsiri altındadır. K.Yunqa görə, yuxuları törədən bu faktorlar yuxunun məzmununda simvollarla özünü büruzə verir. Nümunəyə diqqət yetirsək, bu simvolları aydın şəkildə görə bilərik.

Baxdığımız nümunələr və onlara verdiyimiz şərhlər onu göstərir ki, ikimininci illərdə yazılan nəsr nümunələrində yer alan monoloji nitq (daxili nitq) və yuxular bu dövr nəsr əsərlərində yaradılan qəhrəmanların psixoloji portretini zəngin şəkildə yaratmağa çox böyük kömək edir. Bu faktları biz təkcə Kamal Abdulla, Şərif Ağayarın yaradıcılığında deyil, Saday Budaqlının da, Sabir Əhmədlinin də, Afaq Məsudun da, Nəriman Əbdülrəhmanlının da, Aqil Abbasın da, Səfər Alışarlının da, Elçin Hüseynbəylinin də əsərlərində izləyə bilərik.

Ümumiyyətlə, bu dövr ədəbiyyatı, xüsusən nəsr nümunələri bu baxımdan olduqca çox ədəbi-bədii priyomlarla, detallarla zəngindir. “Romanlardakı bütün daxili monoloqları qeyd-şərtsiz mənəvi oyanma, özünüdərk monoloqları adlandırmaq yanlış olardı. Əsərdə daxili monoloqların bir nəfərdə yox, personajların əksəriyyətində meydana çıxması belə bir estetik meyarla şərtlənir ki, bütün şüurlu insanların düşünmək qabiliyyəti var və onların düşüncələri hər cür səviyyələri ilə söz sənətinin materialı ola və müxtəlif xarakterlərin işıqlandırılmasında vasitəyə çevrilə bilər” [5, s.81]. Lakin nəsr əsərlərindəki, ümumiyyətlə, ədəbi mətnlərdəki bütün daxili monoloqlar əsərdə psixologizmin ortaya çıxarılması üçün material vermir. Məhz biz də yuxarıda elə daxili monoloqlara və yuxulara diqqət yetirdik ki, onlar məhz obrazın psixoloji durumunun açılmasına xidmət edir.

## ƏDƏBİYYAT

1. *Abdulla K.* Sehrbazlar dərəsi. Bakı: Qanun, 2018, 168 s.
2. *Ağayar Ş.* Kərpickəsən kişinin dastanı. Bakı: Qanun, 2010, 47 s.
3. *Əbdülrəhmanlı N.* Yalqız. Bakı: Qanun, 2006, 428 s.
4. *Hüseynoğlu T.* Söz-tarixin yuvası. Bakı: Azərnəşr, 2000, 256 s.
5. *İmanov M.* Müasir Azərbaycan nəsrində psixologizm. Bakı: Yazıçı, 1991, 115 s.
6. *Moran B.* Türk Romanına Eleştirel Bir Bakış I. İletişim Yayınları, İstanbul, 1995, 336 s.
7. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: 2 cilddə, II c., Azərbaycan Milli Elmlər Akademiyası, Nizami adına Ədəbiyyat İnstitutu. Bakı: Elm və təhsil, 2016, 1083 s.
8. *Niyazi M., Dilarə M.* Fəlsəfə tarixində fəlsəfə. Bakı, 2005, 260 s.
9. *Tekin M.* Roman Sanatı 1. İstanbul: Öttiken, 2001, 383 s.

Redaksiyaya daxil olub 13.02.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2020, C.68, №2, s. 48-56
Transactions of Pedagogical University. Series of humanitarian, social and pedagogical-psychological sciences – 2020, V.68, №2, pp. 48-56

***UOT 81***

***A.S.Həsənova***
*AMEA Nəsimi adına Dilçilik İnstitutu*
*aytac.hasanova11@gmail.com*

# SEMANTİK İNKİŞAFIN TƏFƏKKÜR PROSESLƏRİ BAXIMINDAN İZAHI

***Açar sözlər:*** *psixolinqvistika, təfəkkür, dərketmə, məna genişlənməsi, gerçəklik elementi*

Məqalə sözün mənaca inkişafının fərdi və ictimai şüurda baş verən təfəkkür prosesləri baxımından şərhi məsələsinə həsr olunur. Semantik inkişaf prosesi insanın intellektual imkanları və təfəkkür fəaliyyəti ilə əlaqədar nəzərdən keçirilir. Sözdə mənanın genişlənməsi hesabına yaranan çoxmənalılığa dair ənənəvi dilçilik, eləcə də koqnitiv dilçiliyin mövqeyi açıqlanır. Dilin ikili xüsusiyyətə malik olmaqla həm linqvistik, həm də psixoloji kateqoriya olduğunu nəzərə alaraq semantik inkişaf prosesi Linqvo-psixoloji vəhdət nəzəriyyəsinin başlıca elementlərindən biri olan *gerçəklik elementi* bazasında şərh edilir. Sözün mənaca inkişafı mürəkkəb perseptiv-koqnitiv proses olmaqla assosiativ əlaqələndirmə və ümumiləşdirmənin nəticəsidir. Bunlar semantik inkişaf meyillərindən biri olan çoxmənalılığın yaradıcı təfəkkür prosesləri ilə üzvi surətdə bağlı olduğunu söyləməyə əsas verir.

***А.С.Гасанова***

# ОБЪЯСНЕНИЕ СЕМАНТИЧЕСКОГО РАЗВИТИЯ С ТОЧКИ ЗРЕНИЯ МЫСЛИТЕЛЬНЫХ ПРОЦЕССОВ

***Ключевые слова:*** *психолингвистика, мышление, познание, расширение значения, элемент действительности*

Статья посвящена проблеме семантического развития с точки зрения мыслительной деятельности, происходящей в индивидуальном и социальном сознании. Процесс семантического развития изучается применительно к интеллектуальным возможностям и когнитивной деятельности человека. Объясняются подходы традиционной и когнитивной лингвистики к многозначности, вызванной расширением значения слова. Принимая во внимание двойственный характер языка, как лингвистического, так и психологического, процесс семантического развития интерпретируется на основе элемента действительности, одного из основных элементов теории Лингво-психологического единства. Будучи сложным перцептивно-когнитивным процессом, развитие смысла считается результатом ассоциативной координации и обобщения. Все это подтверждает мнение о том, что полисемия, как тенденция семантического развития, тесно связана с процессами творческого мышления.

***A.S.Hasanova***

## THE EXPLANATION OF SEMANTIC DEVELOPMENT FROM THE ASPECT OF THINKING PROCESSES

***Keywords:*** *psycholinguistics, thinking, cognition, the extension of meaning, the element of reality*

The article is devoted to the problem of word meaning development from the viewpoint of thinking activities that occur in individual and social consciousness. The process of semantic development is studied with regard to human intellectual opportunities and cognitive activities. The approaches of traditional and cognitive linguistics towards the polysemy brought about by the extension of word meaning is explained. Taking into consideration the dual character of language, both linguistic and psychological, the process of semantic development is interpreted on the basis of *the element of reality*, one the main elements of the theory of Linguo-Psychological Unity. Being a complex perceptive-cognitive process, the development of meaning is considered to be the result of associative-coordinating and generalizing. All these substantiate the view that polysemy, as a tendency of semantic development is closely connected with creative thinking processes.

Sözün mənaca inkişafının tədqiqi məsələsinə müasir psixolinqvistik yanaşma fərdi şüurda mənanın formalaşması və insanın ümumi intellektual inkişafı çərçivəsində sözün məruz qaldığı semantik dəyişmələrin təhlilini nəzərdə tutur. Sözün məna quruluşunun daxili inkişaf dinamikasının öyrənilməsi üzrə aparılan psixolinqvistik tədqiqatlar, fərdi şüurda sözün fəaliyyət mexanizminin, o cümlədən semantik inkişafın spesifik xüsusiyyətləri və qanunauyğunluqlarının müəyyənləşdirilməsinə xidmət edir.

Sözdə məna və məzmunun nisbəti məsələsi, həmçinin semantik inkişaf problemi linqvistik, eləcə də psixolinqvistik tədqiqatların mərkəzi mövzusunu təşkil edir. Linqvistik yanaşmada sözün dil və cəmiyyətin tarixi inkişaf prosesində məruz qaldığı semantik dəyişmələr öyrənilirsə, psixoloji və psixolinqvistik istiqamətdə əsas diqqət mərkəzində olan məsələ fərdi və ictimai şüurda mənanın inkişafı probleminin tədqiqidir. Müasir dilçilikdə müxtəlif dil hadisələrinin, o cümlədən semantik proseslərin təhlilinə dilçilik və psixologiya elmlərinin ümumi məqsədləri fonunda inteqrativ yanaşma daha məqsədəuyğun hesab olunmaqdadır.

Məlum olduğu kimi, əksər semasioloji tədqiqatlarda sözün mənaca genişlənməsi assosiativ əlaqələndirmənin və ümumiləşdirmənin nəticəsi hesab olunur. Bu zaman identifikasiya və ümumiləşdirmələr aparmaq üçün gerçəklik vahidinin daha aktual və əsas hesab edilən əlaməti və ya hansı əlamətə istinad olunması diqqət mərkəzindədir. Bu səbəbdən hazırkı məqalə ilkin məna ilə dərk edilmiş sözlərdə sonradan baş verən məna dəyişkənliyinin və inkişafın

psixolinqvistik əsaslarının və reallaşma mexanizminin izah edilməsini nəzərdə tutur. Qeyd olunan problemin insanda dərketmə və şüurlu nitqyaratma fəaliyyətinin meydana gəlməsi problemləri ilə birbaşa əlaqədar öyrənilməsi sayəsində semantik proseslərin, o cümlədən assosiativ əlaqələndirmənin strategiyasını müəyyənləşdirmək imkanı yaranır.

Dilçilik tarixində ümumilikdə söz, sözün mənası, söz və məfhum arasındakı qarşılıqlı əlaqə, eləcə də sözdə mənanın inkişafı şərtlərinə dair müxtəlif dövrlərdə bir çox mühüm tədqiqatlar aparılmışdır. Sözün və nitqin yaranması, dinləyən şəxs tərəfindən dərk olunması daim dilçi və filosofların diqqət mərkəzində olmuşdur. Semantik hadisələrin şərhi ilə bağlı cəhdlər hələ antik fəlsəfədə öz əksini tapmışdır. Məsələn, çoxmənalılıq probleminin başlanğıcı Qədim yunan dilçiliyi məktəbinin görkəmli nümayəndələrindən biri olan Aristotelin adı ilə bağlıdır. Bunu da qeyd edə bilərik ki, XIX əsrdə dilçilərlə yanaşı, filosof və məntiqşünaslar da semasioloji məsələlərlə məşğul olmuşlar.

Sözün dərk olunması əsasən psixolinqvistikanın tədqiqat obyektinə aid olsa da, ənənəvi dilçilikdə də bu barədə bir çox mülahizələrə rast gəlmək mümkündür. Burada sözün dərk olunması bilavasitə şüur və təfəkkürlə, əsasən mücərrəd təfəkkürlə əlaqələndirilmişdir. İnsan şüurunda məfhumların yaranması cisim və hadisələrin ən mühüm və əsas əlamətlərini ayırmaq, fərqləndirmək və ümumiləşdirmək prosesi kimi qiymətləndirilmişdir. Ənənəvi dilçiliyə görə məfhum obyektiv aləmdə mövcud olan əşya və hadisələri ümumiləşdirərək insan şüurunda əks etdirir.

XX əsrin ikinci yarısında isə dilçilikdə psixoloji cərəyan əsasında, psixologiya və dilçilik elmlərinin ortaq maraqları sayəsində dil vahidinin yaranma və dərk edilmə qanunauyğunluqlarını öyrənən bir elm kimi psixolinqvistik istiqamət meydana çıxdı. Psixoloji fəaliyyət nəzəriyyəsinin yaradıcılarından biri olan L.S.Vıqotskinin fikrincə, nitqin dərk olunması sözlərin tanış obrazlarının təsiri altında ağlımıza gələn assosiasiyalar zəncirinə əsaslanır [6, s.357]. Həmin nəzəriyyənin ikinci bir müəllifi hesab olunan A.R.Luriya isə “Dil və şüur” *(«Язык и сознание»)* əsərində sözün dərk olunması probleminə toxunmuşdur. Lakin burada sözün mənasının dərk edilməsi mürəkkəb psixoloji proses adlandırılsa da [8, s.202], məhz sözün dərk olunmasının sistemli və mərhələli psixoloji şərhinə rast gəlinmir.

Dərketmə prosesində fərdi şüurun rolu, mənanın subyektiv strukturu, əlavə emosional məzmun barədə mülahizələr həm ənənəvi dilçilik, həm də psixolinqvistika üzrə müxtəlif tədqiqatlarda öz əksini tapmışdır. N.Məmmədov və A.Axundovun fikrincə, insan sözün aid olduğu əşya və hadisələrlə onun əlaqəsini müəyyənetmə prosesində ona öz münasibətini də bildirir. Onlar belə hesab edir ki, obyektiv dünyanı subyektiv olaraq əks etdirən insanın şəxsi rəyi və mülahizələri emosional məzmunu təyin edir [2, s. 102-103]. Bu baxımdan

insan psixikası ilə bilavasitə əlaqədar olması səbəbilə, mənanın psixoloji strukturunun əsas əlaməti onun subyektivliyindən ibarətdir [5, s.102]. Deməк, insan dünyanı öz subyektiv təcrübəsi prizmasından dərk edir. Psixoloji nöqteyi-nəzərdən sözün fərd tərəfindən dərk olunması ümumiləşdirmə, rabitə və təfəkkürün vəhdətidir.

Həm nitqyaratma fəaliyyətini, həm də ünsiyyəti dərketmədən kənarda təsəvvür etmək belə mümkün deyil. Belə ki, dilin, eləcə də nitqin yaranması dərketmə prosesi ilə bilavasitə bağlıdır. Klassik psixolinqvistika tarixində müxtəlif tədqiqatçılar tərəfindən dərketmə və təfəkkür prosesinin reallaşmasına şərait yaradan element mənasında fərqli terminlərdən istifadə olunmuşdur. Belə ki, dərketməni şərtləndirən minimal appelyativ vahidi ifadə etmək üçün V.Vundt "*təfəkkür elementi*", A.A.Leontyev "*diferensial element*", "*real və virtual işarə*", L.S.Vıqotski "*işə çevrilmiş söz*" terminlərindən istifadə etmişlər. Bütün bu anlayışlar çərçivəsində bizi əhatə edən ətraf aləmdə mövcud olan əşya, hadisə və varlıqların insan beynində inikası üçün şərait yaradan elementlər nəzərdə tutulur. Azərbaycan dilçiliyində yeni yaranmış Linqvo-Psixoloji Vəhdət nəzəriyyəsində isə gerçəklik vahidinin real obrazına ekvivalent olmaqla onun dərk edilməsi və yadda qalmasını təmin edən "*intellekt obrazı*" terminindən istifadə olunur [1, s.49-55]. Bu nəzəriyyədə müşahidə edilən digər maraqlı məqam nitqin daxili elementi olan sözün dərk edilməsidir. Belə ki, dil sistemi sadəcə nitqdən ibarət deyil. Linqvo-psixoloji vəhdət (LPV) nəzəriyyəsində təkcə nitqin və nitq söyləminin deyil, həm də onları əmələ gətirən sözün yaranma və dərk olunma mexanizmi ətraflı şərh olunmuşdur. Nəzəriyyədə dərketmə sıx ardıcıllıqla cərəyan edən 4 faza və ya iki yarımakt şəklində nəzərdən keçirilir. LPV nəzəriyyəsinə görə, hər bir söz müstəqil gerçəklik elementi kimi intellekt obrazlarına transformasiya olunaraq dərk edilir [1, s.62]. Nəzəriyyədə *gerçəklik elementi* termini obyektiv aləmdə real şəkildə mövcud olan və ya mövcud olduğu qəbul edilən əşya, varlıq və hadisələr, anlayış, norma və prinsiplər, həmçinin onların real və ya təsəvvür olunan əlamət, xüsusiyyət, keyfiyyət və hərəkətlərinə ekvivalent olan abstrakt təsəvvürləri ifadə edir [1, s.48]. LPV nəzəriyyəsinə əsasən, istənilən gerçəklik vahidinin ilk abstrakt obrazı dərketmədə yaranır, daha sonra həmin obraz dildə öz əksini tapır, yəni maddiləşərək dil struktur vahidinə çevrilir. Söz insan tərəfindən gerçəklik elementinə verilən şərti ad olaraq meydana çıxır. Bununla yanaşı, söz özü də maddiləşərək ikinci sıra gerçəklik elementi kimi – hərflər və səslər kompleksindən ibarət materiya formasında dildə mövcud olur. Odur ki, söz dərketmə və təfəkkürün vasitəsi yox, son məhsuludur [1, s.173].

İstər leksik, leksik-qrammatik, istərsə də qrammatik formalar ayrı-ayrılıqda müstəqil gerçəklik elementi kimi dərk olunur. Sözün mənimsənilməsi dərketmə aktının birinci yarımaktında vizual (görərək) və ya vokal (eşidərək) dərketmə nəticəsində baş verir. Sözün dərkedilməsi psixoloji proses olaraq belə

baş verir: 1) ikinci sıra gerçəklik elementi mahiyyəti daşıyan sözə ($GE_2$) ekvivalent olan ikinci sıra intellekt obrazı yaranır ($İO_2$) və bunlar öz arasında birləşərək iki elementdən ibarət olan ayrılmaz cütlük əmələ gətirir ($GE_2$ + $İO_2$); 2) sözün aid olduğu gerçəklik vahidinin ikielementli natamam kodu ($GE_1$ + $İO_1$) ilə birləşərək onu dörd elementli tam koda ($GE_1$ + $İO_1$)+ ($GE_2$ + $İO_2$) çevirir [1, s.109-122]. Beləliklə, sözün dərk edilməsi ilkin mərhələdə sensor analizatorlar vasitəsilə alınmış məlumat və yaranmış *dörd elementli intellekt kodu* əsasında subyektiv təcrübədə öz əksini tapan psixi-fizioloji proseslərin nəticəsi hesab edilə bilər.

Psixolinqvistikada sözün mənası ilə bağlı aparılan eksperimental tədqiqatlar mənanın daha geniş izahının, dil daşıyıcılarının şüurunda olan mənanın təxmin edilməsinin mümkünlüyü barədə danışmağa imkan verir. Psixolinqvistik eksperimentlər zamanı aşkarlanan məna lüğəvi izahata nəzərən daha çoxcəhətli olur. Odur ki, leksikologiyada qeyri-lüğəvi semantik assosiasiyalardan ibarət periferik yaxud potensial semantik komponentlər kimi təsvir olunan əlavə məzmunun mövcudluğu qəbul olunur. Bununla bağlı A.A.Leontyev tərəfindən "psixoloji relevant məna" və "psixoloji məna" terminləri istifadə olunmuşdur [7, s.197]. Z.D.Popova, İ.A.Sternin isə terminoloji olaraq mənanın iki növünü fərqləndirir: izahlı lüğətlərdə təqdim olunan məna və dil daşıyıcılarının şüurunda mövcud olan məna. Onlar sözün *psixoloji real* və ya *psixolinqvistik mənasını* dil daşıyıcılarının şüurunda verilmiş səs kompleksi ilə həqiqətən də əlaqədar olan bütün semantik komponentlərin məcmusu kimi şərh edir [9, s.66- 67].

Bənzər əşya və hadisələrin eyni sözlə adlandırılmasında həmçinin danışanın müvafiq predmetlərə subyektiv emosional münasibəti də əks olunur. Verbal kommunikasiyada məna iki aspektdə müşahidə olunur: denotativ və konnotativ. Denotativ məna hamı tərəfindən qəbul olunmuş leksik-lüğəvi mənadır. Konnotasiya isə subyektiv və emosional səciyyə daşıyan assosiativ mənadır. Müasir psixolinqvistikada mənanın təhlil üsullarından biri biheviorizmin yaradıcısı Ç.E.Osqud tərəfindın işlənib hazırlanmış semantik diferensial (SD) şkaladır. Bu üsul konnotativ mənaları qiymətləndirmək və hər hansı sözə qarşı fərdin reaksiyasını müəyyənləşdirmək imkanı yaradır.

Ənənəvi dilçilikdə sözün mənasının inkişafı kifayət qədər tədqiqata cəlb olunmuşdur. Linqvistik termin olaraq polisemiya (yunan sözü olan *"polýsēmos"* çoxsaylı mənalara malik olan deməkdir) eyni bir orfoqrafik və fonetik kompleksin bir neçə əşya, keyfiyyət, əlamət və s. ifadə edə bilməsi, sözün çoxkomponentli struktura malik olması kimi xarakterizə olunur. Dil işarəsinin semantik strukturunda əsas (buna nüvə komponent də deyilir) və periferik komponentlər ayırd edilir. Eyni orfoqrafik və orfoepik kompleks təşkil edən sözlərin semantik quruluşunda daxili əlaqə mövcud olmazsa, o zaman yeni yaranan məna çaları çoxmənalılıq deyil, omonimlik kimi qiymətləndirilir. Söz

müxtəlif kontekstlərdə emosional məzmun və üslubi xüsusiyyətlər ilə müxtəlif variantlar və məna çalarları kəsb edə, fərqli şəkildə dərk edilə bilər. Dil sistemində mövcud olan məna ümumi xarakter daşıyır, aktual nitqdə isə dil struktur vahidinin istifadə olunduğu konkret kontekst hesabına nəinki semantik strukturu əmələ gətirən məna komponentlərindən biri reallaşır, həm də yeni mənalar əmələ gəlir.

Sözün mənasının dərk olunması prosesinə psixolinqvistik yanaşma bu prosesi insanın intellektual imkanları çərçivəsində reallaşan bir mexanizm olaraq öyrənir. Nitqin ontogenezini araşdırarkən belə məlum olur ki, mənanın dərk olunması bir neçə mərhələdən ibarət mürəkkəb bir silsilədən ibarətdir. Müxtəlif mütəxəssislər tərəfindən uşaqlar üzərində aparılmış araşdırmalar təxminən belə bir nəticəyə gəlməyə əsas verir ki, sözün mənasının genişlənməsi, məcazi mənanın ayırd edilməsi və ikinci mənalardan nitqdə istifadə intellektual inkişafla birbaşa bağlıdır. İnkişafın erkən mərhələsində uşaq yalnız nominativ mənanı dərk edir. İlk əvvəl əşya, əlamət və hadisələr fərqləndirilir, söz mənalarının diferensiasiyası başlayır. Daha sonra inkişafın növbəti mərhələlərində ümumiləşdirmə bacarığı inkişaf edir. Nəhayət, intellektual inkişafın müəyyən bir mərhələsinə çatdıqda mücərrəd təfəkkür sayəsində mürəkkəb semantik münasibətlər (metaforikləşmə, mənanın genişlənməsi və s.) qurulur və dərk edilir. İnkişafın bu dinamikasını sxematik şəkildə belə təqdim etmək olar: bizi əhatə edən ətraf aləmdəki gerçəklik vahidlərinin diferensiasiyası (birini digərindən fərqləndirmək, ayırd etmək, məsələn, *bu çörəkdir – çay deyil və s.*) → ümimiləşdirmə (bənzər gerçəklik vahidlərini eyni bir adla adlandırmaq) → məna köçürülməsi, metaforikləşmə sayəsində mənanın inkişafı baş verir.

Sözlərdə məna genişlənməsinin başlıca üsullarından biri metaforik mənadan istifadədir. Metaforikləşmə dedikdə, əşya, hadisə və ya hərəkətə xas zahiri və daxili keyfiyyət, zaman, məkan, proses və funksiyanın oxşar əlamətlərinin, ilk növbədə ümumiləşdirilməsi, digərinə köçürülməsi nəzərdə tutulur. Semantik proses olmaqla, metaforikləşmə və ya məna köçürülməsi həqiqi mənanın əsasında mümkündür. Məcazi məna sözün həqiqi mənasından tam şəkildə fərqlənən yeni məna kəsb etməsidir. Lakin sözün məcazi mənası müəyyən edilərkən yenə də əsas mənaya istinad olunur.

Qeyd etdiyimiz kimi, sözdə mənanın genişlənməsi müxtəlif dövrlərdə linqvistikanın tədqiqat obyekti olmuşdur. Həmin tədqiqatların əksəriyyətində çoxmənalılığın yaranması sözün aid olduğu məfhumun ümumiləşdirici xüsusiyyəti ilə, obyektiv gerçəklikdə mövcud olan digər əşya, əlamət və hadisələrlə ortaq cəhətlərə malik olması ilə izah edilir. T.İ.Arbekova çoxmənalı sözün bütün mənalarını əhatə edən məzmunu *семантический стержень – semantik özək* adlandırır: “Əgər sözdə çoxmənalılıq məna modifikasiyası (bəzən isə adın metoforik köçürülməsi) sayəsində inkişaf edirsə, bu halda onun

mənaları bir mərkəzi məzmunla əlaqənir, eyni semantik özək ətrafında toplanır. Mərkəzi məzmun (özək məna, semantik özək) sözdə əsas mənanı və bir çox törəmə mənaları birləşdirən ümumi məzmundur" [4, s.86]. Müxtəlif növ predmetləri adlandırmaq üçün eyni sözdən istifadə edilməsi *mərkəzi məzmunla* izah olunur. Məsələn, ingilis dilində *coat* sözünün semantik strukturuna aid olan mənaları nəzərdən keçirək: 1) üst geyimi – *overcoat / winter coat (palto), raincoat (plaş), fur coat (xəz palto);* 2) heyvanlarda tük örtüyü – *a dog's coat;* 3) örtük, qat, təbəqə – *a coat of paint (bir qat boya), film coated tablets (örtüklü həblər)*; 4) *chocolate coating (şokolad qatı).* Burada dil daşıyıcılarının şüurunda sadalanan mənaları birləşdirən semantik özək *üst qat və ya üzərini örtən təbəqə* anlayışından ibarətdir.

Məlum olduğu kimi, çoxmənalı sözün bütün mənaları biri digəri ilə əlaqədardır, odur ki, bu semantik hadisə mənalar arasında müəyyən ümumiliyi nəzərdə tutur. Beləliklə, ənənəvi dilçiliyə əsasən, sözün semantik strukturunda inkişafın bazasını *mərkəzi məzmun, semantik özək* [4, s. 86], *fərqləndirici və ümumiləşdirici sema* [3, s.295-298] və s. təşkil edir. Bununla da dil daşıyıcılarının şüurunda dərk olunan semantik əlamət ümumiliyi nəzərdə tutulur. Hazırki dövrdə dilin ikili xüsusiyyətə malik həm linqvistik, həm də psixoloji kateqoriya olduğunu nəzərə almaqla aparılan tədqiqatlar həmçinin dərketmə və koqnitiv prosesləri də əhatə edir. Koqnitiv dilçilik isə çoxmənalılığın əsasını məna və məzmunun məhz eyni bir *kateqoriya* çərçivəsində əlaqələndirilməsi prinsipi ilə izah edir. Koqnitiv aspektdə çoxmənalılıq sözün nitq prosesində qazandığı çoxfunksiyalılıq kimi nəzərdən keçirilir.

İnsanın yüksək psixoloji fəaliyyətlər qrupuna aid olan nitqyaratma fəaliyyətini dərketmədən kənar təsəvvür etmək mümkün deyil. Odur ki, sözün mənaca inkişafının ən dəqiq şərhi *"dərk olunan minimal vahid"* bazasında onun linqvo-psixoloji şərhidir. M. Əsgərov "dərk olunan minimal vahid" anlayışını ətraf aləmdə mövcud olan əşya, varlıq və hadisələrin insan beynində inikasını təmin edən minimum cəhətləri, xüsusiyyətləri kimi izah edir [1. s. 46]. Linqvo-psixoloji vəhdət (LPV) nəzəriyyəsində təqdim olunan *gerçəklik elementi* termini məhz bu xüsusiyyəti nəzərdə tutur. Məlumdur ki, hər bir söz özündə müəyyən ümumiləşdirməni əhatə edir, burada ümumi əlamətdar cəhət əsas rol oynayır. Sözün semantik əhatə dairəsinin genişlənməsi həmin ümumi əlamətdar xüsusiyyətin sayəsində baş verir. Belə ki, insan gerçəkliyi və ya onun vahidini deyil, gerçəklik vahidinin öz ehtiyacına uyğun gələn xüsusiyyətini və ya həmin gerçəklik vahidi ilə bağlı özü tərəfindən müəyyənləşdirilən abstrakt təsəvvürü dərk edir. Haqqında söhbət açdığımız *gerçəklik elementi* anlayışı gerçəklik vahidi ilə bağlı insanın özü tərəfindən yaratdığı abstrakt təsəvvür olmaqla yuxarıda qeyd olunan ümumiləşdirici semantik elementlərə və kateqoriyalara nəzərən daha effektivdir. Çünki gerçəklik vahidi əksər halda təbiətin ona

verdiyi xüsusiyyətlər əsasında deyil, onunla təmasda olan və onu dərk edən insanın ehtiyacları prizmasından mənimsənilir və dərk olunur. Bunun səbəbi insanın gerçəklik vahidinə yönələn məqsəd və ya fəaliyyəti ilə bağlıdır [1, s.47].

Buraya qədər deyilənlər əsasında bu qənaətə gələ bilərik ki, sözdə məna və məzmunun əsasını insan tərəfindən dərk olunmuş müəyyən bir gerçəklik vahidinin ən əlamətdar xüsusiyyətləri əsasında yaranan *gerçəklik elementi* təşkil edir. Məsələn, müasir ingilis dilində *table* sözünün *masa* və *cədvəl* mənalarını birləşdirən ümumi element *lövhə*dir. Eyni sözün *yemək* və *cədvəl* mənaları arasındakı ortaq cəhəti isə müvafiq olaraq *masa* və *lövhə* mənalarına əsasən müəyyənləşdirmək mümkündür. Məsələn, *the dinner table – nahar yeməyi – nahar stolu*.

Deməli, çoxmənalı sözün bütün mənaları ümumi fərqləndirici xüsusiyyət, yəni gerçəklik elementi çərçivəsində əlaqələndirilmiş olur. Semantik inkişaf insan tərəfindən dərk olunan minimal vahid, gerçəklik elementinə istinadən həyata keçirilir. İnsan hər bir konkret halda məna köçürmələrini dərk etmiş olduğu və öz ehtiyacına uyğun gələn təsəvvürə əsasən reallaşdırır. Beləliklə, sözün yaranması, dərk olunması və sözdə mənanın inkişaf mexanizmini LPV nəzəriyyəsi bazasında aşağıdakı ardıcıllıqla izah etmək olar: söz informasiya mübadiləsi ehtiyacı ilə əlaqədar yalnız dərk edilmiş gerçəklik vahidinə verilən ad şəklində yaranır. Yarandığı andan etibarən söz *intellekt obrazını* (klassik psixolinqvistikadakı adı ilə desək, *təfəkkür elementi, diferensial element, real və virtual işarəni*) əks etdirərək ikinci sıra *gerçəklik elementi* mahiyyəti qazanır. Sonrakı mərhələdə söz ikinci sıra intellekt obrazı vasitəsilə beyin aparatı tərəfindən yaradılan ikinci sıra *gerçəklik elementi* kimi dərk olunur. Dilin tarixi inkişaf prosesində isə söz müxtəlif semantik dəyişikliklərə məruz qalır.

Mənanın xarakterik cəhətlərindən biri dəqiq stabil sərhədlərinin olmamasıdır ki, bu da öz növbəsində sözün semantikasının potensial inkişafına səbəb olur. Çoxmənalılıq söz və anlayışların daxili təbiətindən irəli gəlir. Çünki hər bir predmet və anlayış çoxlu sayda əlamət və xüsusiyyətə malikdir. Sözlə ifadə olunmuş məfhum həmişə predmetin bir və ya bir neçə xüsusiyyətini ümumiləşdirərək özündə əks etdirir. Bu xüsusiyyət və ya komponentlərdən bəziləri obyektiv aləmdə mövcud olan digər predmetlərlə ortaqdır. Buradan da ümumi və ya bənzər əlamət daşıyan obyektləri adlandırmaq üçün mövcud sözü törəmə mənada işlətmək imkanı meydana gəlir. Əvvəlcə fərdi şüurun məhsulu olan əlavə mənalardan bir qismi həmin dildə danışan kollektivin şüurunda möhkəmlənir və tədricən cəmiyyət tərəfindən qəbul olunur.

İnsanın dərketmə qabiliyyətinin sonrakı inkişafı və sosial təcrübə tədricən ilkin və formal anlayışlardan kənarlaşmalara, onların mürəkkəbləşməsinə imkan yaradır və beləliklə, semantik inkişafın spesifikasını müəyyənləşdirir. Əvvəlki təcrübə əsasında müstəqil şəkildə sistemləşdirmək,

konkretdən mücərrədə keçmək və ümimiləşdirmək bacarığı inkişaf edir. İnkişafın hər bir mərhələsində söz konkret bir predmetlə əlaqəni saxlamaqla yeni məzmun strukturu qazanır.

## ƏDƏBİYYAT


1. *Əsgərov M.B.* Linqvo-psixoloji vəhdət nəzəriyyəsi. Bakı: Elm və təhsil, 2015, 173 s.
2. *Məmmədov N., Axundov A.* Dilçiliyə giriş / Filologiya fakültələri üçün dərslik. Bakı: Maarif, 1980, 103 s.
3. *Verdiyeva Z.N., Ağayeva F.M., Adilov M.İ.* Azərbaycan dilinin semasiologiyası. Bakı, 1979, 298 s.
4. *Арбекова Т.И.* Лексикология английского языка. Москва: Высшая школа, 1977, 86 с.
5. *Бубнова И.А., Зыкова И.В., Красных В.В., Уфимцева Н.В.* (Нео)психолингвистика и (психо)лингвокультурология: новые науки о человеке, говорящем. Москва: Гнозис, 2017, 102 с.
6. *Выготский Л.С.* Мышление и речь. Санкт-Петербург, 2018, 357 с.
7. *Леонтьев А.А.* Психолингвистическое единицы и порождение речевого высказывания. 1969, 197 s.
8. *Лурия А.Р.* Язык и сознание. Москва, 1979, 202 с.
9. *Попова З.Д., Стернин И.А.* Когнитивная лингвистика. Москва: АСТ: Восток-запад, 2007, 67 с.


Redaksiyaya daxil olub 02.07.2020

***UOT 811.111;37***

***F.Ə.Rzayeva***
*Azərbaycan Dillər Universiteti*
*fira_350@mail.ru*

# ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ TƏLƏBƏLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİNİN ELMİ-NƏZƏRİ DİDAKTİK ƏSASLARI

***Açar sözlər:*** *müstəqil iş, didaktika, müstəqil fəaliyyət, prinsiplər, tədris prosesi, motivasiya, yaradıcılıq*

Məqalə ali təhsil müəssisələrində ingilis dilinin tədrisi zamanı tələbələrin yerinə yetirdiyi müstəqil işlərinin təşkilinin elmi-nəzəri didaktik məsələlərinin tədqiqinə həsr edilmişdir. Tələbələrin tədrisdə müstəqil iş problemlərini tədqiq edən D.E.Frenki, V.Q.Kisil, İ.V.Perlova müstəqil fəaliyyət prosesinin öyrənilməsində iki əsas xətti müəyyənləşdirmişlər:

1) dərs sistemində müstəqil işin təşkili vasitələrinin eksperimental öyrənilməsinin didaktik-metodoloji komponenti;

2) təhsil prosesində müstəqil fəaliyyət mexanizminin öyrənilməsi daxil olmaqla psixoloji və didaktik komponent.

Tələbələr tərəfindən müstəqil işin yerinə yetirilməsini iki mərhələyə bölmək olar: a) müstəqil iş haqqında informasiya toplanır, onun yerinə yetirilməsi metodları araşdırılır; b) tələbələr mövzu barədə kifayət qədər konkret məlumatlar və bu məlumatları necə istifadə etmək barədə metodik və didaktik səriştələrə yiyələnmiş olurlar.

***Ф.А.Рзаева***

# НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ДИДАКТИЧЕСКИЕ ОСНОВЫ ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

***Ключевые слова:*** *самостоятельная работа, дидактика, самостоятельная деятельность, принципы, учебный процесс, мотиивация, творчество*

Статья посвящена исследованию научно-теоретических дидактических основ организации самостоятельной работы студентов. Д.Е.Френки, В.Г.Кисиль, И.В.Перлова, которые исследовали проблемы самостоятельной работы студентов, определили два основных направления в изучении процесса самостоятельной деятельности:

1) дидактико-методологический комонент экспериментального изучения средств организации самостоятельной работы в системе обучения;

2) психологический и дидактический компонент, в том числе изучение

механизма самостоятельной деятельности в образовательном процессе.

Самостоятельная работа, выполняемая студентами, может быть разделена на два этапа: а) собирать данные и исследовать методы ее реализации; б) студенты получают достаточную конкретную информацию по теме, а также методические и дидактические навыки использования этой информации.

***F.A.Rzayeva***

## SCIENTIFIC-THEORETICAL DIDACTIC BASES OF THE ORGANIZATION OF INDEPENDENT WORKS OF STUDENTS IN THE PROCESS OF TEACHING ENGLISH AT HIGHER EDUCATIONAL INSTITUTIONS

***Keywords:*** *independent work, didactics, independent activity, principles, teaching process, motivation, creativity*

The article deals with the investigation of scientific-theoretical didactic bases of the organization of students' independent work. D.E.Frenki, V.G.Kisil, I.V.Perlova, who investigated independent work problems of students defined two main directions in studying independent activity process:

1) didactic-methodological component of expeimental studying the means of organization of independent work in lesson system;

2) psychological and didactic component, including independent activity mechanisms in education process.

The independent work done by students can be divided into two stages: a) collect data, investigate its methods of realisation; b) students get mthodological and didactic competence on gathering concrete information and how to use it.

Pedaqogika elminin bir qolu olan didaktika (yunan dilində didaktikos – tədris ilə əlaqəli) tədrisi nəzəri səviyyədə öyrənir və əsası Y.A.Komenski (1592-1670) tərəfindən qoyulmuşdur. Didaktikaya "hər kəsə hər şeyi öyrətməyin universal sənəti" tərifini verən Y.A.Komenski didaktikanın "həqiqi uğurla öyrətmə sənəti olduğunu" qeyd etmişdir və onun didaktik fikirləri XVIII-XIX əsrin I yarısında bir sıra pedaqoqların (J.J.Russo, I.F.Herbart, F.A.Disterveq) yazılarında daha da inkişaf etdirilmişdir [11, s.11].

Fəlsəfi fikirlərə, psixologiya və fiziologiyaya arxalanaraq K.D.Uşinski formal və maddi tərbiyənin birtərəfliliyini göstərmiş, idrak və öyrənmənin oxşarlıqlarını və fərqlərini aşkar etmiş, tələbələrin tədris və müstəqil fəaliyyətlərini birləşdirmək, biliklərin qavranılması, assimilyasiyası, tədris prosesində düşüncənin inkişafı problemlərini, habelə təlim, tələbələrin öyrənməyə həvəsləndirməsi üçün motivlərin yaradılmasını inkişaf etdirmişdir. Müstəqil iş sahəsindəki müasir didaktikanın inkişafına P.K.Anoxin, N.A. Bernşteyn, L.S.Vıqotski, V.V.Davıdov, S.L.Rubinşteyn kimi psixoloqların və fizioloqların apardıqları tədqiqat işləri əhəmiyyətli dərəcədə təsir göstərmişdir [10, s.6].

Tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafı və müstəqil işlərinin təşkili vasitələrinin axtarışı problemi xarici didaktikada da (J.Bruner, N.Hiebsch, J.Higgins, M.Higgins, N.Holec, J.Green, D.Klein, Da Kolb), D.Raphan, A.Ulig, J.Underwood, J. Van Ek, M.Wong və b.) böyük yer tutur [10, s.7].

Didaktikada tələbə muxtariyyəti insanın keyfiyyəti, yüksək inkişaf səviyyəsi hesab olunur. Müstəqillik, hər hansı bir şəraitdə fəaliyyətlərini təşkil etmək, qarşıya məqsəd qoymaq və əzm etmək, digər insanlarla əməkdaşlıq etmək, əvvəllər əldə edilmiş biliklərdən istifadə etmək və müstəqil işlərinin yerinə yetirilməsinə cavabdeh olmaq kimi şəxsi keyfiyyətlərin məcmusunu əhatə edir.

Müstəqil iş tələbənin müəllimlə birbaşa əlaqəsi olmayan və ya müəllim tərəfindən xüsusi tədris materialları vasitəsilə idarə olunan öyrənmə fəaliyyətinin bir növüdür; müəllim və ya dərslik, təlim proqramı uyğun olaraq ilk növbədə tələbələrin fərdi işini təmin edən tədris prosesinin əvəzsiz bir hissəsidir.

Müstəqil işə hazırlıq uğurlu təhsil fəaliyyətinin vacib şərtlərindən biridir. Bu hallar bu gün tələbələrin müstəqil işi üçün motivasiyanın formalaşması probleminin son dərəcə kəskin olduğu qənaətinə gətirir. Müasir təhsil sistemində bilik sisteminin tələbələrə hazır şəkildə təqdimatından getdikcə daha çox müstəqil bilik əldə etmək qabiliyyətlərinin inkişafına zərurət yaranır. B.Əhmədov bu xüsusda bildirir ki, istər ümumtəhsil məktəblərində, istərsə də ali təhsil müəssisələrində öyrədənlərin, tərbiyə edənlərin vəzifəsi, təkcə hazır bilikləri verməkdən ibarət olmayıb, həm də biliyi müstəqil qazanmaq yollarını öyrətməkdən ibarətdir [1, s.23].

Mahiyyət etibarilə ali məktəbdə müstəqil işin təşkili tələbələrdə sərbəst öyrənmə fəaliyyətini gücləndirməyə xidmət edir. R.Mahmudovanın fikrincə, tədris planlarının təhlili göstərir ki, ali məktəblərdə tədricən auditoriya məşğələlərinin saatlarının miqdarı azalır və buna müvafiq olaraq verilən nəzəri biliklərin də həcmi azalır. Dünyanın qabaqcıl ali məktəblərində də auditoriya məşğələlərinin saatlarının miqdarı azdır. Burada məqsəd tələbələrin auditoriya məşğələlərində həddən artıq yüklənməsinin qarşısını almaq və tələbələrin müstəqil bilik əldə etmələrinə şərait yaratmaqdır [2, s.142].

Tələbələrin müstəqil işlərinin səmərəliliyini təmin etmək məqsədilə birinci kursdan başlayaraq son kursadək ali məktəbdə təhsilin bütün mərhələ və pillələrində, müstəqil işlərin ən aktual formalarından istifadə olunmalıdır. Tələbələrin müstəqil işləri konkret və perspektiv məqsədlərə xidmət etməlidir. Ali məktəbdə müstəqil işlərin həm təlim, həm də təlimdənkənar formalarından geniş istifadə olunmalı, onun təşkilində təsadüfiliyə, pərakəndəliyə yol verilməməlidir [4, s.212].

Xarici dili öyrənərkən tələbələr qarşılarına qoyulan didaktik məqsədlərə

tədris prosesində müxtəlif növdə və formada olan müstəqil işlərin yerinə yetirilməsi hesabına nail ola bilər. Xarici dilin praktiki mənimsənilməsi baxımından müstəqil işin əsas vəzifələri xarici dildə ünsiyyət qabiliyyətinin müvafiq səviyyəsinə nail olmaq və məzunları məzun olduqdan sonra xarici dili müstəqil öyrənmək üçün hazırlamaqdır.

İndiyə qədər tələbələrin tədrisdə müstəqil iş problemlərini tədqiq edən mütəxəssislər (D.E.Frenki, V.Q.Kisil, İ.V.Perlova, Y.N.Zaitseva, Y.V.Filimonova, T.D.Reçkina) müstəqil fəaliyyət prosesinin öyrənilməsində iki əsas xətti müəyyənləşdirmişlər:

1) dərs sistemində müstəqil işin təşkili vasitələrinin eksperimental öyrənilməsinin didaktik-metodoloji komponenti;

2) təhsil prosesində müstəqil fəaliyyət mexanizminin öyrənilməsi daxil olmaqla psixoloji və didaktik komponent [10, s.7].

Bu iki xəttin hər ikisi vacibdir, lakin birinci komponent, yəni didaktik-metodoloji komponent daha vacibdir.

Normal leksik bacarıqlar formalaşmadan hər hansı bir xarici dil öyrənmək ağlasığmazdır. Oxumağı və dinləməyi öyrətmənin müsbət təsiri ilk növbədə bu bacarıqların formalaşma dərəcəsindən və leksik bacarıqların formalaşmasından asılıdır. Ümumi fəaliyyətin quruluşunda bacarıq fenomeninin təhlili (S.L.Rubinştein, A.N.Leontyev, E.V.Guryanov, A.V.Petrovsky və s.), eləcə də nitq fəaliyyətinin quruluşunda nitq bacarığı fenomeninin təhlili (B.V.Belyaev, V.A.Buxbinder, P.B.Gurvich, L.Q.Voronin, I.A.Zimnaya, L.B.İtelson, S.F.Shatilov, Y.I.Passov və s.) bizə imkan verir ki, danışıq bacarığının kommunikativ bacarıqların avtomatlaşdırılmış (qrammatik, leksik, fonetik) komponentlərindən başqa bir şey olmadığını düşünən S.F.Şatilovun fikirlərini qəbul edək. Bu konsepsiya əsasında avtomatlaşdırılmış nitq əməliyyatları – müxtəlif nitq fəaliyyətində qrammatik, leksik, fonetik əməliyyatlar haqqında danışa bilərik. Nitq bacarıqları həmişə danışmaq, dinləmək, oxumaq və yazmaq kimi kommunikativ bacarıqların bir hissəsi olaraq vəhdət təşkil edirlər və birlikdə fəaliyyət göstərirlər [10, s.8].

Belə hesab etmək olar ki, müstəqil iş şəxsiyyətin inkişafına yönəlmiş müstəqil fəaliyyətdir. Burada iki bir-birilə sıx əlaqəli olan vacib xüsusiyyəti qeyd etmək lazımdır: təlim tapşırıqlarının formalaşdırılması və bu vəzifənin yerinə yetirilməsində tələbə fəaliyyətinin təşkili (müstəqil və ya müəllimin rəhbərliyi altında).

Hər hansı bir təhsil prosesi kimi, tələbənin müstəqil işi də müəllimlər tərəfindən planlaşdırılmalıdır. Müstəqil iş prosesində bir tələbənin aktiv zehni fəaliyyətinə nail olmaq, müəllimin bu işi sistematik şəkildə təşkil etməsi və bacarıqla idarə etməsi şərtilə mümkündür.

Xarici dillərin öyrənilməsində tələbələrin müstəqil iş növlərini müəyyən edən V.A.Ujikin təsnifatı maraq doğurur [8, s.9]. O, tələbələrin müstəqil

işlərini işin icra edildiyi yerə görə (auditoriya, ev), müddətinə görə (qısamüddətli – sadə, uzunmüddətli – kompleks); məzmunu və aparılması üsullarına görə (söhbət və müşahidələr zamanı müstəqil tapşırıqlar, qrammatik analiz, qrafiklər və cədvəllər üzərində işləmək) fərqləndirir. L.Golovko təhsil prosesinin yerinə görə (auditoriya, auditoriyadan-kənar), müstəqil iş növləri tələbələrin müstəqil fəaliyyətlərinin həyata keçirilməsinə münasibətdə (məcburi, arzuolunan, könüllü); təlim formalarında fəaliyyət növünə görə (təhsil və idrak, professional); müstəqil fəaliyyət səviyyəsinə görə (aşağı, orta, yüksək) müstəqil iş növlərini müəyyənləşdirir [5, s.101].

Didaktikada müstəqillik vacib şəxsi keyfiyyət və özünütəşkiletmə bacarıqları sistemi kimi dəyərləndirilir. Tələbəni nə zaman müstəqil işə cəlb etmək barədə müxtəlif fikirlər mövcuddur. Fikrimizcə, birinci kursdan başlayaraq tələbələr müstəqil işə cəlb edilməlidirlər. Müstəqil iş bir sıra didaktik tələblər yerinə yetirildiyi təqdirdə tələbələri təlimə motivasiya edir. Əvvəla, müəllim tələbələrə verilmiş müstəqil işi, onun təsnifatını, ona verilən didaktik məqsəd və metodik vəzifələri özü dərindən bilməlidir. Bu zaman müəllim müstəqil işin təlimin müvafiq mərhələsinə uyğun gəlib-gəlməməsinə də diqqət yetirməlidir. İkincisi, tələbələrin müstəqil işlərə cəlb edilməsi mərhələsi onların fərdi təcrübələrinə (bilik, bacarıq və vərdişlərinə) əsaslanmalıdır. Son olaraq, müəllimin burada həlledici mövqeyə malik olmasını da nəzərdən qaçırmaq olmaz [9, s.128].

Tələbələrin müstəqil işinin təşkili universitetdə pedaqoji fəaliyyətin bu istiqamətinin xüsusiyyətlərini əks etdirən didaktik prinsiplər nəzərə alınmaqla həyata keçirilir [7]. Bu prinsiplər aşağıdakılardır:

1. Tələbələrin tədris (auditoriyada yerinə yetirilən) və müstəqil (auditoriyadan kənar) **fəaliyyətlərinin vəhdəti prinsipi**. Auditor məşğələlər tələb olunan minimum müstəqil işin bütün tələbələr tərəfindən yerinə yetirilməsini və tapşırıqların müəllimin nəzarəti altında aparılmasını təmin etməlidir.

2. Tələbələrin idrak qabiliyyətlərini və maraqlarını nəzərə almağa imkan verən **fərdiləşdirmə və fərqləndirmə prinsipi.** Bu prinsipin həyata keçməsi müxtəlif səviyyəli müstəqil işlərin yerinə yetirilməsini tələb edir. Bu onunla əlaqədardır ki, tələbələrin intellekt səviyyələri müxtəlifdir. Müxtəlif səviyyəli tapşırıqlara ali peşə təhsili standartının tələblərini əks etdirən məcburi hissə daxil edilməlidir.

3. Tələbələrin təhsil və idrak fəaliyyətlərinin peşə və pedaqoji fəaliyyətlərinə ötürülməsinə töhfə verən **peşə istiqaməti prinsipi**. Peşəkar və pedaqoji yönüm müəllimin fərdi keyfiyyətləri ilə xarakterizə olunur, pedaqoji fəaliyyətə, nəzəri biliklərə maraq əsasında formalaşır və inkişaf etdirilir, ali məktəbdə tədris praktikası zamanı gələcək müəllimlərin qazandığı öz pedaqoji təcrübəsi ilə möhkəmlənir.

4. Tələbələrin şüurluluq və **yaradıcı fəaliyyət prinsipi**. Tələbələrin müstəqil işlərinin təşkilində bu prinsipin həyata keçirilməsi tələbələrin bilikləri şüurlu şəkildə mənimsəməsini, eyni zamanda zehni fəaliyyət metodlarını, fəal idrak fəaliyyəti prosesində müstəqil iş metodlarını tələb edir.

5. Müstəqil işlərin yerinə yetirilməsinə verilən vaxtı nəzərə alaraq tapşırıqların **mümkün çətinlik prinsipi**. Bu prinsip tələbələrə verilən tapşırıqların məzmununun və müstəqil öyrənilən materialın həcminin tələbələrin intellektual inkişafı səviyyəsinə, əvvəlcədən hazırlıq nəticələrinə uyğunluğunu tələb edir [12, s.4].

Qeyd etmək lazımdır ki, tələbələr tərəfindən müstəqil işin effektiv yerinə yetirilməsi üçün universitet müəllimləri tərəfindən planlaşdırma və nəzarətin səmərəli aparılması, tədris planında müstəqil işlərin həcminin planlaşdırılması, onun təşkili və tələbəyə kömək məqsədi ilə tədris vəsaitlərinin hazırlanması zəruridir.

Tələbələrin  müstəqil işlərinin səmərəli olması üçün aşağıdakı didaktik şərtlərə əməl edilməlidir: 1) auditoriya və müstəqil işin optimal birləşməsi, onun təşkili metodologiyası; 2) müstəqil iş üçün tədris və metodiki dəstəyin yaradılması, o cümlədən tələbələri istiqamətləndirən tədris və metodik materialların işlərin tələblərinə, həcminə və yerinə yetirilməsi vaxtına yönəldilməsi; təhsil təlimatları; mühazirə qeydləri, praktik və laboratoriya işləri üçün didaktik materiallar; diaqnostika, təlim və nəzarət tapşırıqları, həmçinin internet resurslarından istifadə, distant təhsil sisteminin tətbiqi; 3) tələbələrin müstəqil işlərinin nəticələrinin sistematik monitorinqinin həyata keçirilməsi;

Didaktik məqsədə görə müstəqil işin dörd tipini ayırmaq məqsədəuyğun olardı [6, s.3-4].

**1-ci tip.** Bu tip müstəqil işlərin xüsusiyyətləri ondan ibarətdir ki, onlar tələbələrdə onlardan tələb olunan şeyləri müəyyən etmək bacarığının formalaşdırılmasına xidmət edir. Bu vəziyyətdə tələbələrin idrak fəaliyyəti, müəyyən bir bilik sahəsinin obyektlərinin onlar haqqında məlumatları və ya onlarla əlaqəli hərəkətləri təkrar qəbul etməsi ilə tanınmasından ibarətdir. Bu tip müstəqil işlərə nümunə olaraq,  ev tapşırıqlarından ən çox istifadə olunur: dərslik, mühazirə qeydləri və s. ilə işləmək. Birinci növ müstəqil iş üçün ortaq olan şey istədiyi məlumatların hamısı, tapşırığın yerinə yetirilməsidir.

**2-ci tip.** Tipik vəzifələri həll etməyə imkan verən biliklərin formalaşdırılması. Bu vəziyyətdə tələbələrin idrak fəaliyyəti obyektin təsvirini, tapşırığın yerinə yetirilməsinin müxtəlif yollarını, seçilməsini, təhlil etməyi şərtləndirən məlumatların quruluşu və məzmununun dəyişdirilməsindən ibarətdir. Bu tip müstəqil işlər laboratoriya işinin və praktik məşğələlərin ayrı-ayrı mərhələlərini, model kurs layihələrini, habelə alqoritmik təlimatlarla xüsusi hazırlanmış ev tapşırıqlarını əhatə edir. Bu qrupa daxil olan müstəqil işlərin özəlliyi ondan ibarətdir ki, onlara verilən tapşırıqda fikir, həll prinsipi ilə əlaqə

qurmaq və tələbələrə bu prinsipi və ya ideyanı tətbiq olunan şəkildə inkişaf etdirmək tələbini irəli sürmək lazımdır.

**3-cü tip.** Atipik problemlərin həllini əsas götürən biliklərin formalaşması. Təcrübəçilərin bu cür vəzifələri həll etməkdə idrak fəaliyyəti, bilik, bacarıq və vərdişləri ötürməklə əvvəlcədən öyrənilmiş rəsmiləşdirilmiş təcrübəyə (məlum alqoritmdən istifadə etməklə) əsaslanaraq yeni təcrübə toplamaq və xarici planda təzahür etdirməkdir. Bu tip tapşırıqlar həmişə keçmiş formalaşdırılmış təcrübədən kənara çıxan və tələbənin tapşırıq şərtlərini və əvvəllər əldə edilmiş təhsil məlumatlarını yeni nöqteyi-nəzərdən nəzərdən keçirmələrini tələb edən bir həll ideyasının axtarışı, formalaşdırılması və həyata keçirilməsini əhatə edir.

**4-cü tip**. Bu qrupa daxil olan müstəqil işlərin əsas məqsədi yaradıcı fəaliyyət üçün ilkin şərtlər yaratmaqdan ibarətdir. Bu işlərin yerinə yetirilməsində tələbələrin idrak fəaliyyəti tədqiq olunan obyektin mahiyyətinə dərindən nüfuz etmək, yeni, əvvəllər məlum olmayan prinsiplər, fikirlər tapmaq və yeni məlumatlar yaratmaq üçün zəruri olan yeni əlaqələrin və münasibətlərin qurulmasından ibarətdir. Bu müstəqil iş adətən kurs və diplom layihələri daxil olmaqla tədqiqat tapşırıqlarının icrasında həyata keçirilir.

Təlim prinsipləri təlim və tərbiyə məqsədlərinə uyğun olaraq təlim qanunlarından istifadə yollarını xarakterizə edən didaktik kateqoriyalardır. Hal-hazırda didaktika tərbiyənin tərbiyəvi təbiəti, elmiilik, nəzəriyyə ilə təcrübə arasındakı əlaqə, biliklərin mənimsənilməsində sistematiklik, tələbələrin fərdi fərqlərini nəzərə alaraq davamlılıq və tədricən artmaqda olan tələbələrin öyrənmə, vizuallaşdırma, əlçatanlıqdakı şüur və fəaliyyəti kimi fərqləndirir.

Xarici dilləri öyrətməkdə elmilik prinsipi o deməkdir ki, tədris prosesi dildə istifadə olunan ünsiyyətin xüsusiyyətləri, nitqin yaranması və tanınması və s. barədə müasir elmi məlumatları nəzərə almaqla qurulmalıdır. Şüurluluq prinsipi göstərir ki, yaradılan bacarıqların effektivliyi, gücü və çevikliyi avtomatlaşdırılmış hərəkətlərin bilinməsindən, ana dilinin müdaxilə vərdişlərinin şüurlu və fəal şəkildə aradan qaldırılmasından və doğma dildə təcrübənin istifadəsindən birbaşa asılıdır. Öyrənilən materialın məlumatlandırılması qayda, göstəriş, şərh, vizuallaşdırma (diaqramlar, cədvəllər və s.) vasitəsilə də həyata keçirilir [3, s.90-95].

Xarici dilin tədrisi prosesində tərbiyə və inkişaf tədrisi prinsipi tələbələrin filoloji tərbiyəsini genişləndirməyə imkan verən, ünsiyyət vasitəsi kimi dil haqqında düzgün anlayışları formalaşdıran ideal səsli mətn və tapşırıqların, dil dərslərinin seçilməsi yolu ilə həyata keçirilir. Didaktikada öyrənmənin əvvəlcədən inkişaf etməsi və müəyyənləşdirilməsi tələb edilir.

Fəaliyyət prinsipi öyrənmə motivasiyasını yaratmaq, hər bir tələbəni aktiv nitq və düşünmə fəaliyyətinə cəlb etmək, duyğularına təsir göstərmək, oyun anlarından, yarışmalardan və problemli tapşırıqlardan istifadə etməklə

həyata keçirilir.

Əyanilik prinsipi vizual (şəkillər, fotoşəkillər, epikadrlar), eşitmə (səs yazıları, radio proqramları) və vizual-eşitmə (masalar, denotasiya xəritələri, diaqramlar, xarici dildə yazısı olan filmlər) vizualizasiyanın geniş yayılmasını təmin edir.

Mümkünlük və məqsədəuyğunluq prinsipi güclü, orta və zəif tələbələr qrupunu nəzərə alaraq tələbələrin çətinliklərdən keçmək bacarığını nəzərə almağı tələb edir.

Davamlılıq prinsipi tələbələrin intellektual və emosional fəaliyyətlərinə güvənmək, fərqli nəzarət növlərindən istifadə edərək rəylər təşkil etmək və müxtəlif məşqlərdə həzm olunan materialla tələbələrin çoxsaylı görüşlərini təmin etməklə həyata keçirilə bilər.

Fərdiləşmə prinsipi tələbələrin imkanlarını, maraqlarını öyrənir.

Bundan başqa ümumi və xüsusi prinsiplər fərqləndirilir. Ümumi prinsiplərə aşağıdakılar daxildir: 1) təlimin kommunikativ yönümü; 2) ana dilinin xüsusiyyətlərinin nəzərə alınması; 3) xarici dilin tədrisi zamanı bütün səviyyə və sahələrdə tapşırıqların dominantlığı;

Xüsusi prinsiplərə aşağıdakılar daxildir: 1) nitq modelləri (nümunələr) əsasında xarici dillərin tədrisi; 2) dil təliminin nitq praktikası ilə birləşməsi; 3) nitq fəaliyyətinin bütün növlərinin qarşılıqlı əlaqəsi; 4) oxumaq və yazmağı öyrədərkən şifahi tapşırıqların üstünlük təşkil etməsi; 5) xarici dildə danışma keyfiyyətinin aşağı düşməsinə imkan verən təhsil fəaliyyətlərinin yaxşılaşması; 6) təlimin orta və yuxarı səviyyələri ilə müqayisədə daha çox sayda təlim məşqinin aparılmasını təmin edən ilkin hazırlıq mərhələsinin intensivliyi [12, s.5].

Xarici dil öyrətməyin praktik məqsədini nəzərə alaraq onu ünsiyyət vasitəsi kimi öyrətmək üçün kommunikativ istiqamət prinsipini aparıcı metodik prinsip adlandırmaq lazımdır. Bu o deməkdir ki, təlim tələbələri şifahi (dinləmə, danışma) və yazılı (oxumaq, yazmaq) ünsiyyətə cəlb edəcək şəkildə qurulmalıdır. Bu prinsip bu və ya digər dərəcədə xarici dillərdəki metodlar, dərsliklər və dərs vəsaitləri üzrə bütün müasir əsərlərdə öz əksini tapmışdır.

Kommunikativlik prinsipi təlimin əsas məzmununu – ünsiyyət zamanı tələbənin şifahi və yazılı nitqini formalaşdırmaq üçün lazım olan kommunikativ bacarıqları müəyyənləşdirir. Məsələn: salamlaşmaq, kiməsə məsləhət vermək, kiminləsə məsləhətləşmək və s. Kommunikativ yönümlülük prinsipi tədris materialının təşkilini və seşilməsini müəyyənləşdirir: mövzu, ünsiyyət sahəsi, ünsiyyət situasiyası.

Mövzu həmsöhbətlərin nitq davranışlarını tənzimləyir və minimuma endirir. Onlara mənalı qarşılıqlı təsir göstərir (bu barədə danışmağı, oxumağı, yazmağı öyrənə bilərsiniz), əks halda dil materialının həcmini minimuma endirmək mümkün olmur və eyni zamanda öyrənmənin kommunikativ təbiətini

və praktiki cəhətdən vacib məqsədə nail olmaq üçün diqqətini qoruyur. Ünsiyyət sahəsi, ünsiyyətin harada, kimin arasında baş verə biləcəyini, insanın hansı sosial və ünsiyyət rollarına girdiyini müəyyən etməyə imkan verir. Ünsiyyətyönümlülük prinsipi, stimullaşdıran ünsiyyət üçün lazımlı orijinal səs və çap materialı əsasında öyrənilən dilin kommunikativ funksiyasının ustalığını təmin edə biləcəyiniz təlim vasitələrini müəyyənləşdirir. Bu prinsipin həyata keçirilməsi ünsiyyət üçün əlverişli şərtlərə uyğun olmağı tələb edir. Ona inam bütün tədris prosesi boyunca: tələbələrin onun kommunikativ funksiyasını görməsi dil materialı təqdim edərkən baş verməlidir. Tələbələr bilməlidirlər ki, bu dil bölməsinin köməyi ilə nəyi öyrənəcəklər, nəyi ifadə edə biləcəklər.

Ünsiyyət istiqaməti prinsipini həyata keçirmək üçün aşağıdakıları tövsiyə etmək olar:

1. Bir söz, ifadə, qrammatik fenomenlə tanış olun, tələbələrə ünsiyyətdə bu bölmənin hərəkətini göstərəcək bir vəziyyət seçin: ünsiyyət qurmaq, tapmaq, ad vermək, ifadə etmək üçün istifadə edilə bilən şeylər.

2. Materialı təkrarlayarkən, müəyyən bir qrupda məşqlərin həqiqi şərtlərinə əsaslanaraq yeni bir şey etməyə çalışın.

3. Rabitə danışanın və dinləyicinin aktiv qarşılıqlı əlaqəsidir. Rabitə prosesini stimullaşdıran yeganə mənbə kimi davranmayın, oyun, o cümlədən rol oyunlarından istifadə edərək tələbələrin təhsil prosesində aktiv iştirakını təmin edin.

4. Həzm olunan material əsasında ünsiyyət təşkil edin, ünsiyyət üçün əlverişli şərait yaradın ki, tələbələr oxuduqları dildə dinləmək, danışmaq, oxumaq və yazmaqdan zövq alsınlar. Tələbənin tapşırığı yerinə yetirə bilməməsi, onlara inam aşılamaq, uğursuzluqlarını deyil, uğurlarını daha çox vurğulamaq üçün qıcıqlanmağınızı göstərməyin.

5. Oxuyarkən tələbələrin əsas diqqətini oxunanların semantik tərəfinə yönəldin və bunun üçün tapşırıqlardan daha geniş istifadə edin: nə öyrəndiklərimi, oxuduqlarımı, buna münasibətinizi. Tapşırığı dəyişdirmədən mətni yenidən oxumayın.

Xarici dil tədrisində ana dilinin nəzərə alınması prinsipi mühüm rol oynayır. Doğma dil tədris materialını və tədris prosesində onun təşkili zamanı dilçilik baxımından öyrənilən dilin tələffüzü, qrammatikası və leksik tərəflərini öyrətməkdə çətinlik çəkdiyi üçün nəzərə alınmalıdır.

Psixoloji cəhətdən ana dilinin nəzərə alınması prinsipi nitq fəalyyətlərinin quruluşunu müəyyənləşdirmək üçün, nitq bacarıqlarının formalaşması üçün zəruri olan bacarıqları inkişaf etdirmək üçün hansı hərəkətləri və onlardan neçəsini etmək lazım olduğu üçün çox vacibdir.

Müstəqil iş gələcək mütəxəssisin şəxsiyyətinin formalaşmasına təsir edir. Məhz buna görədir ki, biz əsas diqqətimizi onun (müstəqil işin) tələbənin təlim fəaliyyətinin motivasiya edilməsi imkanlarının inkişaf etdirilməsinə

yönəldəcəyik. Onu da qeyd etmək lazımdır ki, hər bir ali məktəb təkcə tələbəyə bilik verməklə kifayətlənməməlidir, o, eyni zamanda tələbələri təlim prosesinin hər mərhələsində motivasiya edərək lazımi bilikləri müstəqil şəkildə necə əldə etməyi öyrətməlidir.

Ali təhsilin əsas vəzifəsi yaradıcı şəxsiyyətin, özünü inkişaf etdirməyə, özünü tərbiyə etməyə və yeniliyə qadir bir mütəxəssisin formalaşdırılmasıdır, çünki biliklərin yalnız hazır formada tələbəyə ötürülməsi ilə bu problemləri həll etmək qeyri-mümkündür. Tələbəni passiv bilik istehlakçısından aktiv yaradıcıya çevirmək lazımdır: məhz aktiv yaradıcı tələbə problemi necə formalaşdırmağı, həll yollarını təhlil etməyi, istədiyi nəticəni tapmağı və düzgünlüyünü sübut etməyi bilir.

Beləliklə, tələbələr tərəfindən müstəqil işin yerinə yetirilməsini iki mərhələyə bölmək olar. Birinci mərhələdə müstəqil iş haqqında informasiya toplanır, onun yerinə yetirilməsi metodları araşdırılır. Bu mərhələdə müəllimin aparıcı rolunu xüsusi qeyd etmək lazımdır. Müəllim tələbələrə lazımi metodik göstərişlər, həmin mövzu barədə məlumatlar verməklə yanaşı, onların işi yerinə yetirmələrinə nəzarət edir. Müstəqil işin yerinə yetirilməsinin bu mərhələsi o zaman bitmiş hesab edilir ki, tələbələr mövzu barədə kifayət qədər konkret məlumatlar və bu məlumatları necə istifadə etmək barədə metodik və didaktik səriştələrə yiyələnmiş olsunlar. Bu mərhələdə motivasiyalar sistemi tələbələrin daha yaxşı işləmələrini təmin edir.

## ƏDƏBİYYAT


1. *Əhmədov B.* Elmi-texniki inqilab və müəllim hazırlığı // Azərbaycan məktəbi, 1978, №6, s.19-26
2. *Mahmudova R.M.* Mühazirədə tələbə müstəqil işinin təşkilinin bəzi pedaqoji məsələləri // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, 2010, №3, s.140-148
3. *Mahmudova R.* Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Bakı: Çaşıoğlu, 2005, 135 s.
4. *Rüstəmov F., Dadaşova T.* Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007, 568 s.
5. *Головко Л.* Роль самостоятельной работы студентов в процесе подготовки специалистов агропромыслового комплекса // Освита и управления, №2. 1998, с.100-103
6. *Дайри Н.Г.* О сущности самостоятельной работы / Народное образование, 1963, с.3-5
7. *Пичкова Л.С.* Организация самостоятельной работы студентов как фактор формирования профессионально-значимых компетенций. Пути повышения конкурентоспособности экономики России в условиях глобализации / Материалы конференции. МГИМО (У) МИД РФ. М.: МГИМО-Университет, 2008, с.6

8. *Ужик В.А.* Педагогические основы самостоятельной работы студентов (на материале иностранных языков и курсов неязыковых вузов): дисс. … канд. пед. наук. Киев: КГПИ. 1981, 153 с.

9. *Anjomshoa Leila & Sadighi Firooz.* The Importance of Motivation in Second Language Acquisition, International Journal on Studies in English Language and Literature (IJSELL) V. 3, Issue 2, February 2015, pp.126-137

10.http://www.dslib.net/obw-pedagogika/multimedia-kak-sredstvo-intensifikacii-samostojatelnoj-raboty-studentov-v.html

11.https://studfile.net/preview/5179000/page:3/

12.https://kto.guru/filologia/1030-didakticheskie-osnovy-i-principy-obucheniya-inostrannym-yazykam.html

Redaksiyaya daxil olub 28.08.2020

# İctimai elmlər

***UOT 94(479.24);159.9***

***A.D.Zamanov, R.İ.Əliyev***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*a_zamanov@mail.ru, ramizeliyev1954@mail.ru*

## MÜNAQİŞƏDƏN MÜHARİBƏYƏ: SOSİAL-PSİXOLOJİ TƏHLİL

***Açar sözlər:*** *itki, münaqişə, sərhəd, vətən, işğal, qələbə*

Məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabag münaqişəsinin yaranması, kəskinləşməsi və müharibəyə çevrilməsinin tarixi kökləri və səbəbləri sosial-psixoloji aspektdə araşdırılmışdır. Həmçinin göstərilmişdir ki, son otuz ilə yaxın bir müddətdə Azərbaycanın ardıcıl, dayanıqlı, qətiyyətli daxili və xarici siyasəti Vətən uğrunda müharibədə tezliklə qalib gələcəyimizə, işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycan bayrağının ucaldılmasına səbəb olacaqdır.

***А.Д.Заманов, Р.И.Алиев***

## ОТ КОНФЛИКТА К ВОЙНЕ: СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ

***Ключевые слова:*** *потеря, конфликт, граница, родина, оккупация, победа*

В статье исследованы исторические корни и причины возникновения, обострения и превращения в войну армяно-азербайджанского конфликта вокруг Нагорного Карабаха со социально-психологической точки зрения. Было также обосновано, что последовательная, устойчивая, решительная внутренняя и внешняя политика Азербайджана на протяжении последних тридцати лет вскоре приведет к нашей победе в войне за Родину и поднятию азербайджанского флага на наших освобожденных землях.

***A.D.Zamanov, R.I.Aliyev***

## FROM CONFLICT TO WAR: SOCIO-PSYCHOLOGICAL ANALYSIS

***Keywords:*** *loss, conflict, border, homeland, occupation, victory*

Beginning, escalation, historical roots and reasons of Nagorno-Karabakh conflict between Armenia and Azerbaijan have been reviewed from sociopsychological aspects in the article.

Further in the article it is also particularly reflected that, almost thirty years of systematic, sustainable and determined domestic, as well as foreign policy of Azerbaijan led to the triumphant victory in the battlefield for our country and waving of glorious Azerbaijani flag in the liberated territories from occupation.

Mixail Qorbaçovun 1985-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi vəzifəsinə seçilməsi və psevdoislahatlara başlaması istər SSRİ-də, istərsə də dünyada dağıdıcı hadisələrin baş verəcəyini qaçılmaz edirdi. Zəif iradəli Baş katibin qətiyyətsizliyi qısa müddətdən sonra xaosun yaranacağından xəbər verirdi. Yaranmış vəziyyətdən öz xeyirlərinə istifadə etməyin mahir ustası olan ermənilərin yüzillər boyu arzuladıqları, həyata keçirmək üçün fürsət axtardıqları şərait yaranmışdı. Danılmaz həqiqətdir ki, nəhəng siyasətçi, xarizmatik şəxsiyyət Heydər Əliyevin Kremldə yüksək vəzifədə olması onların planlarının qarşısını alırdı. İlk növbədə Heydər Əliyevi Kremldən, vəzifəsindən uzaqlaşdırmaq lazım idi və onlar bu bəd niyyətlərini həyata keçirə bildilər.

Qorbaçov "perestroykası"nın müəlliflərindən hesab edilən akademik Abel Aqanbekyanın Parisdə erməni diasporu qarşısında Dağlıq Qarabağa yüksək statusun verilməsini SSRİ rəhbərliyi ilə razılaşdırıldığını bəyan etməsi hadisələrin artıq ciddi xarakter aldığını göstərirdi. Bir qədər sonra Dağlıq Qarabağdakı mitinqlər, ermənilərin törətdiyi Sumqayıt hadisələri, azərbaycanlıların Ermənistandan – öz əzəli torpaqlarından, dədə-baba yurdlarından qovulması artıq Qarabağ münaqişəsini qaçılmaz edirdi. SSRİ dağıdıldıqdan sonra MDB məkanında böhran halları günbəgün dərinləşdiyindən dövlətçiliyimizin reallığı belə təhlükələrlə üz-üzə qalmış, həmvətənlərimizin haqq və hüquqlarının kütləvi şəkildə pozulması, həyat səviyyəsinin görünməmiş dərəcədə pisləşməsi meyilləri adi hal almışdır. 1990-cı ilin 20 yanvar faciəsi hadisələrin kulminasiya nöqtəsi oldu. Lakin zaman azərbaycanlılar üçün münasib deyildi. Tez-tez baş verən hakimiyyət dəyişikliyi, yüz minlərlə qaçqın və köçkün, onların problemlərinin həlli və digər məsələlər ölkəni çıxılmaz vəziyyətə salmışdı. Demək olar ki, Dağlıq Qarabağ Bakının nəzarətindən kənarda idi. 1988-ci ildən Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizdə əhalinin təkcə sosial rifahı yox, bütövlükdə təhlükəsizliyi real qorxu altında qalmışdı. Bu, erməniləri qane etmir, onların daha çox əraziləri öz nəzarətinə almaq istəklərini artırırdı. Nəhayət, ermənilər havadarlarının köməyilə Dağlıq Qarabağa heç bir aidiyyəti olmayan Laçını, Kəlbəcəri, Ağdamı, Cəbrayılı, Füzulini, Qubadlını və Zəngilanı işğal etdilər. Münaqişənin birinci mərhələsi məğlubiyyətlə nəticələndi. Böyük güclərin, beynəlxalq təşkilatların qərarları ilə davranışları arasında kəskin fərq göstərirdi ki, onları problemin həlli yox, süni şəkildə sülhün, sabitliyin olması maraqlandırırdı. Qarşılıqlı kompromis təklif olunur, haqsız olan daha çox dəstəklənirdi, təəssüf ki...

Cəzasızlıq, mənfur ermənilərin xeyrinə birtərəfli mövqe onları daha da azğınlaşdırır, Azərbaycan ərazilərini zəbt etmək istəyini gücləndirirdi. Azərbaycan xalqı sanki ikili hiss yaşayırdı: torpaq itkisi, torpaq həsrəti, ümidsizlik, qürurun tapdalanması və eyni zamanda düşdüyü vəziyyətlə barışmamaq, vəziyyətdən çıxış yollarının axtarılması... Münbit şəraitin yaranmasını gözləmək lazım gəlirdi.

Lakin taleyin də öz qəribə qaydaları var. Hər bir insanın öz xarakteri, taleyi olduğu kimi, hər bir xalqın da öz xarakteri, taleyi var. 1993-cü ildə siyasi

uzaqgörənliyi, diplomatik gedişləri, zəngin təcrübəsi ilə tanınmış dünya liderlərini mat qoyan Heydər Əliyev hakimiyyətə gəldi və həm daxili, həm beynəlxalq vəziyyəti, həm də ölkəmizin iqtisadi və digər imkanlarını nəzərə alaraq 1994-cü ilin may ayında "Atəşkəs"ə nail oldu. Qaçqın və köçkünləri yerləşdirmək, ölkədə sabitlik yaratmaq, dağılmış iqtisadiyyatı bərpa etmək lazım idi.

Həm ölkənin iqtisadiyyatını dirçəltmək, həm də müstəqilliyini gücləndirmək baxımından "Əsrin müqaviləsi"nin imzalanması çox böyük əhəmiyyətə malik hadisə oldu. Həqiqətdir ki, həmin vaxt yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanı tanıyanların sayı o qədər də çox deyildi. Dağlıq Qarabağın tanınmasından söhbət belə gedə bilməzdi. Ulu Öndər həmin vaxtlar səfər etdiyi ölkələrə özü ilə Azərbaycanın xəritəsini aparır, Dağlıq Qarabağın harada, hansı ərazidə yerləşdiyini dünyaya göstərirdi. Lakin dünya Dağlıq Qarabağın kimin olmasının, ədalətin kimin tərəfində olmasının fərqində deyildi. Müxtəlif adlarla mobil şəkildə birləşmiş erməni diasporu lazım olan bütün vasitələrdən istifadə edir, hətta nüfuzlu adamların ailəsinə soxulmaqdan belə çəkinmirdi. Məsələn, Nobel mükafatı laureatı, beynəlxalq aləmdə yüksək nüfuza malik akademik Andrey Saxarovla ailə qurmuş milliyyətcə erməni Boner Əlixanyanın vasitəsilə ermənilər öz xeyirlərinə Saxarovdan maksimum istifadə edirdilər.

Ruhu sındırılmış Azərbaycan xalqına ölkə xaricində digər millətlər məğlub, məzlum xalq kimi baxırdılar. Ermənilər özlərinin məğlubedilməzliyinə həm başqalarını inandırmış, həm də özləri inanmışdılar. Ermənilərin başında məğlubedilməzlik, təkəbbürlük havası getdikcə güclənir, onlar təxribatlar törədir, azərbaycanlıları aramsız atəşə tutur, hətta Azərbaycanın dövlət sərhəddini pozmağa cəhd göstərirdilər.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupu yaradılanda Rusiya və Fransanın həmsədrliyi təsdiq olunmuşdu. Siyasət ustadı Heydər Əliyev bu həmsədrliyin yaxşı nəticə verməyəcəyini bilirdi. Lakin həmin dövrdə həmsədrlərin dəyişdirilməsi mümkün deyildi. Heydər Əliyevin təkidi ilə Minsk qrupu həmsədrliyinə ABŞ da daxil edilir. Heydər Əliyevin nə qədər haqlı olduğunu zaman göstərdi. Bölgədə Rusiya ilə ABŞ-ın maraqları heç vaxt üst-üstə düşə bilməz. Fransanın hazırkı prezidenti Emmanuel Makronun bu məsələ ilə bağlı mövqeyi isə hər kəsə məlumdur.

2003-cü ildə Azərbaycanın prezidenti seçilən İlham Əliyev haqqında ən səlis və dəqiq fikri Heydər Əliyev söyləmişdi: "Mən İlhama özüm qədər inanıram". Xalqın bəxti yenə gətirmişdi. Gənc, yüksək səviyyəli təhsil almış, gənc vaxtlarından Avropanın nüfuzlu təşkilatlarında Azərbaycanı ləyaqətlə təmsil edən İlham Əliyevin torpaq, xalq sevgisi ona güc, qüvvət və inam verirdi. İlham Əliyev həm dünya güclərinə, ermənilərin himayədarlarına, eləcə də Azərbaycan xalqına bəyan edirdi ki, münaqişə bitməyib, sadəcə onun birinci mərhələsi başa çatıb.

Qürurvericidir ki, XX əsrin sonlarında müstəqil Azərbaycan

Respublikasını tanıyanlar barmaqla sayılırdısa, XXI əsrin əvvəllərində Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının üzvü olaraq beynəlxalq məsələlərin həllində söz sahibinə çevrildi.

2020-ci ilin iyul ayında Tovuz döyüşləri hadisələrin pik nöqtəsini yaxınlaşdırırdı. 2016-cı il aprel döyüşləri və ermənilərin məğlubiyyəti, Tovuz döyüşlərindəki uğursuzluq ermənilərin "məğlubedilməz ordusu", "Ohanyan səddi", istehkamlar və s. barədəki təsəvvürləri ilə üst-üstə düşmürdü. Özlərinin ruh yüksəkliyini, qalib gəldiklərini sübut etmək üçün erməni baş nazirinin arvadının Azərbaycan tərəfə silah tuşlaması və nəhayət, N.Paşinyanın Şuşada sərxoş vəziyyətdə rəqs etməsi bir tərəfdən özündən razılıq, saymazlıq idisə, digər tərəfdən azərbaycanlıların milli qürurunun tapdalanmasına cəhd idi. N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" deməsi danışıqların artıq boş və mənasız olmasını göstərirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Qarabağ Azərbaycandır və Nida" söyləməsi, dünya güclərinə səslənməsi və bu çağırışların susqunluqla qarşılanması müharibədən başqa bir yol qoymurdu. Beynəlxalq təşkilatların, böyük dövlətlərin kompromis istəyi öz mənasını itirirdi. İki fərqli fikir, iki barışmaz mövqe qarşı-qarşıya dayandıqda kompromis yalnız müvəqqəti xarakter daşıyır. Kompromis heç vaxt məsələnin tam, qəti həlli ola bilməz. Qarşıdurma zamanı barışdırıcı mövqe tutanlar özləri də bu sahədə uğursuzluğa düçar olurlar. Tarix sübut edir ki, belə məsələlər tam və qəti, həm də ədalətlə, obyektiv şəkildə həll olunmadıqda dərinləşdirilmiş şəkildə sonrakı mərhələyə daxil olur. Müharibə artıq qaçılmaz idi.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi, yüksək diplomatik, siyasi qabiliyyəti onu həm də xalqın Liderinə çevirdi. Dövlət və vətəndaş həmrəyliyi daha da möhkəmləndi. Müharibənin elə ilk günü yeddi kəndin işğaldan azad olunması xəbəri xalqda, orduda böyük ruh yüksəkliyi yaratdı və onu əzəmətli gücə çevirdi. Hətta bizə xoş münasibət bəsləməyən dövlətlər belə heyrətə gəldilər. Rusiya televiziya kanallarında İlham Əliyev böyük siyasətçi, diplomat, sərkərdə kimi xarakterizə olunmağa başladı. Hətta bir qədər də qürur hissi keçirərək İlham Əliyevin onların Universitetində təhsil aldığını xüsusi vurğulamağa başladılar.

Erməni hərbçiləri şok içərisində söyləyirlər ki, Azərbaycan əsgərləri ölümdən qorxmur. Onların üstünə elə gedirlər ki, sanki robotdurlar. Bu vəziyyət isə onlarda təlaş yaradır.

Ermənilər Dağlıq Qarabağ münaqişəsini müharibəyə çevirərkən nəyə ümid edirdilər? Özlərinin məğlubedilməz ordu olduğuna, Rusiyanın, Fransanın onları müdafiə edəcəyinə, erməni lobbisinə və s. Hesab edirdilər ki, onların əvəzinə Qarabağda rus əsgərləri vuruşacaq.

Unudurdular ki, 2020-ci il ilə 1990-cı il arasında kəskin fərq var: Azərbaycan Respublikasının Prezidenti, dünyanın güclü ordularından biri, azərbaycanlıların doğma torpaqlarına qayıtmaq arzusu, Türkiyənin və dünyanın

ədalətli dövlətlərinin Azərbaycanın haqq işini hərtərəfli dəstəkləməsi.

Qeyd etmək yerinə düşər ki, ermənilərin bütün işi, fəaliyyəti, düşüncəsi tarixi miflər üzərində qurulub. Onlar ən azı tarixin aludəçisinə çevriliblər. Keçmiş, həm də saxta tarix erməni xalqının özünü aldatmasından başqa bir şey deyildir.

Tarixi təcrübə göstərir ki, milli mif özündə üç amili birləşdirir: bioloji, sosial və psixoloji. Yəni ermənilər milli mifin əsasını təşkil edən subyektiv və obyektiv olanları birləşdirir, ondan şərait yarananda maksimum istifadə edirlər. Ermənilər üçün obyektiv olan böyük məqsəd "dənizdən dənizə olan ərazilərdə böyük erməni dövləti yaratmaqdır". Böyük məqsədə çatmaq üçün hər bir şəraitdən istifadə edərək xırda məqsədləri həyata keçirmək istəyirlər. Hər iki məqsəd hər vaxt onların şüuruna hakim kəsilir. Onların düşüncəsinə görə, uğur qazanmaq üçün istənilən vasitədən istifadə etmək məqbul sayılır. İlk növbədə müxtəlif dövlətlərə səpələnmiş və müstəqil dövlətləri olmayan erməniləri hansısa bir ərazidə toplamaq lazımdır. Belə münbit şərait Rusiya və İran arasında müharibələr və 1813, 1828-ci illərdə bağlanmış sülh müqavilələri oldu. Müxtəlif yerlərdən ermənilər Dağlıq Qarabağa köçürüldülər. Artıq ermənilərin kompakt yaşamaları üçün əsas müəyyənləşdirildi və real ərazi yarandı. Bu, həm Çar Rusiyası, həm də Ermənilər üçün əlverişli idi. Belə vəziyyətdə hər iki tərəf vasitə idi və müəyyən məqsədə xidmət edirdi: Çar Rusiyası üçün ermənilər burada olan xanlıqlara təsir etmək vasitəsi idi. Ermənilər isə rusların köməyi ilə möhkəmlənir, tədricən müstəqillik əldə etmək imkanı qazanırdılar. Ermənilər yaranmış hər bir vəziyyətdən öz xeyirlərinə istifadə etməyə çalışır, istəklərinə, əsasən nail olurdular. Nəticədə, Azərbaycan əraziləri hesabına Ermənistan Respublikasını və Dağlıq Qarabağ Muxtar Vilayətini yaratdılar. Sonrakı illərdə Ermənistan Respublikası sayılan azərbaycanlıların əzəli torpaqlarından beş yüz mindən artıq azərbaycanlı köçürüldü və qovuldu. Qazax, Gədəbəy, Qubadlı, Laçın rayonlarından ərazilər alınaraq Ermənistana verildi.

Zaman-zaman, yavaş-yavaş fundamenti qurulan Dağlıq Qarabağın müstəqil dövlət olması üçün fürsət SSRİ-nin dağılması oldu. Əraziləri genişləndirmək üçün ətraf yeddi rayon zor gücünə zəbt olundu. Ermənilərdə milli identifikasiya son dərəcə güclüdür: dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq sən ermənisən və sən "böyük Ermənistan dövlətinin" yaranmasına xidmət etməlisən.

Ermənilər təxəyyüllərində yaratdıqları mifin nəşəsini yaşayırdılar. Şuşada rəqs edir, toplantı keçirir, azərbaycanlıları Qarabağa qonaq dəvət edirdilər. Unudurdular ki, azərbaycanlıların milli ləyaqəti, milli hissləri ilə oynamaq təhlükəlidir. Azərbaycan xalqı ləyaqət hissi ilə oynamağa heç kimə imkan verməz. Gözləmirdilər ki, özləri üçün təsəvvür etdikləri kiçik münaqişə azərbaycanlılar üçün Vətən müharibəsinə çevrilər. Unudurdular ki, xalqların arxasında uzun və şərəfli tarix durduqda onlar nə qədər çalışsalar da, bu keçmişdən ayrıla bilməyəcəklər. Onlar hətta bu keçmişi məhv etməyə çalışdıqları zaman belə onun təsiri altında olacaqlar. Türkün qədim, əzəmətli və şərəfli tarixi var...

Erməni tarixi isə yalan, süni vay-şivən üzərində qurulub. Doğrudur, müəyyən vaxtlarda belə yalançı xislətləri ilə uğur qazana biliblər. Onların tarixi olmayan “soyqırımı” və yalandan quraşdırılmış milli miflərdən ibarətdir.

Milli mif özünün qədim tarixi, mədəniyyəti, digər xalqlardan üstün olması üzərində qurulur. Bu, ilk növbədə miflərdə, əfsanələrdə, rəvayətlərdə, arxetiplərdə, ədəbiyyat və incəsənətdə öz əksini tapır. Filosofların belə bir deyimi var ki, inqilabi yeniliklər nə qədər qorxuludursa, köhnəlikdən yapışıb yerində saymaq da o qədər zərərlidir. Ermənilərin ən böyük bədbəxtliyi ondadır ki, yüz ildən çoxdur “erməni soyqırımı” deyib zarıyırlar. Daha yaxşısı isə dünyada, ətrafda baş verənləri istədiyin kimi yox, olduğu kimi qəbul etməkdir. Ən böyük bədbəxtlik təxəyyüldə yaradılan bədbəxtlikdir. Ermənilərin bədbəxtliyi ondadır ki, Ermənistanda ermənilərdən başqa heç bir millətin nümayəndəsi yaşamır.

Milli mifin əsasını obyektivizm və subyektivizm təşkil edir. Subyektiv olan yaddaşdan silinmir, daimi xarakter daşıyır. Obyektiv olan isə onu reallaşdırmağa çalışır. “Böyük Ermənistan” xülyası yüzillərdir ki, ermənilərin şüuruna hakim kəsilib və bu gün də davam edir. Məşhur psixoloq, sosioloq, antropoloq və tarixçi Qustav Lebon (1841-1931) göstərir ki, hər bir xalqın böyük əksəriyyətinin psixi quruluşunun çox sadə fizioloji əsası var. Hər bir fərdin damarlarında yalnız valideynlərinin deyil, bir neçə nəsil əcdadlarının qanı axır. Baş verən hadisələrə görə dirilər yox, ölmüş nəsillər cavabdehdirlər [8].

Ermənilər unutdular ki, bu müharibə onların məhvidir. Çünki ekstremal şəraitdə bir tərəfdən ağılın gücü azalır, digər tərəfdən isə qələbəyə can atan instinkt güclənir. Belə vəziyyətdə insanlara ilk növbədə dəhşətli qorxu hissi hakim kəsilir. Bu isə hadisələri qarşısı alınmayan məcraya yönəldir.

Yüzillərdir ki, Azərbaycan xalqında özünəinamsızlıq təlqin edilirdi. Hətta digər xalqlarda bizim haqqımızda mənfi fikir yaradılırdı. Təbii ki, burada ermənilər xüsusi canfəşanlıq göstərirdilər. Əlbəttə, belə təqdimat xaricilərdə bizim haqqımızda yanlış təsəvvür formalaşdırırdı. Qafqaza səyahət edən məşhur fransız yazıçısı Aleksandr Düma (1802-1870) Azərbaycana gələrkən elə zənn edirmiş ki, qorxulu, gözlənilməz hadisələrlə dolu bir torpağa ayaq basır. Azərbaycanlılar haqqında eşitdikləri və onda yaranan, yaradılan təsəvvürlər, kəskin ənənə fərqləri yazıçının bu xalqla yaxından tanışlığı nəticəsində dəyişir. Qarşısında cəngəlliklər qəhrəmanı, insanlığın ən aşağı pilləsində olan, sivilzasiyadan kənar adamlarla rastlaşacağını düşünən A.Düma qarşısında 30-35 yaşlarında olan yaraşıqlı, ciddi, parislilər kimi fransızca danışan azərbaycanlını görəndə təəccübünü gizlədə bilmir: “Boynuma almalıyam ki, onun çox təmiz və çox savadlı bir dillə fransızca danışığını eşidəndə diksindim”.

A.Düma Bakı əhalisinin əsasən tatarlardan (azərbaycanlılardan), farslardan, ermənilərdən ibarət olduğunu bildirir və bu üç xalq, onun xüsusiyyətləri barədə fikrini belə ifadə edir: “Farslarla həmişə ehtiyatlı olun: onun tək imzası Sizə inam yox, ehtimal verə bilər. Erməni biləndə ki, doğru söz demək ehtiyatsızlıqdır, bu

ehtiyatsızlıq onu iflas edə bilər, dilsizə və saxtakara çevrilib dünənki himayədarı bu gün bərk ayaqdadırsa, ona nankorluq edər. Tatarın (azərbaycanlının) imzasına ehtiyac yoxdur, bircə sözü bəs edər".

Müharibədə qalib gəlməyin ən vacib şərtlərindən biri qələbəyə inamdır. Xalqımız ölkə başçısına, Ali Baş Komandanına, ordumuza inanır. Ordunun ardıcıl şəkildə qazandığı qələbələr xalqı ruhlandırır. Döyüş meydanında məğlub olması ilə barışa bilməyən erməni tərəfi məqsədyönlü şəkildə dinc əhaliyə hücum edir. Lakin evlərin dağılması, mülki insanlarımıza atılan raket zərbələri nəinki onları sarsıdır, əksinə, daha da mətinləşdirir. Müharibə bizim tərəfimizdən ədalətlidir, haqq işidir. Ermənilərin ən vəhşi, alçaq hərəkətlərinə baxmayaraq Azərbaycan ordusu beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qaydaları pozmur, mülki əhaliyə qarşı silah işlətmir. Prezidentimizin dediyi kimi, biz qisasımızı döyüş meydanında işğalçıdan alırıq.

Müharibə başlayandan keçən müddətdə İlham Əliyev dünyanın müxtəlif nüfuzlu kütləvi informasiya vasitələrinə 30-dan çox müsahibə verib. Aydındır ki, onların münasibətlərinin heç də hamısı xoşniyyətli olmayıb. Lakin ölkə Prezidentinin cavabları, şərhləri dünya ictimaiyyətinə bizim mövqeyimizin çatdırılması baxımından son dərəcə əhəmiyyətlidir. Daha maraqlısı, əhəmiyyətlisi, həm də qürurlusu isə İlham Əliyevin qərəzli suallara qətiyyətli və faktlara əsaslanan inandırıcı cavablarıdır.

"Status-kvo, təmas xətti qurtardı, onu mən dəyişdirdim", deyən Ali Baş Komandanın ardıcıl, əsaslandırılmış, qətiyyətli siyasəti təkcə döyüş meydanında yox, həm də diplomatiya və informasiya cəbhəsində gedən müharibədə bizim qalib gələcəyimizə şübhə yeri qoymur.

**Qarabağ Azərbaycandır!**

## ƏDƏBİYYAT


1. *Əliyev R.İ.* Mentalitet. Bakı: Elm və təhsil, 2009, 198 s.
2. *Əliyev R.İ.* Etnopsixologiya: qloballaşma və millilik. Bakı: Nurlan, 2007, 346 s.
3. *Hamlet Q.* Fransızlar yurdum haqqında. Bakı: Yazıçı, 272 s.
4. *Zamanov A.D., Əliyev R.İ.* Müharibədən münaqişəyə gedən yol / "Azərbaycan" qəz., 4 noyabr 2020-ci il, s.7
5. *Zamanov A.D., Əliyeva H.İ.* Sosial işin əsasları. Bakı: Təhsil işçisi mətbəəsi, 2015, 452 s.
6. *Джексон Д.Ж.* Как бороться с нашими нервами. М., 1926, 344 с.
7. *Ионин Л.Г.* Социология культуры: путь в новое тысячелетие. М.: Логос, 2000, 431 с.
8. *Лебон Г.* Психология народов и масс. М.: Изд-во Павлинкова, 1896, 329 с.


Redaksiyaya daxil olub 04.11.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2020, C.68, №2, s. 75-81
Transactions of Pedagogical University. Series of humanitarian, social and pedagogical-psychological sciences – 2020, V.68, №2, pp. 75-81

*UOT 94(479.24)*

***S.X.Zamanova, N.M.Məmmədova***
*Azərbaycan Dillər Universiteti*
*sevdazamanova@mail.ru, nahida.m@mail.ru*

# AZƏRBAYCAN XALQINA QARŞI SOYQIRIMI VƏ DEPORTASİYALAR (1905-1906-cı illər)

*“...Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. 1813 və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi...”*

***Heydər Əliyev***
***Azərbaycan xalqının ümummilli lideri***

***Açar sözlər:*** *soyqırımı, daşnaklar, faciə, azərbaycanlılar, dağıntılar, deportasiyalar*

Son iki yüz ildə xalqımız dəfələrlə kütləvi qırğınlara və soyqırımlara məruz qalıb. Azərbaycan xalqına qarşı ermənilərin təcavüzkar siyasəti və fəaliyyətinin başlıca məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin əsasını qoymaq və sonradan müxtəlif yollarla onu genişləndirməklə “Böyük Ermənistan” xülyalarını həyata keçirməkdən ibarət olmuşdur.

1905-1906-cı illərdə ermənilər azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, minlərlə evi dağıdıb, yandırıb, qoca, uşaq və qadınların da daxil olduğu 10 minlərlə insanı vəhşicəsinə qətlə yetirib, doğma torpaqlarından didərgin salıb. Onların hər üç nəfərindən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib, aclıq və xəstəlikdən həlak olub.

***С.Х.Заманова, Н.М.Мамедова***

# ГЕНОЦИД И ДЕПОРТАЦИИ ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА (1905-1906-е гг.)

***Ключевые слова:*** *геноцид, дашнаки, трагедия, азербайджанцы, разрушения, депортации*

За последние двести лет наш народ неоднократно подвергался резне и геноциду. Основной целью агрессивной политики и действий армян против

азербайджанского народа было создание «Великой Армении» за счет исторических азербайджанских земель с последующим ее расширением различными способами.

В 1905-1906 годах армяне разрушили сотни азербайджанских поселений, разрушили и сожгли тысячи домов, зверски убили десятки тысяч людей, в том числе стариков, детей и женщин, изгнали их с родных земель. Каждый третий из них не смог адаптироваться к новым условиям, жаркому, засушливому климату, небезопасности и умер от голода и болезней.

***S.X.Zamanova, N.M.Mammadova***

## GENOCIDE AND DEPORTATIONS AGAINST THE PEOPLE OF AZERBAIJAN (1905-1906 yy.)

***Keywords:*** *genocide, dashnaks, tragedy, Azerbaijanis, destruction, deportations*

Over the past two hundred years, our people have repeatedly been subjected to massacres and genocides. The main goal of the aggressive policy and activities of the Armenians against the Azerbaijani people was to establish the Armenian state at the expense of the historical Azerbaijani lands and to realize the dream of a "Greater Armenia" by expanding it in various ways.

In 1905-1906, Armenians destroyed hundreds of Azerbaijani settlements, destroyed and burned thousands of houses, brutally killed tens of thousands of people, including the elderly, children and women, and expelled them from their native lands. One in three of them could not adapt to the new conditions, hot, dry climate, insecurity, and died of starvation and disease.

Son iki yüz ildə xalqımız dəfələrlə kütləvi qırğınlara və soyqırımlara məruz qalıb. Azərbaycan xalqına qarşı ermənilərin təcavüzkar siyasəti və fəaliyyətinin başlıca məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin əsasını qoymaq və sonradan müxtəlif yollarla onu genişləndirməklə “Böyük Ermənistan” yaratmaqdan ibarət olub. Onların bu niyyətlərinin qismən də olsa reallaşmasında Rusiyanın və bəzi Qərb dövlətlərinin müstəsna rolu olub.

Azərbaycanlıların indiki Ermənistan ərazisindən (Qərbi Azərbaycandan) deportasiyası və köçürülməsi hələ XVIII əsrdən başlanıb. Bu proseslər zamanı ermənilər Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan etmişlər. İlk geniş deportasiya tarixi 1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələrindən sonra Azərbaycan torpaqlarının ikiyə bölünməsi ilə başlandı. Bundan sonra, Şimali Azərbaycan torpaqlarının erməniləşdirilməsi prosesi sürətləndi. Bu proses minlərlə azərbaycanlının doğma dədə-baba torpağından, öz yurd-yuvasından qovulması, talan edilməsi, bir qisminin uşaqdan böyüyə qədər qətlə yetirilməsi ilə müşayiət olundu.

1804-1813 və 1826-1828-ci illər Rusiya-İran, 1806-1812 və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra, həmçinin döyüşlərin getdiyi

zamanlarda İran və Türkiyədən Azərbaycana erməni axınları olmuşdur. 1826-1828-ci illərdə Ön Qafqaza və Qarabağa rəsmi olaraq 18 min erməni ailəsi, 1828-1830-cu illərdə isə 40 mindən çox İran, 84 min isə Türkiyə ermənisi köçürülərək əsasən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırıldı [1, s.608-609]. Əslində isə onların sayı göstərilənlərdən daha çox idi. 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" təşkil edildi. Bu, tarixi Azərbaycan torpaqlarında yaradılacaq gələcək Ermənistan dövlətinin faktiki təməli idi. Bununla da yerli müsəlman azərbaycanlı ailələrin müsibətli günləri başladı.

Əslində, XX əsrin əvvəllərinədək ermənilər öz dövlətlərini Osmanlı imperiyasını parçalamaq istəyən dövlətlərin himayəsi altında Şərqi Anadoluda qurmaq niyyətində idilər. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsindən sonra Avropa dövlətlərinin səyləri nəticəsində gündəliyə çıxarılan "Erməni məsələsi" sonralar Şərqi Anadoluda ermənilər üçün muxtariyyət əldə etmək və müstəqil Ermənistan dövləti qurmaq üçün bir vasitəyə çevrilmişdi. Ermənilər öz niyyətlərini "Armenakan" (1885), "Hnçak" (1887) və "Daşnaksütyun" (1897) partiyalarının silahlı dəstələri vasitəsilə həyata keçirmək istəyirdilər. 1894–1896-cı illərdə ermənilərin Şərqi Anadoluda törətdikləri iğtişaşlar yatırıldıqdan sonra, həmin iğtişaşların təşkilatçılarının və iştirakçılarının əksəriyyəti Cənubi Qafqaza axışdı. Erməni siyasi partiyaları Türkiyə ərazisində muxtariyyət əldə etməyin mümkünsüzlüyünü dərk etdikdən sonra XX əsrin ilk illərində öz proqramlarında dəyişiklik edərək, fəaliyyətlərinin ağırlıq mərkəzini Türkiyə ərazisindən Cənubi Qafqaza keçirdilər [2, s.33]. O zaman burada, əvvəl olduğu kimi, qırğınları, təqibləri, əliyalın insanları qoca, uşaq, qadın bilmədən soyqırımına məruz qoyaraq, öz ata-baba yurdlarından qovmağa, və boş qalmış torpaqlarda havadarlarının köməyi ilə özləri üçün dövlət qurmağa başladılar.

Bu illərdə yarım milyona yaxın erməni Türkiyədən gəlib həmin ərazilərdə məskunlaşmış, bunun nəticəsində regionda millətlərarası münasibətlər kəskinləşmişdi. Rus ictimai-siyasi xadimi N.N.Şavrov 1911-ci ildə yazdığı "Zaqafqaziyada rus işinə yeni təhlükə: Muğanın özgə xalqlara növbəti satışı" (rus dilində) əsərində qeyd edir ki, 1896-cı ildə Cənubi Qafqazda 900.000, 1908-ci ildə isə 1.301.000 erməni yaşamışdır. Deməli, təkcə bu dövrdə Cənubi Qafqaza 400.000 erməni gəlib yerləşmişdi [3, c.64].

1905-ci ildə Rusiyanın özündə baş verən iğtişaşlar, çarizmə qarşı narazılıq dalğasının güclənməsindən, qarışıqlıqdan Zaqafqaziyada ermənilər məharətlə istifadə etdilər. Qafqaz canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə silahlandırılan erməni dəstələri 1905-ci ildə Bakıda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Gəncədə, Tiflisdə və başqa yerlərdə yaşayan azərbaycanlılara qarşı silahlı hücumlar edib həmin ərazilərdən onları təmizləməklə ermənilərin say üstünlüyünə nail olmaq istəyirdilər. Çünki həmin dövrdə Qafqazdakı 54 qəzadan yalnız beşində ermənilər çoxluq təşkil edirdilər.

Tarixçi, publisist, ictimai xadim V.L.Veliçko 1903-cü ildə ermənilərin ilk silahlı çıxışları haqda qeyd edir ki, çarın erməni kilsələrinin əmlakının müsadirə edilməsi haqqında 12 iyun 1903-cü il tarixli fərmanından sonra ermənilər Cənubi Qafqazda daha da fəallaşdılar. Çünki erməni kilsələri dini-ruhani idarədən çox millətçi təsisat kimi çıxış edir və yarımleqal erməni hərbi-siyasi təşkilatı kimi fəaliyyət göstərirdi. Kilsənin təhriki ilə ermənilərin ilk silahlı çıxışları 1903-cü il avqustun 29-da Qarsda və Gəncədə, avqustun 31-də Üçmüəzzində, oktyabrın 14-də Tiflisdə [4, s.139-142], sentyabr ayında isə Bakıda baş vermişdi.

"Daşnaksütyun" partiyasının əli ilə ermənilər 1905-1906-cı illərdə Bakı, Gəncə, Qarabağ, İrəvan, Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Tiflis, Zəngəzur, İğdır-Sürməli, Qazax və digər yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhalini amansızlıqla qətlə yetirmiş, şəhər və kəndləri yandıraraq dağıtmışlar. Bu, artıq iki xalq arasında böyük faciələrə səbəb olacaq bir proqramın "baş məşqi" idi. Hadisələrdən sonra erməni millətçiləri gələcək planlarını həyata keçirmək üçün fürsət axtararaq gizli şəkildə təşkilatlanmağa və silahlanmağa başlayırlar. Bu illərdə erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqəsini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdundan qaçqın və məcburi köçkün düşmüşdür [5, s.14]. Ermənilər 200 mindən artıq azərbaycanlını (uşaq, qadın, qoca) fərq qoymadan qətlə yetirmişlər. Yuxarıda sadalananlar gələcəkdə daha böyük faciələrə aparan yolun başlanğıcı idi.

Görkəmli yazıçı və ictimai xadim M.S.Ordubadi 1905-1906-cı illərin hadisələri ilə bağlı o dövrün müxbirlərinin ona göndərdiyi 254 məktub əsasında yazdığı və 1911-ci ildə çap etdirdiyi "Qanlı illər" ("Qanlı sənələr") kitabında ermənilərin azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlardan bəhs edir. O, yazır ki, baş vermiş iğtişaş və faciələrə səbəb dörd şeydir: "Birinci səbəb, erməni Daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı terrorlar oynadı..., ikinci səbəb, məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar özbaşınalığa üz qoyub erməni-müsəlman iğtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulunmadılar. Bulundularsa da, ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbənöv vicdansızlıqlar etməkdə idilər... üçüncü səbəb və iğtişaşa gəldikdə, müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır. Müsəlmanlar elm və siyasətdən bixəbər olduqlarından hökumət məmurlarının Qafqazda tutduğu əqidəsini və ermənilərin o əqidədən necə istifadə etdiklərini düşünmədilər... dördüncü səbəb, ermənilərin avtonomiya-idarə muxtariyyəti həvəsində olmalarıdır. Bu səbəbiyyəti isbat üçün qələmə bir o qədər də güc sərf etmək lazım deyil. Zira, ermənilərin hər aybaşı Londona, Parisə, Amerikaya qaçıb ərzi-hal etmələri bunlara kamil bir sübutdur..." [6, s.155-158].

1905-ci il fevralın 2-də Bakıda Ağarza adlı azərbaycanlı erməni komitəsi

tərəfindən öldürüldü. Bu hadisəyə dövlət məmurları tərəfindən heç bir reaksiyanın verilmədiyini görən ermənilərin dişi şirəyə batdı. Daha sonra erməni əsgəri istintaqa apardığı müsəlman dustağını yolda öldürdü. Fevralın 6-da kütləvi qırğınlar üçün qığılcıma səbəb olan hadisələr baş verdi. Bir erməni və bir rus öldürüldü. Şiddətli qarşıdurmalar nəticəsində döyüşlərin ikinci günü küçələrdən 50 erməni meyidi götürüldü. Güc strukturlarının əlində kifayət qədər əsgər və polis olsa da, qarşıdurmanı sakitləşdirmək üçün heç bir tədbir görmədilər. Fevral ayının 6-10 arası Bakıda davam edən qırğınlar nəticəsində hər iki tərəfdən mindən çox adam öldürüldü. Baxmayaraq ki, ermənilər əvvəlcədən bu məsələyə yaxşı hazırlaşmışdılar, lakin onların itkisi daha çox idi [7, s.52-55]. Ermənilər Bakıda erməni milyonerlərinin köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Cənubi Qafqazdan müsəlmanları silah gücünə qovub Ermənistan dövləti yaradacaqlarına əmin idilər.

Bakıda 1905-ci ilin fevralında ermənilərin başladığı qırğınlar mart ayından etibarən İrəvanda, may ayından isə Naxçıvanda davam etdi. Lakin erməni terrorçu dəstələrinin Naxçıvanda törətdiyi təxribat və qırğınlar yerli əhalinin mütəşəkkilliyi sayəsində geniş miqyas almadı. Erməni silahlı dəstələrinin Naxçıvanın kəndləri üzərindən Zəngəzura doğru hərəkətlərinin qarşısı alındıqdan sonra yenidən İrəvan qəzasında qırğınlar törədildi.

Hələ XIX əsrin əvvəlindən ermənilərin Naxçıvan ərazisinə köçürülməsindən sonra onların yerli Azərbaycan türklərinə qarşı xoşagəlməyən təxribatçı münasibətləri açıq-aydın seçilirdi. Ərazidə silahlı daşnaklar peyda olurdular. İrəvandan gələn əlavə daşnak qüvvələrinin təhriki ilə Naxçıvanda ermənilər hazırlıq vəziyyətinə gətirilirlər. Hadisələrin başlanmasına səbəb isə 1905-ci ilin may ayının 5-də üç nəfər azərbaycanlının Şıxmahmud kəndi yaxınlığında ermənilər tərəfindən ağır yaralanması olur. İki gün sonra Tumbul kəndində bir azərbaycanlı qətlə yetirilir. Lakin naxçıvanlılar bu təxribatlara getmirlər. Əhalinin təxribata uymadığını görən azğınlaşmış ermənilər 1905-ci il mayın 11-də Kültəpə kəndində bir varlı ermənini ailəsi ilə birlikdə öldürərək cinayəti azərbaycanlıların üzərinə atırlar. Lakin məlum olur ki, bu erməni ailəsi tələb olunan pulu vermədiyi üçün Daşnaksütyunun yerli komitəsinin qərarı ilə öldürülüb. Elə həmin gün bu hadisəni bəhanə edən ermənilər Naxçıvan şəhərində dinc əhalini atəşə tuturlar. Mayın 12-də Naxçıvan bazarında bir azərbaycanlı qətlə yetirilir. Çarizmin ermənilərə dəstək olmasına, ermənilərin azərbaycanlı əhalini tez-tez qarət etməsinə, qətllərin davam etdirilməsinə baxmayaraq 1905-ci ilin may-noyabr aylarında baş verən toqquşmalar azərbaycanlıların ümumi üstünlüyü ilə nəticələndi [8, s.216-221].

Tədqiqatçı-alim Nazim Mustafa erməni mənbələri əsasında yazır ki, onlar 25-26 fevral 1992-ci il tarixdə Xocalıda həyata keçirdiyi soyqırımın analoqunu XX əsrin əvvəlində, yəni 1905-ci il avqustun 23-də yenə də həmin yaşayış məskənində törətmişdilər. Erməni silahlı dəstələrinin Xocalıya hücumu zamanı kənd əhalisinin

bir qismi qaçaraq canlarını qurtarmış, bir qismi ermənilər tərəfindən öldürülmüşdü. Xocalını ələ keçirən ermənilər əvvəlcə evləri talamış, sonra isə od vurub yandırmışdılar ki, əhali bir daha geri qayıda bilməsin [2, s.39].

Akademik Yaqub Mahmudov yazır ki, "... yüz minlərlə günahsız insanları, o cümlədən uşaqları, qadınları, qocaları dini-etnik mənsubiyyətinə görə məhv edən soyqırımı cinayətkarları cəzasız qaldı. Nəinki cəzasız qaldı, əksinə, böyük dövlətlərin müəyyən siyasi dairələrinin erməni ekstremizmini, cinayətkar-terrorçu erməni-faşist dəstələrini fəal surətdə müdafiə etməsi nəticəsində 1992-ci il fevralın 25-də bütün dünyanın gözləri qarşısında daha bir dəhşətli soyqırımı cinayəti – Xocalı soyqırımı törədildi..." [9, s.18].

Ermənilərin 1905-ci ildə Şuşa şəhərində törətdiyi təxribatlar milli qırğınlara səbəb oldu. 1905-ci il avqustun 8-də daşnaklar realnı məktəbin təmirində işləyən 17 nəfər Cənubi Azərbaycandan gəlmiş fəhlənin başlarına iri mismarlar çalıb əzdikdən sonra, başlarını kəsmişdilər. Avqustun 16-da kilsənin döyüşə çağırış zəngi ilə azərbaycanlılar atəşə tutuldu. Daşnak terrorçuları Şuşada əliyalın, dinc əhaliyə aman vermir, qadınları, qocaları, uşaqları, qarşılarına çıxan insanları güllələyir, onları ölmüş halda, ya da diri-diri oda atıb yandırırdılar. Şuşalılar şir kimi müqavimət göstərərək yüzlərlə erməni quldurunu qanına qəltan etmişdilər. Onların çoxunun səngərdə qorxudan ürəyi partlayıb ölmüşdü. İki-üç günə bütün erməni səngərləri Şuşanın igid oğlanları tərəfindən ələ keçirilmişdi. Ermənilər bir tərəfdə göz yaşı axıdaraq sülh istəyir, başqa yerdə isə yeni fitnələr törədirdilər. 1905-ci ilin 16-21 avqustunda Şuşada baş verən milli qırğın Azərbaycan türklərinin qələbəsi ilə başa çatdı. Lakin Qazaxda, Gəncədə, Tiflisin azərbaycanlılar yaşayan kəndlərində qırğınlar davam edirdi. 1906-cı il avqustunda Zəngəzurdan Ordubada gedən azərbaycanlılar ermənilərə tuş gəlmiş, qadın və uşaqlar vəhşicəsinə öldürülmüşdü. Həmin yerə gələn ordubadlılar orada 62 qadın cəsədini və 15 körpə uşağın başının kəsildiyini görmüşdülər [7, s.58-60].

Ümumiyyətlə, 1905-1906-cı illərdə təkcə İrəvan və Gəncə quberniyalarında 200-dən artıq azərbaycanlı yaşayış məntəqəsi viran edilmiş, əhali soyqırıma məruz qalmışdır [10, s.45-52].

N.Mustafanın qeyd etdiyi kimi: "Ümumiyyətlə, 1905-1906-cı illərdə Cənubi Qafqazda 1,5 milyon əhalinin yaşadığı ərazini əhatə edən milli münaqişələr zonasında təqribən 100 min nəfər qəzalardakı, bir neçə min nəfər şəhərlərdəki ev-eşiklərindən didərgin düşmüş, insan itkisi 10 min nəfərdən artıq olmuşdu... Ermənilərin 1905-1906-cı illərdə törətdikləri kütləvi qırğınlar XX əsrdə soydaşlarımızın məruz qoyulduqları soyqırımı və deportasiyalar silsiləsinin ilk mərhələsidir" [2, s.44].

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: Ali məktəblər üçün dərslik: 2 cilddə, I c., . Bakı: Çıraq, 2007, 719 s.
2. *Mustafa N.* Ermənilərin 1905-1906-cı illərdə Cənubi Qafqazda azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar / Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, s.33-44
3. *Шавров Н.Н.* Новая угроза русскому делу в Закавказье: предстояшая распродажа Мугани инородцам. С-Петербург, 1911, 78 с.
4. *Величко В.Л.* Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 1990, 176 с.
5. Azərbaycanlıların soyqırımı haqqında (8 dildə). Bakı, 1998, 120 s.
6. *Ordubadi M.S.* Həyatım və mühitim / Toplayanı, tərtib edəni, çapa hazırlayanı və ön sözün müəllifi akademik İ. Həbibbəyli). Naxçıvan: "Əcəmi" NPB, 2012, 336 s.
7. XX əsr Azərbaycan tarixi: Ali məktəblər üçün dərslik, II c. Bakı: Təhsil, 2009, 559 s.
8. Naxçıvan tarixi: 3 cilddə, II c., Naxçıvan: Əcəmi, 2014, 528 s.
9. *Mahmudov Y.* Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı / Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, s.5-32
10. *Arzumanlı V., Mustafa N.* Tarixin qara səhifələri. Bakı: Qartal, 1998, 279 s.


Redaksiyaya daxil olub 07.07.2020

***UOT 94(479.24)***

***Ə.R.Fərhadov***
*Milli Azərbaycan Tarixi Muzeyi*
*ali_farhadov@yahoo.com*

# "MOLLA NƏSRƏDDİN" JURNALI VƏ CƏNUBİ AZƏRBAYCAN TARİXİ

***Açar sözlər:*** *"Molla Nəsrəddin" jurnalı, C.Məmmədquluzadə, Cənubi Azərbaycan, din xadimləri*

XIX əsrin sonu – XX əsrin əvvəlləri Qacarların hakimiyyəti altında olan Cənubi Azərbaycanın ağır ictimai-siyasi, iqtisadi vəziyyəti Şimali Azərbaycan ziyalılarını da narahat edir, onlar öz əsərlərində bu mövzunu geniş işıqlandırırdılar. C.Məmmədquluzadənin nəşr etdiyi "Molla Nəsrəddin" jurnalında da cənub mövzusu özünəməxsus yer tutur. "Molla Nəsrəddin" jurnalı XIX əsrin sonu – XX əsrin əvvəlləri dövrünün mükəmməl qaynaqlarından biridir və təkcə Şimali Azərbaycanın deyil, Cənubi Azərbaycan tarixinin də güzgüsüdür. Təəccüblü deyil ki, mürtəce ruhanilər "Molla Nəsrəddin" jurnalının oxunmasına qarşı idilər. Jurnaldakı məqalələr Qacar şahlarının, mürtəce ruhanilərin xalqa zidd fəaliyyətinin ifşası, Səttarxan kimi məşrutə (konstitusiya) inqilabı qəhrəmanlarının şahlıq rejiminə qarşı mübarizəsini öyrənmək baxımından əhəmiyyətlidir və tədqiq edilməlidir.

***А.Р.Фархадов***

## ЖУРНАЛ "МОЛЛА НАСРЕДДИН" И ИСТОРИЯ ЮЖНОГО АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *журнал «Молла Насреддин», Дж.Мамедгулузаде, Южный Азербайджан, религиозные лидеры*

В конце XIX и начале XX веков сложная социально-политическая и экономическая ситуация на юге Азербайджана, которая находилась под властью Каджара, также вызывала обеспокоенность интеллигенции Северного Азербайджана. В журнале «Молла Насреддин», опубликованный Дж.Мамедгулузаде южная тема занимает особое место. Журнал «Молла Насреддин» является одним из совершенных источников конца XIX и начала XX веков и является зеркалом не только Северного Азербайджана, но и Южного Азербайджана. Не удивительно, что священнослужители были против чтения журнала «Моллы Насреддин». Статьи в журнале важны и должны быть изучены с точки зрения разоблачений Каджарских шахов, духовенства и их борьбы против шахского режима, такого как революция Саттар-хана.

***A.R.Farhadov***

## JOURNAL "MOLLA NASREDDIN" AND HISTORY OF SOUTH AZERBAIJAN

***Keywords:*** *journal "Molla Nasreddın", J.Mammadguluzade, South Azerbaijan, religious leaders*
At the end of the 19th and beginning of the 20th centuries, the difficult socio-political and economic situation in southern Azerbaijan, which was under the rule of Kajar, also raised concerns among the intelligentsia of Northern Azerbaijan. The southern issue also occupies a special place in the journal of Molla Nasreddin, published by J. Mamedguluzade. The Molla Nasruddin magazine is one of the perfect sources of the late 19th and early 20th centuries and is a mirror not only of Northern Azerbaijan, but also of Southern Azerbaijan. Not surprisingly, the clergy were opposed to reading the magazine of Molla Nasruddin. Articles in the journal are important and should be studied in terms of the revelations of the Kajar kings, the clergy and their struggle against the royal regime, such as the Sattar Khan revolution.

XIX əsrin sonu XX əsrin əvvəlləri Qacarların hakimiyyəti altında olan Cənubi Azərbaycanın ağır ictimai-siyasi, iqtisadi vəziyyəti Şimali Azərbaycan ziyalılarını da narahat edir, onlar öz əsərlərində bu mövzunu geniş işıqlandırırdılar. H.Zərdabinin, Ə.Ağaoğlunun, Ə.Hüseynzadənin, M.Şahtaxtlının, M.Ə.Rəsulzadənin əsərlərində bu məsələlər geniş işıqlandırılmışdır.

Bu dövrdə Cənubi Azərbaycan xalqı iqtisadi problemlər içində itib-batmışdı. Məsələn, İrandakı aclıq haqqında məlumat verən "Əkinçi" qəzeti belə yazırdı: "Bu günlərdə Moskvanın küçələrində bir iranlı gördüm, başaçıq özünə xaç çəkə-çəkə dilənçilik edən. Dedim bu nədir? Cavab verdi ki, Allah İrana qəzəb edib, çörək tapmaq olmur" (12, s.473).

Xalqın iqtisadi, sosial problemlər içində əzilməsi görkəmli publisist C.Məmmədquluzadənin yaradıcılığında da geniş yer tutur.

İranda sadə xalqın ac qalıb, bütün torpaqların xanların, nüfuzlu mollaların, şahzadələrin və hər cür insafsız qolçomaqların əlində olduğunu bildirən "Molla Nəsrəddin" jurnalı belə yazırdı: "Təbriz bazarında satılan çörəyin bir hissəsi un və üç hissəsi torpaqdır" (44; 45, s.39). Həmçinin jurnalda göstərilirdi ki, qıtlıq səbəbilə "Təbrizdə dul övrətlər, yetim və fəqirlər torpaq yeyir" (29; 45, s.80). Lakin şah hökuməti bu kimi problemlərə əncam çəkmirdi və Müzəffərəddin şahın hakimiyyəti dövründə bu vəziyyət belə davam edirdi. Vəliəhd Məhəmmədəli Mirzə isə xalqa zülm etməklə, talançılıqla vaxt keçirirdi (9, s.178, 181; 10, s.147). Məhəmmədəli Mirzənin sonralar məşrutə əleyhinə olan irticaçı fəaliyyəti də buna sübutdur. Vəliəhdin əsas müşaviri isə rus dili müəllimi kimi yanında saxladığı, mənşəcə karayim (musəvi türk icması – Ə.F.) olan (54, c.13) Hacı Seraya Xan Şapşal (1873-1961) adlı rusiyalı şərqşünas və diplomat idi (9, s.178, 181; 10, s.147). Şapşalın təsiri altında olan vəliəhd Məhəmmədəli Mirzənin əxlaqsızlığını

"Molla Nəsrəddin" jurnalı qeyd edir (13; 45, s.133). Vəliəhdin xalqa zidd siyasətini ifşa edən "Molla Nəsrəddin" jurnalı belə yazırdı: "İranın dağlarını-daşlarını çörək əvəzinə yedirtdi Təbriz əhlinə" (13; 45, s.132). Bu insanların acınacaqlı halını işıqlandıran "Molla Nəsrəddin" jurnalı iranlı fəhlələrin dili ilə belə yazırdı: "Əhli-əyalımız İranda acdırlar, gəlmişik onlara çörək pulu qazanaq". Jurnala görə İran xalqının bu ağır vəziyyətinin günahı "cəllad və quldur" dövlət və din xadimlərində idi (24; 45, s.102-104). M.Ə.Rəsulzadə "İran türkləri" əsərində yazırdı ki, Bakı neft ocaqlarında ən ağır işləri görən, Hacı Tərxan (Həştərxan) kimi limanlarda ən ağır yükləri daşıyan, yurdundan getməyə zorlanmış bu azərbaycanlılardır. Bakı bölgəsinin tarlalarını biçən, İstanbulda alverçi, kitabçı, tütünçü, yemək-içmək satıcısı kimi kiçik qazanc işləri ilə uğraşan yenə bu Azərbaycan türküdür" (49, s.17). Lakin Qacar hakimlərini xalqın problemləri yox, şəxsi gəlirləri maraqlandırırdı.

Özünün Avropada müalicəsi üçün 1901-ci ildə Rusiyadan aldığı borcu qaytara bilməyən Müzəffərəddin şah İranın şimal bölgəsinin gömrük idarəetməsini Rusiyaya vermişdi (11, s.148). Rusiya ilə bağlanan müqavilə ilə Rusiyadan gələn mallardan az vergi, İrandan çıxan mallardan çox vergi alınmalıydı. Digər gömrüklərdən məsul olan belçikalı J.Nouz da Rusiya tərəfdarı olub (9, s.56-57), rəqs məclislərində ruhani paltarında istehza ilə şəkillər çəkdirirdi (1, s.23). İranın gömrük sistemini tənqid edən "Molla Nəsrəddin" jurnalı belə yazırdı: "İranın Culfa gömrükxanası kimindir? Niyə gömrükxananın rəisi xaricilərin bayramını tətil eləyir, amma müsəlmanların ən möhtərəm bayramında gömrükxana açıq olur? Nə rəis hambalların dilini bilir, nə hamballar rəisin" (23; 45, s.260).

İranda sənayenin olmadığını, torpağın isə iri mülkədarlara məxsus olduğunu bildirən C.Məmmədquluzadə öz vətənindən baş götürüb qaçan iranlı fəhlələri belə təsvir edirdi: "Bu, İran fəhlələridir. Onlar öz vətənlərində yeməyə bir şey tapmırlar. O, vətənini, arvadını və uşağını qoyub qaçır. Çünki acdırlar" (46, s.126). "Həmşəri" adlandırılan Qafqazdakı iranlı fəhlələrə münasibəti "Molla Nəsrəddin" jurnalı belə göstərirdi: "Mən indiyə kimi elə bilirdim ki, həmşəri milçəkdir, torpaqdır, daşdır, kol-kosdur, amma heç bilməzdim ki, həmşəri də adamdı. Acından dağılıblar Rusiya torpağına" (21; 45, s.127). "Ərdəbildəki Şeyx Səfi məqbərəsinin vəqf mülkü olan var-dövlətin və kəndlərin saysız-hesabsız olduğunu bildirən "Molla Nəsrəddin" jurnalı ərdəbilli yoxsulun diliylə vəqfin başçısından soruşurdu: "Ay qardaş, niyə fəqir-füqəranın malını yeyirsən?" (38; 45, s.151). Jurnal müsəlmanlar arasında həmrəyliyin, birliyin də olmadığını, qafqazlı müsəlmanların "Bizə nə dəxli var, biz qafqazlıyıq", iranlıların isə "Biz iranlıyıq, bizə nə dəxli var qafqazlıların işinə qarışaq?" deyərək, bir-birlərinə kömək etmədiklərini göstərirdi (23; 45, s.142). C.Məmmədquluzadə bu problemlərin həlli üçün bütün zəhmətkeşlərin xanlara, bəylərə, mollalara qarşı birləşməsi gərəkdiyini irəli sürürdü (45, s.128).

İrandakı müsəlmanların aclıq səbəbilə xaricilərə qul olduğunu yazan və bu

cür ictimai problemlərə göz yuman təbrizli müctəhid hacı Mirzə Həsən ağa kimi ruhaniləri qınayan "Molla Nəsrəddin" belə yazırdı: "Müctəhid hacı Mirzə Həsən ağa dəyirmanın sularını kəsib və əhali acından ölür" (31; 45, s.299); "Müctəhidin gözünün qabağında minlərcə müsəlman övrət-uşaqları əcnəbilərin evindədir" (16; 45, s.288).

Deyə bilərik ki, ölkədə xurafat və mövhumatın yayılması demokratik xalq hərəkatının, elm və maarifin qarşısında ən böyük əngəl idi. Məsələn, İrandakı dini cəhaləti ortaya qoyan "Molla Nəsrəddin" jurnalı belə yazırdı: "Guya Avropanın veyilxanalarında elm oxuyubsan, bir mənə de görüm cinlərin adını tapdın? Mən bunları iranlı bir tələbədən öyrəndim. Elm budur, əzizim! Yoxsa nə Firəngistan, nə qəzet, nə məktəb? O məktəblərdən çıxan şeytan deyilmi?" (30; 45, s.106).

Cənubi Azərbaycanın Mirzə Həsən Rüşdiyyə kimi mütərəqqi ziyalılarının mübarizə apardığı mollaxana tədris üsulunu tənqid edən "Molla Nəsrəddin" jurnalı "İrşad" qəzetinin 14-cü nömrəsinə istinadla bu haqda belə yazırdı: "İran müəllimxanalarında uşaqlar əbcədin hecasını səkkiz ildə qurtarırlar" (35; 45, s.131). Bir çox mütərəqqi ziyalı məktəb islahatının əsasını ərəb əlifbasının dəyişdirilməsində görürdü. Şimalda M.F.Axundzadənin ortaya qoyduğu əlifba islahatı mövzusu İranda Mirzə Mülküm xan, Mirzə Yusif xan kimi ziyalılar tərəfindən də dəstəklənirdi. Qacarların İngiltərə səfiri olan Mirzə Mülküm xanın əlifba islahatı yolundakı fəaliyyətini təqdir edən C.Məmmədquluzadə onun belə dediyini nəql edirdi: "Əgər götürək üç yüz milyondan ibarət erməni və yunan mətbuatını, görərik ki, erməni və yunan mətbuatı bütün müsəlman mətbuatından yüksəkdir. Buna da səbəb ərəb hürufatının (hərflər – Ə.F.) çətinliyidir" (42; 46, s.224). Lakin mürtəce ruhanilər ərəb əlifbasını ilahi bəxşiş sayır, onun xaricindəki əlifbaları "murdar" adlandırırdılar (22; 47, s.61). Şahlıq rejiminə və mürtəce ruhanilərə qarşı mübarizə aparan Mirzə Mülküm xanın maarifçilik fəaliyyətini təqdir edən "Molla Nəsrəddin" jurnalı belə yazırdı: "Alimi-yeganə (Mirzə Mülküm xan-Ə.F.) məzlumlar barədə kitab yazıb; tapın həmin kitabı və oxuyun" (21; 45, s.129).

C.Məmmədquluzadə öz yaradıcılığında Cənubi Azərbaycanın mütərəqqi ziyalılarına geniş yer verirdi. "Molla Nəsrəddin" jurnalında Zeynalabdin Marağayinin "İbrahim bəyin səyahətnaməsi" "Oxuyun, oxuyun, oxuyun!" (21; 45, s.129) deyə daim təbliğ edilir və əsərdən nümunələr verilirdi (26; 36). İran parlamentinə deputat seçilən görkəmli ziyalı Ə.Talıbovun Tehrana getmək istəməməsinin səbəbi də jurnalda izah edilmişdi. Bunun bir səbəbi də Şeyx Fəzlullah Nuri kimi mürtəce ruhanilərin onu dinsiz elan etməsi idi (9, s.275). Ə.Talıbovun əslində məhz müctəhidlərin bu fitvasından qorxduğunu "Molla Nəsrəddin" belə göstərirdi: "Müctəhidlərin bu təkfirini (küfr-Ə.F.) eşidən kimi Talıbov küsüb Bakıdan birbaşa gedib, əyləşdi Teymurxanşuradakı öz evində və Tehrana getmək istəmədi" (46, s.174). Mürtəce ruhanilərin və müstəbid şah hakimiyyətinin qorxusundan Vladiqafqazda yaşayan yazıçı əslində ruhən Təbrizə

bağlı idi. Onun özü bu haqda belə deyirdi: "Təbrizin müqəddəs torpağını sevirəm" (52, s.67).

"Molla Nəsrəddin" jurnalı şahlıq rejiminə qarşı mübarizə aparan "Həblülmətin" qəzetini də dəstəkləyirdi. Qeyd edək ki, 1893-cü ildən Kəlküttədə İran mühacirləri tərəfindən farsca nəşr olunan "Həblülmətin", şahlıq rejiminə qarşı məşrutə hərəkatını dəstəklədiyinə görə İrana və Qafqaza gətirilməsi bir müddət qadağan edilmişdi (33; 45, s.198). Qəzetin redaktoru Seyid Cəmaləddin Kaşani idi (3). "Həblülmətin" mürtəce ruhanilərə və şahlıq rejiminə qarşı mübarizə aparırdı. "Həblülmətin" məşrutədən sonra Tehranda da nəşr olundu (2, p.XII, 74). Qəzetin nəşri 1907-ci ildən Seyid Həsən Kaşaninin redaktorluğu ilə davam etdirilmişdir (3).

Milli-mənəvi dəyərləri, demokratik ideyaları təbliğ edən "Həblülmətin" Şimali Azərbaycan ziyalıları tərəfindən rəğbətlə qarşılanırdı. "Şərqi-rus" qəzetində "Həblülmətin"in İrandakı problemləri əks etdirən, islamın dünyada yayılmasından bəhs edən müxtəlif yazılarından nümunələr təqdim olunurdu (53, s.150, 155). "Şərqi-rus" qəzetində "Həblülmətin"in məqalələri tərcümə edilib, təqdim edilirdi. Məsələn, qəzetin 23 iyul 1903-cü il, 47-ci sayında "Həblülmətin"dən götürülmüş "İslâmın Amerikada tərəqqisi" adlı məqalə dərc olunmuşdu (53, s.150). Həmçinin, qəzetin 15 avqust 1903-cü il, 57-ci sayında "İranda yaşanılan qarışıqlıqlar və "Həblülmətin"dən iqtibas" adlı məqalə təqdim olunmuşdu (53, s.155). Qəzetə görkəmli xeyriyyəçi H.Z.Tağıyev də maliyyə yardımı edirdi (9, s.62).

Məhəmmədəli şah məşrutə düşməni ruhanilərlə də birləşmiş və belə fikir yayırdı ki, guya məşrutə şəriətə ziddir (9, s.240-241). "Molla Nəsrəddin" jurnalı bu haqda belə yazırdı: "Qanuni-əsasinin (konstitusiya-Ə.F.) təsdiq olunmağını tələb eləyəndə Məhəmmədəli şah həmişə cavab verir ki, müctəhidlər qoymurlar, çünki məşrutiyyəti şəriətə zidd tapırlar" (20; 45, s.351-352). Lakin şah ancaq öz şəxsi mənfəətinə xidmət edən müctəhidlərin fitvalarını nümunə göstərirdi. Çünki yenə "Molla Nəsrəddin" jurnalının qeyd etdiyi kimi Kərbəla və Nəcəfin mütərəqqi müctəhidləri məşrutiyyət tərəfdarı olub, şahı buna dəvət edirdilər. Lakin mürtəce İran ruhaniləri deyirdilər ki, "Məşrutiyyət şeytan işidir" (20; 45, s.351-352).

Təbrizli mürtəce ruhani, müctəhid Mirzə Həsən ağa məşrutə inqilabı dövründə şəhərdən qovulmuşdu (9, s.346-347). Mövzunu işıqlandıran "Molla Nəsrəddin" jurnalı belə yazırdı: "Yazıq Hacı Mirzə Həsən ağa, niyə səni qatır üstə mindirib Təbrizdən çıxarıb qovdular? Sənin günahın nə idi, sən nə deyirdin ki? Sən deyirdin ki, "bu məşrutəçilər yoldan çıxıblar" (43; 45, s.161); "Hacı Mirzə Həsən ağa bircə dəfə mücahidlər barəsində narazılıq izhar etmək ilə təbrizlilər onu şəhərdən kənar elədilər" (19; 45, s.172). Jurnal digər mürtəce mollaların da eyni fikirdə olduğunu göstərirdi: "Hələ Şeyx Fəzlullah və hacı Mirzə Həsən qalsınlar kənarda: məşrutiyyəti xilafi-şəriət hesab eləyən müctəhidlərin qədəri gün-gündən artmaqdadır. Müctəhidlər şaha ərizə veriblər ki, qanuni-əsasi verməsin. Məşrutəçiləri kafir deyə elan ediblər" (20; 45, s.351).

"Molla Nəsrəddin" jurnalı İran parlamentinin məşrutəçi deputatlarını

dəstəkləyərək yazırdı ki, "İranda millətvəkilləri yapışsınlar vəzirlərin yaxasından ki, gərək bizim iznimiz olmamış heç bir qərardad eləməsin" (34; 45, s.130). Qeyd edək ki, Darulşuranın (İran parlamenti-Ə.F.) məmurların gəlir və xərclərinə nəzarət etmə arzusu və məmurların buna qarşı mübarizəsi "Molla Nəsrəddin" jurnalında öz əksini tapmışdı. Məsələn, jurnalda iranlı bir konsulun dili ilə belə yazırdı: "Mənim cəmi əmlakımı dəyər-dəyməzə satın, pul eləyin və göndərin qoyum ingilis bankına; ondan ötrü ki, Tehranın Millət Məclisi yapışacaq yaxamdan və var-yoxumu alıb, xəzinə malı eləyəcək, özümü də məhkəməyə verəcək. Daha bundan sonra konsulluğun nə ləzzəti?" (28; 45, s.117). Jurnal bəzi iranlı konsulların xalqın problemlərini həll etmək əvəzinə bu problemləri daha da artırdığını belə göstərirdi: "İran konsullarının hümmətindən tiryək və mərizxanadakıların sayı artdı" (37; 46, s.179).

Məhəmmədəli şahın parlamentə olan mənfi münasibəti "Molla Nəsrəddin"də belə ifadə olunmuşdu: "Padşah quldurlarını aparıb düzüb ətrafına və məclis üzvlərinə yol vermir ki, şahın hüzuruna yetişib, vəzirlərin xəyanətini padşaha ərz etsinlər" (13; 45, s.133). Parlamentin dağıdılmasını və məşrutəçilərə edilən zülmü təsvir edən "Molla Nəsrəddin" jurnalı belə yazırdı: "Məhəmmədəli şah millət vəkillərinə zülm eləyib. Qurana and içəndən sonra məşrutəni pozub. Bizə xəbər gəlib ki, neçə millət mücahidlərini Məhəmmədəli şah boğdurub və neçə-neçə günahsız müsəlmanların uşaqlarını gözüyaşlı qoyub. Məhəmmədəli şah İrana edən zülmü heç Neron eləməyib" (39; 45, s.300). Təsadüfi deyil ki, məhz mürtəce ruhanilərin dəstəklədiyi şah rejiminin qorxusundan hətta xalqın seçdiyi millət vəkilləri də ölkədən qaçır və ya İrana ayaq basa bilmirdilər (15).

XIX əsr – XX əsrin əvvəllərində İranda qeyri-müsəlmanlar da zülm altında idilər. Müsəlman ruhanilər deyirdi ki, "Müsəlman və kafir şəriət cəzalarında eyni hüquqlu ola bilməz. Bir müsəlman bir yəhudini, zərdüştini və ya başqa bir kafiri öldürsə, onu ölüm cəzasına məhkum etmək olmaz, ondan qan bahası alınmalıdır". Xüsusilə zərdüştilər parlamentdən hüquqi ayrı-seçkiliyin qaldırılmasını tələb edirdilər (9, s.372). "Molla Nəsrəddin" jurnalı da mürtəce din xadimlərinin qeyri-müsəlmanlara təhqiramiz münasibətini öz səhifələrində geniş işıqlandırırdı. Məsələn, jurnalda mürtəce mollanın dili ilə belə yazırdı: "Millət deyəndə yer üzündə bircə müsəlman millətidir, özgə millətlər heyvan kimi bir şeydirlər" (32; 45, s.111).

Məhəmmədəli şah təbrizli ruhani Mir Haşimə göndərdiyi teleqramda inqilabçıları həbs etdiyini yazır və belə deyirdi: "Bütün pozğunlar həbs olunubdur. Siz də pozğunları məhv etməklə məşğul olun. Nə yardım istəsəniz, hazıram" (9, s.777). Mir Haşimin mənsub olduğu Təbrizin Dəvəçi məhəlləsi mürtəce ruhanilərin və şahpərəstlərin məşrutəçilərə qarşı əsas silahlı qiyam mərkəzi idi (5, s.132). "Molla Nəsrəddin" jurnalı da Mir Haşimin cinayətkar fəaliyyətini - "Dəxi demə ki, İran İranındır. Xeyr! İran indi Təbrizdə Mir Haşimindir", deyərək ifadə etmişdi (25; 45, s.261).

İranda əsrlərdən bəri davam edən məzhəb qovğaları XX əsrin əvvəlində də davam edirdi. “Sünni-şiə ittihadının əleyhinə yazılan fətvalar”ı (45, s.247) qınayan C.Məmmədquluzadə şiə məzhəbin öz daxilindəki “Üsuli və şeyxi davası”ndan da şikayət edirdi (40; 45, s.19). Babilik isə yarandığı andan etibarən İran ruhanilərinin və dövlətin hədəfində idi. Ruhanilər məşrutəçiləri babi elan edib qanlarını da halal sayırdılar. Məsələn, öz şeirlərində babilik mövzusuna toxunan dahi satirik M.Ə.Sabir (1862-1911) cahil xalqın və nadan ruhanilərin bu addan necə sui-istifadə etdiklərini qeyd edirdi:

“Bu isə pəs o ləinin də işi qullabıdır,
Dinü imanı danıb, yoldan azıbdır, babıdır!” (50, s.262).

- deyərək qəzet oxuyan, uşaqlarını məktəbə göndərən savadlı, maarifpərvər, yenilikçi şəxsləri babi adı ilə töhmətləndirən, bu addan bir ləkələmə vasitəsi kimi istifadə edənləri tənqid edir, eyni zamanda babilərin maarifpərvər bir camaat olduğunu da göstərmiş olurdu.

Məşrutəçilərin qatı düşməni olan təbrizli Mir Haşim məşrutənin qələbəsindən sonra mühakimə edildi. M.Ə.Sabirin ona xitabən “Durma, götür qaç başını, Mir Haşim” deyə yazdığı şeiri “Molla Nəsrəddin” jurnalında nəşr olunmuşdu (51, s.195; 7; 48, s.333). Məşrutəçilərə qarşı etdiyi cinayətlərin cəzasını Mir Haşim 1909-cu ildə məşrutə hökuməti tərəfindən edam edilməklə ödədi.

Səttar xanın məşrutə inqilabındakı rolunu qeyd edən “Molla Nəsrəddin” jurnalı belə yazırdı: “Səttarxan şahın qoşunlarını basdı. Az qalıb ki, bütün Azərbaycana padşah olsun” (41; 45, s.339). Türkiyə və Qafqazdakı məşrutə tərəfdarları da onlara yardım göndərirdilər. Bu barədə “Molla Nəsrəddin” jurnalı belə yazırdı: “İranlı və qafqazlı hürriyyətpərəstlər beş yüz lirə cəm eləmişdilər ki, göndərsinlər Təbrizin füqərasına. Bu pul gedir Səttarxana patron-tüfəng almağa” (14; 45, s.314).

Əksinqilabi qüvvələr məşrutəçiləri məhv etmək üçün dini terminlərdən istifadə edir, kafir babi adı altında inqilabçılara, şah rejiminin əleyhdarlarına divan tuturdular (4, s.149). “Molla Nəsrəddin” jurnalı 1908-ci il Təbriz hadisələri ilə əlaqədar belə yazırdı: “Biz görürük ki, bütün Təbriz camaatı hücum çəkib məşrutəçilərin məhəllələrini dağıdıb, özlərinin qanını içirlər. Heç kəs deməsin ki, hücum çəkənlərin qəsdi padşahın düşmənlərini yox eləməkdir və köhnə idarəni geri qaytarmaqdır. Xeyr, ... Təbrizdə bir adam tapılmaz ki, buna razı olsun. Bəs bu nə qovğadır? Bir az işlərə diqqətlə baxsaq, görərik ki, burada bir belə hikmət var: Hacı Mirzə Həsən Təbriz meşələrində ot otlayan müsəlmanları inandırıb ki, məşrutiyyət istəyənlərin hamısı babidir. Dəxi qurtardı getdi. "Dədəm mənə kor deyib". “Al-gəldi, qırın bu babiləri!” Budur Təbriz davası! Və özgə cür də ola bilməzdi. Məsələn, mənə deyirlər ki, filankəs babidir; yəni mürtəddir. Mən də bilirəm ki, onun qətli vacibdir. Dəxi qurtardı getdi. Yoxsa bir də özümə zəhmət verib başlayım sual-cavabı ki, aya doğrudanmı filankəs babidir, yainki hürriyyəti-vicdan adına durum hələ bir az fikir də eləyim?” (16).

Cənubi Azərbaycanın mütərəqqi ziyalıları "Molla Nəsrəddin"i yüksək qiymətləndirirdilər. Məsələn, Azərbaycan tarixi və ziyalıları haqqında geniş məlumatların da əks olunduğu çoxcildli "Lüğətnamə" əsərinin müəllifi, qəzvinli M.Ə.Dehxuda "Molla Nəsrəddin" jurnalına rəğbətlə yanaşırdı. Onun yaradıcılığı, xüsusilə satirası mütləqiyyətin, riyakar ruhanilərin əleyhinə yönəlmişdir. Dehxuda İranda qadınların hüquqsuzluğu əleyhinə də ardıcıl mübarizə aparırdı. Mürtəce ruhanilər Dehxudanın öz felyetonlarında dinə sataşdığını bəhanə edərək onu gözdən salmağa çalışırdılar. Dehxuda "Sure-İsrafil" qəzetinin səhifələrində dinə və şəriətə əsaslanaraq onlara layiqincə cavab verir, islamiyyətdə müsəlmanlıqla şahlığın bir yerə sığa bilməməyini göstərirdi. Onun Azərbaycan dilində yazdığı "Şeyxülislam qəzasında cənab "Molla Nəsrəddin"ə təziyət" şeiri Dehxudanın bir şair kimi Azərbaycan dilinə və ictimai fikrinə biganə qalmadığını göstərir. O, mürtəce ruhanilərdən fərqli olaraq, "Molla Nəsrəddin"in mütərəqqi ideyalarını dəstəkləyirdi. Məşrutənin məğlubiyyəti nəticəsində İran parlamenti bağlandıqdan sonra Dehxuda Məmmədəli şahın cəlladlarının əlindən qaçıb ölkəni tərk etmişdi (8, s.72-76).

C.Məmmədquluzadənin yaradıcılığında xristian missionerlərinin Cənubi Azərbaycandakı fəaliyyəti də əks olunmuşdur. Məsələn, mütəfəkkir yazırdı ki, "Urmiyada təzədən üç missioner məktəbi açılıb" (27; 47, s.108). Bu missionerlərin müsəlmanların əleyhinə fəaliyyət göstərdiyini görkəmli xeyriyyəçi H.Z.Tağıyevin Axund Yusif Talıbzadə vasitəsilə 1907-ci ildə Osmanlı sultanı II Əbdülhəmidə göndərdiyi məktubda da görürük. Məktubda Urmiya şəhərindəki "Erməni-Amerikan və Erməni-Proteston Komitəsi"nin Qafqaz və Azərbaycan türklərini islamdan uzaqlaşdırmaq üçün nəşrlər hazırladığı və yaydığı qeyd olunur, Osmanlı sultanından yardım istənirdi (6, s.69). Birinci dünya müharibəsi dövründə Rusiya və digər Avropa dövlətlərinin Cənubi Azərbaycandakı xristian əhalidən ibarət silahlı birliklər təşkil etdiyi və müsəlmanlara qarşı terror hadisələri törətdiyi də qaynaqlarda yer alır.

Son olaraq bunu deyə bilərik ki, "Molla Nəsrəddin" jurnalı XIX əsrin sonu – XX əsrin əvvəlləri dövrünün mükəmməl qaynaqlarından biridir və təkcə Şimali Azərbaycanın deyil, Cənubi Azərbaycan tarixinin də güzgüsüdür. Təəccüblü deyil ki, mürtəce ruhanilər "Molla Nəsrəddin" jurnalının oxunmasına qarşı idilər və deyirdilər ki, "oxumayın o mürtədin məcmuəsini. İran hökumətinin tənəzzüldə olmasının baisi məhz "Molla Nəsrəddin"dir" (18; 47, s.84). "Babi olmaq məsələsində hamı gərək sərbəst olsun" (17; 47, s.81) deyən "Molla Nəsrəddin" isə o dövrdə həm babilik ittihamı ilə törədilən cinayətləri qınayır, həm də din və vicdan azadlığını tərənnüm edirdi. Lakin mürtəce din xadimlərinin və şah rejiminin qarşı çıxmasına baxmayaraq "Molla Nəsrəddin" xalqın mütərəqqi nümayəndələri tərəfindən sevilərək oxunur və yayılırdı. O dövrdə olduğu kimi, günümüzdə də jurnaldakı məqalələr müstəbid dövlət xadimlərinin, mürtəce ruhanilərin xalqa zidd fəaliyyətinin ifşası, Səttarxan kimi azadlıq qəhrəmanlarının mübarizəsini öyrənmək

baxımından əhəmiyyətlidir və daha çox tədqiq edilməlidir.

## ƏDƏBİYYAT

1. *Barijough S.M.* İranda siyasi ve ekonomik çıkar çatışmaları (1921–1950). Bitlis: Bitlis Eren Üniversitesi, 2015, 119 s.
2. *Brovne E.* The press and poetry. Cambridge: University Press, 1914, 482 p.
3. Cəlil Məmmədquluzadə Ensiklopediyası // http://calilbook.musigi-dunya.az/h/hablulmetin.html
4. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Məsul red: Ə.S. Sumbatzadə. Bakı: Elm, 1985, 316 s.
5. *Çingizoğlu Ə.* Məşrutə hərəkatında ruhanilərin rolu. Bakı: Mütərcim, 2018, 160 s.
6. *Esedli M.* Ahund Yusuf Ziya Talıbzadenin Türkiyedeki dini, siyasi ve herbi fealiyyetleri (1906-1918) // Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies, C. VII, S.1, s.67-78, İzmir, 2007, s.67-78
7. ”Ədəbiyyat” // Molla Nəsrəddin, 20 oktyabr 1908, №42, s.3.
8. *İbrahimov S.* “Dehxuda yaradıcılığı və Cəlil Məmmədquluzadə irsi”, s.72-76 // Elmi əsərlər. Naxçıvan: Naxçıvan Dövlət Universiteti, 2017, № 5 (86), 301 s.
9. *Kəsrəvi Ə.* İranın məşrutə inqilabının tarixi. I c., tərc: A.Ə.Haşimi (Cavanşir). Essen, 2003, 528 s.
10. *Kəsrəvi Ə.* Tarixe-məşruteye-İran. Tehran: Müəssəseye-intişarate-Əmir Kəbir, 1343, 906 s.
11. *Kılıç S.* İranda ilk anayasal hareket "1906 Meşrutiyeti", s.143-161 // https://www.researchgate.net/publication/329117329_IRAN'DA_ILK_ANAYASAL_HAREKET_1906_MESRUTIYETI //
12. “Məktubat” // “Əkinçi” qəz., 1877, №18 // Əkinçi. 1875-1877. Tam mətni. Bakı: Avrasiya Press, 2005, 496 s.
13. *Məmmədquluzadə C.* “Məhəmmədəli şah və bütpərəstlər” // Molla Nəsrəddin, 1907, №5, s.2-3
14. *Məmmədquluzadə C.* “Şeytan” // Molla Nəsrəddin, 1908, №37, s.2-3
15. *Məmmədquluzadə C.* “Ayineyi-millət” // Molla Nəsrəddin, 1908, №51, s.4-5
16. *Məmmədquluzadə C.* “Babilər” // Molla Nəsrəddin, 1908, №26, s.2
17. *Məmmədquluzadə C.* “İranda hürriyyət” // Molla Nəsrəddin, 1906, № 7
18. *Məmmədquluzadə C.* “Çox qəribə” // Molla Nəsrəddin, 1906, №8, s.2-3
19. *Məmmədquluzadə C.* “Gülmək” // Molla Nəsrəddin, 1907, №20, s.6
20. *Məmmədquluzadə C.* “Həqiqət” // Molla Nəsrəddin, 1908, №52, s.5-6
21. *Məmmədquluzadə C.* “Həmşəri” // Molla Nəsrəddin, 1907, №3, s.2-3
22. *Məmmədquluzadə C.* “Hürufatımızın şənində” // Molla Nəsrəddin, 1906, №5, s.3-6.
23. *Məmmədquluzadə C.* “Xoşbəxtlər” // Molla Nəsrəddin, 1907, №9, s.3
24. *Məmmədquluzadə C.* “İran fəhlələrinin pulu hara gedir?” // Molla Nəsrəddin, 1906, №27, s.2-3
25. *Məmmədquluzadə C.* “İran işləri” // Molla Nəsrəddin, 1908, №9, s.6-7

26. *Məmmədquluzadə C.* "İran konsulları" // Molla Nəsrəddin, 1906, №15, s.2-3
27. *Məmmədquluzadə C.* "İranda tərəqqi" // Molla Nəsrəddin, 1906, №11, s.2
28. *Məmmədquluzadə C.* "İranın Batum konsuluna başıbağlı məktub" // Molla Nəsrəddin, 1906, №39, s.3-6
29. *Məmmədquluzadə C.* "İranlılara", s.80 // Molla Nəsrəddin, 1906, №26, s.2
30. *Məmmədquluzadə C.* "İrşad" // Molla Nəsrəddin, 1906, №35, s.2-3
31. *Məmmədquluzadə C.* "İttihad" // Molla Nəsrəddin, 1908, №31, s.2-3.
32. Məmmədquluzadə C. "Qarnıyoğunlar" // Molla Nəsrəddin, 1906, № 36, s.3-6
33. *Məmmədquluzadə C.* "Qurbağalar" // Molla Nəsrəddin, 1907, №29, s.3-6
34. *Məmmədquluzadə C.* "Lüğəti-Molla Nəsrəddin" // Molla Nəsrəddin, 1907, №3, s.7
35. *Məmmədquluzadə C.* "Meşədə gördüklərim" // Molla Nəsrəddin, 1907, № 4, s.2
36. *Məmmədquluzadə C.* "Məscidlərimiz" // "Molla Nəsrəddin, 1906, №34, s.2-3
37. *Məmmədquluzadə C.* "Molla Nəsrəddin" // Molla Nəsrəddin, 1909, №2, s.8
38. *Məmmədquluzadə C.* "Mövqufat məsələsi" // Molla Nəsrəddin, 1907, №14, s.2-3
39. *Məmmədquluzadə C.* "Peterburq" // Molla Nəsrəddin, 1908, №31, s.6
40. *Məmmədquluzadə C.* "Poçt qutusu" // Molla Nəsrəddin, 1906, №3, s.7.
41. Məmmədquluzadə C. "Siyasi məsələ" // Molla Nəsrəddin, 1908, №47, s.7
42. *Məmmədquluzadə C.* "Təbrik" // Yeni yol qəz, 1922, №1
43. *Məmmədquluzadə C.* "Tərcümanın fitvası" // Molla Nəsrəddin, 1907, №17, s.2-3
44. *Məmmədquluzadə C.* "Təzə təlim kitabı" // Molla Nəsrəddin, 1906, №10, s.6-7
45. *Məmmədquluzadə C.* Əsərləri: 4 cilddə, II c., Bakı: Öndər nəşriyyat, 2004, 584 s.
46. *Məmmədquluzadə C.* Əsərləri: 4 cilddə, IV c., Bakı: Öndər nəşriyyat, 2004, 472 s.
47. Molla Nəsrəddin: 10 cilddə (1906-1931), I c., 1906-1907. Bakı: Azərnəşr, 1996, 712 s.
48. Molla Nəsrəddin: 10 cilddə (1906-1931), II c., 1908-1909. Bakı: Azərnəşr, 2002, 720 s. s.
49. *Rəsulzadə M.Ə.* İran türkləri. Bakı: Təknur 2013, 100 s.
50. *Sabir M.Ə.* Əhvalpürsanlıq, yaxud qonuşma // Hophopnamə: 2 cilddə, I c., Bakı: Sərq-Qərb, 2004, 480 s.
51. Sabir M.Ə. Hophopnamə: 2 cilddə, I c., Bakı: Şərq-Qərb, 2004, 480 s.
52. *Tabriz A.A.* Aydınların, dini liderler ve esnafın İranın yakın dönem toplumsal hareketlerindeki ve devrimlerindeki rollerinin incelenmesi. Ankara: Ankara Üniversitesi, 2004, 256 s.
53. *Türkyılmaz S.* Şark-i Rus Gazetesi'nin İzahlı Makaleler Bibliyografyası // Türk Dili ve Edebiyatı Araştırmaları Dergisi, 2010, Sayı: 18, s.150- 155
54. *Алтынкайнак Э.* Хаджи Серайя Хан Шапшал: Биографический очерк // Karadeniz Araştırmaları, №, 2004, c.13-23

Redaksiyaya daxil olub 18.02.2020

*UOT 94(479.24)*

***S.N.Həsənova***
*Bakı Dövlət Universiteti*
*hassanovasaida@gmail.com*

# SƏFƏVİLƏR DÖVLƏTİNİN TƏNƏZZÜLÜ DÖVRÜNDƏ İMPERİYANIN ŞƏRQ ƏRAZİLƏRİNDƏ SEPARATÇILIQ HƏRƏKATLARI (T.KRUŞİNSKİNİN "XRİSTİAN SƏYYAHIN TARİXİ" ƏSƏRİ ƏSASINDA)

***Açar sözlər:*** *separat hərəkatlar, Səfəvilər, əfqan, fars, xalq üsyanları*

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin tənəzzülü zamanı baş vermiş əksər üsyanlar sovet tarixşünaslığında "xalq hərəkatı" kimi qiymətləndirilmişdir. Təəssüflər olsun ki, dövrün ideoloji basqılarından dolayı Azərbaycanlı tarixçilər bir sıra separat xarakterli üsyanları qabardaraq "milli hərəkat" kimi dəyərləndirmişlər. 1991-ci ildən sonra – müstəqillik illərində tarixi gerçəkliklərin üzə çıxarılması istiqamətində aparılan araşdırmalar Səfəvilər dövlətinə qarşı baş vermiş bu üsyanların bir qisminin sosial narazılıqlar, bir hissəsinin isə separatçılıq meyillərindən baş verdiyini söyləməyə imkan verir. Məqalədə Səfəvilər imperiyasının tənəzzülü dövründə ölkənin şərq hissəsində baş vermiş "xalq hərəkatları"nın, xüsusilə əfqan tayfalarının üsyanının əslində mahiyyət etibarı ilə dövlətin bütövlüyünü parçalamaq məqsədi ilə qalxmış separat hərəkat olması polşalı səyyah T.Kruşinskinin "Xristian səyyahın tarixi" adlı əsəri əsasında tədqiq edilmişdir.

***С.Н.Гасанова***

## СЕПАРАТИСТСКИЕ ДВИЖЕНИЯ НА ВОСТОЧНЫХ ГРАНИЦАХ В ПЕРИОД ПАДЕНИЯ ГОСУДАРСТВА СЕФЕВИДОВ

***Ключевые слова:*** *сепаратистские восстания, сефевиды, афганцы, персы, народные восстания*

В начале XVIII века большинство восстаний во время падения государства Сефевидов были расценены как "национальное движение" в советской историографии. К сожалению, из-за идеологического давления того периода азербайджанские историки также охарактеризовали сепаратистское восстание как "национальное движение". Исследования, проводимые с 1991 года, в годы независимости, с целью выявления исторических реалий, позволяют предположить, что некоторые из этих восстаний против государства Сефевидов были вызваны социальными беспорядками, а некоторые - сепаратистскими тенденциями. В статье на основе произведения польского путешественника Т.Крушинского «История христианского путешественника» исследуется тот факт, что «народные движения» в восточной части страны во время упадка империи Сефевидов, особенно афганские восстания, на самом деле были отдельным движением, направленным на подрыв целостности государства.

***S.N.Hasanova***

**THE SEPARATIST MOVEMENTS IN THE EASTERN BORDERS DURING COLLAPSE OF THE SAFAVID EMPIRE**

***Keywords:*** *separate movements, Safavids, afgans, persians, nation rebelions*

In the early 18th century the most uprisings during the demise of the Safavids state were regarded as a "national movement" by the Soviet historiography. Unfortunately, due to the ideological pressure of the period, Azerbaijani historians have also characterized the separatist rebellion as a "national movement". However, research into the historical realities of independence has revealed that some of these revolts against the Safavid state are due to social dissatisfaction and partly to the separatist tendencies. The article explores the "nation movements" that occurred in the eastern part of the country during the decline of the Safavid Empire, in fact the rebellion of the Afghan tribes was essentially a separatist movement that sought to undermine the integrity of the state on the basis of T. Krusinski's "The History of the Christian Traveler" book.

XVII əsrin sonu – XVIII əsrin əvvəlləri Səfəvilər imperiyası tənəzzül dövrünü yaşayırdı. XVIII əsrin ilk onilliklərində Qızılbaş Səfəvi dövləti böhranlı dövrə qədəm qoyur. Dövlətin tənəzzülü günü-gündən dərinləşir və dövlətin süqutunu tezləşdirirdi. Dövlətin mərkəzi hakimiyyətinin zəifləməsi kənd təsərrüfatı sahələrinin dağılmasına səbəb olurdu, eləcə də təbii fəlakətlər, quraqlıq getdikcə iqtisadiyyatı daha da zəiflədirdi. Təsərrüfat sahələrinin dağılması xammaldan məhrum qalan sənətkarlığa da mənfi təsir edirdi. Əmtəə-pul münasibətlərinin pozulması, dövlətin xəzinəsinin boşalması, ticarətin xarici kapitaldan asılı vəziyyətə düşməsi dövlətin böhranına səbəb olan əsas amillərdəndir. Bu dövrdə dövlətin dini vəziyyətinə diqqət etsək, görərik ki, ruhanilərin şah sarayında hüquq və səlahiyyətləri artmış və onlar sui-istifadə hallarına yol verir, hətta dövlətin idarəçiliyinə qarışırdılar. Dinin real qaydalarından uzaqlaşaraq fanatizmin, tərki-dünyalığın təbliği ilə əhalini təzyiq altında saxlamağa, onların fəaliyyətsizliyinə çalışırdılar. Bu isə əks təsir göstərmiş və narazılıqlar həm də şiə ruhanilərinə qarşı yönəlmişdi. XVIII əsrin ilk onilliklərində xarici amilləri də unutmayaq. Qızılbaş Səfəvi sülaləsinin zəifliyini, dövlətin böhranını, daxildən tənəzzülünü görən qonşu imperialist dövlətlər Azərbaycan uğrunda gərgin mübarizəyə başlayırlar. Beləliklə, Cənubi Qafqaz Azərbaycan Səfəvi dövlətinin daxili siyasi böhran vəziyyətindən istifadə edən xarici qüvvələr, o cümlədən Rusiya və Osmanlı dövlətləri arasında rəqabət meydanına çevrilir. Bu qonşu dövlətlərin, o cümlədən Avropa imperialistlərinin Azərbaycanı ələ keçirmək planlarının qarşısına çıxa biləcək nə Səfəvi sülaləsi nümayəndələri, nə də digər qüvvələr vardı. Bu tənəzzülün daxili və xarici amillərlə bağlılığı tədqiqatçılar tərəfindən müəyyən səviyyədə araşdırılmışdır. Tədqiqatçıların bir qismi Səfəvi imperiyasında başlanan sosial-iqtisadi və siyasi böhranın sonuncu Səfəvi şahlarının şəxsi keyfiyyətləri [6; 7],

digərləri isə beynəlxalq ticarət yollarının dəyişməsi və ya imperiyaların inkişaf qanunauyğunluğuna əsasən baş verdiyini qeyd etmişdi [8; 9]. Səfəvilərin tənəzzülü məsələsinə tədqiqata cəlb etdiyimiz xristian səyyahı T.Kruşinski də qiymət verərək bildirmişdi: "Dövlətin zavala uğramasının ən böyük səbəbi bu idi ki, hökumət işlərini idarə edən məmurlar, dövlətin keşiyində duranlar və şahın vəzirləri iki dəstəyə bölünərək bir-biri ilə tam ziddiyyətə girmişdilər" [4, s.21]. Bir daha dövlət məmurları arasında vəzifədən sui-istifadə hallarının və özbaşınalığın olduğunu görürük. Hökumət dairələri arasında ikitirəliyin olması, şaha etimad etməmələri dövlətin daxildən süqutunu təmin edir.

Səfəvilər dövlətinin tənəzzülünün səbəbləri sırasına imperiya ərazilərində baş qaldırmış üsyanlar və ya separatist hərəkatları da aid etmək olar. T.Kruşinski bu məsələyə də diqqət ayırmışdı: "Dövlətin zavala uğramasının başqa bir səbəbi əcəm tayfalarının islamın işlərində olduqca təkid etmələridir... Səfəvilər səltənətinin son illərində isə dövlətə daxil olan böyük ölkələrdə şəri ehkamların icrası üçün çalışmırdılar" [4, s.21]. Gördüyümüz kimi, Səfəvilərin zəifləməsindən istifadə edən sərhəd ərazilərdə hakimlər dini məsələləri qabartmaqla mərkəzə tabe olmaq istəmirdilər. T.Kruşinski məhz birləşdirilmiş ərazilərdə separatist qüvvələrin çaxnaşma salmasını dövlətin tənəzzülü səbəblərindən biri kimi dəyərləndirir.

Əsası türk qızılbaş tayfaları tərəfindən qoyulmuş Səfəvilər dövləti zamanla geniş əraziləri əhatə edən imperiyaya çevrildi. İmperiyanın tərkibində müxtəlif etnik kimliyə malik xalqların mövcudluğu dövlətin böhranlı sosial-iqtisadi və siyasi məqamlarında onların müstəqillik meyillərinin güclənməsinə səbəb olurdu. Bu dövrdə Səfəvi hakimiyyətinə qarşı yönəlmiş çıxışların iki başlıca ocağı yaranmışdı. Bunlardan biri Əfqanıstan, o biri isə Azərbaycan idi. Hər iki regionda baş qaldırmış bir sıra hərəkatlarda dini don geydirilmiş mərkəzdənqaçma meyilləri özünü göstərmişdir. Ancaq qeyd etmək lazımdır ki, imperiyanın cənub və şərq ərazilərində separat hərəkatlar mərkəzi hakimiyyətin zəiflədiyi əksər vaxtlarda özünü göstərmişdir. Dövrün qaynaqlarında hələ Şah I Abbas (1587-1629) tərəfindən XVI əsrin 90-cı illərində Gilan, Luristan, Mazandaran, Astrabad, Kaşan və s. bölgələrdə baş qaldırmış separatizmə qarşı mübarizə zamanı onlarla qeyri-türk mənşəli əyanların aradan götürülməsi ilə bağlı kifayət qədər məlumatlar qeydə alınmışdır [3, s.35].

Səfəvilər imperiyasının tənəzzülü dövrü haqqında bu ərazilərdə olmuş polyak səyyahı Yan Tadeuş Kruşinskinin qələmə aldığı "Xristian səyyahın tarixi" əsəri olduqca önəmli və unikal bilgilər verən qaynaqlardan biridir. Müəllif 1708-1726-cı illərdə Azərbaycan Səfəvi dövlətinin paytaxtı İsfahanda yaşayıb, fəaliyyət göstərmişdir. O, öz əsərində Azərbaycanın qonşu dövlətlərlə qarşılıqlı münasibətlərinə, xüsusən də Səfəvilər dövlətinin süqutuna geniş yer vermişdir. Səyyah Şah Sultan Hüseynin (1694-1722) hakimiyyəti zamanı dövlətin şərq sərhədlərində baş vermiş iğtişaş və üsyanlar haqqında məlumat verərkən əfqan tayfalarından xüsusi və geniş şəkildə bəhs edir. Müəllif əfqan tayfalarından gilzay

və abdalilərin Səfəvilərin təəbəliyinə qarşı çıxışlarının daha da güclənməsini əfqanlara qarşı göndərilmiş gürcü Gürgen xanın onlara qarşı amansız və ədalətsiz şəkildə davranması ilə izah edir [4, s.28]. Belə ki, 1704-cü ildə bəluclar Qəndəhar ərazisinə soxulmuş, Səfəvilərin üsyanı yatırmaq üçün göndərdikləri dəstəni darmadağın etmişdilər. Hadisələrin gedişi İsfahan sarayını narahat etməyə başlamış və Gürgen xanın başçılığı altında bəluclara qarşı dəstə göndərilmişdi. Bu üsyana Hindistanla ticarətdən varlanan Mir Veys başçılıq edirdi. Gürgen xan böyük səylər nəticəsində üsyanı yatıra bildi. Mir Veys qatı üsyançı kimi İsfahandan sürgün edilsə də, rüşvət və hədiyyələrlə səfəvi hakimlərini özünün günahsız olduğuna inandıra bilmiş, həmçinin Gürgen xana qarşı şübhə oyatmışdı. Səyyahın verdiyi məlumatlardan eləcə də, digər analoji qaynaqlardan bəllidir ki, Gürgen xan tərəfindən zərərsizləşdirilən və İsfahana məhbus kimi gətirilən gilzayların tayfa başçısı Mir Veys saray əyanlarının inamını qazanmağa müvəffəq olur. Bir müddət Səfəvi sarayında qaldıqdan sonra şah və bəzi dövlət ərkanının güvənini qazanan hiyləgər Mir Veys bu etimaddan istifadə edərək azadlığa qovuşur. Burada diqqətçəkən məqamlardan biri Mir Veysin əfqanları Səfəvi hakimiyyətindən xilas etmək üçün onları dini-ideoloji cəhətdən birləşdirməyə cəhd göstərməsidir. Polşalı səyyah yazır ki, Mir Veys bir neçə vaxtdan sonra zərurət üzündən şahdan Hicaz səfərinə getmək üçün rüsxət istədi. O, gözəl Məkkə və əzəmətli Mədinədə – o yerlərin üləma və müctəhidlərinə hədiyyələr verərək bir sıra məsələlər sandığının ağzını açdı və belə dedi: "Biz (əfqanlar) Şərqi İranın qurtaracağında Hindistan məmləkətinə bitişik bir ərazidə yaşayırıq və pak etiqadımız sünniliyədir. Neçə müddətdir Əcəm padşahı (Səfəvilər) bizi hökmranlıqları altına almış və biz onların rəiyyətinə çevrilmişik. Bizə olmazın əzab və əziyyətlər verirlər. Əgər biz acizlərə din yol verərsə onların üzərinə qılınc çəkib öldürməyimiz caizdirmi? Əgər onlara qarşı müharibə elan etsək, bunu "cihad" adlandırmaq mümkündürmü? Bu barədə rəsmi həqiqət qələmi ilə fitva vermənizi təmənna edirik". Sünni üləma və müctəhidlər onun qarşıya qoyduğu məsələlərin cavabı üzrə fitva verdilər [4, s.32].

Səyyahın verdiyi məlumatlardan məlum olur ki, Mir Veys Səfəvi dövlətində baş vermiş böhranlı vəziyyətdən istifadə edərək əfqan tayfalarını dövlətə qarşı üsyana qaldırmağa təşviq etmiş və bu məqsədlə onların birliyini təmin etmək üçün dini-ideoloji vasitələrdən istifadə etməyə çalışmışdır. Səfəvi imperiyasına qarşı yönəlmiş bu cür "xalq hərəkat"larında məzhəbçilik siyasətindən istifadə hallarını imperiyanın digər bölgələrində də müşahidə etmək mümkündür. Belə ki, biz məzhəbçilik siyasətindən istifadə edilməsini Hacı Davudun başçılığı ilə Şirvanda qalxmış mərkəzdənqaçma hərəkatında görürük. Ancaq qeyd etmək lazımdır ki, dini don geydirilmiş bu üsyanların əslində separatist hərəkat olması səyyahın sonrakı məlumatlarından da bəlli olur. Belə ki, şahdan icazə alıb Qəndahara gələn Mir Veys öz tayfasından olan şəxsləri ətrafına yığmaqla yanaşı, bəluc və farsları da ordusuna cəlb etdi. Səyyah qeyd edir ki, Gurgen xanın öldürülməsi haqqında etimadi-dövlətin yalançı fərmanını düzəldən Mir Veys öz

saxtakarlığını daha sonra əfqanlara etiraf edərək bu addımı şiə Səfəvi hakimiyyətindən xilas olmaq üçün atdığını bildirmişdi. Əfqan üsyanının azadlıq hərəkatı çərçivəsindən çıxaraq separatist xarakter daşıması haqqında T.Kruşinskinin əsərində başqa faktlara da rast gəlmək olur. T.Kruşinski qeyd edir ki, "İşlərinin yerinə yetməsi üçün Allaha təvəkkül edirlər. Vətənpərvər deyillər" [4, s.24]. Dinə bağlı olub, vətən anlayışını qəbul etməyən bir xalq üçün səyyah "cəng və qətl-qarət əfqanların adi adətlərindəndir" – deyə qeyd edir [4, s.21]. Qətl-qarət ilə, dağıdıcılıqla məşğul olan qeyri-vətənpərvərlər dövlətçilik uğrunda azadlıq mübarizəsi apara bilməz. Səyyah yazır ki, Mir Veys Qəndəhara tam sahib olmazdan öncə Hind padşahına məktub yazaraq xahiş etdi ki, əgər İran (Səfəvi) padşahı tərəfindən əfqanların üstünə qoşun yeridilərsə və onlar müdafiə oluna bilməzlərsə, hind padşahı tərəfindən himayə olunsunlar və padşah imkan daxilində onlara kömək etsin. Hərgah İran padşahına (Səfəvi şahına) heç vəchlə müqavimət göstərmək mümkün olmazsa, bütün əfqan tayfalarını götürüb Hindistana aparsınlar [4, s.38]. Səfəvilərə tabe olmamaq, hətta ayrılaraq ölkəni tərk etmək dərəcəsində düşüncələri olan hakimin fəaliyyəti separatizmdən qeyri dəyərləndirilə bilməz. Mir Veysin Səfəvilər dövlətinin hakimiyyətini devirmək iddiasında olması və bu üsyanların sadəcə sosial-iqtisadi səbəblərdən baş vermədiyini biz onun ağır xəstəliyə mübtəla olduğu zamanda əfqanlara etdiyi vəsiyyətnaməsində də aydın şəkildə görürük. Belə ki, T.Kruşinski yazır: "O, həmişə əfqanlara belə vəsiyyət edərdi: "Gərək düşmənlərimizə (Səfəvilərə) qarşı elan etdiyimiz cihadı böyük diqqət və ciddi-cəhdlə həyata keçirəsiniz. Hamınız müttəfiq olun. Əcəm xalqı öz aralarında ixtilaf və nifaqdan xali deyildir. Onların dövləti zavala uğramaqdadır. Gərək sizdə ürək ayrılmazlığı və dərin birlik olsun ki, Allahınköməyi ilə qələbə əldə edib İsfahanı ələ keçirəsiniz" [4, s.41]. 1709-cu ildə Qəndəhar ələ keçirilir və Hotaki dövləti yaradılır. Əsrlər boyu Səfəvilərin hakimiyyəti altında olan Qəndəhar bölgəsində müstəqil dövlətin yaranması mərkəzdənqaçma olub, separatizm hesab edirik.

1715-ci ildə Mir Veysin ölümündən sonra onun yerinə təbiətcə sakit və İsfahan sarayına meyilli olan Əbdüləziz keçdi [7, s.32]. Yeni gilzayi lideri Əbdüləziz xan qardaşı Mir Veysdən fərqli olaraq tədbirli siyasət həyata keçirmək məqsədi ilə əfqanların vergilərdən azad edilməsi və Qəndəhara yalnız Mir Veysin nəslindən olan nümayəndələrin təyin edilməsi şərti ilə şaha barışıq təklifi etdi.

Ancaq bəzi üsyankar əfqanların maraqlarına cavab verməyən Əbdüləziz öz qardaşı oğlu ifrat Səfəvi düşməni Mir Mahmud tərəfindən sui-qəsdə məruz qalaraq taxtdan endirildi. Mir Mahmud Mir Veys Hotakinin böyük oğlu, Qəndəharın üçüncü əmiri idi. Hotaki dövlətinin çiçəklənməsi dövrü Mir Mahmud Hotakinin zamanında olur. Mir Mahmud əfqan tayfalarından qoşun toplayaraq yenidən Səfəvilər dövlətinin sərhədlərini pozaraq Kirmanı tutdu və İsfahana doğru irəlilədi. Əfqanların Səfəvi hakimiyyətindən tamamilə azad olmaq istəkləri Mir Mahmudun İsfahanı mühasirəsi zamanı da özünü göstərir. Xristian səyyahın qeydlərindən bəlli

olur ki, İsfahanın mühasirəsi zamanı Şah Sultan Hüseynin vəziri Həvizə xan şahın gizli tapşırığı əsasında Mir Mahmuda sülh təklifi ehtiva edən məktub yazır. Məktubda vəzir öz məzhəbinin sünni olduğunu qeyd edərək əfqanlara mühasirəni dayandırıb getmələri və bunun müqabilində şahdan onlar üçün Qəndəharın tiyul olaraq alınacağı vədini verirdi. Ancaq bu məsələni əfqan əyanları ilə məsləhətləşən Mir Mahmud cavab məktubunda şahın öz qızını evlənməsi üçün ona göndərilməsini şərt qoyaraq bu təkliflə razılaşacağını bildirdi. Məktubu müzakirə edən Səfəvi dövlət ərkanı qohumluq əlaqələrinin qurulmasının iki hökmdar arasında adət olduğunu və bunu üsyankar əfqan tayfa başçısı Mir Mahmudun özünü şaha bərabər tutması kimi qəbul etdirmək niyyətindən qaynaqlandığını anlayaraq əfqanlara cavab olaraq belə yazdılar: "Sizin yazdıqlarınızın hamısına əməl etmək olar. Amma şiənin sünniyə qız verməsi mümkün deyildir. Şahın öz rəiyyəti ilə qohum olması məsləhət görülmür" [4, s.53-57]. Nigah və qohumluq münasibətlərinin yaradılması məsələsinə imtina alan əfqanlar 1722-ci ildə İsfahan ətrafı əraziləri qarət etdilər. Bunun qarşısını almaq məqsədilə qızılbaşlar "İsfahandan xaricdə yerləşən Fərəhabadı boşaldıb oraya beş top yerləşdirdilər. Möhkəm divarı və xəndəyi vardı. Orada bağlar və yaxşı su anbarları da mövcud idi [4, s.57]. Hətta bildiyimiz kimi, Şiraz körpüsü yaxınlığında baş vermiş döyüşdə qızılbaşlar əfqanları məğlub etmişdilər. Bu, həmin dövrdə qızılbaşların hələ də müəyyən hərbi gücə malik olduğuna sübutdur. Bununla belə, Səfəvilərin baş vəziri Həfizə xan barışıq üçün məktub yazmış, uzun müddət ərzində qızılbaşların əlində olan Qəndəharı tiyul olaraq əfqanlara verilməsini təklif etmişdi.

Əfqanların ifrat millətçilik və radikal dini təəssübkeşliyi T.Kruşinskinin verdiyi məlumatlarda öz əksini tapır. Səyyah yazır ki, İsfahanı zəbt etdikdən sonra Mir Mahmud əmr verdi ki, bundan sonra şəhərdə yaşayan müxtəlif tayfalar əfqanlarla ehtiramla rəftar etməlidirlər. Bir qayda olaraq harada əfqanları görsələr ayağa qalxmalı, hətta yolda atlı əfqan süvarisi görsələr öz atlarından enərək əllərini sinələrinə qoyaraq onların önündə təzim etməlidilər. Bundan əlavə əfqan tayfa başçısı İsfahan əhalisini yeddi təbəqəyə böldü. Bölgüdə ilk iki təbəqəni əfqan və sünnilərdən ibarət Dərgəzin camaatı, ən sonuncunu isə alçaq və mənsəbsiz tayfalar olan rafizilər (qızılbaşlar) təşkil edirdi [4, s.74-75]. Beləliklə, əfqan başçısının siyahısında əhalinin böyük əksəriyyətini təşkil edən rafizilər (yenə də həm türklər, həm də farslar) ən son yerdə olmaqla alçaq, həqir sayılırdı [5, s.168].

Səfəvilər dövlətinin tənəzzülü zamanı İran körfəzi rayonunda məsqət ərəbləri və onların əlaltıları da aktiv şəkildə qarət və soyğunçuluqla məşğul olurdular. İmperiyanın cənub-şərqində bəluc tayfaları Kirman və Bəlx vilayətlərinə tez-tez müdaxilə edirdilər. Ərəbistanda da vəziyyət həyəcanlı idi: belə ki, əyalət valisi vəzifəsi üstündə yerli Muşaşa tayfasının üzvləri ciddi rəqabətə girişmişdilər [5, s.168]. Bununla yanaşı, Həmədanı mühasirəyə alaraq İsfahan ətrafını talamış, bəluc tayfaları isə Bam və Kirmana qarətçi yürüşlər etmişdilər [6, s.318]. Bu iğtişaşlara qarşı mübarizədə Səfəvi Şahı və saray əyanları arasında fikir birliyinin

olmaması, hətta qoşun başçılarının özbaşına qərarlar qəbul etməsi üsyanların yatırılmasına mane olurdu. T.Kruşinski yazır ki, Lütfəli xan Bəndər Abbasdakı Səfəvi mülklərini ələ keçirmiş Bəhreyin imamına qarşı 50 minlik qızılbaş ordusu ilə göndərilsə də, o, Səfəvi sarayının portuqallardan gəmi alınması üçün ayırdığı pulu portuqallara yox, Məsqət imamına verərək işğal olunmuş torpaqları geri almaq qərarını qəbul etdi. Nəticədə portuqaliyalı kapitan icarə pulunun verilmədiyini görüb gəmilərin üzünü döndərdi, qızılbaşlar da məqsədlərini icra etmədən geri qayıtdılar [4, s.45]. Beləliklə, Səfəvilərin burada üsyançılara qarşı qüvvə toplamaq və onların mərkəzdənqaçma meyillərinin qarşısını almaq cəhdləri birbaşa açıq döyüşlə həll edilmədi.

Beləliklə, Səfəvilər dövlətində baş vermiş sosial-iqtisadi və siyasi böhranı fürsət bilən bir sıra qeyri-türk tayfaları, xüsusilə imperiyanın cənub və cənub-şərq hissəsində məskunlaşan əfqan, bəluc, fars, ərəb və s. tayfaları üsyanlar qaldıraraq mərkəzi hakimiyyətdən ayrılmağa təşəbbüs göstərirdilər. Bu separat hərəkatların nəticəsində Səfəvilər dövlətinin tənəzzülü daha da sürətləndi və böhran dərinləşdi. Sovet dövründə Azərbaycan tarixşünaslığında müxtəlif formada dəyərləndirilən bu hərəkatların səbəb və nəticələrinin ilkin qaynaqlar əsasında araşdırılması nəticəsində aydın olur ki, Səfəvilərin tənəzzülünə birbaşa təsir edən və süqutunu sürətləndirən bu hərəkatlar separat olub, mərkəzə tabe olmaqdan boyun qaçırmışdılar. Hətta bu məqsədlə qızılbaşların rəqiblərinə belə müraciət etməkdən çəkinməmişdilər. XVIII əsrin ilk onilliklərində baş verən bu hərəkatlar Səfəvi imperiyasının dərin siyasi böhran keçirdiyini bir daha sübut edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Bakı: Azərbaycan, 1996, 872 s.
2. Azərbaycan tarixi: 7 clilddə, III c., Bakı: Elm, 1999, 584 s.
3. *Bayramlı Z.H, Şabiyev B.Ş.* Azərbaycan Səfəvi dövləti (XVI – XVII əsrlər). Bakı: Avropa nəşriyyatı, 2016, 361 s.
4. *Kruşinski Y.T.* Xristian səyyahın tarixi. Farscadan tərcümə edəni Ş.Fərzəliyev. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1993,105 s
5. *Dadaşova İ.R.* Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı: Nurlan, 2003, 393 s
6. The Cambridge History of Iran. V. 6. The Timurid and Safavid periods, Edited P.Jackson and L.Lokhart. Cambridge: Cambridge University Press, 1986, 1065 p.
7. *Lokhart.L.* Nadir shah. A critical study based Mainly Upon Contenproary Sources. London: LUZAC co, 1938, 393 p.
8. *Иванов М.С.* История Ирана. Москва: Издательство МГУ, 1977, 488 с.
9. *Гейдаров М.Х.* Торговля и торговые связи Азербайджана в позднем средневековье. Баку: Элм, 1999, 280 с.


Redaksiyaya daxil olub 21.02.2020

*UOT 902*

***Ə.H.Qasımzadə***
*Daxili İşlər Nazirliyinin Polis Akademiyası*
*efqan.qasimov@mail.ru*

# QƏBƏLƏNİN XI-XIII ƏSRLƏRƏ AİD DAMĞALI QABLARI

***Açar sözlər:*** *arxeoloji qazıntılar, keramika, damğalı qablar, Qəbələ*

Məqalədə Qəbələnin XI-XIII əsrlər dövrünə aid olan və şirli qabların bir qrupunu təşkil edən damğalı qablardan bəhs olunur. Damğalı qabların istehsalına hələ antik dövrdən başlanılsa da, intibah dövründə, xüsusilə XII-XIII əsrlərdə bu qabların istehsalında inkişaf dövrü olmuşdur. Damğalı qablara Qəbələ ilə yanaşı, Beyləqan, Mingəçevir, Gəncə, Şamaxı, Şabran şəhərlərində və digər yerlərdə də rast gəlinmişdir. Dövrün damğalı qablarının tədqiq olunması zamanı damğaların qablara kim tərəfindən vurulması, nə məqsədlə vurulması və damğaların təsvirləri ilə bağlı tədqiqatçılar tərəfindən irəli sürülmüş fikirlər təhlil olunmuşdur.

Qeyd olunanlar XI-XIII əsrlərdə Qəbələdə damğalı qabların istehsalının genişləndiyini, qabların şirlənməsi və damğalanmasının daha da təkmilləşdiyini göstərir. Buna görə də XI-XIII əsrlər dövrünə aid damğalı qabların tədqiqi xüsusi aktuallıq kəsb edir.

***А.Г.Гасымзаде***

## ЧЕКАННЫЕ ПОСУДЫ ГАБАЛЫ XI-XIII ВЕКОВ

***Ключевые слова:*** *археологические раскопки, керамика, чеканные посуды, Габала*

В статье рассматриваются чеканные посуды Габалы XI-XIII веков, образующие группу глазурованных посуд. Хотя производство штампованной посуды восходит к античности, был период развития производства этой керамики в эпоху Возрождения, особенно в XII-XIII веках. Помимо Габалы, чеканные посуды были обнаружены в Бейлагане, Мингячевире, Гяндже, Шамахе, Шабране и других местах. При изучении чеканных посуд того периода были проанализированы мнения исследователей о том, кто штамповал посуды, для какой цели, и идеи, выдвинутые в связи с изображениями.

Вышеизложенное свидетельствует о том, что в XI-XII веках в Габале расширялось производство чеканной посуды, совершенствовалось глазирование и чеканка гончарных изделий. Поэтому изучение чеканной посуды XI-XIII веков имеет особое значение.

**A.H.Gasimzade**

## STAMPED DISHES OF GABALA BELONGING TO XI-XIII CENTURIES

***Keywords:*** *archeological excavations, ceramics, stamped vessels, Gabala*

The article deals with stamped vessels belonging to the XI-XIII centuries of Gabala and forming a group of glazed vessels. Although the production of stamped pottery dates back to antiquity, there was a period of development in the production of these pottery during the Renaissance, especially in the XII-XIII centuries. Along with Gabala, stamped containers were found in Beylagan, Mingachevir, Ganja, Shamakhi, Shabran and other places. During the study of stamped containers of the period, the opinions of researchers on who stamped the containers, for what purpose and the descriptions of the stamps were analyzed.

The above-mentioned shows that in the XI-XIII centuries in Gabala the production of stamped pottery was expanded, the glazing and stamping of pottery was further improved. Therefore, the study of stamped vessels of the XI-XIII centuries is of particular importance.

Bəhs olunan dövrün saxsı qabları hazırlanma texnikası və təyinatı baxımından iki əsas qrupa bölünür. Bunlar şirsiz və şirli qablardan ibarətdir. Şirli qabların içərisində hazırlanma və istifadə təyinatı nöqteyi-nəzərindən fərqlənən damğalı qablara kifayət qədər tez-tez rast gəlinir. Arxeoloq Q.C.Cəbiyev bu cür nümunələrə indiyədək XII-XIII əsr materialları içərisində daha çox təsadüf edildiyini, eyni tip damğa ilə bəzən müxtəlif naxışlı, hətta müxtəlif texniki üsulla işlənmiş qabların, bəzən isə əksinə, müxtəlif tip damğa ilə eyni naxışlı və eyni texniki üsulla işlənmiş qabların damğalandığının məlum olduğunu göstərir [2, s.374-375].

Qeyd edək ki, təkcə şirli qablara deyil, şirsiz qablara da damğaların vurulması barədə tədqiqatçılar tərəfindən əsaslandırılmış fikirlər söylənilmişdir. Bu baxımdan T.İ.Qolubkinanın Mingəçevir ərazisindən tapılmış nümunələr barədə araşdırmasını qeyd etmək olar. O, Mingəçevirdən tapılmış ilk orta əsr qabları üzərində damğası olan gil qablara rast gəldiyini yazır. Özü də şirli nümunələrdən fərqli olaraq, şirsiz qablarda damğalara qabların alt hissəsində deyil, ağız və qulp hissəsində rast gəldiyini bildirir [4, s.6].

Göstərilən dövrə aid şirli və şirsiz qab nümunələrinə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanılan maddi-mədəniyyət qalıqları arasında da rast gəlmək olar [7].

Damğalı qabların tədqiq olunması zamanı əsas məqam damğaların qablara kim tərəfindən, hansı məqsədlə vurulması və təsvirləri ilə bağlıdır. Damğaların qablara kimlər tərəfindən vurulmasına gəldikdə, bu barədə arxeoloqlar fərqli fikirlər irəli sürmüşlər.

Belə ki, arxeoloq Q.M.Əhmədov göstərmişdir ki, möhürdən istifadə etmək

hüququna o ustalar malik olmuşlar ki, onlar ya emalatxana sahibi, ya da ən azı ustad ləqəbi daşımaq səviyyəsinə yüksəlmiş olsun. Hansı ki, arxeoloq tədqiqatlara əsasən Beyləqanın şirsiz saxsı məmulatının üzərində hətta "ustad" kəlməsinə də rast gəlindiyini qeyd edir. Saxsı qabların üzərində olan nişan, damğa və möhürlər müəyyən ictimai məna daşımaqla, ya istehsalçıya, ya da istehlakçıya aid olmuşdur. Damğa vurulmuş qablara Beyləqan ilə yanaşı, Gəncə, Qəbələ, Bakı, Şamaxı, Şabran şəhərlərində də rast gəlinmişdir [3, s. 69-70].

Bu məsələyə münasibət bildirən arxeoloq Q.C.Cəbiyev qeyd edir ki, saxsı qablara damğaların vurulmasında məqsəd onların itməməsi, yaxud dəyişik düşməməsi üçün olmuşdur. Belə ki, hər bir emalatxana sahibinin dulus kürəsi olmadığından qablar ya bişmə prosesində, ya da məclis və mərasimlərdə istifadə zamanı itə və ya dəyişik düşə bilərdi [1, s.15].

Arxeoloji qazıntılar zamanı müəyyən olunmuş nümunələrin öyrənilməsi və nəzərdən keçirilməsi bir daha onu göstərir ki, orta əsrlərin inkişaf etmiş dövründə saxsı qabların alt hissəsinə damğaların vurulması daha da təkmilləşmişdir.

Q.C.Cəbiyevin rəhbərliyi ilə 2011-2013-cü illərdə Qəbələ şəhərinin Qala hissəsində aparılmış arxeoloji qazıntılar zamanı XI-XIII əsrlərə aid altında damğa olan bir neçə şirli qab nümunəsi aşkar olunmuşdur. Nümunələrə nəzər salsaq, damğalı qabların əsas xarakterik xüsusiyyətlərini müəyyən etmiş olarıq.

Qala ərazisindən aşkar olunan (şəkil 1) və altında damğa olan şirli kasanın oturacaq hissəsinə aid fraqmentin diametri 10 sm-dir. XI-XII əsrlərə aiddir [5, s.253]. Qabın daxili səthinə, oturacaq hissənin mərkəzinə içərisi qara və kənarı yaşıl rənglə rənglənmiş gül təsviri, təsvirin kənarlarına isə dairəvi formalı naxış əlavə edilmişdir. Naxışlar işlənərkən ağ, yaşıl və sarı rənglərdən istifadə olunmuş, həmçinin gül təsvirinin kənarlarına bir-birinə sıx yerləşməklə, naxışlar vurulmuşdur. Qabın alt hissəsinə vurulmuş damğa isə gül şəkillidir.





Şəkil 1

Təqdim olunan, altında damğa olan digər şirli kasa (şəkil 2) əvvəlki nümunədən fərqli olaraq bütöv şəkildə aşkar olunmuşdur. Bu kasa XII-XIII əsrlərə aid edilir. Kasanın oturacağının diametri 8, ağzının diametri 22, hündürlüyü isə 6 sm-dir [5, s. 271]. Göründüyü kimi, kasa çıxıntılı oturacağa malikdir və altına damğa vurulub. Damğa oturacaq hissənin altında olmaqla, mərkəzi hissəyə

yerləşdirilib. Formaca xırda kvadratları xatırladır və torşəkillidir. Kasanın içəri səthi isə müxtəlif rəng kombinasiyalarından istifadə edilməklə gülü xatırladan naxışlarla bəzədilib.



Şəkil 2

Aşkar olunan damğalı şirli qablar içərisində kasa tipli şirli qab nümunələri çoxluq təşkil edir. Altında damğa olan digər bir şirli kasanın (şəkil 3) oturacağının diametri 8 sm təşkil edir və XI-XII əsrlərə aid edilir [5, s.252]. Kasanın altına damğanın vurulması müəyyən olunsa da, lakin aşındığı üçün həmin damğada konkret olaraq nə təsvir olunduğunu müəyyən etmək çətindir.



Şəkil 3

Şəkil 4-də təqdim olunan, altında damğa olan şirli kasa fraqmenti əvvəl qeyd etdiyimiz nümunəyə nisbətən kiçik ölçülüdür. Belə ki, qabın oturacağının diametri 5,5 sm təşkil edir. Kasa fraqmenti XI-XII əsrlərə aid edilir [5, s.254]. Göründüyü kimi, ənənəvi olaraq damğa çıxıntılı oturacağa malik qabın alt hissəsinə vurulub.



Şəkil 4

Qabların altına vurulan damğaların çoxu kvadrat formalı, torşəkilli, yaxud gülə bənzərdir. Məsələn, şəkil 5-də təqdim olunan şirli kasa fraqmentinin oturacaq hissəsinə vurulmuş damğa torşəkillidir. Damğanın ətrafına isə nazik, dairəvi xətlər çəkilib. Bu kasa fraqmenti də XI-XII əsrlərə aiddir və Qala ərazisində 2011-2012-ci illərdə aparılan arxeoloji qazıntılar zamanı aşkar olunub [5, s.262]. Fraqmentdən göründüyü kimi, qeyd olunan kasanın daxili səthinə müxtəlif rənglərdən istifadə olunmaqla bəzək vurularaq qara rənglə dairəyə alınmışdır.



Şəkil 5

XI-XIII əsrlərin keramika məmulatlarına diqqət yetirdikdə, sözü gedən dövrün damğalı qablarının daxili səthinin müxtəlif və zəngin naxışlarla bəzədildiyi məlum olur. Altında damğası olan digər bir şirli qab fraqmenti XII-XIII əsrlərə aiddir (şəkil 6). Bu fraqment də Qala ərazisində 2011-2012-ci illərin arxeoloji qazıntıları zamanı aşkar olunub. Qabın oturacağının diametri 8 sm təşkil edir [5, s.275]. Damğa torşəkillidir. Qabın oturacaq hissə az çıxıntılı formadadır. Qabın daxili səthinin orta hissəsi müxtəlif rəngli paralel xətlər çəkilməklə şirlənmiş, xətlərin ətrafı müxtəlif rənglərlə dairəyə alınmış və naxışlanmışdır.





Şəkil 6

Qabların altına vurulmuş damğaların bir qismi, qeyd etdiyimiz kimi, nəbati təsvirli olmuşdur. Şəkil 7-də təqdim olunan damğa nümunəsi gül şəkillidir. Altında damğa olan kasa tipli bu şirli qab nümunəsinin oturacağının diametri 7 sm təşkil edir [5, s.276]. XII-XIII əsrlərə aid olan qabın alt hissəsinə vurulmuş damğa da, daxili səthinə əlavə edilmiş gül şəkli də mükəmməl işlənmişdir.





Şəkil 7

Şəkil 8-də təqdim olunan digər bir şirli kasa framentinin də alt hissəsinə damğa vurulub. Bu kasanın oturacağının diametri 5,5 sm təşkil edir [5, s.278]. Damğa torşəkillidir. Qeyd olunan fraqmentdən görünür ki, qab həm də çoxrənglidir.





Şəkil 8

Şəkil 9-da təqdim olunan şirli qab nümunəsinə vurulmuş damğa isə əvvəl qeyd etdiyimiz nümunələrdən fərqlənir. Belə ki, bu damğa müxtəlif ölçülü və iç-içə çəkilmiş dairələrdən, bu dairələri birləşdirən paralel kiçik xətlər və nöqtələrdən ibarətdir. Qabın özünə gəldikdə isə, bu kasa tipli şirli qabın oturacaq hissəsidir. Onun diametri 11,5 sm-dir. Kasa nümunəsi XIII-XIV əsrlərə aiddir [5, s.300].





Şəkil 9

Qəbələ şəhər yerinin Qala ərazisində arxeoloq Q.C.Cəbiyevin rəhbərliyi ilə 2013-cü ildə aparılmış arxeoloji qazıntılar VI qazıntı sahəsində davam etdirilmiş və 600 $m^2$ sahədə VIII-XII əsrlərə aid təbəqə öyrənilmişdir. Bu qazıntılardan da digər nümunələrlə yanaşı, çoxlu sayda damğalı şirli qab nümunələri də aşkar olunmuşdur (şəkil 10). Bu nümunə dövr etibarilə X-XI əsrlərə aid edilir. Oturacağın diametri 3 sm-dir. Qabın alt hissəsinə nəzər saldıqda, kvadrat formalı və tor şəkilli damğanın vurulduğunu görürük [6, s.121, 251]. Qabın daxili səthinin oturacaq hissəsinə dörd ədəd çarpaz xətlərlə cızıqlar çəkilmiş, həmin xətlərin kənar qurtaracaq hissələri isə yaşıl və sarı rənglərlə dairəvi formada rənglənmişdir.



Şəkil 10

Göründüyü kimi, XI-XIII əsrlər dövründə Qəbələnin şirli keramikası içərisində damğalı qablar çoxluq təşkil etməklə yanaşı, həm də bu qablar dövrün ustaları tərəfindən daha mükəmməl hazırlanmış, müxtəlif rəng və təsvir kombinasiyalarından istifadə olunmaqla şirlənmiş və damğalanmışdır.

**ƏDƏBİYYAT**


1. *Cəbiyev Q.C* Azərbaycan keramikası // Elm və həyat, Bakı, 1983, № 3, s.13-15
2. *Cəbiyev Q.C* Azərbaycan arxeologiyasının əsasları. Bakı: Elm və təhsil, 2018, 596 s.
3. *Əhmədov Q.M.* Orta əsr Beyləqan şəhəri. Bakı: Elm, 1989, 198 s.
4. *Orucov A.Ş.* İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq (IV-VIII əsrlərdə). Bakı: Elm, 1989, 44 s.
5. Qəbələ arxeoloji ekspedisiyası 2011-2012. Tapıntılar. Bakı, 2013, 348 s.
6. Qəbələ arxeoloji ekspedisiyası 2013. Hesabatlar, tapıntılar. Bakı, 2015, 283 s.
7. *Hüseynov R., Seyidov A.* Yerin altından qayıtmış gözəllik (Ədəbiyyat muzeyindəki arxeologiya nümunələri), Bakı: Araz, 2009, 328 s.


Redaksiyaya daxil olub 19.08.2020

*UOT 32*

***N.F.Qədirova***
*Bakı Slavyan Universiteti*
*gadirovanarmin@yahoo.com*

# HEYDƏR ƏLİYEV FONDUNUN AZƏRBAYCAN-YUNESKO ƏMƏKDAŞLIĞINDA YERİ VƏ ROLU

***Açar sözlər:*** *YUNESKO, multikulturalizm, mədəniyyətlərarası dialoq, fond*

Məqalədə Heydər Əliyev Fondunun yaradılması məqsədlərindən biri, Heydər Əliyev Fondunun multikulturalizm siyasətinin inkişafındakı rolu təhlil edilmişdir. Heydər Əliyev Fondunun UNESCO çərçivəsində dünyada mədəni müxtəlifliyin qorunması və mədəniyyətlərarası dialoqun inkişafı istiqamətində səmərəli fəaliyyət göstərdiyi qeyd olunur. Bundan əlavə Heydər Əliyev Fondunun UNESCO ilə Azərbaycan arasında əməkdaşlığın inkişafındakı rolu təhlil edilərək Fondun prezidenti Mehriban Əliyevanın rolu xüsusi vurğulanır. Şübhəsiz ki, Fond YUNESKO-nun prioritet fəaliyyət istiqamətlərində töhfələr verməklə yanaşı, həm də Azərbaycanın milli maraqlarının qorunması istiqamətində də əhəmiyyətli addımlar atmışdır.

***Н.Ф.Гадирова***

# РОЛЬ ФОНДА ГЕЙДАРА АЛИЕВА В СОТРУДНИЧЕСТВЕ АЗЕРБАЙДЖАНА И ЮНЕСКО

***Ключевые слова:*** *ЮНЕСКО, мультикультурализм, межкультурный диалог, фонд*

В статье анализируется одна из целей создания Фонда Гейдара Алиева, роль Фонда Гейдара Алиева в развитии политики мультикультурализма. Отмечается, что Фонд Гейдара Алиева эффективно работает в рамках ЮНЕСКО для защиты культурного разнообразия в мире и развития межкультурного диалога. Кроме того, анализируя роль Фонда Гейдара Алиева в развитии сотрудничества ЮНЕСКО и Азербайджана, особо подчеркивается роль президента Фонда Мехрибан Алиевой. Несомненно, помимо вклада в приоритетную деятельность ЮНЕСКО, Фонд также предпринял важные шаги по защите национальных интересов Азербайджана.

***N.F.Gadirova***

# THE ROLE OF THE HEYDAR ALIYEV FOUNDATION IN THE AZERBAIJAN-UNESCO COOPERATION

***Keywords:*** *UNESCO, multiculturalism, intercultural dialogue, foundation*

The article analyzes one of the goals of the creation of the Heydar Aliyev Foundation, the role of the Heydar Aliyev Foundation in the development of the policy of

multiculturalism. It is noted that the Heydar Aliyev Foundation is effectively working within the framework of UNESCO to protect cultural diversity in the world and develop intercultural dialogue**.** In addition, analyzing the role of the Heydar Aliyev Foundation in the development of cooperation between UNESCO and Azerbaijan, the role of the President of the Foundation Mehriban Aliyeva is especially emphasized. Undoubtedly, besides to contributing to the priority activities of UNESCO, the Foundation also took important steps to protect the national interests of Azerbaijan.

Bildiyimiz kimi, Heydər Əliyev Fondunun yaradılması məqsədlərindən biri də ümummilli lider Heydər Əliyev irsinin qorunması, təbliğ olunması ilə əlaqəlidir. Məhz multikulturalizm siyasətinin inkişaf etdirilməsində də Heydər Əliyev Fondu Azərbaycandakı digər ictimai təşkilatlardan xeyli öndədir. Belə ki, həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə mədəniyyətlərarası, dinlərarası dialoqun inkişafında Heydər Əliyev Fondunun misilsiz rolu vardır. Fond öz fəaliyyətində xalqımızın mədəni-mənəvi dəyərlərinə hörmət və ehtiramı başlıca prinsip kimi götürməklə yanaşı, başqa xalqların mədəniyyətlərinə və digər dinlərə də böyük hörmət və həssaslıqla yanaşdığını nümayiş etdirir. Həm Azərbaycanda, həm digər ölkələrdə mədəniyyət abidələrinin bərpa olunmasında Heydər Əliyev Fondunun yaxından iştirakı və dəstəyi olmuşdur. Bundan başqa Azərbaycanın mədəni dəyərlərinin, multikulturalizm modelinin dünyada tanıdılması və təbliğ olunması istiqamətində Heydər Əliyev Fondu genişmiqyaslı fəaliyyət həyata keçirməkdədir. Heydər Əliyev Fondunun Prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyeva beynəlxalq tribunalardan multikulturalizmin, tolerantlığın tərəqqi üçün əhəmiyyətini hər zaman əsaslandırır. Məsələn, tədbirlərin birində çıxışı zaman Mehriban xanım Əliyeva vurğulamışdır: “Ekstremizm və terrorçuluğa qətiyyətlə yox deməklə biz cəmiyyətmizdə dözümlülük, sülhsevərlik, tolerantlıq dəyərlərinin təbliğinə geniş fikir verməliyik. Dərin multikulturalizm köklərinə malik ölkə kimi Azərbaycan qlobal arenada bu dəyərlərin təşviqi üçün vacib rolunu oynamağa hazırdır” [5]. Təbii ki, Azərbaycan Respublikasının bu dünyada örnək kimi qəbul olunan multikulturalizm siyasəti YUNESKO-nun dəstəklədiyi prinsiplərə tam uyğundur. Belə ki, əvvəlki hissələrdə qeyd edildiyi kimi, YUNESKO dünyada mədəni müxtəlifliyin təmin edilməsini, təbliğini fəaliyyətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir. Heydər Əliyev Fondu Azərbaycanda mədəni müxtəlifliyi qorumaq istiqamətində uğurlu layihələri həyata keçirməklə yanaşı, həm də ayrı-ayrı ölkələrdə mədəni irsin qorunması probleminə həssas yanaşmışdır. Bununla da Azərbaycan Respublikası özünü mədəni müxtəlifliyin ən fəal tərəfdarlarından biri kimi təqdim edə bilmişdir. Azərbaycanın multikulturalizm siyasəti onun YUNESKO ilə mədəni müxtəlifliyin təmin olunması istiqamətində səmərəli təfərdaşlıq etməsinə imkan verir. YUNESKO çərçivəsində Azərbaycanın multikulturalizm siyasətinin zəngin milli təcrübəyə əsaslanması qəbul olunur və təqdir edilir. Həqiqətən də dünyanın əksər ölkələri

tərəfindən Azərbaycan mədəni müxtəlifliyin təbliğ və təşviq olunması üçün ən uğurlu platformalardan biri kimi qəbul olunur. Bu mənada Ulu Öndər Heydər Əliyevin rolunu xüsusi qeyd etmək lazımdır.

Heydər Əliyev Azərbaycan xalqının mədəni dəyərlərinin qorunması ilə yanaşı, digər mədəniyyətlərin mövcudluğu, xalqımızın mədəniyyəti ilə dinc yanaşı mövcud olması istiqamətində bütün zəruri addımların atılmasını fəaliyyətinin mühüm istiqaməti kimi müəyyənləşdirmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş multikulturalizm siyasəti bu gün yeni mərhələdə uğurla davam etdirilməkdədir. Məsələn, professor Etibar Nəcəfov konkret nümunə ilə əsaslandırır: “Dünyanın bir sıra dövlətlərində antisemitizmin baş qaldırdığı bir dövrdə Azərbaycanda yəhudilərin tarixən əmin-amanlıq şəraitində yaşamaları, burada heç vaxt antisemitizm hallarının olmaması və yəhudilərin ölkəmizin inkişafında fəal iştirak etmələri bizə qərəzsiz münasibət bəsləyən heç bir iştirakçını maraqlandırmaya bilməzdir. Və nəhayət, üçüncü çıxışımda ölkəmizdə yaşayan udinlərin istəyi ilə Alban Apostol aftokefal kilsəsinin bərpası istiqamətində Azərbaycan hökumətinin gördüyü işlər (Alban-Udi xristian icmasının dövlət qeydiyyatına alınması, Qəbələ rayonunda 3 Alban udi kilsəsinin bərpa olunması, 2013-cü ildə Albaniyada xristianlığın dövlət dini kimi qəbul olunmasının 1700 illiyinin qeyd olunması, 2015-ci ilin aprel ayında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidmətinin təşəbbüsü ilə İtaliyanın paytaxtı Roma şəhərində "Azərbaycan multikulturalizmi və Qafqaz Albaniyası (udilər)" mövzusunda beynəlxalq konfransın keçirilməsi, bərpa olunacaq Alban Apostol aftokefal kilsəsinin fəaliyyətini təmin etmək məqsədilə dini kadrların xarici ölkələrdə hazırlanması istiqamətində görülən işlər və s. dünyada böyük diqqətə səbəb olur” [3].

Həqiqətən də ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra və hazırda onun siyasi kursunu yeni dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin dövründə Azərbaycan ərazisində bir dəfə də olsun etnomədəni zəmində ayrıseçkilik, antisemitizm halına rast gəlinməmişdir. Azərbaycanda dövlət siyasəti səviyyəsində həyata keçirilən multikulturalizm siyasəti özünün ciddi nəticələrini verməkdədir. Bu gün ölkə ərazisində müxtəlif mədəniyyətlərin nümayəndələrin sərbəst dinc mövcud olub, fəaliyyət göstərmələri üçün bütün zəruri şərait dövlət tərəfindən təmin edilmişdir. Hazırda Azərbaycan dünyanın azsaylı ölkələrindəndir ki, burada multikulturalizm ənənələrinin möhkəmləndirilməsinə, inkişafına dövlət dəstəyi mövcuddur. Bu dəstəyin ilbəil artdığını müşahidə etməkdəyik. Bunun nəticəsidir ki, Azərbaycan çoxsaylı xalqların, müxtəlif dini təriqətlərin dinc yanaşı mövcud olduğu ölkə kimi dünya mədəniyyətlərarası dialoqun nümunəvi mərkəzinə çevrilmişdir. Təbii ki, artıq əvvəlki hissələrdə qeyd etdiyimiz kimi, Azərbaycan tarixən zəngin multikulturalizm ənənələrinə malik olmuşdur. Lakin sonradan bu ənənələrin

qorunması, inkişaf etdirilməsi zərurəti meydana gəlmişdir. Ümummilli lider Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri də ondan ibarət olmuşdur ki, bu istiqamətdə kompleks fəaliyyəti ifadə edən dövlət siyasətinin əsasını qoymuşdur. Həmçinin ölkəmizdə multikulturalizm siyasətinin səmərəliliyinin təmin olunması üçün zəngin konseptual əsas da yaradılmışdır. Multikulturalizm sahəsində məhz Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm bünövrə əsasında dövlət siyasəti bu gün uğurla davam etdirilməkdədir. Azərbaycanın özünün tolerantlıq və multikulturalizm modeli tam formalaşmışdır və artıq dünya bu modellə tanışdır. Azərbaycanda multikulturalizm siyasətinin daha səmərəli olmasını təmin etmək və Azərbaycanın multikulturalizm modelinin dünyada tanıdılması istiqamətində intensiv işlərin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2014-cü il 15 may tarixində "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin" yaradılması haqqında fərman imzalamışdır. Bundan bir neçə ay sonra oktyabr ayının 2-də IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılışı baş tutmuşdur. Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev multikulturalizmin Azərbaycan üçün əhəmiyyətini nəzərə çatdıraraq demişdir: "Multikulturalizm Azərbaycanda həyat tərzidir. Düzdür, bu termin nisbətən yenidir. Ancaq əsrlər boyu Azərbaycanda multimədəniyyətli cəmiyyətlər mövcud olub. Xalqlar arasındakı dostluq və həmrəylik bunun bariz nümunəsidir. Biz bu gün də çalışırıq ki, öz təşəbbüsümüzlə regionda və dünyada gedən proseslərə müsbət təsirimizi göstərək" [4].

Yuxarıda nəzərdən keçirdiyimiz məqamlardan aydın göründüyü kimi, Azərbaycan mədəni müxtəlifliyin qorunması istiqamətində ciddi təcrübəyə malikdir. Bu təcrübədən çıxış edərək YUNESKO çərçivəsində dünyada mədəni müxtəlifliyin qorunması və mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi istiqamətində səmərəli fəaliyyət göstərir. Vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş mədəni müxtəlifliyin qorunması siyasəti bu gün Heydər Əliyev Fondu tərəfindən həm daxili, həm də xarici müstəvidə uğurla davam etdirilməkdədir.

Heydər Əliyev Fondu digər məqamlarla yanaşı, Azərbaycan xalqının milli mədəni dəyərlərinin dünyada təbliğ edilməsini də qarşısında əsas məqsədlərdən biri kimi müəyyənləşdirmişdir. Heydər Əliyev Fondu milli mədəniyyətimizin tanıdılması məqsədilə həm ölkə daxilində, həm də xaricdə müxtəlif seminarlar və konfranslar təşkil etmişdir. Belə tədbirlər çərçivəsində həm də mədəniyyətlərarası dialoqun təbliğinə geniş yer verilmişdir. Bunun üçün xüsusi seminar və konfranslarla yanaşı, həm də beynəlxalq festivallar da təşkil olunur. Məsələn, Qəbələ Beynəlxalq Musiqi festivalı Heydər Əliyev Fondu tərəfindən mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi istiqamətində atılmış uğurlu addımlardandır. Belə ki, Beynəlxalq Festival çərçivəsində dünyanın müxtəlif ölkələrindən olan tanınmış musiqiçilər, bəstəkarlar Azərbaycana toplaşır. Bu,

Azərbaycan musiqisinin təbliği ilə yanaşı, həm də dünya musiqi mədəniyyətləri arasında inteqrasiyanın təmin olunması baxımından kifayət qədər vacib tədbir kimi qiymətləndirilməlidir. Bununla yanaşı, xüsusi vurğulamaq lazımdır ki, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva "Eurovision-2012" müsabiqəsinin təşkilatçısı olmuşdur. Musiqi müsabiqəsi ən yüksək səviyyədə təşkil olunmuşdur.

Azərbaycanın beynəlxalq səviyyədə daha dərindən tanıdılması istiqamətində də xüsusi layihələr məhz Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmişdir. Bu mənada "Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti" layihəsini xüsusi qeyd etmək lazımdır. Dünyanın müxtəlif ölkələrinin paytaxtlarında təşkil olunan bu sərgi Azərbaycan haqqında, mədəni dəyərlər haqqında beynəlxalq təsəvvürlərin genişləndirilməsində çox təsirli rol oynamışdır. Azərbaycanın tanınmış elm, incəsənət, mədəniyyət xadimlərinin dünyada tanıdılması, təbliğ olunması sahəsində Heydər Əliyev Fondunun rolu böyükdür [2]. Heydər Əliyev Fondu YUNESKO ilə yaxından əməkdaşlıq çərçivəsində milli mədəniyyət abidələri ilə yanaşı, dünya xalqlarının mədəni irsinin mühafizəsi istiqamətində də kompleks tədbirlər həyata keçirmişdir. Məsələn, Heydər Əliyev Fondunun dəstəyi ilə aşağıdakı mədəniyyət abidləri bərpa edilmiş və ya yenidən qurulmuşdur:

- Bakıda Müqəddəs Məryəm kilsəsi;
- Strasburq kafedral kilsə;
- Luvr muzeyi;
- Sersal sarayı.

Heydər Əliyev Fondu yuxarıda qeyd edilən mədəniyyət abidələrini bərpa etməklə və ya yenidən qurmaqla YUNESKO-nun mədəniyyətlərarası dialoq strategiyasının reallaşdırılmasına yaxından töhfə vermişdir. Bütün bunlar bir daha sübut edir ki, Azərbaycan Respublikası ilə YUNESKO arasında əməkdaşlığın hazırkı yüksək səviyyəyə çatmasında həlledici rol məhz Heydər Əliyev Fonduna məxsus olmuşdur. Xüsusilə də Fondun prezidenti Mehriban Əliyevanın fəaliyyəti mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi istiqamətində olduqca təsirli olmuşdur və bu reallıq beynəlxalq səviyyədə qəbul olunur. Məhz mədəni əlaqələrin inkişafı, mədəni dəyərlərin tədliği istiqamətində yorulmaz fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2004-cü ilin avqustunda YUNESKO-nun xoşməramlı səfiri seçilmişdir. Artıq əvvəlki hissələrdə qeyd edildiyi kimi, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyətinin nəticəsi olaraq Azərbaycan xalqının bir sıra maddi və qeyri-maddi mədəni irs nümunələri YUNESKO-nun müvafiq siyahılarına əlavə edilmişdir.

Heydər Əliyev Fondu təkcə mədəniyyət sahəsində deyil, YUNESKO-nun digər əsas fəaliyyət istiqamətlərinə ciddi töhfələr vermişdir. Bu mənada Heydər Əliyev Fondu elm və təhsil sahələrinin inkişaf etdirilməsində, dünya elm-təhsil sisteminə inteqrasiya olunmasında davamlı layihələr həyata keçirmişdir. Bu layihələr də mədəniyyət layihələri kimi təkcə ölkə hüdudlarında deyil, həm də xarici ölkələrdə reallaşdırılmışdır. Bu mənada Heydər Əliyev Fondunun "Təhsilə

dəstək" layihəsini xüsusi vurğulamaq lazımdır. Layihə çərçivəsində həm Azərbaycanda, həm də xaricdə ciddi layihələr həyata keçirilmişdir. Bu layihələr çərçivəsində məktəb binalarının inşası, məktəblərin maddi-texniki təchizatı həyata keçirilmişdir. Bu isə YUNESKO-nun hamı üçün təhsil prinsipinə uyğun atılan addım kimi qiymətləndirilməlidir. Əslində Fond tərəfindən belə addımların atılması YUNESKO-nun başlıca məqsədlərindən birinin həyata keçirilməsinə yaxından dəstək kimi də səciyyələndirilməlidir. Belə ki, əvvəlki hissələrdə də vurğulandığı kimi, YUNESKO-nun qarşısında duran əsas vəzifələrdən biri də dünya səviyyəsində təhsilin əlçatanlığının təmin olunmasıdır. Heydər Əliyev Fondu tərəfindən Pakistanda, Rusiyada, Hollandiyada, Misirdə, Gürcüstanda, Rumınıyada məkətblərin inşası və təmir olunması qeyd edilənləri dəqiqliklə sübut edir. Heydər Əliyev Fondu soydaşlarımızın kompakt şəkildə yaşadığı ölkələrdə xüsusi layihələrin həyata keçirilməsi məsələsini ayrıca diqqətdə saxlayır. Məsələn, Gürcüstanın Marneuli şəhərində, Dmanisi və Bolinisi rayonlarında, həmçinin Tiflisdə xüsusi layihələrin həyata keçirilməsi orada yaşayan azərbaycanlıların keyfiyyətli təhsil alma imkanlarının genişlənməsini təmin etmişdir. Eyni sözləri Rusiya haqqında da qeyd etmək mümkündür.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondu ölkədə də təhsilin inkişaf etdirilməsi istiqamətində YUNESKO ilə əməkdaşlıq çərçivəsində ciddi layihələr həyata keçirmişdir. Bu qəbildən olan əməkdaşlığın da artıq kifayət qədər tarixi vardır. Məsələn, hələ 2008-ci ilin iyulunda YUNESKO ilə birgə təşkilatın ofisində "Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları" mövzusunda beynəlxalq konfrans təşkil edilmişdir. Azərbaycan təhsilində YUNESKO-nun dəstəklədiyi layihələr əsasında innovasiyaların tətbiqi istiqamətdə Heydər Əliyev Fondu böyük işlər görmüşdür. [1]

YUNESKO-Azərbaycan əməkdaşlığının inkişaf etdirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti ətrafında təhlil apararkən Fondun prezidenti Mehriban Əliyevanın rolunu xüsusi vurğulamaq lazımdır. YUNESKO-nun fəaliyyət istiqamətləri üzrə ən müxtəlif layihələrin, proqramların dəstəklənməsində Mehriban Əliyeva xüsusi fəallıq nümayiş etdirmişdir. Təhsil, mədəniyyət, səhiyyə, uşaqlara qayğı və digər humanitar sahələrdə səmərəli fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2004-cü ildə YUNESKO-nun, 2006-cı ildə İSESKO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür. Bundan başqa mədəniyyətlərin dəstəklənməsi istiqamətində yorulmaz fəaliyyətinə görə bir sıra ölkələrin yüksək təltiflərinə layiq görülmüşdür. Azərbaycan Respublikasının I vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2014-cü ilin ən nüfuzlu qadını adına layiq görülmüşdür. Bu, Fransanın Ərəb Mədəni İrsi və Misirin "Nefertiti Media Productions" şirkətləri tərəfindən həyata keçirilmiş sorğunun nəticəsində müəyyənləşmişdir. Bu da bir daha sübut edir ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri kimi elm, mədəniyyət, səhiyyə, idman sahələrinin inkişafında və beynəlxalq

mədəniyyətlərarası dialoqun təşviq olunmasındakı roluna görə sorğunun qalibi olmuşdur. YUNESKO-nun bütün fəaliyyət istiqamətlərində Mehriban Əliyevanın fəallığı demək olar ki, bütün dünya tərəfindən təqdir olunur. Bunu sübut edən çoxsaylı faktlardan biri də ondan ibarətdir ki, nəinki Azərbaycan, bütün türk dünyasının ümumi mədəniyyətinin təbliğinə verdiyi töhfəyə görə Türk-Alman Dostluq Federasiyası tərəfindən fəxri mükafata layiq görülmüşdür. Ümumiyyətlə, Heydər Əliyev Fondu sivilizasiyalararası dialoqun formalaşmasında ciddi rola malikdir. Şərq mədəniyyəti ilə Qərb mədəniyyətinin qarşılıqlı yaxınlaşmasını təmin edən mühüm layihələrin həyata keçirilməsində Fondun ciddi rolu olmuşdur. Müşahidələr və həyata keçirdiyimiz tədqiqatlar sübut edir ki, Heydər Əliyev Fondu YUNESKO-nun fəaliyyət prioritetlərinə uyğun olan vəzifələrin həyata keçirilməsində daha yaxından iştirak etməkdədir.

YUNESKO ilə əməkdaşlıq çərçivəsində Azərbaycan xalqının mədəni irsinin, Azərbaycan reallıqlarının tanıdılması istiqamətində xüsusi fəallıq göstərən Fondun bu istiqamətdə atdığı ən mühüm addımlardan biri də Azərbaycan Regional Muzeyinin yaradılmasından ibarət oldu. Belə bir muzeyin yaradılması Azərbaycan regionları haqqında ölkəmizə gələn xarici qonaqlarda daha geniş təsəvvürlərin yaradılması baxımından olduqca əhəmiyyətli idi. Bu layihənin qlobal uğurunun təmin edilməsi üçün məşhur SMA Design şirkəti ilə əməkdaşlıq da qurulmuşdur. Layihənin həyata keçirilməsindən sonra artıq ümumi mədəni irsimizlə yanaşı, ayrı-ayrı regionların etnomədəni xüsusiyyətlərinin dünyada tanıdılması imkanları əhəmiyyətli dərəcədə genişlənmişdir. Bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən yaradılmış "Azərbaycan" internet portalının rolu da kifayət qədər təsirli olmuşdur [1].

Beləliklə, apardığımız tədqiqat işləri göstərir ki, ümumiyyətlə, Azərbaycan Respublikasının humanitar əlaqələrinin yaradılmasında və inkişaf etdirilməsində Heydər Əliyev Fondunun olduqca təsirli rolu vardır. YUNESKO-Azərbaycan əməkdaşlığının elm, təhsil və mədəniyyət sahələrində inkişaf etdirilməsinin də hərəkətverici qüvvəsi rolunda məhz Heydər Əliyev Fondu çıxış etmişdir. Nəzərə almaq lazımdır ki, Fond müxtəlif beynəlxalq təşkilatlarla, həmçinin YUNESKO ilə sıx əməkdaşlıq etməklə Azərbaycanla bağlı həqiqətlərin beynəlxalq aləmdə tanıdılması istiqamətində böyük uğurlara imza atmışdır. Yəni Fond YUNESKO-nun prioritet fəaliyyət istiqamətlərinə töhfələr verməklə yanaşı, həm də Azərbaycanın milli maraqlarının qorunması istiqamətində də əhəmiyyətli addımlar atmışdır.

## ƏDƏBİYYAT


1. *Əliyeva Y.* Heydər Əliyev fondu – milli-mədəni irsimizin hamısı / "Səs" qəz., 2009, 9 may, s.6-7
2. Heydər Əliyev Fondu Ulu öndər Heydər Əliyevin ideyalarını böyük əzmlə və

sədaqətlə həyata keçirir / http://mehribanaliyeva.preslib.az/media-3ad6877454.html
3. *Nəcəfov E.* Azərbaycan multikulturalizmə alternativi olmayan mütərəqqi bir siyasət kimi yanaşır / http://az.trend.az/azerbaijan/society/2441335.htm
4. Prezident İlham Əliyev: "Multikulturalizm Azərbaycanda həyat tərzidir" http://news.milli.az/politics/398519.html (müraciət tarixi: 03.12.16)
5. *Rauf Əliyev:* "Azərbaycanda Multikulturalizm siyasəti uğurla davam edir" / http://news.day.az/azerinews/742443.html

Redaksiyaya daxil olub 23.08.2020

**Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2020, C.68, №2, s. 115-122**
**Transactions of Pedagogical University. Series of humanitarian, social and pedagogical-psychological sciences – 2020, V.68, №2, pp. 115-122**

***UOT 327; 94(479.24)***

***S.R.Mustafayeva***
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*mustafayeva.seadet.sm@gmail.com*

# RUSİYA VƏ TÜRKİYƏNİN CƏNUBİ QAFQAZDA NÜFUZ UĞRUNDA MÜBARİZƏSİNDƏ AZƏRBAYCANIN YERİNƏ DAİR

***Açar sözlər:*** *Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti, Azərbaycan Respublikası, Dağlıq Qarabağ, Azərbaycanın enerji strategiyası, Bakı-Ceyhan, Lyukoyl*

Məqalədə iki qitənin qovşağında əlverişli geostrateji məkanda yerləşməklə dünya və region dövlətlərinin daim maraq dairəsində olan Azərbaycanın şimal qonşusu Rusiya və cənub qonşusu Türkiyə ilə münasibətlərinin tarixi haqqında qısa məlumat verilmişdir. Belə ki, hər iki dövlətin Cənubi Qafqaza olan maraqları və bu maraqlar fonunda Azərbaycanın yeri, bu dövlətlərin Azərbaycanda nüfuz dairələrini gücləndirmək istiqamətindəki mübarizələri daima güclənməklə XX yüzilliyin sonlarında Azərbaycanın müstəqil dövlət kimi dünya birliyi tərəfindən qəti olaraq tanınmasından sonra da davam etmiş və etməkdədir.

Qeyd etməliyik ki, məqalədə bu mübarizənin gedişatı və onun nəticələri haqqında konkret və faktiki materiallar verilərək Rusiyanın və Türkiyənin Azərbaycana yönəlik məqsədləri və mövqeləri faktiki materiallar əsasında aydınlığı ilə təsdiqlənmişdir.

***С.Р.Мустафаева***

## О РОЛИ АЗЕРБАЙДЖАНА В БОРЬБЕ РОССИИ И ТУРЦИИ ЗА ВЛИЯНИЕ НА ЮЖНОМ КАВКАЗЕ

***Ключевые слова:*** *Российская Федерация, Турецкая Республика, Азербайджанская Республика, Нагорный Карабах, энергетическая стратегия Азербайджана, Баку-Джейхан, Лукоил*

В статье даётся краткий обзор истории отношений Азербайджана, расположенный в выгодном геостратегическом месте на стыке двух континентов, с северным соседом Россией и южным соседом Турцией, которые всегда находились в центре внимания государств мира и региона. Таким образом, интересы обеих стран по отношению к Южному Кавказу и место Азербайджана на фоне этих интересов, борьба этих стран за укрепление своих сфер влияния в Азербайджане всегда были и будут признаны мировым сообществом как независимое государство к концу двадцатого века.

Следует отметить, что в статье приводятся конкретные и фактические материалы о ходе этой борьбы и ее результатах, а также четко подтверждаются

цели и позиции России и Турции в отношении Азербайджана на основе фактических материалов.

**S.R.Mustaphayeva**

**ABOUT THE ROLE OF AZERBAIJAN IN THE STRUGGLE OF RUSSIA AND TURKEY FOR INFLUENCE IN THE SOUTH CAUCASUS**

***Keywords:*** *Russian Federation, Republic of Turkey, Azerbaijan Republic, Nagorno-Karabakh, Energy strategy of Azerbaijan, Baku-Ceyhan, Lukoil*

The article gives a brief overview of the history of relations between Russia and Turkey's southern neighbor, which is in the constant interest of world and regional states located at the intersection of two continents and in a favorable geostrategic space. Thus, the interests of both countries in relation to the South Caucasus and the place of Azerbaijan against the background of these interests have always been and will be recognized by the world community as an independent state by the end of the twentieth century. It should be noted that the article provides specific and factual information about the course of the struggle and its consequences the goals and positions of Russia and Turkey in relation to Azerbaijan are confirmed by factual material.

## Giriş

XX əsrdə iki dəfə özünün müstəqilliyini bərpa edib dünya siyasətinə suveren dövlət kimi qoşulmuş Azərbaycan özünün geostrategiyası və geosiyasi mövqeyinə görə regionun və dünyanın aparıcı dövlətlərinin daim maraq dairəsində olmuşdur. SSRİ-nin dağılması və dünyada mövcud olan iki qütblü quruluşlara son qoyulması ilə Azərbaycan Avrasiya məkanında əhəmiyyətli geosiyasi məkana çevrildi. Belə ki, Qafqaz regionu, əsasən də Azərbaycan, Rusiya, Türkiyə, İran və Qərbin aparıcı dövlətlərinin nüfuz dairəsi uğrunda mübarizə çərçivəsində yeni geostrateji maraq dairəsinə çevrildi. İki qitənin (Avropa və Asiyanın) qovşağında yerləşmiş, zəngin yerüstü və yeraltı ehtiyatlara malik, ən əsası isə coğrafi cəhətdən əlverişli mövqedə yerləşmiş Azərbaycanda gedən proseslər təbii ki, dünyanın aparıcı dövlətlərinin diqqətindən kənarda qala bilməzdi. Məhz elə bu vaxt Qərb dövlətlərinin və Türkiyənin regionda, əsasən də Azərbaycanda fəallaşması regionun aparıcı dövləti olan və əsrlərlə eyni siyasi və iqtisadi quruluşu paylaşan Rusiyanın kəskin etirazına səbəb olmuşdur.

Soyuq müharibənin başa çatması və sosialist sisteminin çökməsi bütün dünyada olduğu kimi, regionda yeni siyasi şəraitin yaranmasına səbəb olmuşdur. Yəni qloballaşma prosesinin gücləndiyi bir zamanda dünyanın aparıcı dövlətlərinin, eləcə də Rusiya və Türkiyənin maraqlarının kəsişdiyi Azərbaycan bu dövlətlərin xarici siyasətində xüsusi yerə malik olmuşdur. Və

qeyd etmək lazımdır ki, Azərbaycanda Türkiyənin strateji maraqları Rusiyanın alternativ maraqları ilə demək olar ki, bütün sahələr üzrə toqquşurdu. O da gizlin deyildir ki, bir sıra faktorlar baxımından Azərbaycan dövləti və ictimaiyyəti Rusiya ilə də hərtərəfli münasibətləri inkişaf etdirməyə maraqlı olmuşdur. Rusiya isə bölgədə özünün strateji əhəmiyyətini artırmaq üçün iqtisadi və hərbi potensialından istifadə edərək regional gücə çevrilmək və bununla da özünü Qərbin texnoloji asılılığından və təsirindən qismən də azad etmək istəyirdi. Odur ki, Rusiya Azərbaycanı özünün nüfuz dairəsindən kənarda saxlamaq fikrində olmamışdır.

Azərbaycanda strateji maraqları güclü olan dövlətlərdən biri də Türkiyə olmuşdur. Türkiyə Azərbaycana beynəlxalq hüquq normaları çərçivəsində bəzi yardımlar göstərərək onun təbii sərvətləri hesabına özünün yanacaq problemlərini həll etməyə, Qərb dövlətlərinə məxsus neft şirkətlərinin iştirakı ilə çıxarılan neftin dünya bazarlarına çıxarılması üçün çəkiləcək tranzit boru xəttinin öz ərazisindən keçməsinə çalışaraq bu kəməri istənilən zaman Qərb dövlətlərinə siyasi təsir vasitəsi kimi əlində saxlamaqla özünün strateji əhəmiyyətini artırmağa və Azərbaycan vasitəsilə Orta Asiyaya çıxmağa çalışmışdır.

## 1. XX əsrdə Rusiya və Türkiyə* arasında münasibətlərə qısa baxış

Birinci dünya müharibəsində Qafqaz cəbhəsində Osmanlı-Rusiya savaşı getsə də, SSRİ-nin formalaşması və Türkiyə Cümhuriyyətinin əsasının qoyulmasından sonra bu iki dövlət arasında münasibətlər yeni əməkdaşlıq və tərəfdaşlıq mərhələsinə qədəm qoymuşdur. 1921-ci ildə iki dövlət arasında "Dostluq və bitərəflik haqqında" bağlanmış müqavilə [6, s.28] İkinci dünya müharibəsinədək olan münasibətləri tənzimləmişdir. Yəni Moskva ilə Ankara qarşılıqlı anlaşmaya üstünlük verməyə başlamışlar. Müqavilə bağlanarkən Türkiyəli diplomatlar Ankarada Azərbaycan nümayəndəliyinin təşkil edilməsi məsələsini müzakirəyə çıxarmışdılar. Lakin hər vəchlə qarşısının alınmasına çalışanlar olsa da bu məsələ qismən də olsa həll olunmuş və İ.Əbilov 1921-ci ilin iyun ayında Ankara hökuməti yanında Azərbaycanın diplomatik-səlahiyyətli nümayəndəsi təyin olunmuşdur [2, v.87]. Lakin İkinci dünya müharibəsi ərəfəsində SSRİ-nin bir sıra tələbləri – Bosfor və Dardanel boğazlarında hərbi baza yaratmaq və Şərqi Avropada torpaq istəkləri irəli sürməsi ilə Türkiyə ilə olan isti münasibətlərin sona çatması prosesi baş vermişdir.

"Soyuq müharibə" zamanında Türkiyənin Qərbin yanında yer alması, eləcə də "Marşall planı", "Trumen doktrinası" çərçivəsində yardımlar alması və NATO-ya üzv qəbul edilməsi bu ölkə ilə SSRİ-nin fərqli siyasi qütblərdə yer

* 1923-cü ilədək Osmanlı imperiyası olmuşdur.

almasına səbəb olmuşdur. Və qeyd etməliyik ki, məhz həmin dövrdə Sovet İttifaqının hansısa çevriliş, yaxud da inqilab yolu ilə Türkiyəni ələ keçirmək niyyətində olmasına dair məlumatlar da yayılmışdır. Həmin məlumatlar isə Qərbi, xüsusilə də NATO-nu Türkiyəni qorumaq üçün müəyyən addımlar atmağa məcbur etmişdir [14, s.45].

XX əsrin 70-ci illərindən başlayaraq Şərqlə Qərb arasında etimadın yaranması, o cümlədən SSRİ-Türkiyə münasibətləri fonunda iki ölkə arasında çoxtərəfli işgüzar əlaqələrdə Azərbaycanın iştirakına da şərait yaradılmışdır. Bu vaxt dünya dövlətləri ilə əməkdaşlığın yeni və o dövr üçün daha mütərəqqi forması yaranmağa başlamışdır. Eyni zamanda SSRİ-nin Türkiyə ilə əlaqələrində Azərbaycanın da iştirakı formalaşmışdır. Və sonralar bu proses getdikcə sərbəstləşərək 80-ci illərin sonlarında müstəqil xarakter almışdır [10, s.283]. Münasibətlərin mühüm formalarından olan mədəni əlaqələr Azərbaycan SSRİ-nin tərkibinə qatıldıqdan sonra məlum səbəblər üzündən çox zəif olmasına rəğmən 60-cı illərin ortalarından etibarən Sovet İttifaqının beynəlxalq əlaqələrinin fəallaşması fonunda Azərbaycan-Türkiyə mədəni əlaqələrinə də müsbət təsir göstərmişdir. Belə ki, 1964 və 1972-ci illərdə Sovet-Türkiyə mədəni əlaqələrinin genişləndirilməsi haqqında sazişlər [1, s.78] imzalanmışdır ki, bunlardan istifadə edən Azərbaycan Türkiyə ilə mədəni əlaqələrini genişləndirmək istiqamətində müəyyən işlər görmüşdür. Bu əlaqələr Azərbaycan təkrarən müstəqilliyini bərpa etdikdən sonra yaradılaraq inkişaf etdirilmiş münasibətlərin təməli olmuşdur.

Sovet İttifaqının dağılmasından sonra isə Rusiya ilə Türkiyə arasındakı qarşılıqlı münasibətlər daha çox strateji rəqabət istiqamətində irəliləmişdir. Hər iki dövlət geostrateji baxımdan üstünlüklər gətirəcək bölgələrdə strateji balans və təhlükəsizlik sistemi yaratmaq, bununla da özlərinin mövqelərini möhkəmləndirmək istiqamətində “fəaliyyət” yarışı aparmışlar. Lakin münasibətlərdə qarşılıqlı faydalı əməkdaşlıq ştrixlərinə də rast gəlinməkdədir. Belə ki, Türkiyə Rusiya üçün Yaxın Şərq və “isti dənizlərə” çıxmaq, eləcə də iqtisadi-siyasi baxımdan tranzit üstünlükləri qazanmaq baxımından mühüm önəm kəsb etmişdirsə, Kreml isə Ankara üçün enerji təhlükəsizliyinin təmin edilməsi, Qafqaz bölgəsi və Xəzər hövzəsində strateji baxımdan əhəmiyyətli əməkdaşlıq perspektivi vəd etmişdir.

## 2. Rusiya-Türkiyə münasibətlərində “Dağlıq Qarabağ problemi”nin yeri

SSRİ-nin tənəzzülü və bu dövlətin tərkibindəki respublikalarda milli gərginliyin güclənməsi siyasi sabitsizlik və millətlərarası qarşıdurmalarla müşayiət olunurdu. Bu gərginlik ocaqları içərisində Dağlıq Qarabağ münaqişəsi özünün intensivliyi və uzunömürlülüyü ilə fərqlənməkdədir. Münaqişənin ilk dövrlərindən dünya dövlətləri içərisində Rusiya və Türkiyə bu münaqişə ilə

daha yaxından maraqlanmışdır. Hətta bu məsələ həmin dövlətlərin tədqiqatlarının əsərlərində də öz əksini tapmışdır. Belə ki, rusiyalı müəlliflərdən A.Zverevin [16, s.278], D.Terninin [17] əsərlərində Dağlıq Qarabağ münaqişəsi məsələsinə dair dünya dövlətlərinin, xüsusən də Rusiya və Türkiyənin mövqeyi və bu problemin həlli istiqamətində həmin dövlətlərin apardıqları siyasət təhlil edilərək öz əksini tapmışdır. S.Çerniyavskinin əsərində [18] isə XX əsrin 90-cı illərində Azərbaycanlı xarici siyasətinə tarixi-xronoloji baxımdan yanaşılmaqla, orada gedən geosiyasi proseslər təhlil edilmiş, Rusiyanın ABŞ, İran və Türkiyə ilə münasibətlərində Azərbaycanın yeri məsələsi öz əksini tapmışdır.

Türkiyəli tədqiqatçılardan olan Mehmet Sarayın [9], Ali Faik Demirin [5], T.Çiloğlunun [8] yazmış olduqları tədqiqat əsərlərində də Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələləri tarixinə geniş yer verilmişdir.

Yuxarıda göstərilən əsərlərdə qeyd olunmuşdur ki, Rusiyanın və Türkiyənin Dağlıq Qarabağ məsələsinin dinc və siyasi vasitələrlə həlli uğrunda fəaliyyətləri həmişə Azərbaycanın siyasi rəhbərliyi və xalqı tərəfindən təqdirlə qarşılanmışdır. Münaqişənin ilk vaxtlarında bu dövlətlər regionda formalaşmaqda olan təhlükə ocaqlarının ləğv edilməsi üçün birgə müəyyən tədbirlər planı üzərində işləmişlər. Belə ki, 1993-cü ilin mart ayında Türkiyənin Xarici İşlər naziri H.Çətin Bakıya rəsmi səfərə gəlməzdən əvvəl rusiyalı həmkarı A.Kozırevlə görüşmüş və problemin dinc yolla həlli mexanizminin hazırlanmasına dair mövqelərini müəyyənləşdirmişlər. Türkiyənin Xarici İşlər naziri Bakıda olarkən keçirdiyi mətbuat konfransında qeyd etmişdir ki, Rusiya da Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu qəbul edir və Ermənistan qoşunlarının oradan çıxarılmasını istəyir [4]. Hətta Türkiyə Cümhuriyyətinin prezidenti S.Dəmirəl və Rusiya Federasiyasının prezidenti B.Yeltsin problemin beynəlxalq normalar çərçivəsində həlli istiqamətində müzakirələr aparmalı olduqlarını qərara almış, öz nüfuzlarından istifadə edərək Ermənistanın beynəlxalq hüquq normalarına hörmət etməsini və işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasını bildirmişlər. Hətta tərəflər münaqişənin həlli istiqamətində vasitəçi olmalarına da razılıq vermişlər.

Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə gəlişi ilə ölkənin xarici siyasət kursunun dəyişməsi dünya dövlətlərinin, eləcə də regionun aparıcı dövlətləri olan Rusiya və Türkiyənin Azərbaycana olan münasibətlərində də ciddi dəyişiklik oldu. Bundan sonra hər iki dövlət Dağlıq Qarabağ məsələsinin həllində haqqın tərəfində olacaqlarını bəyan etmişlər.

### 3. Azərbaycanın enerji strategiyası Rusiya-Türkiyə münasibətlərində

Rusiya-Türkiyə münasibətlərində enerji mövzusu həm əməkdaşlıq, həm də rəqabət xarakterli olmuşdur. Bu münasibətlərdə əməkdaşlıq motivini dəstəkləyən nümunələr 1984-cü ildə SSRİ-nin Türkiyə ilə qaz və 1997-ci ildə isə "Mavi Axın" kəməri müqaviləsidir. Bundan əlavə "Cənub Axını" layihəsi

və bəzən də gündəmə gələn, lakin Türkiyə-İsrail münasibətlərinin pisləşməsi ilə, hazırda o qədər də aktual olmayan "Mavi Axın-2" layihələri bu sıradan sayıla bilər. Rusiya ilə Türkiyə arasında enerji əməkdaşlığının ən mühüm nümunələrindən biri kimi Azərbaycanın enerji strategiyası üzərində quruluşu və inkişaf etdirilmədə olan əməkdaşlıqlarını qeyd etmək olar.

Onu da nəzərə almaq lazımdır ki, Rusiya ilə Türkiyə arasında enerji sahəsindəki əməkdaşlıq Azərbaycan üçün də müəyyən risklər və fürsətlər ortaya qoymuşdur. Risklər baxımından bu enerji əməkdaşlığı Azərbaycanın Avropa bazarlarını hədəfləyən enerji layihələri üçün "Cənub Axını" və ya bu gün gündəmdə olan "Türk Axını" layihəsi nümunəsində alternativ təşkil edir. Bu əməkdaşlığın İsrailə qaz verməsini nəzərdə tutan "Mavi Axın-2" ilə yeni istiqamət qazanmasının gündəmə gəlmə riski var və bu da Azərbaycan üçün yeni rəqib layihə mənasını daşımaqdadır. Fürsətlər baxımından isə iki məqamı göstərmək olar. Birincisi, Rusiyanın Türkiyə ilə enerji əməkdaşlığı Azərbaycanın Türkiyə ilə həyata keçirəcəyi layihələrə dair Rusiyanın təzyiqlərinin azalması imkanı yaranmışdır, ikincisi isə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası məsələsini sürətləndirmişdir.

Azərbaycanın enerji strategiyasına münasibətdə Rusiya və Türkiyə dövlətlərinin mövqeyi məsələsi də hər iki ölkə tarixçilərinin tədqiqatlarında öz əksini tapmışdır. Rusiyalı tarixçilərdən K.Hacıyevin [13], A.Duginin [15] və b. əsərlərində Rusiyanın Qafqaz və Azərbaycan siyasəti geosiyasi, geoiqtisadi və geotarixi nöqteyi-nəzərdən ətraflı şəkildə təhlil edilir.

Türkiyəli tarixçilərdən olan O.Arasın tədqiqat əsərində [7] Azərbaycanın neft strategiyası və iqtisadi imkanlarından, gələcəkdəki iqtisadi potensialından söhbət açılır. S.Yanar isə Rusiya-Türkiyə münasibətlərinə həsr etmiş əsərində [11] bu kontekstdə Qafqazın və Azərbaycanın yeri, bu iki dövlətin regiondakı nüfuz uğrunda tarixi mübarizəsi, geosiyasi hədəfləri və digər məsələlər təhlil edilir.

Təqdim edilmiş bu əsərlərdə əsas məqsəd XX əsrin 90-cı illərində Rusiya və Türkiyənin Qafqazda, xüsusilə də Azərbaycanda formalaşmış strateji maraqları, nüfuz dairələrinə dair elmi-siyasi və nəzəri konsepsiyaların kompleks şəkildə sistemli tədqiqinə imkan verir. Və ilk dəfə olaraq Rusiya və Türkiyənin Xəzər regionunun təbii ehtiyatlarının işlənməsi və istismarında Neft Konsorsiumunun yaranması istiqamətində göstəridikləri fəaliyyət vəhdət halında və sıx əlaqədə təqdim edilmişdir. Bu konsorsiumun Azərbaycan üçün siyasi və iqtisadi əhəmiyyəti konkret dəlillər və statistik göstəricilərlə əsaslandırılmışdır. Onun Azərbaycan diplomatiyasına iri dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmaqda, onları müxtəlif səviyyələrdə Azərbaycanın milli mənafeyinə uyğun qərarlar qəbul etməyə sövq etməkdə hansı manevr imkanları yaratdığı elmi cəhətdən əsaslandırılmışdır.

**Nəticə**

Müasir qloballaşma dövründə Rusiya və Türkiyə münasibətləri demək olar ki, Avrasiyada yaxın əməkdaşlıq üzərində qurularaq regionun təhlükəsizliyinə xidmət etməkdədir. Düzdür, bu dövlətlər öz aralarında yüksək səviyyəli əməkdaşlıq qurmuş olsalar da, hər bir dövlət özünün milli maraqlarını öz fəaliyyətlərində əsas prioritet kimi göstərirlər. Və hətta onu göstərmək olar ki, müasir dövrdə Rusiya və Türkiyə münasibətləri böyük potensiala malik olmaqla Avrasiya geosiyasi məkanında perspektiv nəticələr verə biləcək faktorlarla müəyyən olunmaqdadır.

Yuxarıda göstərilmiş faktorları, tendensiyaları nəzərə alsaq, artıq Rusiya və Türkiyənin strateji əməkdaşlığının istiqamətlərini müəyyən etmək mümkündür. Bu nəticələri isə müəyyən etmək üçün həmin dövlətlərin geosiyasi maraqlarına və hər iki dövlətin fəaliyyətlərinin status və mexanizmlərinə diqqət yetirmək daha vacibdir.

Rusiya Federasiyası keçmiş SSRİ-nin davamçısı kimi çıxış etməklə Avrasiyanın əsas hissəsində mövcuddur. Odur ki, Rusiya regionda əsas güc olmaqla digər dövlətlər üzərində ciddi təzyiqlərə sahib bir ölkədir. Odur ki, Rusiya yenidən "yeni dünya düzümü" formalaşdırmağa çalışmaqdadır.

Türkiyə Respublikası isə faktiki olaraq Qafqaza, Yaxın və Orta Şərq dövlətlərinə və Şimala açılan dəhliz kimi çıxış etməkdədir. Türkiyə Aralıq dənizi akvatoriyasında yerləşməklə, Qara dəniz ətrafı dövlətlər sırasında da həlledici təsirə malikdir. Bu mövqe isə onun geostrateji əhəmiyyətini daha da artırmaqdadır. XXI əsrdə Qərbin və Avropanın enerji təhlükəsizliyi demək olar ki, Türkiyənin əhəmiyyətini daha da artırmışdır. Bu sahədə Türkiyə ilə əməkdaşlıq edən Rusiya bir sıra enerji layihələrini reallaşdırmaqla istehsal etdiyi qazı Avropa ölkələrinə çatdırmağa çalışır və Avropanın enerji bazarında öz mövqeyini möhkəmləndirməyə çalışmaqdadır.

Daha sonra Türkiyə hərbi-siyasi blok olan NATO-nun üzvüdür. Bu faktor isə Rusiya üçün xüsusi əhəmiyyət kəsb etməkdədir. Məhz Rusiya Türkiyə ilə əməkdaşlıq etməklə NATO-nun Şərqə doğru genişlənməsi prosesinin də qarşısını almağa çalışmaqdadır. Məhz bu məqsədlə Rusiya Avropada "sanitar dəhliz" yaratmağa çalışır ki, prosesə nəzarət edə bilsin.

Beləliklə, XX əsrin sonu – XXI əsrin əvvəllərindəki beynəlxalq münasibətlər sisteminə nəzər salsaq görərik ki, Rusiya və Türkiyə rəqib deyil, artıq beynəlxalq münasibətlərin bir çox sahələrində müttəfiq kimi çıxış etməyə başlamışlar.

## ƏDƏBİYYAT


1. *Abdullayev M.* Azərbaycan-Türkiyə əlaqələri. Bakı: Mütərcim, 1997, 110 s.
2. Azərbaycan Respublikası MDTA: F.28, siy.1, i. 68.
3. *Əhmədov Ə.X.* Azərbaycan beynəlxalq münasibətlərdə (Türkdilli dövlətlərlə əlaqələr. XX əsrin 90-cı illəri). Bakı: Elm və təhsil, 2009, 386 s.
4. "Xalq" qəz., 17 aprel 1993-cü il
5. *Ali Faik Demir.* Türk Dış Politikası prespektivlerinden Güney Kafkasiya. İstanbul: Bağlam Yayınçılıq, 2003, 364 s.
6. *Ali Kemal Meram.* Türk-rus ilişkiləri tarihi. İstanbul: Bağlam Yayınçılıq, 1969, 348 s.
7. *Aras O.N.* Azərbaycanın Hazar ekonomisi ve stratejisi. İstanbul: Der yayınları, 2001, 276 s.
8. *Çiloğlu T.* Rusiya Federasiyonunda ve Transkafkasiyada etnik çatışmalar. İstanbul: Sinatle Yayınları, 1998, 326 s.
9. *Mehmet Saray.* Yeni türk cümhuriyyetleri tarihi. Ankara: Türk Tarih Kurumu Basımevi, 1996, 348 s.
10. *Soysal İsmail.* Tarihçileri ve açıqlamaları ile birlikde Türkiyenin siyasal anlaşmaları. Ankara: Biliğ, 1983, 486 s.
11. *Yanar S.* Türk-rus ilişkilerinde gizli güç: Kafkasiya. İstanbul: İQ Kültür-Sanat Yayınçılıq, 2002, 276 s.
12. *Ахмедов А.Х.* Азербайджан-Турция: о некоторых принципах создания независимых экономических отношений // Гилея: (научный вестник) Национальный Педагогический Университет Украины имени М.П.Драгоманова, Киев, 2013. №78 (11), 130-132 с.
13. *Гаджиев К.С.* Геополитика Кавказа. Москва: Международные отношения, 2003, 298 с.
14. *Гасанлы Д.* СССР-Турция: полигон холодной войны. Баку, 2005, 498 с.
15. *Дугин А.Г.* Основы геополитики. Геополитическое будушее России. Москва: Мыслитель Пространством, 2000, 436 с.
16. *Зверев А.* Этнические конфликты на Кавказ в 1988-1999 годах. СМ: Спорные границы на Кавказе / Под ред. Бруно Коппитерса. Москва: 1996, 278 с.
17. *Тернин Д.* Интересы безопасности и политика России в Кавказском регионе. Спорные границы на Кавказе / Под ред. Бруно Коппитерса. Москва: Весь мир, 1996, 328 с.
18. *Чернявский С.И.* Новый путь Азербайджана. Москва: Морская гвардия, 2007, 364 с.


Redaksiyaya daxil olub 17.07.2020

*UOT 33*

***A.B.Təhməzova***
*Azərbaycan Tibb Universiteti*
*aida.bayram1958@gmail.com*

# AZƏRBAYCANIN YENİ NEFT STRATEGİYASI VƏ UĞURLU NƏTİCƏLƏR

***Açar sözlər:*** *strategiya, terminal, sərmayə, şaxələndirmə, kontrakt, infrastruktur*

Çox mühüm strateji əhəmiyyət daşıyan nailiyyətlər arasında Azərbaycanın yeni neft strategiyası xüsusi yer tutur. "Əsrin müqaviləsi" adını almış neft müqaviləsinin 20 sentyabr 1994-cü ildə imzalanması ilə neft strategiyası reallaşmağa başladı. Neft və qaz yataqlarında qazma işləri bərpa edildi, neft sənayesinin infrastrukturu xeyli möhkəmləndirildi. Azəri-Çıraq-Günəşli dəniz yatağı, Bakı-Novorossiysk, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP boru kəmərlərinin istismara verilməsi yeni neft strategiyasının ən böyük uğurları idi.Neftdən gələn gəlirlər iqtisadiyyatımızın digər sahələrinə investisya şəkilində qoyulur, bir çox sosial layihələr həyata keçirilir. Bu gün bir çox başqa sahələrə edilən yatırımlar öz nəticəsini verir.

***А.Б.Тахмазова***

## УСПЕХИ НОВОЙ НЕФТЯНОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *стратегия, терминал, капиталовложение, диверсификация, контракт, инфраструктура*

Среди важнейших стратегических достижений особое место занимает новая нефтяная стратегия Азербайджана. С подписанием 20-го сентября 1994 года контракта, более известного как «Контракт Века», началась реализация новой нефтяной стратегии. Возобновились буровые работы на месторождениях нефти и газа, значительно укрепилась инфраструктура нефтяной промышленности. Сдача в эксплуатацию морского месторождения Азери-Чыраг- Гюнашли, трубопроводов Баку-Новороссийск, Баку-Тбилиси-Джейхан, Баку-Тбилиси-Арзурум и TANAP были самыми большими успехами новой нефтяной стратегии. Доходы от нефтяного сектора инвестируются в другие отрасли экономики, воплощаются в жизнь множество социальных проектов. Сегодня инвестиции, вложенные во многие другие отрасли, дают свои плоды.

***A.B.Tahmazova***

## SUCCES OF AZERBAIJANI NEW OIL STRATEGY

***Keywords:*** *strategy, terminal, investment, diversification, contract, infrastructure*

Among the other important strategy achievements of Azerbaijan is new oil strategy has special place. Named, as Contract of Century signed at 20th of September 1994 was a starting point of this strategy. Recommencement of drilling operation in known oil and gas fields, strengthened infrastructure of oil industry. The main achievements of oil strategy was utilisation of pipeline from Azeri-Chirag-Gunashli (ACG) offshore field to onshore, pipelines Baku-Tbilisi-Jehan, Baku-Novorossiysk, Baku Tbilisi Arzurum and TANAR was the greatest success of new oil strategy. The profit from oil industry were invested to non-oil areas and soicial projects. Nowadays those investments already give returns.

İqtisadiyyatın bu önəmli sahəsi Azərbaycanın qədim və zəngin sərvətidir. Ölkəmizdə neft sənayesinin tarixi yüz əlli ildən çox olsa da, əcdadlarımız bu "möcüzəli" mayeni daha qədimlərdən tanımış, onun istehsalı və müxtəlif məqsədlərlə işlədilməsi ilə məşğul olmuşlar. Bu sahə ölkə tarixşünaslığında həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Neçə-neçə tədqiqat işləri, elmi əsərlər, iri həcmli elmi-praktiki məqalələr işıq üzü görmüşdür.

Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu sərvətdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən isə ulu öndər Heydər Əliyev olmuşdur. Onun yaratmış olduğu neft strategiyası bu gün özünün uğurlu nəticələrini göstərməkdədir. Məqalədə məqsəd neft strategiyası ilə əlaqədar bir sıra vacib məqamlara nəzər salmaqdır.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul olunmasından sonra respublikamız bir çox problemlərlə üzləşdi. Xalqımız o dövrün səriştəsiz, başıpozuq hakimiyyət dəllallarının fəaliyyətsizliyi nəticəsində uçurum qarşısında dayanmışdı. Dağlıq Qarabağ münaqişəsi, 1990-cı illərin əvvəllərində siyasi rəhbərliyin və təsərrüfat başçılarının acizliyi əsl hərc-mərclik törətmişdi. İstehsal sahələri və onların xətləri və mərhələləri arasında əlaqələr pozulmuş, təcrübəli kadrlar itirilmiş, iqtisadi resursların talan edilməsi, idarəetmədə laqeydlik və səriştəsizlik, müəssisələrin xarici iqtisadi əlaqələrinin dağılması və xammal çatışmazlığı, siyasi-iqtisadi xaos və özbaşınalıq hökm sürürdü. Uzun illər ərzində yaradılmış əsas fondlar və istehsal vasitələri dağıdılaraq talan edilmişdi. Maliyyə sahəsində, əsas fondların və neft avadanlıqlarının yeniləşdirilməsində böhran son dərəcə dərinləşmişdi. Belə ki, 1987-ci ildən etibarən illik hasilatın aşağı düşməsi tempi neft üzrə 7,1 faiz, qaz üzrə isə 13,5 faiz təşkil etmiş, kəşfiyyat qazmasının həcmləri 17 dəfə aşağı düşmüşdü. Yalnız 1993-cü ildən etibarən xalqın iradəsi, çağırışı, təkidi ilə yenidən hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyevin gecə-

gündüz gərgin iş rejimində yorulmadan çalışması, Azərbaycanın siyasi və iqtisadi həyatında mühüm dönüşlərin başlanğıcı oldu [1, s.407].

Çox mühüm strateji əhəmiyyət daşıyan nailiyyətlər arasında "Əsrin müqaviləsi" adını almış neft müqaviləsinin imzalanması ilə neft strategiyası reallaşmağa başladı. Belə ki, 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın aparıcı neft şirkətləri ilə müasir tariximizə "Əsrin müqaviləsi" adı ilə əbədi həkk olunmuş "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" saziş imzalandı. [2] Əvvəlki iqtidarların heç birinin bacarmadığı bir işi görmək, dünyanın aparıcı dövlətlərinin iri neft şirkətlərinin maraqlarının Azərbaycanın milli maraqlarına uyğunlaşdırıldığı neft müqavilələri hazırlamaq elə də asan məsələ deyildi. [3] Ulu öndər Heydər Əliyev xarici şirkətlərlə bağlanmış bu müqaviləni belə dəyərləndirirdi: "Azərbaycan Respublikasının üzərinə düşən vəzifələr daha çətin, daha ağırdır. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatı ağır böhran içərisindədir. Neft sənayesində də böyük çətinliklər yaranmışdır. Məhz böhrandan çıxmaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifahını qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün hamı əl-ələ verib müqavilənin həyata keçirilməsinə çalışmalıdır. Ümidvaram ki, Azərbaycanın qəhrəman və təcrübəli neftçiləri, alimləri, mütəxəssisləri, iqtisadiyyatımızda bu sahə ilə məşğul olan şəxslər, bir sözlə, hamı bu vəzifəni ən böyük, ən şərəfli vəzifə kimi qəbul edib, onun həyata keçirilməsinə çalışacaqdır". [4 s. 54-55]

Azərbaycanın neft strategiyasına uyğun olaraq "Əsrin müqaviləsi"ndən sonra 14 dövlətin otuzdan çox iri neft şirkəti ilə Xəzərdəki karbohidrogen ehtiyatlarının istismarı ilə bağlı daha 20 saziş imzalandı. Bu isə bütövlükdə Azərbaycanın neft sənayesinə 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulmasına təməl yaratdı. "Çıraq" yatağından 7 noyabr 1997-ci ildə ilk neft çıxarılmış, bu təntənəli mərasimdə Ulu öndər Heydər Əliyev iştirak etmişdir. Çıxarılan neft Bakı-Batum, Bakı-Novorossiysk, Bakı-Supsa neft kəməri (Qərb İxrac Boru Kəməri), Bakı-Tbilisi-Ceyhan boru kəmərləri vasitəsilə dünya bazarına çıxarıldı. 1999-cu ilin axırından isə Azərbaycan artıq onun payına düşən mənfəət nefti – ilk "Neft dollarlarını" almağa başlayıb. Azəri-Çıraq-Günəşli Sazişinin şərtlərinə əsasən Azərbaycanın payına düşən 58 milyon ABŞ dolları dəyərində mənfəət nefti satılmışdı. Onu da qeyd edək ki, həmin sazişə görə istismar quyularında neftlə birgə çıxarılan səmt qazı bütövlükdə dəyəri ödənilmədən respublikaya verilir. [5, s.235] Kəmərlər vasitəsilə neft ixracı müvəffəqiyyətlə davam etməkdədir. Qafqazın münaqişələr bölgəsindən əməkdaşlıq bölgəsinə çevrilməsi uğrunda yorulmadan səmərəli və məqsədyönlü mübarizə aparan Ulu öndər Heydər Əliyev Xəzər neftini yenidən ikinci dəfə dünya üçün kəşf etdi [6, s.420]. Bu gün Azərbaycan dünyanın zəngin enerji mərkəzlərindən birinə çevrilməkdədir.

Neft strategiyasına uyğun olaraq Azəri-Çıraq-Günəşli dəniz yataqlarında nəzərdə tutulan bütün işlər yerinə yetirildi, bu işlər çərçivəsində neft sənayesinin

infrastrukturu əsasən müasirləşdi. "Çıraq-1" dəniz platformasından Səngəçaldakı sahil terminalınadək və Neft Daşlarındakı kompressor stansiyasınadək sualtı kəmərlər çəkildi. Səngəçal sahil terminalı tikildi, Bakı-Novorossiysk neft kəmərində yenidənqurma işləri aparıldı və 1997-ci ilin oktyabr ayında bu neft kəməri istismara verildi. "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" kimi nəhəng dəniz qazma qurğuları istifadəyə verildi [7, s.378].

Azərbaycanın neft strategiyasının bu gün ən böyük nailiyyətlərindən biri odur ki, neft-qaz təsərrüfatının dağılmasının qarşısı alınmış, bu sahədə canlanma baş vermiş və neft hasilatının aşağı düşməsi tempi dayandırılmışdır. Belə ki, 1998-1999-cu illərdə vəziyyət sabitləşmiş, neft və qaz hasilatının aşağı düşməsi tempi tamamilə dayandırılmışdır [8]. İldən-ilə artan səmərəli tədbirlər nəticəsində neft və qaz yataqlarında qazma işləri bərpa edilmiş, istismar quyularının qazılmasının həcmi artırılmış, geoloji-texnoloji tədbirlər keçirilmiş, quyuların sabit iş rejimini təmin etmək məqsədi ilə mövcud kompressor stansiyaları təmir olunmuş və yenidənqurma işləri aparılmışdır, bununla da neft sənayesinin infrastrukturu xeyli möhkəmləndirilmişdir [9].

Azərbaycanın imzaladığı sazişlərin həyata keçirilməsi nəticəsində respublikamızda xam neftin illik ixrac potensialı 2010-2015-ci illər üçün ən azı 50-60 milyon ton təşkil edəcəyi və bunun nəticəsində də Azərbaycan çıxarılan neftin həcminə görə İngiltərə, Norveç kimi ölkələrlə eyni səviyyədə olmasına və dünyanın ən inkişaf etmiş ölkələri sırasında yerini tutacağı proqnozlaşdırılmışdır [10]. Təkcə 2018-ci ildə SOCAR tərəfindən 23,88 milyon ton xam neft ixrac olunmuş, bütövlükdə 2018-ci ildə respublika üzrə 38,81 milyon ton neft hasil edilmişdir. Eyni zamanda Azərbaycandan 1,8 milyon ton emal olunmuş neft və neft-kimya məhsulu ixrac edilmişdir [11].

Yeni neft strategiyasının ən böyük uğurlarından biri məhz Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallığa çevrilməsi və onun inşasına başlanması olmuşdur. Xəzər neftinin belə bir marşrutla dünya bazarına çıxarılması ideyası ilk dəfə meydana atılanda çoxları onu utopiya hesab edirdi və onun əleyhdarları tərəfdarlarından çox idi. Lakin Ulu öndər sona qədər dönmədən mübarizə apardı, hamını inandırmağı, hətta fikrindən döndərməyi bacardı. Beləliklə, "üç dəniz əfsanəsi" xəyaldan gerçəkliyə çevrildi. 18 sentyabr 2002-ci ildə Azərbaycan prezidenti Heydər Əliyevin, Türkiyə Prezidenti Əhməd Necdət Sezərin və Gürcüstan Prezidenti Eduard Şivardnadzenin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlqoyma mərasimi keçirildi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri 2006-cı ildə istifadəyə verildi. Əgər bu günədək xarici bazarlara 554 milyon ton Azərbaycan nefti çıxarılıbsa, onun təxminən 400 milyon tonu Bakı-Tbilisi-Ceyhanın payına düşür [12].

1999-cu ilin dekabrında ölkə başçısının fərmanı ilə "Azərbaycan Dövlət Neft Fondu" yaradıldı. 2001-ci ilin 27 dekabrında bu fondun Müşahidə Şurası təşkil edildi. Azərbaycanın yeni neft strategiyasının baniləri Heydər Əliyev və

İlham Əliyev bu fondu güclü iqtisadiyyat yaratmaq vasitəsi kimi qiymətləndirmişdilər. İlham Əliyev qeyd edirdi ki, Dövlət Neft Fondunu yaratmaqda başlıca məqsəd mineral-xammal ehtiyatlarını təkrar istehsala yönələn maliyyə ehtiyatlarına çevirməkdir və bu fond nəsildən-nəslə keçməlidir [13, s.14]. Dövlət Neft Fondunda yığılan vəsaitlər investisiya şəklində Azərbaycan iqtisadiyyatının başqa sektorlarına qoyulmuş, neftlə bağlı olmayan digər sahələrin inkişafı yeni iş yerlərinin yaradılması üçün, habelə gələcək nəsillərin neft hasilatı səviyyəsindən və dünya bazarında neftin qiymətinin dəyişməsindən asılılığının olmaması üçün məqsədli strategiya və proqramlar həyata keçirilmişdir [7, s.379].

Ölkə başçısı İlham Əliyev, böyük uzaqgörənliklə imzalanmış olan "Əsrin müqaviləsi"nin artıq bu gün nəticələrini görməyimizi belə dəyərləndirmişdi: "Biz heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparmaq imkanlarımız, ilk növbədə, iqtisadi imkanlarımızdan qaynaqlanır. Bu imkanları da bizə məhz "Əsrin müqaviləsi" yaratmışdı". Ulu öndərin neft strategiyasını bu gün uğurla davam etdirən Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin əminliklə qeyd etdiyi kimi, beynəlxalq tərəfdaşlarla fəal şəkildə yeni layihələr üzərində işlər həyata keçirilir və bir neçə ilə hasilatın başlanması nəzərdə tutulur, eyni zamanda "Abşeron" yatağı, çox böyük qaz ehtiyatı olan "Ümid" və "Babək" yataqları ilə bağlı Azərbaycanın xarici şirkətlərlə fəal danışıqlar prosesi uğurla həyata keçirilir və bir çox tanınmış şirkətlər sözügedən layihədə iştirak etməkdə maraqlıdır [14]. Qeyd olunan yataqlarla yanaşı, hazırda "Qarabağ", "Dan Ulduzu" və "Əşrəfi" yataqlarında da işlər uğurla davam etdirilir.

Hesablamalara görə, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları "Şahdəniz" yatağından iki dəfədən artıq çoxdur – 2,6 trilyon kub metr qaza bərabərdir. Bu fikrin özü göstərir ki, Azərbaycan qarşıdakı onilliklərdə dünya bazarlarına enerji ehtiyatlarının etibarlı, uzunmüddətli təchizatçısı olacaqdır. Azərbaycan nefti bəzi Avropa ölkələrinin neft istehlakının üçdə biri və daha çox, hətta 40 faizini təşkil edir [15, s.116-117]. Azərbaycan öz qaz ehtiyatları ilə Avropa bazarına cəlbedici görünməkdə davam edir.

2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi və Azərbaycan öz təbii qazını ixrac etməyə başladı. 2012-ci ildə Azərbaycanla Türkiyə arasında TANAP qaz kəməri üzrə saziş imzalanmışdı ki, bununla da Azərbaycanın iştirakı və dəstəyi ilə reallaşdırılan növbəti nəhəng layihənin həyata keçirilməsi ilə Azərbaycan daha bir tarixi-iqtisadi, siyasi uğuruna imza atdı, nəinki regionun, bütövlükdə Avropanın və dünyanın enerji təhlükəsizliyinə özünün növbəti töhfəsini vermiş oldu [16].

Ümumiyyətlə, hasil edilən karbohidrogenlərin qəbulu, saxlanılması və dünya bazarına çıxarılması məqsədinə xidmət edən təhlükəsiz neft və qaz kəmərləri sisteminin, yeni istehsal güclərinin yaradılması, infrastrukturun müasirləşdirilməsi, durmadan yenilənməsi və s. Azərbaycanın neft sənayesinin postindustrial inkişaf yoluna qədəm qoymasında həlledici rol oynamışdır.

2018-ci il TANAP-ın açılışında vurğulandığı kimi, enerji bazarında yaşanan dəyişikliyə və ehtiyata cavab verən TANAP həm də qarşıdakı illərdə həyata keçiriləcək yeni layihələrin müjdəçisidir. Diametri 56 düymlük borulardan ibarət olan 1850 kilometrlik TANAP Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun təbii qaz boru kəməridir. Bu layihənin marşrutu 20 vilayət, 67 rayon və Çanaqqala boğazından keçir. Bu layihənin illik ötürücülük qabiliyyəti ildə 16 milyard kub metr təbii qazdır. Bunun 6 milyard kub metri Türkiyəyə, 10 milyard kub metri isə Avropaya nəql olunacaqdır. Tələbdən asılı olaraq ötürücülük qabiliyyətinin 31 milyard kub metrə çatdırılması hədəflənir. Bu layihənin reallaşması dünyanın siyasi və iqtisadi həyatında Azərbaycanın yerini və özəlliyini bir daha nümayiş etdirdi [14].

2018-ci il oktyabr ayının 19-da Türkiyənin İzmir şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə əsası hələ 2011-ci ildə qoyulmuş "Star" neft emalı zavodunun açılış mərasimi oldu. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal ediləcəkdir. Yeri gəlmişkən qeyd edək ki, SOCAR 19,5 milyard dollarlıq investisiya paketi ilə Türkiyə tarixində ən böyük xarici sərmayəçidir. "Star" neft emalı zavodu ilk 5 il müddətində Azərbaycan iqtisadiyyatına ildə 850 milyon ABŞ dolları, sonrakı dövrlərdə isə hər il 600 milyon ABŞ dollarından çox gəlir gətirəcəkdir. Bu, o deməkdir ki, Azərbaycan dünya miqyaslı əhəmiyyətə malik bir zavodun sahibidir və bu da əbədi kapital deməkdir. Bu layihə həm istehsalçı olaraq Respublikamız həm də istehlakçı kimi Türkiyə üçün maraqlıdır [12]. Bundan əlavə bir çox ölkələrə də əsaslı kapital qoyuluşu yönəldilməkdədir. Beləliklə, ölkəmiz artıq digər ölkələrə investisiya yönəldən ölkəyə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni neft strategiyasının əhəmiyyətindən bəhs edərkən demişdir: "Bu gün Azərbaycanın uğurlu inkişafı timsalında biz məhz o illərdə atılmış addımların təzahürünü görürük ki, Ulu öndər Heydər Əliyevin başqa xidmətləri ilə bərabər bu sahədə xalq qarşısında, dövlət qarşısında göstərdiyi xidmətlər ən yüksək qiymətə layiqdir. Biz, onun davamçıları bu sahədə öz işlərimizi davam etdiririk. Bu gün yeni kontraktlar imzalanır, Azərbaycanın neft-qaz sənayesinə böyük maraq var. Azərbaycan Beynəlxalq əməkdaşlıq sahəsində, enerji sahəsində böyük uğurlar əldə edir" [12]. Prezident İlham Əliyev Azərbaycanın yeni neft strategiyasının uğurlu icrasında özünəməxsus rolu olan BP şirkətinə yüksək dəyər vermişdir. "Mən fürsətdən istifadə edərək bizim strateji tərəfdaşımızın – BP şirkətinin fəaliyyətini qeyd etmək istərdim. Bizim əsas strateji layihələrimizdə BP əsas tərəfdaşımızdır. Həm "Azəri-Çıraq-Günəşli" yatağının işlənilməsində, TANAP-da və yeni imzalanmış digər kontraktlar əsasında bizim əməkdaşlığımız uzun müddətlidir, artıq 25 il tarixi var. Bu əməkdaşlıq bundan sonra ən azı 25-30 il davam edəcəkdir" [12].

Qeyd olunanlarla yanaşı, Azərbaycanın yeni neft strategiyası, qazma qurğularının Azərbaycanda tikintisi, 10 minlərlə Azərbaycan vətəndaşının işlə təmin edilməsi, ölkəmizə gələn gəlirlərdən düzgün istiqamətdə istifadə edilməsi, yəni, bütün bunlar bugünkü reallıqlardır. Yeni neft strategiyasının uğurlu icrasının xalqımız üçün çoxşaxəli faydası vardır. Onlardan biri də kadr hazırlığıdır. 1994-cü ildə kontraktın üzərində iş aparılarkən Azərbaycan vətəndaşlarının işə cəlb olunması üzərində xüsusilə dayanıldı. Doğrudur, kontraktın icrasının ilk illərində əsas işçi qüvvəsi xarici mütəxəssislər idi. Ancaq xarici şirkətlər və Azərbaycan tərəfindən aparılmış təlim kursları çox güclü kadr potensialı yaratdı. Həmin təlimlərdən keçən mütəxəssislər BP şirkətinin nəinki Azərbaycanda, bir çox ölkələrdə önəmli layihələrində iştirak edirlər. "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşıdır. Bu gün təlimlərdən keçmiş Azərbaycan vətəndaşları nəinki çox böyük işlər görürlər, eyni zamanda ölkəmizin inkişafına böyük töhfə verirlər. Ölkə iqtisadiyyatının inkişafında neftdən gələn gəlirlərdən hərtərəfli istifadə olunur. Yeri gəlmişkən qeyd edək ki, infrastruktur tamamilə yenilənmişdir. Halbuki 90-cı illərin əvvəlləri üçün Bakı şəhərinin yarısı təbii qaz ala bilmirdi. Rayonlarda, ümumiyyətlə, bundan söhbət gedə bilməzdi. Hal-hazırda ölkəmizdə qazlaşdırmanın səviyyəsi 96 faizi keçmişdir, ən ucqar kəndlər belə qazlaşdırılmışdır. O illərdə ölkə ərazisinin bir qismi işıqsız qalırdı. Bakı şəhərinin özündə elektrik enerjisi çatışmazlığı mövcud idi. Fərəhləndirici haldır ki, hazırda 3000 meqavata yaxın yeni generasiya gücləri yaradılmış və hətta qonşu dövlətlərə də ixrac həyata keçirilir [16].

Yeni neft strategiyasına uyğun olaraq neftdən gələn gəlirlər Azərbaycanda yol infrastrukturunun yenidən qurulmasına da yönəldilmişdir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə bu gün Azərbaycan yolların keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. Respublikada içməli su problemi demək olar ki, həll edilmişdir. Suvarma sisteminin inkişafı üçün də külli miqdarda vəsait yönəldilmişdir. Əhalinin 75%-i dayanıqlı içməli su ilə təmin edilir və bu proses müvafiq uğurlarla davam etdirilir [16].

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Neft Fondunun gəlirləri hesabına məcburi köçkünlər üçün yüzdən çox şəhərcik salınmış, yüz minlərlə köçkünə yeni evlər, şəhid ailələrinə, müharibə veteranlarına güzəştlər, müavinətlər, mənzillər, minik avtomobilləri verilmişdir. Yəni əhalinin həssas təbəqəsi dövlətin qayğısından kənarda qalmamış və bu proses müasir mexanizmlərlə təkmilləşdirilməkdədir.

Neftdən gələn gəlirlər hesabına sosial infrastruktur tamamilə yenidən qurulmuş, 3200 dən çox məktəb, 640-dan çox xəstəxana tikilmiş və təmir olunmuş, bir sıra idman qurğu və kompleksləri inşa edilmişdir [16]. Ümumən əhalinin sosial müdafiəsi sahəsində əhəmiyyətli işlər görülmüş, əmək haqları, təqaüd və müavinətlər nəzərəçarpacaq dərəcədə artırılmış və artırılmaqda davam etdirilir. Bir sözlə, neftdən gələn gəlirlər hesabına Azərbaycan iqtisadiyyatının şaxələnməsində

və əhalinin sosial rifah halının yaxşılaşdırılmasında çox ciddi işlər görülmüşdür və bu proses davam etdirilir [17]. Bütün sadalanan və sadalanmayan işlər Azərbaycanın yeni neft strategiyasının uğurlu nəticələridir.

**ƏDƏBİYYAT**


1. *Əsədov Ə.* Heydər Əliyev və Azərbaycanın yeni neft strategiyasının təntənəsi / Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2003, s.405-414
2. https://news.day.az/azerinews/933562.html
3. "Respublika" qəz., 21 sentyabr 1999-cu il
4. *Əliyev H.* Müstəqillik yollarında: 4 cilddə, IV c., Bakı, 1997, 534 s.
5. *Seyidov A.* Heydər Əliyevin neft və enerji strategiyası / Heydər Əliyev və Çağdaş Azərbaycan dövlətçiliyi. İstanbul, 2007, s.234-238
6. *Mirzəyev R.* Heydər Əliyev Azərbaycanın neft sənayesinin yenidən qurulmasının banisi və təşkilatçısıdır / Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2003, s.415-422
7. Azərbaycan tarixi: 7 cilddə, VII c., Bakı, 2008, 608 s.
8. "Respublika" qəz., 18 sentyabr 2004-cü il
9. "Azərbaycan" qəz., 12 oktyabr 1999-cu il
10. "Respublika" qəz., 20 sentyabr 2004-cü il
11. http://www.socar.az/socar/az/news-and-media/news-archives/news-archives/id/11293
12. "Azərbaycan" qəz., 21 sentyabr 2019-cu il
13. İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər. Bakı, 1999, s.14-16
14. "Respublika" qəz., 22 sentyabr 2019-cu il
15. *Ağamalı F.* Dövlətçiliyimizin İlham Əliyev mərhələsi. Bakı, 2005, s.116-117
16. "Xalq" qəz., 21 sentyabr 2019-cu il
17. http://www.azerbaijan-news.az/view-167255/Yeni-neft-strategiyas%C4%B1n%C4%B1n-banisi


Redaksiyaya daxil olub 18.08.2020

# Pedaqoji-psixoloji elmlər

*УДК 398;37*

***Г.Ч.Асланова***
*Азербайджанский государственный педагогический университет*
*aslanovagulara@mail.ru*

## О ВОСПИТАТЕЛЬНОЙ ФУНКЦИИ ЖЕНСКИХ ОБРАЗОВ В ТВОРЧЕСТВЕ АШЫГОВ

***Ключевые слова:*** *ашыги, лирика, песня, воспитание, образ*

В данной статье рассматриваются некоторые аспекты изучения воспитательной функции женских образов в творчестве ашыгов.

В статье также показаны яркость и многообразие женских образов в ашыгском творчестве, отображающие место и значимость женщины в азербайджанском обществе,

В статье подчеркивается, что в ашыгской песенной культуре их значение, глубокая содержательность и высокий удельный вес позволяют говорить о формировании личности под воздействием женских образов как символов.

***G.Ç.Aslanova***

## AŞIQLARIN YARADICILIĞINDA QADIN OBRAZLARININ TƏRBİYƏ FUNKSİYASI HAQQINDA

***Açar sözlər***: *aşıqlar, lirika, mahnı, tərbiyə, obraz*

Məqalədə aşıqların yaradıcılığında qadın obrazlarının tərbiyəvi funksiyasının öyrənilməsinin bəzi məqamları müzakirə olunur.

Məqalədə həmçinin Azərbaycan aşıqlarının yaradıcılığında qadın obrazlarının parlaqlığı və müxtəlifliyi, qadının Azərbaycan cəmiyyətindəki əhəmiyyəti və mövqeyi göstərilir.

Məqalədə vurğulanır ki, aşıq mahnı mədəniyyətindəki məna, onun dərin məzmunu və xüsusi çəkiyə malik olması şəxsiyyətin formalaşmasında rəmzi olaraq qadın surətlərinin təsiri barəsində danışmağa əsas verir.

***G.Ch.Aslanova***

## ON THE EDUCATIONAL FUNCTION OF FEMALE IMAGES IN THE WORK OF ASHYGS

***Keywords**: ashygs, lyrics, song, education, image*

This article discusses some aspects of studying the educational function of female images in the üork of ashygs.

The brightness and diversity of female imagesin the work of Azerbaijani ashygs indicate the importans and position of the woman in the Azerbaijani society.

The article pedals that in ashyg song culture ,their meaning, deep content and specific weight make it possible to talk about personality formation under the influence of female images as simbols.

Константой песенной ашыгской лирики является образ возлюбленной. Именно в этом состоит смысловая обобщенность музыкально-поэтического языка ашыгских песен. В ашыгской песенной лирике одной из тем является воспевание возлюбленной. Образ возлюбленной столь силен в народной поэзии ашыгов, что любовь наделяет героя ашыгского творчества сверхъестейственной силой.

Взаимопонимание, доброта, скромность, бескорыстие, верность – таковы качества, характеризующие возлюбленную в песенном творчестве ашыгов.

Один из основных мотивов ашыгской песенной лирики – женственность. Песни, посвященные возлюбленной имеют такое органичное единство музыки и текста, что воздействуют на слушателей направленно и имеют эмоциональный отклик. В слушателях формируется определенное отношение к возлюбленной. Женский образ в контексте «кодекса чести» ашыгов предстает как образ, достойный похвал, поклонения. Подобного рода типология женского образа в песнях ашыгов формировалась на протяжении многих веков. Так, лирика ашыга XVII века Сары ашыга наполнена такими строками:

*«Раз в году обряд такой,*
*Чем-то жертвует любой.*
*Я же каждый день для милой*
*Жертвую самим собой»*

*Я – Ашыг, один ответ –*
*За одну и за сто бед.*
*На твоих умру коленях,*
*Только ты живи сто лет»* [1, с. 23]

Ашыговеды неоднократно подчеркивали, что образ возлюбленной имеет значительное воспитательное значение в творчестве азербайджанских ашыгов. Причина заключается не только в том, что тема любви является одной из излюбленных тем в творчестве ашыгов. Речь идет не только о визуальной, но и нравственной красоте. Такие качества возлюбленной как скромность, верность, доброта, преданность усиливают свои имманентные свойства, ибо возлюбленная – это будущая мать. Именно поэтому женские образы возлюбленной и матери столь близки по своим категориальным основам в творчестве ашыгов и, в том числе, песенном творчестве.

Именно поэтому исследователь искусства азербайджанских ашыгов Кара Намазов подчеркивал, что на возлюбленную ашыга «надо смотреть не только как на прекрасную возлюбленную, а прежде всего как на спутницу жизни, как на мать будущих поколений, на первую воспитательницу и учительницу человека» [2, с. 97].

Так, в гезеллеме Ашыга Шамшира есть следующие строчки:

*«Ты красотой наделена,*
*Не омрачится пусть она,*
*Скромна, красива и умна,*
*Большой почет заслужишь ты»* [2, с. 105]

Известные, выдающиеся ашыги на протяжении многих столетий воспевали не только красоту, но и ум, преданность, глубинную чистоту женского характера.

Живший в XVIII веке ашыг Хастэ Касум почитал образованность возлюбленной:

*«Я потому любить не устаю,*
*Что ныне по дыханью узнаю.*
*Смышленую избранницу свою.*
*Проворней, чем я сам, она читала»* [3, с. 11]

В сложном развитии ашыгского творчества накапливался опыт воспитательного значения женских образов. Вместе с тем, несмотря на новое содержание, обусловленное историко-политическими перипетиями, на протяжении веков, на протяжении длительного исторического времени, смысл и функции женской образности сохранялись. Здесь огромную роль сыграло единство и целостность, а также внутренние тенденции самой системы ашыгского искусства.

Развитие получала способность воздействовать на людей, совершенствовались средства и приемы передачи женской образности, а также ее огромный формирующий личность потенциал.

Роль женских образов в ашыгской культуре, частота их применения, весомость воспитательной функции женских образов, их место в

формировании личности поднимает песенное творчество азербайджанских ашыгов на высокий уровень художественного воздействия.

Единство и многообразие песенной культуры азербайджанских ашыгов зиждется на идентичной трактовке образной системы. Так, в ашыгской песенной лирике встречаются песни с разнообразными нюансами характеристики возлюбленной в тексте. Вместе с тем, за счет того, что музыка сохраняет свой выдержанный ритм и мелодический абрис, сохраняется целостность и выразительность женского образа. Такого рода стойкость и стабильность соответствия текста и музыки, безусловно, формирует определенный уровень слуховой перцепции.

При этом важно заметить, что ашыги при исполнении народных песен нередко меняют акценты. Песенный континиум ашыгского искусства гибок, подвижен. Здесь все направлено на заострение внимания слушателя, донесения до него поэтического слова.

Изображая в своем творчестве, передавая все тонкости женского образа, ашыги стремятся произвести эстетическое воздействие, адекватное и тексту и музыке. Именно поэтому запоминаются важные качества женского образа в азербайджанской культуре.

Таким образом, еще раз подчеркнем, что женские образы в ашыгской песенной культуре имеют огромное воспитательное значение, их глубокая содержательность и высокий удельный вес позволяют говорить о формировании личности под воздействием женских образов как символов не только образной системы творчества ашыгов, но и ценностных символов азербайджанской культуры. В частности, лирический образ возлюбленной в творчестве азербайджанских ашыгов имеет высокий воспитательный индекс, ибо ассоциируется, прежде всего, с высокой духовностью азербайджанского народа.

Безусловно, что детерминантные основы женского образа в поэтической системе азербайджанских ашыгов обусловлены сюжетными перепетиями, смысловыми факторами. Вместе с тем, можно говорить о специфических характеристиках образа возлюбленной. И здесь приоритетным, необходимым слагаемым является формирующие личность типологии. Поэтому достаточно сложно применять историко-конкретные дефиниции. Именно в этом смысле мы остановимся на обобщающих категориях женского образа.

Многообразие граней женского лирического образа в ашыгской поэзии привело к ясно выраженным типологическим дефинициям, объединяющим факторам которых является высота духовной ценности женского образа и ее формирующие личность качества.

Выразительные элементы музыкально-поэтического языка песенного творчества азербайджанских ашыгов подчинены отражению

лирических чувств героя. Именно поэтому, сформировавшиеся в результате слухового опыта типологические модели перцептивного воздействия очень ярко, доходчиво характеризуют женские лирические образы. Ясность содержательного смысла напрямую связана с его воспитательными целями. Поэтому и песенная лирика наряду с дастанами, сказками имеют высокий воспитательный потенциал.

Соответственно широкой амплитуде содержательности текстов азербайджанских ашыгских песен, складывается ряд важных особенностей женского образа. Например:

1. Высокий статус женщины в традиционном обществе этнокультуры;
2. Значительность воспитательных функций, входящих в ареал женской образности;
3. Устойчивость характеристик женского образа во времени и пространстве национальной культуры;
4. Приоритет нравственных характеристик, присущих женским образам в контексте ашыгского искусства;
5. Неразрывная связь в песенном творчестве ашыгов образа женщины с высокой духовностью народа.

Песенная лирика ашыгов отличается разнообразием нюансов лирических чувств. Вместе с тем, в описании образа возлюбленной привлекает, прежде всего, ее красота и искренность чувств ашыга. Все это формируется в контексте многоликих эмоциональных состояний. Столь глубокое проникновение в специфику и глубину женской образности, безусловно наполняет образ женщины особым смыслом. Ведущим же становится воспитательная функция женского образа.

Лирический вектор ашыгских песен направлен в сторону разнообразной характеристики образа возлюбленной. Лирическая сфера отличается многоликостью чувств и описаний. Их амплитуда колеблется от нежных и трепетных чувств до драматизма переживаний героя. К этому ряду относятся и светлая лирика, возвышенность чувств, эмоциональные порывы, взволнованность, трагические нюансы и т.д. Так, например, по утверждению ашыговедов поэзия XII века повлияла на лирический строй ашыгских песен и, соответственно, на изображение женского образа. Здесь появилось больше дидактических «нот», мотивов преодоления препятствий, описание разного рода коллизий героя, песенного контекста.

Женский образ как важное слагаемое песенного текста в творчестве ашыгов представляет собой не только содержательный, но и смысловой центр. Более того, сила выразительности данного вида творчества ашыгов преобразует лирический женский образ в воспитательный, ибо внутри себя заключает важные модели человеческой жизнедеятельности.

Важным мотивом является стремление к идеалу, путь к которому тернист и сложен. В дополнение к сказанному отметим, что влияние средневековой поэзии на песенное творчество ашыгов сказалось на психологической интенсивности воздействия на слушателей ашыгского искусства. В этом смысле и женский образ в контексте новых исторических реалий приобретает новые нюансы. Женский образ трактуется как идеал, как определенное смысловое начало, целесообразно влияющее на эмоционально-психологический «климат» социума.

Рассматривая песенное творчество азербайджанских ашыгов, приведем цитату профессора, ашыговеда Т.Мамедова: «Народная поэзия азербайджанского народа не существовала изолированно от песенной. Стих и напев издревле бытуют в его культуре в органическом единстве, хотя каждая из сторон этого двуединства, имеет свои специфические особенности, свои закономерности построения и развития. В течении своей многовековой истории они постоянно взаимообогащали друг друга, благодаря активному участию народа – основного хранителя искусства бесписьменной традиции» [4, с.5].

Уровень психологического воздействия женских образов песенного творчества ашыгов непосредственно связан с гармоничным слиянием музыки и текста. Оптимальный уровень слитности данных параметров рождает в контексте ашыгского творчества целый ряд суггестивных векторов, которые имеют не только эстетическое, но и воспитательное значение.

Направляющие параметры поэтического языка песен азербайджанских ашыгов синтезированы с традиционными мелодическими моделями.

Суть взаимосвязей текста и музыки в песенном творчестве ашыгов заключена в том, что известные типологически значимые мелодические формулы, связываются с текстом по принципу импровизационного исполнительства. Так, Т.Мамедов следующим образом характеризует данную закономерность: «систематическое обновление и обогащение, смещение и взаимодействие внешних и внутренних мобильных факторов позволяет определить музыкальную форму традиционных напевов как куплетно-вариантную» [4, с . 69].

Музыку и текст в искусстве ашыгов, в частности песне, объединяют такие качества как пропорциональность, метроритм, изящество, пластичность, глубина высказывания.

Обобщим некоторые параметры, изложенные в данной статье. Наиболее значимыми становятся следующие:

1. Содержательный контекст функционирования женского образа;

2. Семантические координаты и ассоциативный ряд восприятия женского образа;
3. Музыкально-поэтические корреляты в характеристике женских образов;
4. Выразительно-типологические основания музыки и текста.

Безусловно, что многообразность женских образов, которые непосредственно связаны с воспитательными функциями искусства, с национальной спецификой азербайджанской художественной культуры, высокий удельный вес женской образности свидетельствует о том значительном месте, которое женщина занимает в азербайджанском социуме.

Особенности эволюции женского образа в творчестве азербайджанских ашыгов опираются на особенности менталитета азербайджанского народа, слагаемым которого является женский образ.

Воспитательные функции женских образов в ашыгском песенном творчестве позволяют утвердительно говорить об их огромной роли в формировании личности.

**ЛИТЕРАТУРА**


1. Сары ашыг. Баку: Язычы, 1984, 43 с.
2. *Намазов К.* Азербайджанское ашыгское искусство. Баку: Язычы, 1984, 184 с.
3. Хастэ Касум. Баку: Язычы, 1984, 32 с.
4. *Мамедов Т.А.* Традиционные напевы азербайджанских ашыгов. Баку: Ишыг, 1988, 350 с.


Redaksiyaya daxil olub 03.07.2020

*UOT 37*

***G.X.Əhmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*gulnaz.ahmedova.84@mail.ru*

# İBTİDAİ SİNİFLƏRDƏ İNNOVATİV TƏLİM FƏALİYYƏTİNİN TƏŞKİLİNİN MAHİYYƏTİ VƏ VƏZİFƏLƏRİ

***Açar sözlər***: *innovativ təlim, pedaqoji fəaliyyət, interaktiv təlim, təlim metodları*

Müasir dövrdə ibtidai siniflərdə innovasiyaların tətbiqi şagirdlərin intellektual və yaradıcılıq bacarıqlarının formalaşmasında mühüm rol oynayır. İnnovativ pedaqoji fəaliyyət aşağı siniflərdə oxuyan şagirdlərin idrak fəaliyyətini fəallaşdırır, onların öyrənmə prosesini intensivləşdirir. İbtidai siniflərdə yeni pedaqoji texnologiyalardan istifadə, həmçinin təlim prosesində yeni metodların tətbiqi şagirdlərin gələcək inkişafına da geniş yol açır. Təqdim olunan məqalədə ibtidai siniflərdə innovativ təlim fəaliyyətinin təşkilinin məqsəd və vəzifələrinə diqqət yetirilir, onun əsas mahiyyəti və məzmunu açıqlanır.

***Г.Х.Ахмедова***

## СУЩНОСТЬ И ЗАДАЧИ ОРГАНИЗАЦИИ ИННОВАЦИОННОЙ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Ключевые слова:*** *инновационное обучение, педагогическая деятельность, интерактивное обучение, методы обучения*

В современную эпоху внедрение инноваций в начальной школе играет важную роль в формировании интеллектуальных и творческих способностей учащихся. Инновационная педагогическая деятельность активизирует познавательную деятельность младших школьников и активизирует их учебный процесс. Использование новых педагогических технологий в начальных классах и внедрение новых методов обучения в учебный процесс открывает путь для дальнейшего развития учащихся. В данной статье затрагиваются цели и задачи организации инновационной учебной деятельности в начальных классах и разъясняются сущность и содержание такого обучения.

***G.X.Ahmedova***

## THE ESSENCE AND OBJECTIVES OF THE ESTABLISHMENT OF INNOVATIVE LEARNING ACTIVITIES IN THE ELEMENTARY GRADES

***Keywords:*** *innovative training, pedagogical activity, interactive learning, teaching methods*

In the modern era, the introduction of innovations in primary school plays an important role in shaping students' intellectual and creative abilities. Innovative

pedagogical activity activates cognitive activity of junior students and intensifies their learning process. The use of new pedagogical technologies in the elementary grades and the introduction of new teaching methods in the learning process opens the way for further development of students. This article touches the goals and objectives of the organization of innovative learning activities in the elementary grades and explains the essence and content of this activity.

Yaşadığımız müasir zamanda orta ümumtəhsil məktəblərinin əsas istiqaməti, hədəfi yüksək intellektual hazırlığa sahib olan, əldə etdiyi biliklərdən həyatının müxtəlif sahələrində işlətməyi bacara bilən mütəxəssisin yetişdirilməsindən ibarətdir. İnformasiya zəmanəsində informasiya bolluğunda yaşayan gəncin özünü hansı fəaliyyət sahəsində doğrulda biləcəyi və eyni zamanda fəaliyyətini necə qurması bu gün bizi də düşündürməkdədir. Təhsil strukturunda indiki mərhələdə innovativ proseslərin inkişafı mühüm obyektiv bir hadisədir. Bunun başlıca səbəbi isə aşağıdakılardır:

- insanın həyatının bütün sahələrində informasiya texnologiyalarının intensiv inkişaf etməsi;
- müasir təhsil fəlsəfəsinin məzmununun yenilənməsi;
- təhsil prosesində təhsilalan və təhsilverənlərin qarşılıqlı fəaliyyətinin humanistyönümlü xarakter daşıması;
- ibtidai sinif şagirdinin yaradıcı şəxsiyyət kimi formalaşdırılması;
- şəxsi peşə fəaliyyətinin inkişafı üçün ibtidai sinif müəlliminin fəallıq və məsuliyyət səviyyəsinin artırılması zəruriyyətinin olması və s.

Göstərilənləri nəzərə alaraq müəllimin tədris prosesindəki innovativ fəaliyyəti son dərəcə vacibdir. İnnovativ pedaqoji fəaliyyət – daha yüksək nəticələr əldə olunması, yeni bilik və bacarıqlar əldə etmək və tam fərqli pedaqoji təcrübənin formalaşması məqsədilə tədris prosesinin dəyişdirilməsi və inkişaf etdirilməsinə yönəlir. İnnovativ pedaqoji fəaliyyət hər zaman müəyyən bir mənaya, yəni təlim prosesində qazanılan bilik və bacarığa, şəxsiyyətin tərbiyə olunmasındakı vacib keyfiyyətlərə yönəlir.

İbtidai sinif şagirdlərində idrakın bütün keyfiyyətlərinin inkişafı və təkmilləşdirilməsi, təfəkkürünün formalaşdırılması ilə bağlı aparılan işlərdə innovativ təlim metodlarının rolu əvəzedilməzdir. Tədris prosesində təlim metodları əsasən ibtidai sinif şagirdlərinin idrak fəaliyyətinin fəallaşdırılmasına istiqamətləndirilməlidir. Bu gün şəxsiyyətyönümlü təhsil adlandırdığımız təhsilin başqa üstünlükləri də var. Şəxsiyyətyönümlü təhsil bir idrak subyekti kimi ibtidai sinif şagirdinin fərdi fəaliyyətindən asılı olaraq onun inkişafını təmin edir.

Dünyada öz elmi təcrübəsi ilə tanınmış pedaqoq və psixoloqlar təlimdə yüksək nəticənin əldə edilməsini, təlim psixologiyasının, təlimin təşkili üçün lazımi şəraitin yaradılmasının, ibtidai sinif şagirdlərinin idrak fəaliyyətinin və intellektual

səviyyəsinin inkişaf etdirilməsində əməyin elmi təşkilinin düzgün həllində görürlər. Təlimdə yüksək səmərəli nəticə əldə etmək üçün ibtidai sinif şagirdlərinin təlimə, dərsə marağını artırmaq, öyrəndiklərini harada, nə vaxt, nə üçün lazım olacağını öyrətməklə və öyrəndiklərini konkret şəraitdə tətbiq edə bilmək bacarığını formalaşdırmaqla mümkündür. Buna əsaslanaraq qeyd etmək olar ki, təlim prosesində əməli fəaliyyətin böyük rolu vardır. İbtidai sinif şagirdlərində 3 növ təlim fəaliyyətinə rast gəlmək olar:

- materialı hazır təqdim etmək və mənimsətmək. Belə təlim qavrama və yaddasaxlamaya əsaslanır;
- təbii öyrənmə – yaradıcı fəaliyyət;
- şagirdlərin idrak fəaliyyətinin inkişaf etdirilməsinə əsaslanan təlim;

İbtidai sinif şagirdlərinin bilik əldəetmə imkanları çox geniş olsa da, hüdudsuz deyildir. Təlimin nəticəsi olaraq müvəffəqiyyətə nail olmaq üçün həm daxili amillər, həm də xarici amillər vəhdət təşkil etdikdə təlim müvəffəqiyyətlə nəticələnir. Biz indiyə kimi “nəyi öyrətmək?” və “necə öyrətmək?” – tədris prosesində müəllimin qarşısına çıxan bu iki suala təlim prinsiplərindən çıxış edərək cavab verməyə çalışmışıq. Ancaq bütövlükdə “öyrənmə” özü nədir? sualına bəzən lazımi cavab tapa bilmirik. Deməli, biz əvvəlcə “öyrənmə”nin özünü öyrənməliyik, sonra da onu şagirdlərə öyrətməliyik [3, s.83].

Təlim prosesinin daxili və xarici amillərdən asılılığını görə bilmək, onu təlim zamanı qarşıya qoyulmuş məqsədə istiqamətləndirmək üçün ibtidai sinif müəllimi yüksək biliyə, pedaqoji ustalığa, eyni zamanda yüksək səviyyədə psixoloji hazırlığa malik olmalıdır.

Məlumdur ki, təlim prosesində iki tərəf – təhsilalan və təhsilverən (yəni öyrədən və öyrənən) arasında qarşılıqlı təsir, bağlılıq və əlaqə yaranır. Təhsilverənin – öyrədənin təlim zamanı öhdəlikləri ibtidai sinif şagirdlərinə onların yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla müəyyən bilikləri, müəyyən informasiyaları çatdırmaqdır. Ənənəvi təlim prosesində ən çox müəllim özü fəaliyyət göstərir, dərs monoton şəkildə aparılır və ibtidai sinif şagirdi hazır biliklər əldə edirlər. Buradan nəticə olaraq görünür ki, ənənəvi təhsil formasında məktəblərdə təlim prosesində qarşılıqlı fəaliyyətdə olan iki tərəfdən ən çox fəallıq göstərən öyrədəndir. Belə olduğu təqdirdə təlim fəaliyyəti ərzində uşaqlarda müəyyən məsələni həll etməyə istiqamətlənmiş olan axtarış səciyyəli əməli və fikri fəaliyyət, müstəqil düşüncə yetərincə inkişaf edə bilmir.

Təlim zamanı qazanılan bilik ibtidai sinif şagirdinin əsas idrak motivinə çevrilməlidir. Bilik hazır şəkildə qəbul edildikdə, bu zaman ibtidai sinif şagirdinin idrakı passiv xarakter daşıyır. Lakin bilik əldə etmək ibtidai sinif şagirdinin daxili tələbatına çevrildikdə idrak passiv xarakter daşımır. İdrak insan şəxsiyyətinin bütün həyat fəaliyyətinə nüfuz edir. İbtidai sinif şagirdini idrak fəallığına təhrik edən bir çox səbəblər mümkündür.

- dərslərindən ən yüksək nəticə əldə etməsi;

- fənni sevməsi;
- müəlliminə hörmətlə yanaşması;
- valideynləri və ictimaiyyət qarşısında borcunu yerinə yetirmək və s.

İdrak fəallığına səbəb olan təhrikedici və fəallığa gətirib çıxaran amillər qısamüddətli olmaqla yanaşı, eyni zamanda keçici də ola bilər. Bildiyimiz kimi, hər bir hərəkət məqsədlə bağlı olur. Əgər şüurlu surətdə dərk olunmuş məqsəd yoxdursa, onda fəaliyyət də yoxdur. Görkəmli pedaqoq D.Dyui təklif edirdi ki, təlim prosesini şagirdin məqsədyönlü fəaliyyəti əsasında, onun maraqlarını nəzərə alaraq qurmaq lazımdır. Şagirdlərdə onların gələcək fəaliyyətində lazım olacaq, şəxsi maraqları əsasında qazanılmış bilikləri stimullaşdırmaq olar [5, s.15].

Hazırki təhsil haqqında sənəddə, ümumtəhsil məktəbində keçirilən hər bir dərs ibtidai sinif şagirdinin təfəkkür və intellekt səviyyələrini yüksəltmək üçün zəngin informasiya vasitəsidir. Bunun ən başlıca yolu interaktiv təlim texnologiyalarından düzgün və məqsədyönlü şəkildə istifadə olunmasıdır. Təlim, ilk növbədə təhsilalan subyektlə – şagirdlə bağlı termindir. Təlim bilik, bacarıq və vərdişlərin verilməsi və mənimsənilməsi prosesidir. Təlim zamanı təhsilin qanunauyğunluqları və vəzifələri nəzərə alınaraq reallaşdırılır. Deməli, təlim təhsil almağın vasitəsidir.

Təlim metodlarından düzgün istifadə ibtidai sinif şagirdlərinin idrak metodlarına yiyələnməsinə gətirib çıxarır. Nəticə olaraq ibtidai sinif şagirdləri bilik əldə etmək, qazanılan biliklərin təcrübədə tətbiqini oyrənirlər. İbtidai sinif şagirdləri idraki və fikri fəaliyyətə təlim prosesində nail olurlar. İdrak fəaliyyətinin əsas məqsədi şagirdlərdə məntiqi, yaradıcı və tənqidi təfəkkürü inkişaf etdirməkdir.

İbtidai siniflərdə istifadə olunan təlim metodlar didaktik məqsədlər əldə etmək üçün əsas amil kimi istifadə olunur. İngilis filosofu P.Bekon metodu “yolçunun yolunu işıqlandıran məşələ” bənzətmişdir.

Müasir dövrdə müəllimlər yeni texnologiya və metodlardan istifadə etməklə dərslərin daha zəngin və maraqlı təşkilinə, şagirdlərin müstəqil düşünməsinə, qazandıqları bilik və bacarıqların həyat fəaliyyətlərində tətbiqinə nail olurlar. Deməli, yeni təlim metodları təhsilin məzmun və mahiyyətinin daha yaxşı mənimsənilməsinə, eyni zamanda ibtidai sinif şagirdlərinin idrak təfəkkürünün inkişafına səbəb olur. Təlim prosesini fəallaşdırmaq üçün mühakimə, düşünmə qabiliyyəti və bacarığını inkişaf etdirmək, yaradıcı olmağa həvəsləndirmək, öyrənməyi öyrənməyə sövq edən ibtidai sinif müəllimi dərs müddətində yeni metod, üsul, texnika və prosedurlardan da faydalanmalıdır.

Bu gün ibtidai sinif müəllimini düşündürən əsas məqsəd və hədəf ibtidai sinif şagirdlərinin zehni düşüncəsini zənginləşdirmək, informasiya axınından düzgün şəkildə faydalanmaq bacarığını inkişaf etdirməkdən ibarət olmalıdır. Tədris zamanı tətbiq olunan yeni təlim metodlarının əsas üstün cəhətlərindən biri də şagird və müəllim arasında yeni münasibətlər (yəni şagirdə subyekt kimi yanaşmaq)

yaratmasıdır.

İnteraktiv – "qarşılıqlı fəaliyyətə əsaslanan" fikrini ifadə edir, bu təlim formasında dərsdə, təlim prosesində yaranan, şagirdlər arasında öyrənmə məsuliyyəti və yoldaşlığı, öyrədənlə-öyrənənin vahid birgəliyi nəzərdə tutulur. İnteraktiv təlim prosesi ibtidai sinif şagirdlərini universal ( yəni iradi, əxlaqi, əqli, estetik, mədəni, hüquqi, ekoloji, iqtisadi) istiqamətdə inkişaf etdirir, eyni zamanda şagirdlərə hazır biliklər deyil, onları tədqiqata, diskussiyaya cəlb etmək, sərbəst fikir yürütməyə yönəldir. İnteraktiv təlim metod və texnologiyaları tədris və təlim fəaliyyətinin təşkili və idarə olunmasının məcmusudur ki, onlar üçün aşağıdakılar səciyyəvidir:

- dərsi daha maraqlı etmək, ibtidai sinif şagirdlərinin idrak fəaliyyətini sürətləndirmək üçün problemli vəziyyətin yaradılması;
- ibtidai sinif müəllimləri tərəfindən yaradılan problemli vəziyyətin icrası zamanı ibtidai sinif şagirdlərinin tədqiqatçılıq qabiliyyətlərini aşkara çıxararaq fəal fəaliyyətə istiqamətləndirilməsi.

Tədqiqatçılıq fəaliyyətinin dərsdə tətbiq olunması ibtidai sinif şagirdinin yaradıcılıq qabiliyyətinin formalaşmasına gətirib çıxarır. Bu fəaliyyət şagirdin daha yüksək səviyyədə biliyini sistemləşdirməsini təmin edir. Tədqiqatçılıq-layihə metodu tədris prosesində ən geniş istifadə olunan metoddur. İbtidai sinif şagirdləri tədrisi müəyyən priyomlar vasitəsilə mənimsəyirlər. Bu, onlarda müstəqillik, şüurluluq, konkret faktlara, hadisələrə, əşyalara aid ümumiləşdirmə aparmağa şərait yaradır.

Dünyada baş verən yeniliklər təhsildən də kənar keçməyib təlim prosesinin mahiyyətinə, təlim metodlarının məzmununa öz təsirini göstərir. İctimai şərait inkişaf etdikcə, dəyişdikcə, ölkəmiz inkişaf etdikcə təhsil sistemi də yeniləşməyə başlayır. Cəmiyyət yeniliyə açıq, sərbəst düşünən, rəqabətə hazır şəxsiyyət, yaradıcı insan yetişdirməyi əsas məqsəd kimi təhsil müəssisələrinin qarşısına qoyur. Dövlətin təhsil müəssisələrinin qarşısına qoyduğu vəzifələri həyata keçirmək, reallaşdırmaq üçün təlimin təşkilində fəal-interaktiv təlim metodlarından istifadə zamanı ölkədə milli-mənəvi dəyərlərin nəzərə alınması zərurətə çevrilmişdir.

Tədris prosesində interaktiv təlim metodlarından istifadə olunması şagirdlərin fəallığının artırılması, lazimi təfəkkür-idrak xüsusiyyətlətinin və yaradıcı qabiliyyətlərinin formalaşması və təlim fəaliyyətində keyfiyyətin yüksəldilməsinə şərait yaradır. Təlimin səmərəliliyini artırmağın digər yollarını aşağıdakı şəkildə göstərmək olar:

- ibtidai sinif şagirdlərinin idrak fəaliyyətlərinin inkişaf etdirilməsi;
- təlimdə yaxşı şəkildə təşkil olunmuş motivasiyanın yaradılması;
- ibtidai sinif şagirdlərinin biliklərinin təfəkkürə əsaslanmaqla formalaşdırılması;
- biliklərin müstəqil, yaradıcı şəkildə şagirdlər tərəfindən əldə edilməsi.

Dünya təcrübəsi göstərir ki, fəal və interaktiv təlim metodları dərsin keyfiyyətini artırmaqla yanaşı, eyni zamanda təlimin məzmununun öyrənilməsi, öyrəndikləri məzmunun tətbiqini səmərəli edir və şagirdlərin dərketmə fəaliyyətini daha da artırır. Müəllimin pedaqoji fəaliyyəti ibtidai sinif şagirdlərinin öyrənməyə həvəsi və nailiyyəti artdıqca yüngülləşir. İnteraktiv təlimdən istifadə etməklə dərsin hazırlanması və idarə edilməsi müəllimdən böyük zəhmət, işgüzarlıq və təşkilatçılıq, yaradıcılıq, İKT bacarıqlarının olmasını tələb edir. Belə ki, müasir dərsin bütün mərhələləri ibtidai sinif şagirdlərinin yaş səviyyəsinə, maraq dairəsi nəzərə alınaraq qurulmalı, bu da öz növbəsində dərsin maraqlı və informasiya ilə zəngin keçməsinə səbəb olur.

## ƏDƏBİYYAT

1. *Kərimov Y.Ş.* Seçilmiş əsərləri. İbtidai təhsilin nəzəri problemləri. II c., Bakı, 2007, s.431
2. *Kərimov Y.Ş.*Təlim metodları. Bakı: "RS poliqraf" MMC, 2009, 279 s.
3. *Zeynaloğlu C.* Təlim fəaliyyətinin psixoloji prosesi. Bakı: Ünsiyyət, 2017, 144 s.
4. *Əliyarzadə R.* İKT əsaslı innovativ tədris yanaşmaları // Kurikulum, 2011, №1, s.69-73
5. *Mehrabov A.O.* Layihələr metodu: məzmunu, tətbiqi və xüsusiyyətləri //Azərbaycan məktəbi, 2007, №3, s.11-18
6. *Подласый И.П.* Педагогика. Москва: Владос, 2003, 574 с.
7. www.edsys.in/16-innovative-ideas-make-teaching-methods-effective/

Redaksiyaya daxil olub 07.01.2020

*UOT 37*

***N.M.Əliyeva***
*Bakı Dövlət Universiteti*
*rey-61@mail.ru*

# DÜZGÜN DƏB, GEYİM, ADƏT VƏ DAVRANIŞLAR YENİYETMƏ QIZLARIN MİLLİ–MƏNƏVİ DƏYƏRLƏR ƏSASINDA TƏRBİYƏSİNDƏ MÜHÜM VASİTƏ KİMİ

***Açar sözlər:*** *geyim, dəb, davranış, yeniyemə, gənclər*

Dəb (moda) latın dilində "modus" kəlməsindən götürülmüş, mənası "ölçü", "qayda" deməkdir. Dəb, geyim, davranış insanın yeniliyə can atmaq həvəsindən, cəmiyyətin dəb, geyim, davranış mədəniyyətinə uyğunlaşmaq tələbatından irəli gələn həyat tərzidir. Geyim, dəb, davranış bir çox cəhətdən insanın müəyyən dərəcədə xarakterini, peşəsini, mədəniyyətini, tərbiyəsini müəyyənləşdirən amildir. Dəb, geyim cəmiyyətin müxtəlif sahələrinin: sosial, mədəni, psixoloji, iqtisadi, siyasi və pedaqoji sahələrinin tələb olunan qaydalara, tələblərə uyğun tənzimləyicisidir. Deyə bilərik ki, dəb, geyim, davranış mühüm pedaqoji məsələ olub yeniyetmə və gənclərin həyat tərzinə, təhsilinə və tərbiyəsinə təsir edən mühüm amildir.

***Н.М.Алиева***

## ПРАВИЛЬНАЯ МОДА, ОДЕЖДА, ПРИВЫЧКИ И ПОВЕДЕНИЕ КАК ВАЖНОЕ СРЕДСТВО В ВОСПИТАНИИ ДЕВОЧЕК ПОДРОСТКОВ НА ОСНОВЕ НАЦИОНАЛЬНО- ДУХОВНЫХ ЦЕННОСТЕЙ

***Ключевые слова***: *одежда, мода, поведение, подросток, молодежь*

Слово мода происходит от латинского слова modus, что означает «мера», «правило». Мода, одежда и поведение – это образ жизни, проистекающий из стремления человека к инновациям и потребности общества адаптироваться к культуре моды, одежды и поведения. Одежда, мода и поведение во многом определяют характер, профессию, культуру и воспитание человека. Мода, одежда – это регулятор различных сфер жизни общества: социальной, культурной, психологической, экономической, политической и педагогической, в соответствии с требуемыми правилами и требованиями. Можно сказать, что мода, одежда, поведение – важная педагогическая проблема и важный фактор, влияющий на образ жизни, образование и воспитание подростков и молодежи.

***N.M.Aliyeva***

# CORRECT FASHION, CLOTHING, HABITS AND BEHAVIOR AS AN IMPORTANT MEANS IN EDUCATION BASED ON THE NATIONAL AND SPIRITUAL VALUES OF ADOLESCENT GIRLS

***Keywords:*** *lothing, vogue, behavior, teenager, youth*

The word mod derives its name from the Latin modus, which translates as a measure, method, rule. Fashion is explained by the natural, psychologically substantiated need of a person for novelty and imitation. Fashion is a significant regulator of various spheres of society: social, cultural, psychological, economic, political and pedagogical issues. Fashion clothes in youth – you can consider his good manners, behavior and relationships of others. However, today, we can say that there are no works in which fashion is considered as a factor affecting the lifestyle and upbringing of youth.

Azərbaycan xalqının ümummilli lideri, Ulu öndər Heydər Əliyev gənclərimizi xalqımızın milli-mənəvi dəyərlər, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. O, gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsindən bəhs edərək demişdir: "...Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" (1).

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə öz zəngin milli-mənəvi irsini, mənəvi dəəyərlərini, adət və ənənələrini yad təzahürlərdən qorumuş və onu gələcək nəsillərə, bugünkü tələbə-gənclərimizə, oğlan və qızlarımıza ötürmüşdür. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın milli əxlaqi və bəşəri dəyərlərini təcəssüm etdirir. Hər hansı bir xalqın mənəvi mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din, adət və ənənələr, geyim, davranış mədəniyyəti onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən mühüm amillərdəndir.

Pedaqoji-psixoloji fikir tariximizdə yeniyetmə qızların şərəf və ləyaqət hisslərinin formalaşdırılması ilə bağlı dəyərli tədqiqatlar aparılmış, bir çox kitab və məqalələr yazılmışdır. Prof.Ə.Ə.Əlizadə, prof.H.Ə.Əlizadə, prof. Ə.S.Bayramov, prof.L.N.Qasımova, prof.A.N.Abbasov, prof.R.L.Hüseynzadə, dos.E.Ə.Mollayeva və başqalarının yaradıcılığında yeniyetmə qızlarda şərəf və ləyaqət hisslərinin tərbiyə məsələləri, o cümlədən geyim, dəb, davarnış qaydaları, adət və ənənələrimzin qorunması xüsusi aktuallıqla şərh olunur və müəlliflər haqlı olaraq bunun ilk növbədə ailə tərbiyəsindən, mənəvi, əxlaqi keyfiyyətlərin formalaşdırlmasından, elmi dünyagörüşü və milli şüurun inkişaf etdirilməsindən başlandığını göstərirlər.

Prof. L.N.Qasımovanın "Məktəblilərin milli-mənəvi dəyərlər əsasında

tərbiyəsi təcrübəsindən" adlı monoqrafiaysında belə bir fikir ifadə edilir ki, valideynlər və müəllimlər məqsədyönlü, sistemli şəkildə milli-mənəvi dəyərlər əsasında tərbiyə işləri apararkən xüsusilə yeniyetmə qızlarda şərəf və ləyaqət hisslərinin formalaşdırılmasında onlarda özünütərbiyə, özünənəzarət, özünütəkmilləşdirmə keyfiyyətlərinə tələbat formalaşdırılmalıdır. Yeniyetmə qız öz-özünə kənardan, başqasının gözü ilə baxmağı bacarmalı, öz hərəkətlərini ləyaqət, şərəf prizmasından qiymətləndirə bilməlidir. O, xarakterindəki müsbət cəhətləri daha da inkişaf etdirməklə bərabər, mənfi keyfiyyətləri aradan qaldırmağa səy göstərməlidir (2, s.200).

Müasir dövrümüz Azərbaycan qadını qarşısında sonsuz imkanlar açır, cəmiyyətdə kişilərlə bərabər ictimai-siyasi hüquqa malik qadınlarımız ictimai həyatda fəal rol oynayırlar. Cəmiyyətin azad, demokratik qanunları qadına sərbəst hərəkət etmək imkanı versə də, o, fizioloji və bioloji cəhətdən planetin əsas amili olan insan artımına cavabdeh əsas fərd kimi qalır. Gələcək nəsillərin tutduğu yeri, mövqeyi onların tərbiyəsində birbaşa rol oynamış ananın mənəvi-əxlaqi durumundan asılıdır. Müxtəlif əmək sahələrində çalışan, həyat yoldaşı, ana, ailə səadətinin sadiq qoruyucusu kimi çoxcəhətli vəzifələri yerinə yetirməli olan bügünkü Azərbaycan qadını yüksək mənəvi, əxlaqi keyfiyyətlərə malik olmalıdır. Qadın və qızlarımızın mədəni təhsil səviyyəsi yüksəldikcə onlar özlərinə həm də vətəndaş kimi yanaşır və eyni zamanda kişidən də özünə məhz belə hörmətli, ləyaqətli münasibət tələb edir. Qadınların cəmiyyətdə tutduğu mövqeyi və yeri onların ləyaqət və şərəf kimi hissləri hər şeydən üstün tutmaları ilə qiymətləndirilir. Bu baxımından yeniyetməlik dövründən qızlara şərəf və ləyaqət hisslərinin aşılanması xüsusilə böyük əhəmiyyət kəsb edir.

Yeniyetmə qızların şərəf və ləyaqətinin göstəricilərindən biri onun geyimi, davranışı, danışığı, gülüşü, insanlarla rəftarıdır. İnsana nəzər salmaqla onun geyim mədəniyyəti, zövq və manerası barədə fikir yürütmək mümkündür. Səliqə ilə geyinmiş şəxs özünü rahat və inamlı aparır. Bəzi hallarda adama geyiminə görə qiymət verirlər. Hətta bu barədə atalar misalı da vardır: "Adamı geyiminə görə qarşılayıb, ağlına görə yola salırlar". Hər bir şəxs həm daxildən, həm də xaricdən gözəl olmalıdır. Xarici gözəllik, geyim, dəb, davranışlar heç də hər cür dəbə uymaq, yeni davranış qayadlarına düşünmədən əməl etmək, əcnəbi sözlər işlətmək və s. deyildir. Təbii və səmimi olan hər şey gözəl qəbul edilir.

Həyatda, davranışda özünü başqalarına bənzədən, yaxud pal-paltarından tutmuş sir-sifətinədək özgələşən "bəzəkli kuklalar" bir həqiqəti dərk etməlidirlər ki, ifrat dəb, geyim mədəniyyətinə aludəçilik heç də onları hörmətli, nüfuzlu etmir. Belələri bəzi xarici filmlərin tərbiyəvi xarakterini, müsbət keyfiyyətlərini deyil, mənfi cəhətlərini əxz edir, onları yamsılayırlar və yaddan çıxarırlar ki, sadə, təmiz və rahat geyim insana daha çox yaraşır. Hər cür süni yenilik, başqalarına özünü bənzətmək heç də müasirlik sayılmır. Bu, sadəcə müasirlik pərdəsi altında özünü gülünc vəziyyətinə salmaqdır.

Yaxşı, zövqlə geyinmək deyəndə, heç də tez-tez bahalı paltar almaq, geyimi tez tez dəyişmək nəzərdə tutulmur. Səliqəli, ütülü və təmiz olan, bədənə yaxşı oturan sadə geyim hər cür qiymətli paltardan yaxşı görünür. Gənclər unutmamalıdırlar ki, paltarın gözəlliyi formanın səliqəliyində, rənglərin yaxşı uzlaşmasındadır. Çox rəngli, alabəzək geyim, açıq-saçıq geyimlər bir tələbəyə ya məktəbliyə yaraşmaz. Yeniyetmə qızların geyimində 3 rəngdən çox rəngin olması məsləhət görülmür. Zövqlə tikilmiş, rəngi düzgün seçilmiş paltar bədənin gözəlliyini, davranış mədəniyyətini üzə çıxarır. Geyim insanın peşəsinə, yaşına, məşğələ növünə və yerinə görə münasib olmalıdır. Hər yeni dəbin ardınca getmək də düzgün sayılmaz. Elə geyim seçmək laızmıdr ki, o, ilk növbədə sağlamlıq üçün lazımlı olsun və insana yaraşsın. Paltar onu geyənin yaşına, peşəsinə, vəzifəsinə, işinə uyğun gəlməlidir. Mütəxəssislərin fikrincə, geyim mədəniyyəti iki əsas qaydaya əməl olunmasını tələb edir: 1) paltar insanın əxlaq və ədəbini göstərməli, özünəməxsus olmalı, praktik və rahat olmalıdır; 2) tez-tez ucuz, keyfiyyətsiz mallar almaqdansa (Bir məsələdə deyildiyi kimi, "Mən elə varlı deyiləm ki, ucuz şeylər alım") bir dəfə bahalı mal almalı ki, uzun müddət geyinməli olasan.

Kişilərin geyimi ilə müqayisədə qadınların geyimi daha zəngin və çoxçalarlıdır: arıq və kök, alçaqboylu və hündürboylu, mütənasib qadınlar üçün xüsusi modellər mövcuddur. Gödək və kök qızlara qısa və enli paltarlar, eninə cizgiləri olan geyimlər məsləhət görülmür. Onlar nisbətən hündür görünmək istəyirlərsə, gərək büzməli, qırçınlı, üfüqi cizgili paltarlara meyil göstərməsinlər, bellərinə iri kəmər, qulaqlarına iri sırğalar taxmasınlar.

Kök və alçaqboylu qızlar bir rəngli saya geyimlərdən, şaquli mil-mil parçalardan və ensiz yaxalıqlardan istifadə etsələr, daha yaxşı görünərlər. Belə geyim ansamblı boyu hündür göstərir. Hündürboylu qızlar və qadınlara paltarlarında uzun kəsiklər qoydurmaq məsləhət görülmür. Onların dabansız ayaqqabı, enli yupka və sviter, büzməli don, dama-dama parçadan tikilmiş paltar geyimləri məqsədəuyğun olardı.

Qızlar və qadınlar oğlan və kişilərlə müqayisədə özlərinə paltar seçərkən daha çox zövqə və seçicilik səriştəsinə malik olmalıdırlar. Kişi paltarına nisbətən qadın geyimində onun sahibəsinin fərdi üslubu və xarakteri daha aydın əks olunur. Zövqsüz seçilmiş müxtəlif rəngli qadın paltarları sahibəsinin pis zövqə malik olması barədə təsəvvür oyadır. Don, yupka, ayaqqabı, çanta, corab, zinət əşyaları rəng harmoniyasının tələblərinə cavab verməlidir. Çanta əgər paltara uyğun gəlmirsə, onsuz keçinmək daha yaxşıdır.

Bir çox yeniyetmə qızların dəbi, geyimi, hətta davranış tərzi, işlətdiyi sözlər tez-tez dəyişir. Bunları da düzgün mədəni davranış qaydaları hesab etmək olmaz. Qızların (qadınların) şalvar geyməsi məsələsinə gəldikdə isə, etiraf edək ki: şalvar heç də qızların (qadınların) hamısına yaraşmır. Şalvar da qısa don, yupka kimi arıq qıçlı qızların (qadınların) gözəl görünməsinə, bəzən onların cəlbedici olmasına maneçilik törədir. Şalvar və şalvar-don geyən qızlar və qadınlar dəbdəki

dəyişikliklərə kor-koranə əməl etməməli, yeniliklərin bədən xüsusiyyətlərinə uyğun gəlib-gəlmədiyinin fərqinə varmalıdırlar. Məktəbə, təhsil müəssisələrinə gözəl, səliqəli geyinməli, geyim məktəbli və ya tələbəninin ədəb və əxlaqının, davranış mədəniyyətinin göstəricisidr.

Mədəni adam sadə, yaxud zövqlə geyinir, paltarının səliqəli, təmiz və ütülü olmasına fikir verir, kostyumu, köynəyi, qış və yay geyimləri yaşına, həyat tərzinə, sənətinə uyğun seçilir, zahiri görünüşündəki qüsuru nəzərə alır. O, bilir ki, geyimi yöndəmsiz olarsa, qüsuru daha qabarıq görünəcəkdir. Ona görə də geyimin köməyilə ən yaxşı cəhətlərini nəzərə çarpdırmağa çalışır. O, məşhur bir həqiqəti – "insanda hər şey gözəl olmalıdır" – düşünərək dəbdən yan qaçmır.

Dəblə geymək mümkündür, lakin zövqsüz geyinmək olmaz. Bəzi qızlar müəyyən estetik zövqə malik olmadığından kor-koranə rəfiqələrini yamsılayır, eynilə onlar kimi geyinirlər. Ona görə də küçələrdə, toy və nişan mərasimlərində, ad günlərində, teatr və konsertlərdə eyni biçimli geyimdə olan qızlarla çox rastlaşırıq. "Filan qız, filan oğlan elə geyinir" təsəvvürü ilə geyinmək yaramaz. Həm də birisinə yaraşan paltar, o birsinə yaraşmaya bilər. Dəbə yaradıcı yanaşmaq lazımdır. Başqasını eynilə təkrar etmək zövqsüzlük əlamətidir. Hər kəs öz üslubunu, formasını tapmalı və özünəməxsus geyinməlidir. Bir çox insanlar dəbə aludə olmuş, hətta xəstələnənlər olmuşdur. Dəbə kor-koranə əməl etmək də olmaz.

Professor Rüfət Hüseynzadə "Ailə pedaqogikası" dərsliyində qeyd edir ki, "Ailə üzvləri, ailə başçıları özləri də geyimlərinə fikir verməlidirlər. Onlar ev paltarında da səliqəli görünməlidirlər. Bəziləri səhvən belə fikirləşirlər ki, evdə necə gəldi geyinmək olar, onsuz da heç kim onları görmür. Əslində isə bu özünə, valideynlərə, həyat yoldaşına qarşı hörmətsizlik, kiçik bacı və qardaşlarına, övladlarına pis nümunədir"(3, s.255).

Qızların evdə çox da bahalı olmayan açıq rəngli pambıq parçadan xalat, sarafan, yaxud yüngül qısaqol don, şalvar, yüngül başmaqlar geyməsi məsləhətdir. Bu görkəmdə o, rəfiqəsini, tanışlarını çaya, qəhvəyə qonaq edər, eyvana, bağa-bağçaya, həyətə çıxa bilər. Mətbəxdə iş görərkən önlük taxmaq, saçları ləçəyin altına yığmaq lazımıdır. Mənzili yığışdırarkən idman forması, şalvar geymək məsləhətdir.

Gecə köynəyi, pijama yalnız yataqda geyilməlidir. Pijamada, yaxud ev paltarında distant təhsildə iştirak etmək, qonaq qabağına çıxmaq və yaxud onun yanında belə oturmaq, yaxud da hamamdan çıxıb xalatda başı bağlı yemək stoluna oturmaq başqalarına xoş təsir bağışlamaz. Eləcə də pijamada bərbərxanaya, mağazaya getmək, nəqliyyata minmək, binanın qarşısında, məhəllədə gəzmək, qonşuya getmək mədəni hərəkət sayılmaz. Cırılmış, çirkli köynəkdə, maykada küçədə dayanıb siqaret çəkən oğlanlar və kişilərə rast gəlmək olur. Bəzi qızlar xalatda, saçına hənа yaxıb başını ləçəklə bağlamış halda, saçlarına biqudi taxmış vəziyyətdə küçəyə çıxır, qonşuya baş çəkir. Bu, həmin adamlarda geyim mədəniyyətinin aşağı səviyyədə olduğunu sübut edir. İnsan hər yanda, hər yaşda

təmiz, səliqəli geyinməlidir.

Uşaq və yeniyetmələrin geyim mədəniyyətinin tərbiyə olunmasında valideynlərin rolu böyükdür. Ata-ana gözəl və zövqlə geyinməklə yanaşı, bu vərdişi öz övladlarına da aşılamalıdırlar. Valideyn nəzərə almalıdır ki, onun səliqəsiz geyinib cəmiyyət içinə çıxması, işə, məclisə getməsi uşağa da sirayət edir. Ata ayaqqabısının tozunu təmizləmədən onu geyinirsə, uşaq da məktəbə belə yollanacaq. Bəzən küçədə, iş yerində, mağazada dünənki yağışdan sonra ayaqqabılarını təmizləmədən onları ayaqlarına keçirən adamlarla rastlaşırıq. Yaxalığı çirkli köynək geyinən ata, plaşının düyməsi düşmüş ana qızına hansı nümunəni göstərə bilər. Geyim mədəniyyətinin formalaşmasında valideynlər qədər müəllimlər də yüksək təsir gücünə malikdirlər. Professor Akif Abbasovun dediyi kimi, "Müəllimin geyiminin, hər şeydən əvvəl pedaqoji əhəmiyyəti vardır. Onun gündəlik geyimi məktəblilərdə estetik tələblər, zövq barədə təsəvvür yaradır, müasir insanın zahiri görkəminə dair onlara müvafiq istiqamət verir. Bu, bir həqiqətdir ki, müəllimin geyimlə bağlı nəsihətlərində daha çox şəxsi nümunəsi şagirdlərə güclü təsir edir" (4, s.167).

Gənclərin geyim mədəniyyətinin formalaşmasında ailənin də, məktəbin də rolu böyükdür. Uşaq ailədə valideyndən, məktəbdə ona dərs deyən müəllimdən nümunə götürür. Hər sahədə olduğu kimi, geyimləri, səliqə-səhmanları ilə onlara oxşamağa çalışır. Bu mədəniyyət növünün düzgün formalaşması istiqamətində valideynlər, eləcə də müəllimlər doğru seçim etməkdə uşaq və yeniyetmələri maarfləndirməlidirlər.

## ƏDƏBİYYAT


1. *Əliyev H.Ə.* Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq / "Azərbaycan" qəz., Bakı, 1996, 6 fevral
2. *Qasımova L.N.* Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004, 220 s.
3. *Hüseynzadə R.L.* Ailə pedaqogikası / Dərslik. Bakı: ADPU, 2016, 340 s.
4. *Abbasov A.N.* Milli əxlaq və ailə etikası / Universitetlərin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2013, 324 s.


Redaksiyaya daxil olub 25.02.2020

*UOT 37*

***A.A.Hümbətova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*abusova_a@mail.ru*

# TƏLİM PROSESİNDƏ ŞAGİRD MÜVƏFFƏQİYYƏTİNİN TƏMİNİ: VALİDEYN, MÜƏLLİM FƏALİYYƏTİNİN PSİXOLOJİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *məktəb, valideyn, şagird, təlim, müvəffəqiyyət*
Potensialın reallaşdırılması üçün yeni imkanlar realizə edilməyəndə şagirdin inkişaf istiqamətləri ləngiyə və ya tamamilə itə bilər. Məsələnin bu qədər həssaslığı müəllim və valideyn tərəfindən diqqət mərkəzində saxlanılmalıdır. Şagirdin müvəffəqiyyətini yüksək idraki maraqlar, intellektual fəaliyyət sahələri, yaradıcılıq əyləncələri ilə yanaşı, canlı ünsiyyət və maraqlı müzakirələr, şəxsiyyətlərarası münasibətlər də şərtləndirir. Məqalədə şagirdin inkişafını və müvəffəqiyyətini şərtləndirən bu kimi amillər araşdırılıb.

***А.А.Гумбатова***

## ОБЕСПЕЧЕНИЕ УСПЕВАЕМОСТИ УЧАЩИХСЯ В УЧЕБНОМ ПРОЦЕССЕ: ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ДЕЯТЕЛЬНОСТИ РОДИТЕЛЕЙ И ПРЕПОДАВАТЕЛЕЙ

***Ключевые слова:*** *школа, родитель, студент, обучение, успех*
Когда новые возможности для реализации потенциала не реализованы, развитие ученика может быть отложено или полностью потеряно. Такая чувствительность вопроса должна быть в центре внимания учителей и родителей. Успех ученика обусловлен не только высокими познавательными интересами, интеллектуальной деятельностью, творческими развлечениями, но и живым общением и интересными дискуссиями, межличностными отношениями. В статье рассматриваются такие факторы, которые определяют развитие и успех ученика.

***A.A.Humbatova***

## ENSURING STUDENT SUCCESS IN THE LEARNING PROCESS: PSYCHOLOGICAL ASPECTS OF PARENTING, TEACHER ACTIVITY

***Keywords:*** *school, parent, student, training, success*
When new opportunities for realization of potential are not realized, the student's developmental directions may be delayed or completely lost. Such sensitivity of the issue should be kept in the center of attention by teachers and parents. The success of the student is conditioned not only by high cognitive interests, areas of intellectual activity, creative

entertainment, but also live communication and interesting discussions, interpersonal relationships. The article discusses such factors that determine the development and success of the student.

Şagirdin uğur qazanmasında ailə və məktəbin birgə fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Lakin bəzən ailə və məktəbin birgə fəaliyyəti mümkün olmur. Bu zaman bu iki amildən hansı daha çox təsir gücünə malik olur? Daha çox hansı amil şagirdin uğurunda katalizator rolunu oynayır? Tədqiqatlar göstərir ki, şagird uğurunda ailə faktoru daha təsiredici gücə sahibdir. Belə ki, Briqham Universitetində 25.000 şagirdin cəlb olunduğu tədqiqatda ailənin şagird nailiyyətinə təsiri araşdırılıb (4). Aparılan tədqiqat zamanı ailənin təsiri müvafiq meyarlarla aşağıdakı kimi müəyyənləşdirilib:

- Valideyn şagirdin ev tapşırıqlarını yoxlayırmı?
- Məktəb iclaslarında iştirak edirmi?
- Məktəb fəaliyyətlərində iştirak edirmi?
- Uşağına nə qədər güvənir?
- Şagirdlər dərs cədvəlini, fəaliyyətlərini valideynləri ilə nə qədər tez-tez paylaşırlar?

Göründüyü kimi, valideynlər daha çox şagirdin məktəbdəki qiymətləri ilə deyil, onların aldıqları biliklərin məzmunu və səviyyəsi ilə maraqlanırlar. Bu da öz növbəsində şagirdlərə sirayət edərək qiymətlə bağlı komplekslərin, əlavə gərginliklərin yaranmasının qarşısını alır. Valideynlərin yüksək idraki maraqları, intellektual fəaliyyət sahələri, yaradıcılıq əyləncələri və s. uşaqların sürətli inkişafını şərtləndirir. Bu inkişafa uşaqla canlı ünsiyyət, intellektual oyunlar, maraqlı müzakirələr təkan verir. Valideynlə uşağın idraki maraqları üst-üstə düşdükdə, onlar arasında dayanıqlı dostluq münasibətləri formalaşır.

Bəzən təhsil üçün ailədə olan əlverişsiz şərait, məsələn, natamam ailə, qeyri-sabit maddi durum uşağın inkişafına təsir göstərmir. Uşağın inkişafı və müvəffəqiyyət qazanması üçün həlledici əhəmiyyətə malik olan valideynlərin ona münasibətidir. Müasir tədqiqatlar göstərir ki, valideynlər uşaqların ilk və əsas müəllimləri hesab olunur. Tədqiqatçılar ailənin, daha dəqiq desək, valideynin hansı davranışlarının məktəb müvəffəqiyyətində daha təsirli olduğunu müəyyən ediblər. Bu davranışlar (şəkil 1) aşağıdakı kimi qruplaşdırılıb.

Şəkil 1-dən göründüyü kimi, məktəbdəki müvəffəqiyyəti təmin edən amillər fəaliyyətlərini uşaqla müzakirə etmək (63%), məktəbdəki proqram barədə danışmaq (55%), dərslər haqqında danışmaqdan (51%) ibarətdir. Ailənin uşağın sosial həyatı – məktəbi haqqında maraqlanması onun uğur qazanmasına səbəb olan amillərdəndir. Məktəbin hər bir şagirdə fərdi yanaşmasını gözləmək real görünmür. Ailədə isə fərdi yanaşmanı təmin etmək məktəbdəki qədər çətin deyil. Ailənin şagirdə diqqət və zaman ayırması, onun motivasiyasını və uğur ehtimalını artırır.




Şagirdlərin fərqli təlim nailiyyəti qazanmalarının bir səbəbi də ailə marağının, diqqətinin, uşağa ayrılan zamanın fərqli olmasıdır. Medalın digər tərəfində isə məktəbin şagirdlə qarşılıqlı münasibəti durur. Şagird günün müəyyən hissəsini məktəbdə keçirir. Müəllimlər, sinif yoldaşları onun sosial çevrəsinin böyük qismini təşkil edir. Bu zaman məktəbdəki sosial, psixoloji, emosional mühit şagirdin təlim nəticələrinə öz təsirini göstərir. Tədqiqat göstərir ki, təlim müvəffəqiyyətini təmin edən ilk üç amil (şəkil 2) aşağıdakı kimi sıralanıb:




Təlimdəki müvəffəqiyyət şagird şəxsiyyətinin inkişafına təsir edir. Bu müvəffəqiyyəti o, özünüdərk, adekvat özünüqiymətləndirmə və fəaliyyət nəticəsində əldə edir. Bəzən eyni nəticəni bir şagird müvəffəqiyyət, başqa birisi uğursuzluq kimi qiymətləndirir. Bu zaman mühüm olan nəticənin hansı hiss ilə yaşanmasından gedir. Gerçəkliyin dərki məhz bu hissin yaşanması ilə səciyyələnir. Çünki bu hiss ilə gerçəkliyin dərk edilməsi baş verir. Şagird baş vermiş hadisənin nəticəsini deyil, bu hadisəyə olan münasibəti hiss olaraq yaşayır. Məsələn, istənilən yarışın qaliblərini müqayisə etsək, 3-cü yeri tutanlar 2-ci yeri tutanlardan daha çox

sevinir. Çünki 2-ci yeri tutan yarışçıda çempionluğu „əldən qaçırtma“ peşmançılığı olur. 3-cü yeri tutan isə qaliblər sırasında olmağın sevincini yaşayır.

Təlim fəaliyyətində yeni biliklərin mənimsənilməsində kiçikyaşlı məktəblilər müəyyən emosional hallar yaşayırlar. Məsələn, ibtidai sinifdə şagird hər hansı tapşırığın icrasını birinci yerinə yetirirsə, sevinc, summativ qiymətləndirmə zamanı isə gərginlik keçirir. U.Ceymsin fikrincə, sosial fəaliyyət prosesində fərdin inkişafını şərtləndirən amillər dərk edilmədən inkişafa yönələ bilməz (1). Dərketmə isə emosiyadan başlayır. Beləliklə, öyrənmə prosesində fərdin emosiya və hissləri cilalanaraq onun ətraf aləmə bələdləşməsini və mühitin dəyişməsini təmin edir. Ətraf mühitə adaptasiya və nisbətən davamlı struktura malik əqli qabiliyyəti intellekt kimi qəbul etsək, onda emosiya da intellektin bir növü kimi nəzərdən keçirilə bilər.

İntellektdən fərqli olaraq emosional intellekt inkişaf etdirilə bilər. Şagirdin müvəffəqiyyəti, təlim nailiyyəti üçün emosional intellekt daha əhəmiyyətlidir. Buna görə şagird üçün başqalarının hisslərini anlamaq və idarə etmək, ünsiyyət və əməkdaşlıq qurmaq, sosial bacarıqların, akademik bacarıqların inkişaf imkanları ailədən başlayaraq məktəbdə davam etdirilməlidir. Şagirdin çətinliklərinin səbəbləri tez-tez onun hissləri sayəsində gizlədilmiş olur. Belə halda ən yaxşısı şagirdi dinləmək, onun nə hiss etdiyi barədə təəssüratını bölüşməsidir. Şagirdin keçirtdiyi hiss və həyəcanına ad verə bilməsi olduqca vacibdir.

Gündəlik həyatda yaş qrupundan asılı olmayaraq bir çox insan keçirtdiyi hissi düzgün adlandıra və ya qiymətləndirə bilmir. Çünki uşaqlıq dövründən hisslər yanlış istiqamətə yönləndirilərək gizlədilir. Məsələn, ana üçyaşlı uşağın “O mənim maşınımı aldı!” şikayətinə “eybi yox, bir az oynayıb, qaytarar” yerinə “sən çox məyus və hirslisən”, deyə qarşılıq versə; məktəbdən qayıdaraq uşağın “mən daha ora getməyəcəm” ifadəsinə “necə yəni məktəbə getməyəcəm?!” deyil, “sən artıq məktəbə getmək istəmirsən”, deyə qarşılıq versə və ya daha çox məktəbəqədər yaş dövrü üçün xarakterik olan “mən bu anormal papağı geyinən deyiləm!” imtinasına “naz eləmə, çox yaxşı papaqdır” əvəzinə “sən bu papağı xoşlamırsan”, deyə təsdiq cavabı verməklə uşağı öz həyəcan və hissi ilə təkbaşına qoymur. Öz məsləhəti və tənqidi qeydi ilə valideyn sanki uşağa onun hiss və ya həyəcanının əhəmiyyətsiz olduğunu bildirir və nəzərə almır. Əksinə, aktiv dinləmə üsulu ilə verilən cavablar onu göstərir ki, valideyn uşağın daxili vəziyyətini anladı, onun haqqında daha çox eşitməyə, onu qəbul etməyə hazırdır. Valideyn tərəfindən belə şəfqət göstərmək uşaqda xüsusi təəssürat yaradır.

Təlim prosesində şagird istər fərdi, istərsə də qrup fəaliyyətinin iştirakçısı olur. Bu zaman müəllim şagird fəaliyyətinin akademik göstəricisi ilə yanaşı, emosional göstəricisini də diqqət mərkəzində saxlamalıdır. Məsələn: “Qrup ahəngdar işləyəndə nə hiss edirsən? Yoldaşın sənə kömək edəndə nə hiss etdin? Sən yoldaşına kömək edəndə nə hiss edirsən? kimi sualları qrup, “Təklikdə işləyəndə nə hiss edirsən? Tapşırıqlar üzərində işləyəndə nə hiss edirsən? Bəs nə

haqda düşünürsən? kimi sualları isə fərdi fəaliyyətdə şagird ilə hiss-fikir mübadiləsi edilə bilər. Bu zaman şagird nə hiss etdiyini və nə üçün hiss etdiyini bilir. Yaşadığı, söylədiyi hissləri və fikirləri arasındakı əlaqəni anlayır, hisslərinin onun fəaliyyətinə necə təsir etdiyini görür. Verilən suallar nəticəsində şagird məqsədlərinə yönəlmiş olur. Tədricən istənilən şəraitdə öz duyğularının təsirini minimuma endirməyi öyrənərək özünün güclü və zəif tərəflərini tapır. Nəticədə, refleksiya bacarıqları inkişaf edir. Tənqidə və yeniliyə açıq, davamlı öyrənən və inkişaf edən birinə çevrilir. Fərdi və ya qrup fəaliyyətindən asılı olmayaraq şagirdin qeyri-müəyyən vəziyyətlərdə tez qərar qəbuletmə bacarığı inkişaf edir. Eyni zamanda o, məsuliyyət hissi anlayır və qarşı tərəflə empatiya hissini qurur.

Göründüyü kimi, yuxarıda sadalananlar kiçikyaşlı məktəbli dövründən şagirddə emosional intellektin inkişaf bazasını təmin edir. Çünki emosional intellekt mental qabiliyyət kimi həyat fəaliyyətində münasibətlərin və birgə fəaliyyətin səmərəliliyinin əsasını təşkil edir. Yüksək emosional intellektə malik olan insan özünün və başqasının hisslərini dərk edərək tənzimləyə bilir. Emosiya, davranış və düşüncə arasındakı aparılan tədqiqatlar göstərir ki, emosional intellekt bacarıqlarının inkişafı həm təlimə, həm də fiziki və psixi sağlamlığa əhəmiyyətli dərəcədə təsir göstərərək uğuru şərtləndirən əsas mexanizmə çevrilir.

## ƏDƏBİYYAT

1. *Əlizadə Ə.Ə., Əlizadə H.Ə.* Pedaqoji psixologiya. Bakı: ADPU, 2010, 319 s.
2. *Əlizadə Ə., Bayramov Ə.* Psixologiya Bakı: Çinar, 623 s.
3. *Гиппенрейтер Ю.* Общаться с ребенком. Как? АСТ, Астрель, Харвест. Москва, 2008
4. *Mümin S., Eriş B.* Cocuklar nasıl başarır-2. Alfa Yayıncılık, 2019, 225 s.
5. *Bolat Ö.* Beni ödülle cezalandırma İstanbul. Mega Basım Yayın San. Ve Tic.A.Ş. 2016, 247 s.

Redaksiyaya daxil olub 06.05.2020

***UOT 37:001***

***M.İ.İlyasov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*museyibilyas@gmail.com*

# PEDAQOJİ PROSES TAM VƏ DİNAMİK SİSTEM KİMİ

***Açar sözlər**: pedaqoji proses, dinamik sistem, təlim, məqsəd, əməkdaşlıq*

Təhsilverənlərlə təhsilalanlar, öyrədənlərlə öyrənənlər arasında qarşılıqlı təsir prosesi olan pedaqoji prosesi bir sıra spesifik xüsusiyyətlər xarakterizə edir. Bunlar çoxdur: ümumilik, tamlıq, mürəkkəblik, vahidlik, dinamiklik, mərhələlilik, şəxsiyyətyönümlülük, inkişafyönümlülük və s. Bunlar pedaqoji prosesin bütövlüyünü təmin edərək vahid məqsədin həyata keçirilməsinə – şəxsiyyətin formalaşmasına istiqamətlənir. Məqalədə bu xüsusiyyətlərin ikisi – tamlıq və dinamiklik xüsusiyyətləri nəzərdən keçirilir və pedaqoji proses tam və dinamik bir sistem kimi tədqiq olunur. Tam pedaqoji proses kimi təlim, tərbiyə, formalaşma və inkişafın birliyinin bütövlük və tamlığının təmin edilməsi, dinamik sistem kimi isə bu komponentlərin bilavasitə fəaliyyətlə, hərəkət və inkişafla bağlı olan proseslər olması məqalənin əsas məzmununu təşkil edir.

***М.И.Ильясов***

# ПЕДАГОГИЧЕСКИЙ ПРОЦЕСС КАК ЦЕЛАЯ И ДИНАМИЧЕСКАЯ СИСТЕМА

***Ключевые слова:** педагогический процесс; динамический систем; обучение; цель; сотрудничество*

Педагогический процесс, представляющий собой процесс взаимодействия педагогов и учащихся характеризуется рядом специфических особенностей. Их много: общность, цельность, сложность, единство, динамизм, поэтапность, ориентация личности, ориентация на развитие и так далее. Они направлены на реализацию единой цели – формирование личности, обеспечение целостности педагогического процесса. В статье рассматриваются две из этих особенностей – цельность и динамизм, а также рассматривается педагогический процесс как целостная и динамичная система. Основным содержанием статьи является обеспечение целостности и динамизма единства обучения, воспитания, формирования и развития как полноценного педагогического процесса, так и как динамичной системы, эти компоненты представляют собой процессы, непосредственно связанные с деятельностью, движением и развитием.

**M.I.Ilyasov**

# THE PEDAGOGICAL PROCESS AS A WHOLE AND DYNAMIC SYSTEM

***Keywords:*** *pedagogical process, dynamic systems, training, target, cooperation*

The pedagogical process, which is a process of interaction between teachers and students, teachers and students, is characterized by a number of specific features. There are many of them: community, completeness, complexity, unity, dynamism, phasing, orientation of the individual, orientation to development, and so on. They are aimed at implementing a single goal – the formation of personality, ensuring the integrity of the pedagogical process. The article discusses two of these features – completeness and dynamism, and also considers the pedagogical process as a holistic and dynamic system. The main content of the article is to ensure the integrity and completeness of the unity of training, education, formation and development of both a full-fledged pedagogical process and a dynamic system, these components are processes directly related to activity, movement and development.

İstər keçmiş sovet dövründə, istərsə də müstəqillik illərində pedaqogikadan yazılan dərslik və dərs vəsaitlərinin demək olar ki, 4/5 hissəsində təlim və tərbiyə pedaqoji prosesin tərkib hissələri kimi xarakterizə olunsa da, onların hər biri ayrı-ayrı bölmələr şəklində verilir və tədris olunur. Yalnız səriştəli müəllimlərin izahatı sayəsində tələbələr anlayırlar ki, bunlar ayrı-ayrı proseslər kimi xarakterizə edilsə də, şəxsiyyətin formalaşmasına istiqamətlənmiş bütöv bir prosesin – pedaqoji prosesin komponentləridir və vahid bir məqsədə xidmət edirlər. Hələ XIX əsrdə bir sıra görkəmli pedaqoqlar – İ.F.Herbart, A.Disterveq, K.D.Uşinski və b. təlim və tərbiyənin vəhdətdə olduğu, vahid bir proses olduğunu dönə-dönə qeyd etməklə onların bir-birindən ayrı götürülməsini düzgün hesab etməmşlər. İ.F.Herbart yazırdı ki, təlim mənəvi təhsilsiz məqsədi olmayan vasitədir, mənəvi təhsil isə təlimsiz olduqda vasitəsi olmayan məqsəddir. Yəni məqsədi həyata keçirmək üçün heç bir vasitə yoxdur. Belə çıxır ki, bu prosesdə tərəflərin biri yoxdursa, deməli o biri tərəf də yoxdur. Elə bu baxımdan çıxış edən alman müəllimlərinin müəllimi hesab edilən A.Disterveq qeyd edirdi ki, təlim prinsipi daim tərbiyə prinsipi, tərbiyə prinsipi isə daim təlim prinsipi olaraq qalacaqdır. Təlimsiz tərbiyə yoxdur, tərbiyəsiz də təlim ola bilməz. Rus elmi pedaqogikasının banisi K.D.Uşinski də bu ideyanın tərəfdarı olmuşdur. O, pedaqoji prosesi inzibati, təhsil və tərbiyə elementlərinin vəhdəti kimi xarakterizə etməklə pedaqoji prosesin bütövlüyü ideyasını müdafiə edirdi. Böyük tərbiyə nəzəriyyəçisi A.S.Makarenko da pedaqoji prosesin tamlığı ideyasına toxunaraq qeyd edirdi ki, şəxsiyyət hissə-hissə formalaşa bilməz. Belə fikirlər sonralar da genişlənməyə başladı. Bir sıra pedaqoqlar, xüsusən Y.P.Babanski, B.T.Lixaçov,

V.M.Korotov, N.M.Kazımov və b. ona müxtəlif nöqteyi-nəzərdən yanaşsalar da, yenə də pedaqoji prosesin tamlığı fikrini müdafiə etdilər.

Son illər müasir konsepsiyaların meydana çıxması ilə əlaqədar olaraq pedaqoji prosesin *tamlığı* məsələsinə yeni baxışlar özünü göstərməyə başlamışdır. Bu, son illər nəşr olunan pedaqogika dərsliklərində və dərs vəsaitlərində də özünü aydın büruzə verir. İ.P.Podlasının Moskvada nəşr etdirdiyi 3 cildlik "Pedaqogika. Yeni kurs" adlı dərsliyində (Moskva, 2005), Ə.Paşayev və F.Rüstəmovun yazdıqları "Pedaqogika. Yeni kurs" adlı dərsliyində (Bakı, 2007), A.Həsənov və Ə.Ağayevin yazdığları "Pedaqogika" dərsliyində (2007), Q.M.Kocaspirovanın nəşr etdirdiyi "Pedaqogika" adlı dərs vəsaitində (Moskva, 2010), N.Kazımovun yazdığı "Məktəb pedaqogikası" dərsliyində (Bakı, 2011), L.Qasımova və R.Mahmudovanın yazdıqları "Pedaqogika" dərsliyində (Bakı, 2012) və digər bir sıra dərslik və dərs vəsaitlərində bu istiqamət özünü aydın göstərir. Lakin müəlliflər bu kitablarda təhsil və tərbiyə problemlərinə tam pedaqoji prosesin ayrılmaz tərkib hissəsi kimi baxsalar da, yenə də onları ayrı-ayrı bölmələrdə vermişlər.

Sual yaranır: Bəs necə oldu ki, xüsusən keçən əsrin 70-80-ci illərində və bundan sonra da çap olunan dərslik və dərs vəsaitlərində bunlar yenə də ayrı-ayrılıqda verilərək müxtəlif anlayışlar və problemlər kimi şərh olundu? Təlimin və tərbiyənin məqsədi, vəzifələri, prinsipləri və üsulları niyə ayrı-ayrılıqda götürülərək izah olundu?

Fikrimizcə, buna təlim, tərbiyə və təhsil proseslərini bir-birindən ayırmaq və onları əlaqəsiz, ayrı-ayrı komponentlər kimi xarakterizə etmək deyil, daha ciddi, obyektiv və subyektiv amillər səbəb olmuşdur. Bunları aşağıdakı kimi ehtimal etmək olar:

1. Pedaqoji prosesin mürəkkəbliyi, onun tam, bütöv pedaqoji proses kimi birlikdə tədqiqinin və tədrisinin çətin olması.

Və ya:

2. İllərlə ənənə halını almış stereotiplərdən kənarlaşa bilməmək və ənənəvi qanunauyğunluqları, prinsipləri, metodları, formaları və s. təkrar etmək.

Yaxud:

3. Hər birinin daha da dərindən, hərtərəfli və məzmunlu şəkildə araşdırılması və öyrənilməsi baxımından təlim və tərbiyənin diferensiallaşdırılması.

Birinci səbəbin (amilin) təzahürlərinin aradan qaldırılması üçün vahidlik prinsipi əsas götürülməli, təlim və tərbiyənin qanunauyğunluqları, prinsipləri, metodları və formalarında eynilik tapılmalı, onlar ümumiləşdirilərək elə ortaq qanunauyğunluqlar, qanunlar, prinsiplər, metodlar və formalar axtarılıb tapılmalıdır ki, bunlar təlim və tərbiyənin hər ikisi üçün məqbul ola bilsin. Bununla da təlimdə ayrı, tərbiyədə isə ayrı prinsip, metod və s. olmasına son

qoyulsun. Lakin burada təlim və tərbiyənin özünəməxsus müəyyən xüsusiyyətləri vardır ki, bunların birini digərinə şamil etmək müəyyən sualların meydana çıxmasına səbəb olar ki, bu da xüsusi axtarışlar tələb edir.

İkinci səbəbdə (amildə) müəyyən həqiqətlər vardır.

Apardığımız təhlillər belə bir qənaətə gəlməyə əsas verir ki, təlim və tərbiyə kateqoriyalarının ayrı-ayrılıqda tədrisində 3-cü fikir (amil) daha çox üstünlük təşkil edir ki, bununla da razılaşmamaq çətindir. Bizə belə gəlir ki, təhsilin bakalavriat səviyyəsində pedaqogikanın bu kateqoriyalarının ayrı-ayrılıqda verilməsi və tədrisi tələbələrin bunların hər birinin mahiyyəti, məzmunu və reallaşdırılması yolları haqqında müfəssəl bilik, bacarıq və vərdişlərə yiyələnmələrində daha münasib və daha əlverişlidir. Təlim və tərbiyə kateqoriyalarının tam pedaqoji prosesdə birləşdirilməsi isə təhsilin magistratura səviyyəsi üçün daha münasibdir. Pedaqoji təhsilin magistratura səviyyəsi üçün belə bir dərsliyin hazırlanması həm bu problemin qismən də olsa həll edilməsinə, həm də uzun illər təhsilin hər iki səviyyəsində pedaqogikadan tələbələrə eyni məsələlərin təkrar-təkrar tədris edilməsinin aradan qaldırılmasına səbəb olardı.

Bütün bunlara, yəni bu kateqoriyaların ayrı-ayrılıqda və ya bir kompleksdə tədris olunmasına baxmayaraq pedaqoji prosesin mahiyyət və məzmunu onun tam pedaqoji proses kimi nəzərdən keçirilməsinə əsas verir.

V.A.Slastenin, İ.F.İsaev və Y.N.Şiyanovun 2002-ci ildə çap etdirdikləri "Ümumi pedaqogika" adlı 2 cildlik dərs vəsaitində pedaqoji prosesə belə bir tərif verilir: "Pedaqoji proses – müəllim və tərbiyəçilərin inkişafetdirici və təhsilləndirici məsələlərin həllinə yönəlmiş xüsusi təşkil olunmuş qarşılıqlı əməkdaşlığıdır" (10). Əsasən bu məzmunda belə izaha digər kitablarda da rast gəlinir. Lakin fərqli fikirlər də özünü göstərir. Məsələn, prof.N.Kazımov pedaqoji prosesə belə bir tərif verir: "Sistemləşdirilmiş biliklərin, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin və psixoloji qüvvələrin adamlara məqsədyönlü, planlı və mütəşəkkil aşılanması pedaqoji prosesdir (6, s.38). İ.P.Podlasıy isə yazır: "Əvvəlcədən nəzərdə tutulmuş şəkildə şagirdlərin vəziyyətinin, xassə və keyfiyyətinin dəyişdirilməsinə gətirib çıxaran, qarşıya qoyulmuş məqsədə çatmağa istiqamətlənmiş, tərbiyə edənlə tərbiyə olunanların qarşılıqlı inkişafetdirici fəaliyyəti pedaqoji proses adlanır" (10, s.111). Ə.Paşayev və F.Rüstəmovun da verdikləri tərif bununla səsləşir (7, s.95).

Apardığımız təhlillər göstərir ki, pedaqoji prosesin mahiyyəti məsələsinin izahında pedaqoqlar arasında fikir müxtəlifliyi yoxdur. Adları çəkilənlər və digər bir çox müəlliflər də pedaqoji prosesin tamlığının təmin olunmasını, onun bütöv bir proses kimi həyata keçirilməsini pedaqoji prosesin mahiyyətini təşkil etdiyini qeyd edirlər. İ.P.Podlasıy yazır: "Təlim, tərbiyə və inkişafın birliyinin bütövlük və tamlıq əsasında təmin edilməsi pedaqoji prosesin mahiyyətini təşkil edir" (9, s.112). Bu fikir demək olar ki, əksər

pedaqoqlar tərəfindən təsdiqlənir.

Pedaqoji prosesin komponentləri məsələsinin izahında da fikir ayrılığı yoxdur. Məqsəd, məzmun, forma, metod, vasitə və nəticə pedaqoji prosesin tamlığını və bütövlüyünü göstərən komponentlər kimi izah edilir. Bunlar bəzi müəlliflər tərəfindən bir qədər fərqli adlarla – komponent, yaxud struktur elementləri (İ.P.Podlasıy, Q.M.Kocaspirova, Ə.Paşayev, F.Rüstəmov, L.Qasımova və b.), element (H.H.Əhmədov, N.Zeynalova və b.), amillər (N.Kazımov) kimi ifadə olunsalar da, mahiyyət etibarilə eyni mənanı, yəni pedaqoji prosesin struktur elementlərini təşkil edirlər. Hətta bəzi müəlliflər (Q.M.Kocaspirova) bura müəllimin fəaliyyəti, şagirdlərin fəaliyyəti, motivləri və s. əlavə etməklə bu strukturu daha da zənginləşdirməyə çalışmışlar.

Q.M.Kocaspirova həmçinin pedaqoji prosesin prosessual strukturunun da olduğunu göstərir və onu a) pedaqoji prosesin emosional-motivləşdirici, b) məqsəd-məzmun, c) təşkilati-fəaliyyət və d) nəzarət qiymətləndirmə komponentləri kimi xarakterizə edərək pedaqoji prosesin strukturunda onların da mühüm komponent təşkil etdiyini göstərir (8, s.162-168).

Bütün bunlar onu deməyə əsas verir ki, pedaqoji proses özünün məqsədinə, funksiyasına, məzmununa, həyata keçirilmə forma və metodlarına və onun iştirakçılarının fəaliyyətinə görə tam, bütöv bir sistem təşkil edir. Bu sistemin özünəməxsus komponentləri vardır, başlıca məsələ isə onların arasında əlaqə və asılılıqlar mövcuddur.

Pedaqoji prosesin bütövlüyünü təmin edən və bu təminatın başlıca göstəricisi kimi özünü göstərən amillərdən biri də onun tərkib hissələrinin (tərbiyə, təlim, təhsil, inkişaf və formalaşma) *vahid məqsəd* daşıması və onların arasında sabit, möhkəm əlaqənin olmasıdır. Bu, pedaqoji prosesin tamlığını təmin edən ən əsas amildir.

Sadalanan hissələrin hər birinin məqsədini ayrı-ayrılıqda nəzərdən keçirsək, onların hamısının vahid bir məqsədə yönəldiyini aydın görərik. Nümunə kimi ümumi təhsilin məqsədinin nələrdən ibarət olduğuna baxaq:

“1) Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, Azərbaycan xalqının dəyərlərinə və ümumbəşəri dəyərlərə, xalqının adət və ənənələrinə, insan hüquqları və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, sərbəst qərarlar qəbul etməyi bacaran, müstəqil, yaradıcı düşünən, sağlam həyat tərzinə, müasir dünyagörüşünə, yüksək mədəniyyətə və intellektə malik vətəndaş və şəxsiyyət yetişdirmək;

2) sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq;

3) təhsilalanların Azərbaycan xalqının dəyərləri və bəşəri dəyərlər ruhunda tərbiyə olunmasını, dövlət maraqları və azərbaycançılıq məfkurəsi əsasında formalaşdırılmasını təmin etmək” (2, s.9).

Sual oluna bilər: bu məqsəd tərbiyənin və ya təlimin də qarşısında deyilmi? Məgər tərbiyə və ya təlim bunlara xidmət etmirmi? Cavab birmənalıdır: məqsəd birdir və eynidir, tərbiyə də, təlim də, təhsil də eyni məqsədlərə xidmət edir və etməlidir. Pedaqoji proses onların nəinki həyata keçirilməsi, bu keyfiyyətlərin reallaşdırılması ilə nəticələnməlidir.

Digər bir məsələ – tərbiyə, təlim, təhsil, inkişaf və formalaşma bir-biri ilə əlaqəlidir, onların biri digərini şərtləndirir, aralarında kəskin sədd yoxdur və *kompleks təsir* sferasına malikdirlər. Təlim tərbiyə edir, tərbiyədə təlim vardır, təhsil tərbiyə və təlimin nəticəsi və gedişi kimi özünü göstərir, bunların nəticəsi inkişafa və formalaşmaya aparıb çıxarır və s. Bütün bunlar onu göstərir ki, pedaqoji prosesin tərkib hissələri arasında olan diferensiasiya şərti olaraq, yəni bunların hər birinin daha dərindən, daha hərtərəfli öyrənilməsi məqsədilə olan diferensiasiya kimi qəbil edilməlidir.

Pedaqoji proses *dinamik* bir prosesdir. Burada hərəkət, fəaliyyət, dinamik inkişaf vardır. Pedaqoji prosesin əsas komponenti olan təlim, təhsil, tərbiyə, inkişaf və s. bilavasitə fəaliyyətlə, hərəkət və inkişafla bağlı olan proseslərdir. Buna görə də pedaqoji proses dinamik bir sistem təşkil edir və o, vahid məqsədə yönəldilmiş bütöv, tam bir prosesdir. Burada məqsəd, vəzifə, məzmun, metod, forma, vasitə bir-birini tamamlayaraq bir bütövlük, tamlıq yaradır. Məsələn, konkret bir mövzunun tədrisi gedişinə baxsaq, burada aydın şəkildə görmək mümkündür ki, bu mövzunun tədrisində başlıca məqsəd nədir, pedaqoji vəzifə nədən ibarətdir, öyrədiləcək mövzunun mahiyyəti nədən ibarətdir, onu öyrətmək üçün optimal metod, forma və vasitələrin araşdırılması, seçilməsi, tətbiqi və nəhayət, alınmış nəticələrin təhlili və s. bir xətt üzərində birləşərək müəyyən sistem yaradır.

Pedaqoji prosesdə mühüm məsələlərdən biri *subyekt-obyekt* münasibətləridir. Bu, pedaqoji prosesin səmərəliliyini təmin edən başlıca amil kimi müəllim-şagird əməkdaşlığında öz ifadəsini tapır. Məlum həqiqətdir ki, ənənəvi pedaqogikada müəllim subyekt, şagird isə obyekt olmuşdur və belə də qəbul edilmişdir. Lakin müasir dövrdə pedaqoq və psixoloqlar arasında vahid fikir ondan ibarətdir ki, pedaqoji proses daha səmərəli, daha nəticəyönümlü və mükəmməl o zaman olur ki, şagird obyekt yox, subyekt kimi pedaqoji prosesdə müəllimin tərəf müqabili olsun. Şagird pedaqoji prosesin "tamhüquqlu" iştirakçısı kimi müəllimlə birgə pedaqoji problemin həllində iştirak etsin. Bunun müsbət və səmərəli nəticəsini təkcə pedaqoji nəzəriyyə deyil, eyni zamanda praktik fəaliyyət də təsdiq edir. Onda belə bir sual meydana çıxır: əgər şagird subyekt səviyyəsinə qaldırılırsa, bəs onda pedaqoji prosesin obyekti nə olur və onun mahiyyəti nədən ibarət olur? İnkaredilməz həqiqətdir ki, pedaqoji proses o zaman daha səmərəli olur ki, onun digər tərəfləri ilə yanaşı, obyekti də dəqiq müəyyənləşdirilmiş olsun. Deməli, subyekt varsa, obyekt də olmalıdır. Bəs onda pedaqoji prosesin obyektini harada axtarmalıyıq?

Öyrənmə prosesinə diqqət etsək, bunu asanlıqla görmək olar.

Pedaqoji prosesin hər iki tərəfi – təhsilverən də, təhsilalan da fəal olduqda öyrətmə və öyrənmə prosesi birləşərək vahid bir istiqamətə yönəlir ki, bu da *mənimsəmə prosesindən* ibarət olur. Müəllim şagirdlərin fəal iştirakı ilə, onların pedaqoji prosesdə fəallığı şəraitində öyrənmələrinə, yeni materialı mənimsəmələrinə çalışır və burada başlıca diqqət mənimsəmə prosesinə yönəlir. Buna görə də bu prosesin obyektə çevrilməsi labüddür və mənimsəmə prosesi pedaqoji prosesin obyekti kimi diqqət mərkəzinə keçir. Beləliklə, mənimsəmənin pedaqoji prosesin obyektinə çevrilməsi şagirdlərin bu prosesdə həm də fəallığını, fəal iştirak etməsini təmin etmiş olur ki, bu da pedaqoji prosesin tam pedaqoji proses kimi vahid istiqamətdə inkişaf etməsinə səbəb olur.

Beləliklə, nəticə olaraq demək olar ki, pedaqoji proses təhsilverənlərlə təhsialanların qarşılıqlı əməkdaşlığı şəraitində böyüyən nəslin bir vətəndaş və şəxsiyyət kimi formalaşmasını təmin edən dinamik və bütöv sistem təşkil edir. Bu sistemin tərkib hissələri və komponentləri müəyyən spesifik əlamətlərinə görə fərqlənsə də, bir-biri ilə sıx əlaqədə olub, vahid bir proses kimi ümumi məqsədə xidmət edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası. Bakı? 2013 /http: //www.president.az/articles/ 9779
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010, 80 s.
3. *Əhmədov H., Zeynalova N.* Pedaqogika / Dərslik. Bakı: Eln və təhsil, 2016, 456 s.
4. *Həsənov A., Ağayev Ə.* Pedaqogika / Dərslik. Bakı: Nasir, 2007, 496 s.
5. *Qasımova L., Mahmudova R.* Pedaqogika: Dərslik. Bakı:Çaşıoğlu, 2012, 548 s.
6. Kazımov N. Məktəb pedaqogikası. Dərslik. Bakı: Çıraq, 2011, 440 s.
7. *Paşayev Ə., Rüstəmov F.* Pedaqogika. Yeni kurs / Dərslik. Bakı: Nurlan, 2007, 464 s.
8. *Коджаспирова Г.М.* Педагогика / Учебник. Москва:КНОРУС, 2010, 744 s.
9. *Подласый И.П.* Педагогика / Учебник. Москва: Высшее образование, 2007, 540 s.
10. *Сластенин В.А., Исаев И.Ф., Шиянов Е.Н.* Общая педагогика / Учебное пособие (Под ред.В.А.Сластенина). Москва, 2002, ч.1, 288 s.


Redaksiyaya daxil olub 27.06.2020

*UOT 37*

***N.R.İsmayılova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*niay.83@mail.ru*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN AİLƏ TƏRBİYƏSİNDƏ VALİDEYNLƏRLƏ İŞİN TƏŞKİLİ YOLLARI

***Açar sözlər:*** *məktəbəqədər, uşaq, ailə, tərbiyə, valideyn*

Məqalədə məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsində valideynlərlə işin təşkili yollarından bəhs olunur. Vurğulanır ki, ata və ana uşağın tərbiyəsində çox mühüm rol oynayırlar. Eyni zamanda valideyn nüfuzu da məqalədə önə çəkilən məsələlərdən biridir.

Ailə ilə məktəbəqədər müəssisənin birgə fəaliyyəti prosesi də uşağın ailə tərbiyəsində mühüm rol oynayır. Bu məsələ barədə də məqalədə məlumat verilir.

***Н.Р.Исмаилова***

## СПОСОБЫ ОРГАНИЗАЦИИ РАБОТЫ С РОДИТЕЛЯМИ В СЕМЕЙНОМ ВОСПИТАНИИ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

***Ключевые слова:*** *дошкольный, ребенок, воспитание, семья, родитель*

В статье рассматриваются способы организации работы с родителями в семейном воспитании дошкольников. Подчеркивается, что отец и мать играют очень важную роль в воспитании ребенка. В то же время родительский авторитет является одним из вопросов, поднятых в статье.

Процесс совместной деятельности семьи и дошкольного учреждения также играет важную роль в семейном воспитании ребенка. Эта проблема также освещается в данной статье.

***N.R.Ismayilova***

## METHODS OF ORGANIZATION OF WORK WITH PARENTS IN FAMILY PARENTING OF PRESCHOOL CHILDREN

***Keywords:*** *pre-school, child, parenting, family, parent*

The article dicusses the methods of organizing work with parents in the family parenting of pre-school children. It is emphasized that father and mother play a very important role in parenting a child. At the same time, parental authority is one of the issues put forward in the article.

The process of joint activities the family and the pre-school institution also plays an important role in the family parenting of the child. This issue is also highlighted in the article.

Məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi daima aktual və vacib məsələrdən hesab olunub. Belə ki, uşağın ilk düşdüyü və gözünü açdığı mühit ailə olduğuna görə orada qazandığı keyfiyyətlər onu daima izləyir.

Valideynin öz övladlarının tərbiyəsi üçün böyük məsuliyyət hiss etməsi uşaqların ailədə düzgün tərbiyə almasında əsas şərtdir. Tərbiyə üçün məsuliyyət hiss edən valideynlər öz övladlarında nə kimi xüsusiyyətlərin olmasını aydın surətdə dərk edib ardıcıl olaraq bu keyfiyyətləri onlara aşılayırlar. Bu məsuliyyət hissi onları uşaqlarının təlim və tərbiyəsini nəzarətsiz buraxmağa qoymur. Şəxsi nümunənin tərbiyədə həlledici rol oynadığını başa düşən valideynlər övladlarında yaratmaq istədikləri cəhətləri özləri nümunə olaraq göstərməyə səy edir və ümumiyyətlə, onların tərbiyəsi ilə müntəzəm məşğul olurlar. Bu ifadə lap yerinə düşər: "Yaxşı övlad tərbiyə etmək üçün, ilk növbədə, yaxşı valideyn yetirşdirmək lazımdır". Həqiqətən valideynlik anlamını başa düşənlər üçün burada çox vacib cəhətlər gizlənir.

Ailədə tərbiyə prosesini düzgün təşkil etmək mühüm məsələlərdən biridir. Bu təşkilatçılıqda isə ata və ananın özünəməxsus mövqeləri vardır.

Bilirik ki, uşaqların ailə tərbiyəsində ananın rolu böyükdür. N.K.Krupskaya doğru olaraq ananı "təbii tərbiyəçi" adlandırır. Ananın öz övladına hədsiz məhəbbəti, onun rifahı yolunda heç bir hüdud bilməyən fədakarlığı hamıya məlumdur. Ana övladının əziyyətini hələ onu dünyaya gətirməmişdən əvvəl çəkməyə başlayır. Uşaq doğulandan sonra da onu bəsləmək, hər cür xəstəlikdən qorumaq, xəstələnən vaxt yatağı yanında yuxusuz gecələr keçirmək, böyük səbr və mətanətlə onu böyütmək əsas etibarilə ananın üzərinə düşür. Analıq hissi qadının həyatını dolğun edir, ona bəzək verir.

Lakin ananın ailə tərbiyəsində böyük rolunu xüsusi qeyd edərkən bu işdə atanın rolunu unutmamalıyıq.

Ailə tərbiyəsinin müvəffəqiyyəti ata ilə ananın tərbiyə işində birgə iştirak etməsindən, bütün tərbiyəvi tədbirlərdə birgə olmalarından çox asılıdır. Uşaq körpə olan vaxtda belə ata onun bəslənməsində anaya kömək edə bilər və etməlidir.

Atanın körpə uşağını gəzməyə aparmaq, ona nağıl danışmaq, əyləndirmək və başqa formada qayğı göstərməkdə iştirakı onun mühüm vəzifələrindən biridir. Uşağın yaşı artdıqca atanın ailə tərbiyəsində rolu böyüyür. Bağça yaşında uşağı gəzməyə aparmaq, ətrafdakı hadisələr haqqında onunla müxtəlif məzmunlu söhbətlər etmək, birgə şəkil çəkmək, kitablar oxumaqla ata övladının düzgün tərbiyəsinə xeyli kömək edə bilər.

Amma çox təəssüf ki, müasir dövrdə bəzi atalar uşaqlarına maraq göstərmir. Yəni uşağın ağlamağı, qışqırması onu hirsləndirir. Bu zaman ata müəyyən xoş olmayan sözləri uşağın ünvanına səsləndirir. Və yaxud da ata öz atalıq missiyasını uşağın 9-10 yaşı olanda baş düşür. Fikrimcə, bu heç də düz hal deyil. Çünki oğlan evlənəndə düşünməli idi ki, o, ata olacaq və qarşıda duran problemləri də həll etmək iqtidarında olmalıdır. Çünki bəzi ailələr sadəcə evlənir,

ailə qurmur.

Uşağın ailədə məqsədyönlü tərbiyəsində valideynlərin nüfuzunun da bir şərt kimi mühüm əhəmiyyəti vardır. Valideyn nüfuzunun ən əsas cəhəti onun vətəndaş siması, səmərəli işlər görməsi, ailə məişətinin normal qurulması və təminatı, eləcə də, valideynin işlədiyi kollektivdə, ictimaiyyət arasında hörmətə layiq olmasıdır. Valideynlərin həyat tərzi onların uşaqlar yanında nüfuz qazanmalarını müəyyənləşdirir. Uşağın şəxsiyyətinə hörmət, onun maraqlarının nəzərə alınması, münasibətlərdə qayğılı və tələbkar mövqe tutmaq valideyn nüfuzunu təmin etdiyi kimi, uşaqların da azad, sərbəst, özünəinamlı olmasına, normalara riayət etmək vərdişləri qazanmasına kömək edir.

Elə olur ki, valideynlər öz uşaqlarının yanında heç bir nüfuz qazana bilmirlər. Bu, adətən elə valideynlərin başına gəlir ki, onlar uşağın bütün şıltaqlıqlarını həyata keçirir, öz tələblərində ardıcıl olmurlar: bu gün bu şey üçün uşaqlarına icazə verir, sabah həmin şey üstündə onu danlayırlar.

Uşağın itaətkarlığına o valideynlər nail olurlar ki, onlar ani zəifliyə qapılmayaraq uşağa qarşı öz tələblərində möhkəm və ardıcıldırlar. Əsl valideyn nüfuzu nə uşaqda qorxuya səbəb ola biləcək qədər həddən artıq ciddiliklə, nə də həddən artıq yumşaqlıqla, güzəştə getməklə əldə edilə bilməz.

Təcrübə göstərir ki, valideynlərin pedaqoji biliklərə yiyələnməsi, pedaqoji takt və yanaşmadan istifadə etməsi, sağlam əxlaqi-mənəvi dəyərlər daşıyıcısı olması, səbrliliyi, təmkinliyi, möhkəm iradi keyfiyyətləri ilə seçilməsi, tərbiyədə məqsədyönlülüyü nəzərə alması uşaqların ahəngdar inkişafının reallaşmasına şərait yaradır.

Uşaq tədricən ailə münasibətləri normalarına yiyələndiyi halda bir çox mühüm cəhətləri və keyfiyyətləri qazanmış olur. Onda "yaxşı nədir, pis nədir" haqqında təsəvvür formalaşır və uşağın təsəvvüründə köklü dəyişikliklər əmələ gəlir. Özü haqqında təsəvvürləri formalaşdıqca, uşağın davranış və rəftarı da dəyişir. Xüsusən də yaşlılarla və həmyaşıdları ilə ünsiyyət şəraitində uşağın xarakteri formalaşmağa başlayır. Xatırladaq ki, bu mərhələdə də valideynlərlə uşaqlar arasındakı münasibətlər həlledici əhəmiyyət kəsb edir. Bu sahədə psixoloqlar maraqlı bir müşahidə aparıblar. Onlar kollektivdə öz davranış və rəftarı ilə bir-birindən kəskin surətdə fərqlənən şagirdləri iki qrupa ayırıblar. Birinci qrupa özünün kollektivçiliyi, müstəqilliyi, məsuliyyət hissi, aktivliyi, özünə tənqidi yanaşması və s. keyfiyyətləri ilə seçilən uşaqlar yığılıb. İkinci qrupa isə əks keyfiyyətləri ilə fərqlənən uşaqlar daxil edilib. Bundan sonra psixoloqlar həmin uşaqların valideynləri ilə münasibətlərinin xarakterini müqayisəli surətdə öyrəniblər. Məlum olub ki, birinci qrupa daxil olan uşaqların valideynləri onların hissləri ilə yaxından maraqlanır, onlarla təmkinlə rəftar edir, asudə vaxtlarını onlarla birlikdə keçirir, onlara mənəvi təsir göstərirlər. Bir sözlə, onları sevgi və qayğı ilə əhatə edən valideynlər eyni zamanda onlara şəxsiyyət kimi yanaşır, müstəqil olmalarına şərait yaradırlar. Belə uşaqlar cəmiyyətdə özlərinə daha

asanlıqla yer tapırlar. İkinci qrupa aid olan uşaqların valideynləri ilə münasibəti isə söylədiklərimizdən tamamilə fərqlidir. Bir sözlə, ikinci qrupa aid olan uşaqlara valideynləri səbrsiz yanaşır, onlara lazımi diqqət və vaxt ayırmırlar. Bir qayda olaraq onlara nəyisə başa salmaqdansa, tənqid etməyə üstünlük verirlər. Nəticədə isə uşaqda müəyyən komplekslər yaranır. Onlar cəmiyyətə çətinliklə uyuşurlar. Özlərini lazımi səviyyədə dəyərləndirmirlər. Psixoloqların fikrincə, valideynlərin uşaqlarla münasibətləri nəinki məktəbəqədər və yenicə məktəbə gedən dövrlərdə, həm də yeniyetməlik və gənclik çağlarında da onların bir şəxsiyyət kimi inkişafının başlıca əsasını təşkil edir.

"Məktəbəqədər yaşlı uşaqlar dostcasına münasibəti çox xoşlayırlar və tək qalmaqdan nadir hallarda razı qalırlar. Onlar mehribanlıq və xeyirxahlığı çox sevirlər. "Mənim üçün xoş olan şey anam üçün də xoş olacaq", - deyə düşünürlər və öz kiçik sevinclərini onunla bölüşməyə tələsirlər.

Sizin üçün əhəmiyyətsiz görünən, lakin körpəniz üçün çox vacib olan şeylərə etinasız yanaşaraq onun kövrək ürəyini yaralamayın. Sizin rəğbətiniz və mehribanlığınız onun üçün əvəzolunmaz qiymətə malikdir. Təqdiredici baxış, ruhlandırıcı sözlər və təriflər onun ürəyini günəş şüaları kimi işıqlandırar və evdəkilərin hamısını xoşbəxt edər.

Uşaqları sizə etibar etməyə, öz dərdlərini, gündəlik qayğılarını və narahatçılıqlarını sizinlə bölüşməyə ruhlandırın. Onlarla mülayimcəsinə davranaraq öyüd verin və öz ürəyinizi də onlar üçün açın. Bu dövr uşaqlar üçün böhranlı dövrdür. Onlar öz üzərlərində sizdən ayrılmaq qorxusu yaradan təsirlər hiss edirlər, siz buna qarşı mübarizə aparmalısınız. Onlar üçün etibarlı şəxs olmağa çalışın" [1].

Uşaqlar valideynlərlə yaxın münasibət qursalar, bu zaman bir çox təhlükələrdən uzaq sayılmış olarlar. Valideynlər övladlarını ruhlandırmalıdırlar ki, onlar açıq və səmimi olsunlar, öz çətinlikləri haqqında valideynlərə danışsınlar və onlardan kömək istəsinlər, yaxud hansısa məsələ onları narahat edirsə və çıxış yolu tapmağa çalışırlarsa, valideynlərdən məsləhət alsınlar. Hələ körpə yaşlarından uşağın inkişafının hər bir addımını izləyən ana onun təbii meylləri ilə tanışdır, məhz buna görə də o, öz övladına hamıdan yaxşı məsləhət verə bilər.

Uşaq inanır ki, ata-anası ən yaxşı, ən ədalətli, ən gözəl adamlardır. Ona görə də hər bir uşaq öz atasına və ya anasına oxşamaq istəyir. Odur ki, uşaqlar özlərini valideynlərinə oxşatmaq üçün onlarda olan bütün müsbət və mənfi nə varsa, hamısını nümunə kimi qəbul edirlər.

Ailədə daima böyüklərin qəzəbli üzünü görən, onların əsəbi səsini eşidən uşaq özü də xasiyyətcə kinli olur. Amma xoş mühitdə böyüyən uşaq isə tamamilə nikbin və gülərüzlü olacaqdır.

Çox vaxt böyüklər elə hesab edirlər ki, uşaq hələ kiçikdir, böyüyər, dəyişər, öyrətməyinə dəyərmi, hələ tezdir. Ümumiyyətlə, o şey ki, indi etmək lazımdır? – bu işi sonraya qoyurlar. Bəzən belə nüansların arxasındakı tərbiyə məsələsində ya valideynlərin bacarıqsızlığı gizlənir, ya da tərbiyəni vaxtında başlamağa tənbəllik

edirlər ki, böyüdükcə hər şey öz-özünə düzələr.

Uşağın onu əhatə edənlərin yanında özünü yaxşı hiss etməsi üçün ilk olaraq onda insanlara qarşı düzgün münasibəti formalaşdırmaq lazımdır. İnsanlarla ilk münasibətdən uşaq böyüklərin ailədə, küçədə, qonaqlıqda özünü aparmalarına diqqət yetirir. Böyüklərə baxması ilə yanaşı, o, özünün ətarfdakılara qarşı münasibətini formalaşdırır.

Uşaqlar arasındakı düzgün münasibəti formalaşdırmaqla pedaqoq hər bir uşağın digər uşaqlara diqqətini də yaratmış olur. Məsələn, bunu uşaqların müxtəlif oyuncaqları bir-birinə ötürməsində kömək etməsi kimi nümunələrlə də izah etmək olar. Tərbiyəçi bu prosesdə mühüm rola malikdir. V.A.Suxomlinski deyirdi ki, tərbiyə tərbiyə olunanla tərbiyə edən arasında olan səmimi ünsiyyət və mənəvi yaxınlıq şəraitində öz ifadəsini tapır.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində ailə ilə uşaq bağçasının birgə işi ən mühüm yollardan biridir. Belə ki, məktəbəqədər müəssisə əməkdaşlarının ailə ilə işi əsas fəaliyyət hədəfidir. Məktəbəqədər müəssisə uşaqların tərbiyəsini düzgün təşkil etmək üçün ailələrlə ünsiyyət yaradır, birgə fəaliyyət göstərirlər. Bunun üçün müəssisənin qarşısında bir neçə vəzifə durur:

a) valideynlərin pedaqoji maariflənməsi;

b) hər bir uşağın ailə həyatını öyrənib ailə təcrübəsini təbliğ etmək.

Məktəbəqədər tərbiyənin konsepsiyasında deyilir ki, məktəbəqədər tərbiyə müəssisəsi ailənin xronoloji davamçısıdır. Müasir tərbiyə işi ailənin öyrənmə metodunu, ailəyə bələd olmağın yollarını tapmalıdır. Nəticədə, uşaq valideyn məhəbbəti, digər tərəfdən, tərbiyəçinin diqqəti sayəsində cəmiyyətin fəal üzvünə çevrilir.

"Ailə ilə məktəbəqədər müəssisənin birgə fəaliyyətində aşağıdakıların nəzərə alınması tövsiyə olunur:

1. Tərbiyəçi və valideynlərin uşaqların təlim-tərbiyəsində tərəfdaş olması;

2. Tərbiyəçi və valideynlərin uşaqların təlim-tərbiyəsinin məqsəd və vəzifələrini bilməsi;

3. Tərbiyəçi və valideynlər tərəfindən uşağa kömək, hörmət və inamın göstərilməsi;

4. Tərbiyəçi və valideynlərin uşaqların tərbiyəsində kollektiv və ailənin tərbiyəvi imkanlarını bilməsi, uşaqlarla birgə iş zamanı tərbiyəvi potensialdan maksimum istifadə edilməsi;

5. Məktəbəqədər müəssisələr və ailənin qarşılıqlı fəaliyyətinin, onun aralıq və son nəticələrinin daim təhlil edilməsi" [2].

Uşağın ailədə necə tərbiyə olunması onun uşaq bağçasındakı tərbiyəsinə ciddi təsir göstərir. Uşağın tərbiyəsində pedaqoji maarifləndirmə məqsədi ilə valideynlər arasında pedaqoji-psixoloji təbliğat aparmaq lazımdır. Çox valideynlər uşaq bağçasına uşaqların saxlanma müəssisəsi kimi baxır. Bir çox valideynlər isə elə başa düşür ki, hər şeyi bağça etməlidir. Əslində isə belə deyildir. Çünki uşaq

bağçaya ailədən gəlir. Bu əsnada uşağın tərbiyəsi işini elə qurmaq lazımdır ki, ailədə uşaq nə qədər sevilirsə, bağçada da o münasibət qalsın. Ona görə də ailə ilə bağça işinin birgə olması mühüm məsələlərdən sayılır.

"Ailələrlə əlaqə üçün aşağıdakı strategiyalardan istifadə edilməsi tövsiyə olunur:

• uşaq bağçası mühiti xaricində ailələr və uşaqlarla qarşılıqlı əlaqənin saxlanılması;

• geniş perspektivlər barədə fikrini bildirmək üçün valideynlərin həvəsləndirilməsi;

• valideynlərin məktəbəqədər təhsil müəssisəsindəki fəaliyyətlə əlaqəsi olan, evdə istifadə edilməli resurslarla təmin edilməsi;

• tərbiyəçilərin ailələri öyrənməsi üçün imkan daxilində ailələrə səfərlər edilməsi və valideynlərin maarifləndirilməsi;

• uşağın qayğı da daxil olmaqla sağlamlığa dair qabaqlayıcı tədbirlər və xidmətlərlə təmin edilməsi;

• həssas ailələrə diqqət yetirilməsi" [3].

Ailə ilə uşaq bağçasının birgə işində valideyn guşəsinin rolu da az deyil. Guşəyə tərbiyənin müasir problemlərinə dair metodik material, qəzet-jurnal məqalələri, uşaqların əl işlərindən nümunələr və s. qoyulur ki, bu da sözsüz ki, valideynlərin maariflənməsinə yardımçı olur. Çünki valideynlər məktəbəqədər müəssisə ilə bağlı yeni məlumatları bilməlidirlər. Bu, onların uşaqları ilə evdə asan işləməsinə şərait yaradar.

Uşaq bağçasında təşkil edilmiş sərgidə valideynlərin birgə işindən bəhs edən qabaqcıl iş təcrübəsi ilə əlaqədar materiallar, şəkillər, bukletlər, kitablar və s. nümayiş etdirilir. Valideynlərin bu sərgi materialları ilə yaxından tanış olması, övladının əl işləri onu sevindirir, onu uşaq bağçasının fəaliyyətinə yaxınlaşdırır.

Kiçik vətəndaşların inkişafı və tərbiyəsi işində ailə tərbiyəçi-müəllimlərin yaxın köməkçisi olmalıdır. Bununla yanaşı, hələ də bir sıra məktəbəqədər müəssisələrin tərbiyəçiləri valideynlərlə iş apararkən optimal təsir metodlarından istifadə edə bilmir, nəsihət verməyə, öyrətməyə səy göstərirlər. Hər bir məktəbəqədər müəssisədə tərbiyəçi-müəllim və valideynlərin əməkdaşlığını təmin etmək, qabaqcıl ailə tərbiyəsinin roluna diqqət yetirmək lazımdır.

Uşaqlara, onların tərbiyəsinə qayğı göstərmək ümumxalq işidir. Bütün cəmiyyət bu iş üçün cavabdehdir. Çünki uşaqlar cəmiyyətin, xalqın gələcəyi, yaşlı nəslin davamçılarıdır. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır.

Uşağın tərbiyəsi ailədən başlanır və sonralar məktəbəqədər müəssisədə davam etdirilir. Deməli, gənc nəsil həm ailə tərbiyəsi, həm də ictimai tərbiyə ilə əhatə olunurlar.

Ailə uşağın doğulduğu, böyüdüyü və tərbiyə aldığı ilk ictimai-mədəni ocaq

olduğundan tərbiyəçilər hər bir ailənin mədəni dəyərlərinə də hörmətlə yanaşır, öz münasibətlərində bu amili diqqət mərkəzində saxlayır. Tərbiyəçilər uşaqların ailəsi və yaxınlarının demoqrafik problemləri, ailə üzvlərinin məşğuliyyəti, maraqları, idealları haqqında məlumatlar əldə edirlər.

Valideynlər uşaqlarla keçirilən bütün kütləvi tədbirlərdə, təlimdə, problemlərin həllində iştirak etməyə cəlb edilirlər. Valideynlər tərbiyəçilərlə birlikdə inkişafın stimullaşdırılmasında fəal iştirak edir, səy göstərirlər. Bunun üçün ilk növbədə qruplarda mənimsənilən bilik və bacarıqlar ailədə möhkəmləndirilir.

Valideynlər uşaqların təlim fəaliyyətində iştirak etdikləri təqdirdə onların təlim nailiyyətləri yüksəlir. Belə bir əməkdaşlıq şəraitində valideynlərin pedaqoji maarifləndirilməsi üçün aşağıdakıları bilmələri məsləhətdir:

- uşaqların yaş xüsusiyyətlərini;
- təlim-tərbiyə işinin əhəmiyyətini;
- uşaqların fəaliyyətlərini stimullaşdıran öyrədici mühitin vacibliyini;
- fiziki, emosional müdafiənin təmin edilməsi, mühitin təhlükəsizliyinin zəruriliyini;
- uşaqların fəallığını.

Valideynlər öz uşaqlarının əqli qabiliyyətləri haqqında tərbiyəçidən məlumat alır, onların təlim nailiyyətlərinə verilən qiyməti daha asan qavrayaraq uşağın irəliləyişini sürətləndirmək məqsədilə tərbiyəçilərlə əməkdaşlıq edirlər.

Azərbaycan xalqı xoşbəxtdir ki, o hələ də çoxuşaqlı, nənəli-babalı, analı-atalı, oğullu-qızlı ailə olaraq qalır. Bu böyük ailə bir nəsil, soy təşkil edir və əksər halda da bir yuvada ömür sürürlər. Deməк, ailə münasibətləri, sülalə əlaqələri bizdə hələ də möhkəmdir. Baba özünü bu ailənin başçısı, ağsaqqalı, qayğıkeşi hesab edir, onun ənənəsini qorumağa çalışır, öz soyadının mənəvi saflığının keşiyində hər vaxt dayanır. Əgər nənələr ailənin, ocağın hərarətini, mehribançılığını qoruyub nəsildən-nəslə yadigar verməyə çalışırlarsa, babalar ailənin, nəslin kişilik, zəhmətsevərlik, mərdlik ənənələrini qoruyub nəsildən-nəslə yadigar verməyə çalışırlar. Əslinə baxsan, ailədə nənə də, baba da eyni məqsədə xidmət edir – bütün səylərini ailənin möhkəmlənməsinə, baş verən narazılıqların dinc yolla həll olunmasına, nəvələrin, nəticələrin işgüzar, ləyaqətli böyüməsinə sərf edirlər.

“Nənə-nəvə münasibətlərindən bəhs edənlərdən biri kimi Nurəddin Babayev yazır: “ ... nənələr nəvələrini öz övladlarından çox sevirlər. Bilmərəm, çoxmu, azmı, ancaq onu bilirəm ki, nənə nəvəsini xüsusi bir məhəbbətlə sevir. Bu daha qızğın, daha incə, daha təmənnasız və fədakar məhəbbət olur. Onu da bilirəm ki, nənə ilə nəvə bir-birinə ilk baxışda gözəgörünməyən, lakin əslində çox möhkəm tellərlə bağlanırlar. Bunun səbəbini də izah etmək çətindir. Bəlkə ona görə ki, uşaq da sadəlövh olur, qoca nənə də, bəlkə ona görə ki, uşağın da sevinci, kədəri həyatın adi və təbii hadisələrindən doğur, qoca nənənin də. Bəlkə ona görə ki, nənə cavan olarkən öz uşaqlarında görə bilmədiyi, daha doğrusu, görməyə macal tapmadığı

keyfiyyətləri nəvəsində kəşf edir, onun dil açıb şirin-şirin danışmasını ürək döyüntüsü ilə dinləyir, ilk titrək addımlarını fərəhlə izləyir, onun hər hərəkətinə böyük maraq göstərir. Nəvələr də bu marağı, bu qayğıkeşliyi cavabsız qoymurlar. Onlar da öz növbəsində məhəbbətə məhəbbətlə, inama inamla, marağa maraqla cavab verməyə çalışırlar. Qəribədir, üç yaşlı nəvəm yıxılıb ağlayanda, heç kəs onu ovuda bilmir, "Nənəmi çağırın, nənəmi çağırın"- deyə haray salır" [4].

Beləliklə, məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsi hansı dövrdə yaşamağımızdan asılı olmayaraq daima aktualdır və fikrimcə, belə də olacaqdır. Ona görə də bu münasibətləri qoruyub-saxlamaq hər birimizin müqəddəs borcudur. Bu işdə valideynlə tərbiyəçilərin birgə işi isə ən bəyənilən cəhətlərdən biridir.

## ƏDƏBİYYAT


1. https://xanim.az/usaq-nece-terbiye-olunmalidir-817
2. https://kayzen.az/blog/xo%C5%9Fb%C9%99xt-ail%C9%99/11014/ail%C9%99d%C9%99-dostluq.html
3. https://ru.calameo.com/read/004260872e634adb3c6cb
4. https://naxcivanxeberleri.com/cemiyyet/10251-ailnin-yasli-uzvlrinin-usagin-trbiysind-rolu.html


Redaksiyaya daxil olub 03.07.2020

*UOT 37*

***Q.A.Qafarov***
*Azərbaycan Texniki Universiteti*
*qafarov1997@gmail.com*

# AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLALANLAR KONTEKSTİNDƏ QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *peşə təhsili, peşə liseyləri, statistik göstəricilər, qrafiki nəticələr, təhsilalanlar*

Hal-hazırda texnologiya və elmin və buna paralel olaraq da sənayeləşmənin inkişaf etdiyi ölkələrdə texnologiyanın və yeni texnoloji sistemlərin sənayedə kütləvi tətbiqi xüsusi keyfiyyətlərə malik insan kapitalının yetişdirilməsinə ehtiyac yaratmışdır. Bu mərhələdə xüsusi keyfiyyətli insan gücünün yetişdirilə bilməsi üçün texniki peşə təhsilinin qurulması lazımdır. Texniki peşə təhsil sistemi qurularkən peşə təhsil müəssisələrində təhsilalanlara müasir texnoloji metodların mənimsədilməsi əsas götürülməlidir. Əlbəttə, texniki peşə məktəblərində verilən bu nəzəri və praktiki biliklər təkbaşına qənaətbəxş olmayacaqdır.

Azərbaycanda bir növ praktiki tədqiqatların aparılmaması problemlərin həllini tapmasını ləngidir. Peşə təhsilində qiymətləndirmə müxtəlif faktorlar əsasında mümkündür. Müəllif düşünür ki, təhsil sisteminin qiymətləndirilməsində onun yetişdirdiyi fərdlərin fikirlərinin də diqqətə alınması lazımdır. Bu məsələ tədqiqatın əsas predmentinə çevrilmişdir.

***Г.А.Гафаров***

# ОЦЕНКА ПРОФЕССИОНАЛЬНО-ТЕХНИЧЕСКИХ УЧИЛИЩ В АЗЕРБАЙДЖАНЕ В КОНТЕКСТЕ ОБУЧАЮЩИХСЯ

***Ключевые слова:*** *профессиональное образование, профессионально-технические училища, статистические показатели, графические результаты, обучающиеся*

В странах, где технология и наука и индустриализация развивались параллельно, коллективное применение технологий и новых технологических систем в промышленности создало необходимость в обучении человеческого капитала со специальной квалификацией. На этом этапе следует создать профессионально-техническое обучение для подготовки кадров особого качества. При создании системы технического профессионального образования, приобретение современных технологических методов должно быть принято за основу для учащихся учреждений профессионального образования. Конечно, эти теоретические и практические знания, данные только в профессиональных школах, не будут удовлетворительными.

Отсутствие каких-либо практических исследований в Азербайджане замедляет решение проблем. Оценка в профессиональном образовании возможна на основе нескольких факторов. Автор считает, что при оценке системы образования

необходимо учитывать мнения отдельных лиц, которых он вносит в повестку дня. Эта тема стала основной темой исследования.

***G.A.Gafarov***

**EVALUATION OF VOCATIONAL EDUCATION INSTITUTIONS IN AZERBAIJAN IN THE CONTEXT OF STUDENTS**

***Keywords**: vocational education, vocational high schools, statistical indicators, graphic results, students*

In countries where technology and science and industrialization have developed in parallel, the collective application of technology and new technological systems in industry has created a need to train human capital with special qualifications. At this stage, technical vocational training should be created to train special quality human resources. While establishing a technical vocational education system, the acquisition of modern technological methods should be taken as basis for students in vocational education institutions. Of course, this theoretical and practical knowledge given only in vocational schools will not be satisfactory.

The absence of any practical research in Azerbaijan slows down the solution of problems. Evaluation in vocational education is possible on the basis of several factors. The author thinks that while evaluating the education system, the opinions of the individuals he brings to the agenda should be taken into consideration. This topic has become the main topic of the research.

## Giriş

Bazarların liberallaşması, qloballaşma və texnoloji dəyişikliklər gün-gündən daha rəqabətli iqtisadi mühit yaradaraq əmək və əməyin təşkilinin mahiyyətinə əsaslı şəkildə təsir göstərmişdir. Qlobal iqtisadiyyatın köklü dəyişməsi hökumətləri və özəl sektorları öz inkişaf strategiyalarını təhlil etməyə və mövcud peşə təhsil sistemini yenidən nəzərdən keçirməyə vadar etmişdir. Ona görə də təəccüblü deyildir ki, əh mühüm dəyişikliklər məhz təhsil sistemində, xüsusilə də texniki peşə təhsilində olmuşdur. Dəyişikliyin mahiyyəti Azərbaycan peşə təhsil sistemində əmək bazarının tələblərinə cavab verən kadr hazırlığını həyata keçirən mühitin qurulması, peşə standartlarını müasirləşdirilməsi və müasir tələblərə cavab verən peşə təhsil sisteminin qurulmasıdır.

Azərbaycan təhsil sistemində peşə təhsili olduqca mühüm mövqeyə sahibdir. Buna görə də dövlətimiz tərəfindən peşə təhsili sistemi daim inkişaf etdirilir və peşə təhsilinin dünya standartlarına inteqrasiyası proqramı müvəffəqiyyətlə həyata keçirilir. Respublikamızda ilk peşə-ixtisas təhsilinin həm kəmiyyət, həm də keyfiyyət baxımından sürətli inkişafı demokratik Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən başlamışdır. Təsadüfi deyil ki, məhz ulu öndərin rəhbərliyi altında ölkəmizdə iri sənaye mərkəzləri, fabrik və zavodlar tikilmişdir. H.Əliyevin qabaqcıl siyasətinin nəticəsində təkcə

istehsal iqtisadiyyatı deyil, peşə-ixtisas təhsili müəssisələrinin də inkişafı başlamışdır. Cənab prezident İlham Əliyevin 2016-ci il 6 dekabr tarixli fərmanı ilə "Peşə Təhsili və Təliminin İnkişafına Dair Strateji Yol Xəritəsi" qəbul edilmişdir ki, bu da peşə təhsilinin dövlətin sosial-iqtisadi inkişafında rolunun və peşə təhsilinə dövlət tərəfindən dəstəyin olduğunu sübut edir. Dövlət tərəfindən aparılan bütün məqsədyönlü islahatların ən mühüm vəzifələrindən biri texniki profilli peşə məktəblərinin (və eləcə də digər profillər üzrə) səviyyəsini keyfiyyətcə yüksəltmək, fəaliyyət zamanı (həm tədris, həm də idarəetmə fəaliyyəti zamanı) yaranacaq nöqsanları aradan qaldırmaq və o cümlədən əmək bazarının tələblərinə uyğun ixtisaslı kadr hazırlığını təşkil etməkdən ibarətdir [1; 3]. Əlbəttə, bu proqramların icrası zamanı peşə-ixtisas təhsili imkanını yaradan peşə təhsili müəssisələrinin danılmaz rolu olduqca vacibdir.

**Azərbaycan peşə təhsilində problemlər**

Həyata keçirilmiş tədbirlərə baxmayaraq təhsil sisteminin prioritet sahələrindən biri olan peşə təhsili və təlimi sistemində müəyyən problemlər mövcuddur. Belə ki, inkişaf etmiş ölkələrdə orta təhsil pilləsi məzunlarının 40-60 faizi məhz peşə-ixtisas təhsili müəssisələrinə qəbul olunduğu halda, Azərbaycanda bu rəqəmin 11 faizdən aşağı olması əhalinin bu təhsil istiqamətinə marağının az olduğunu göstərir [6].

Ölkəmizdə mövcud peşə təhsili və təlimi sistemi aşağıdakı xarakterik problemlərlə səciyyələnir:

- ilk peşə-ixtisas təhsili üzrə normativ-hüquqi bazanın yenilənmiş və çevik olmaması;
- maddi-texniki və tədris bazasının fiziki və mənəvi cəhətdən köhnələrək sıradan çıxması;
- peşə-ixtisas təhsili sistemində istifadə olunan təhsil proqramlarının, dərslik və dərs vəsaitlərinin müasir tələblərə cavab verməməsi;
- peşə-ixtisas təhsili müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi və monitorinqi üçün mütərəqqi mexanizmin olmaması;
- peşə-ixtisas təhsili sistemində mövcud idarəetmənin bazar iqtisadiyyatı prinsipləri ilə tam uzlaşmaması və onun dövlət büdcəsindən maliyyələşdirilməsi mexanizminin kifayət qədər səmərəli olmaması;
- işəgötürən təşkilatların peşə təhsili müəssisələrinin maliyyələşdirilməsində iştirak etməməsi və bunun üçün müvafiq qanunverici bazanın mövcud olmaması;
- peşə-ixtisas təhsili sistemində çalışan kadrların hazırlıq səviyyəsinin və əmək haqlarının qənaətbəxş olmaması;
- müxtəlif mülkiyyət formalarına əsaslanan və peşə hazırlığı üzrə fəaliyyət göstərən qurumlar arasında əlaqənin zəif olması;
- ümumtəhsil müəssisələrində peşəyönümü işinin zəif aparılması;
- məzunların əmək bazarının tələblərinə cavab verməməsi;
- eyni peşə istiqamətləri üzrə paralel kadr hazırlığı həyata keçirən ilk peşə-

ixtisas təhsili müəssisələrinin mövcudluğu;

➢ təhsil müəssisələrinin böyük əksəriyyətinin başqa təyinatlar üzrə istifadə edilməsi [6].

**Tədqiqat probleminin formalaşdırılması**

Peşə təhsil müəssisələri müəyyən peşə sahəsinə istiqamətlənmiş insan kapitalının yetişdirilməsini qarşısına məqsəd qoyan təhsil müəssisələridir. Peşə təhsil müəssisələrinin əsas məqsədi ticarət, sənaye və xidmət sektorlarında tələb olunan sahələr üzrə kifayət qədər bilik və bacarıqlara sahib olan kadrların yetişdirilməsidirr. Bununla yanaşı, elmi araşdırmalar vasitəsilə ilə məlumat istehsal etmək, məlumatları cəmiyyətə çatdırmaq və məlumatı məhsula və texnologiyaya çevirmək məqsədini də daşıyır.

Azərbaycanda peşə təhsilinə dair statistik göstəricilərə nəzər saldıqda görürük ki, son tədris illərində peşə təhsilinə olan maraq xeyli artmışdır. Amma bu göstərici o demək deyildir ki, ümumilikdə orta təhsildən peşə təhsilinə qəbul olmaq istəyən şagirdlərin sayında böyük artım müşahidə olmuşdur. İnkişaf etmiş ölkələrdə orta təhsil pilləsindən peşə təhsilinə müraciət edən şagirdlər 40-60%-dirsə, Azərbaycanda bu göstərici 11%-dir [6]. Əhalidə peşə təhsilinə maraq yaratmaq məqsədilə uyğun tədbir və islahatlar müvəffəqiyyətlə hazırlanır və həyata keçirilir. Şagirdlərin peşə təhsilinə olan marağını nəzərə alaraq Təhsil Nazirliyi tərəfindən marağa uyğun yeni peşə təhsil müəssisələrinin fəaliyyətə başlaması, mövcud peşə təhsil müəssisələrinin təmir olunması, maddi texniki baza ilə təchiz olunması, müasir tələblərə cavab verən yeni tədris materiallarının tərtib olunması, peşə təhsili və təlimində iştirak edən mühəndis-pedaqoji heyətinin ixtisasartırma kurslarına cəlb olunması kimi tədrisin keyfiyyətinin yüksəldilməsini qarşısına başlıca tələb qoyan tədbir və islahatlar həyata keçirilir. Təhsil Nazirliyinin son beş tədris ilinin statistik göstəricilərinə nəzər yetirsək, görərik ki, Azərbaycanda son illərdə peşə liseylərinin sayı yaranan tələbata mütənasib olaraq xeyli dərəcədə artmışdır (cədvəl 1) [2].

**Cədvəl 1. Statistik göstəricilər**

| *№* | *Tədris ili* | *Peşə liseylərinin sayı* | *Təhsilalanların sayı* |
|---|---|---|---|
| *1.* | 2013-2014 | 108 | 27745 |
| *2.* | 2014-2015 | 107 | 24328 |
| *3.* | 2015-2016 | 113 | 24302 |
| *4.* | 2016-2017 | 113 | 23703 |
| *5.* | 2017-2018 | 113 | 24804 |

*Qeyd:* Naxçıvan Muxtar Respublikasında yerləşən ilk peşə ixtisas təhsili müəssisələri nəzərə alınmamaqla

Peşə təhsil müəssisələri mövcud tələbə sayı etibarilə peşə-ixtisas təhsilinin çox vacib bir hissəsini təşkil edir. Son illərdə peşə-ixtisas təhsili imkanını təqdim edən peşə təhsili müəssisələrinin ölkəmizin sosial və iqtisadi inkişafındakı vaciblik statusu gün keçdikcə daha da artmaqdadır. Bu, inkişafa uyğun olaraq peşə təhsili müəssisələrinin problemlərinin həllinə yönəlmiş yeni yanaşmaların meydana çıxarılma zəruriliyini yaradır. Peşə təhsilinə, vəziyyətinin qiymətləndirilməsinə və mövcud problemlərə təhsilalanların fikirləri əsasında baxılması qeyd olunan yanaşmalardan biri olmalıdır.

Peşə təhsili müəssisələrində ümumiyyətlə, peşə-ixtisas təhsilində yaranan boşluqların və problemlərin müəyyənləşdirilməsi bir neçə faktorun analizi əsasında mümkündür. Sadəcə məqalənin tədqiqat fəaliyyətinə uyğun olaraq peşə liseylərində təhsilalanların fikirləri əsasında problemlərin müəyyənləşdirilməsi məsələsi araşdırılmışdır. Onu da nəzərə alaq ki, peşə təhsili müəssisələrinin əsas məqsədi sayılan ixtisaslı kadr hazırlığının aparılması məsələsi birbaşa təhsilalanlara istiqamətlənmişdir. Buna görə də təhsilalanların fikirlərinin və ümumilikdə təhsil aldıqları peşə təhsili müəssisəsinə baxış tərzlərinin araşdırılmasını məqsədəuyğun hesab etmək olar.

**Material və metod**

Təhsilalanlar tərəfindən qeyd olunan məqamların aşkara çıxarılması məqsədilə reallaşan tədqiqat Texnika və Texnologiyalar üzrə Bakı Peşə Təhsil Mərkəzinin tabeçiliyində fəaliyyət göstərən 14 nömrəli Bakı Peşə Liseyində reallaşdırılmışdır. Tədqiqat prosesində 36 nəfər təhsilalan iştirak etmişdir. Təhsilalanların 3 nəfəri qız, 33 nəfəri isə oğlandır. Tədqiqat liseydə iki fərqli ixtisas qrupu arasında aparılmışdır. Bununla da, təhsil müəssisəsi barəsində daha çox informasiya toplamaq imkanına nail olunmuşdur. Əldə olunan statistik göstəricilər əsasında da təhsilalanların diqqətinə çarpan problemlər aşkarlanmış və problemlərin aradan qaldırılması məqsədilə peşə təhsili müəssisəsinin daxilində əsaslı dəyişikliklərin aparılması üçün təkliflər hazırlanmışdır.

**Tədqiqat metodunun seçilməsi**

Son zamanlarda beynəlxalq aləmdə pedaqoji sahə üzrə aparılan tədqiqatlar müqayisəli analiz xarakterini daşıyır. Artıq təhsil sahəsində ənənəvi tədqiqat forması eksperimental tədqiqat forması ilə əvəz olmağa başlamışdır. Məqalə eksperimental metod əsasında aparılan tədqiqata həsr edilmişdir. Eksperimental tədqiqatda səbəb amili kimi müxtəlif göstəricilər, nəticə amili kimi peşə təhsili müəssisələrinin keyfiyyət göstəricisi götürülmüşdür. Dolayısı ilə tədqiqatın əsas məqsədi peşə təhsili müəssisələrində aparılan pedaqoji prosesin keyfiyyətinin təhsilalanlar kontekstindən qiymətləndirməkdir. Qiymətləndirmənin müxtəlif formalarda aparılması mümkündür. Tədqiqat işində təhsilalanlara ünvanlanmış müxtəlif cavab variantlarına sahib suallardan istifadə edilmişdir. Sorğu anketləri tədqiqatın reallaşmasında xüsusi rol oynayır. Məzmun etibarilə anketlər faktlar, davranış və fəaliyyət məhsullarını, eləcə də fərdin motivləri, qiymətləri və rəylərini

əhatə edir. Forma etibarilə anketlər açıq, qapalı, birbaşa, dolayı olur. Funksiya etibarilə süzgəc və yoxlama məqsədini daşıyır. Bir sözlə, sorğu anketləri mövzunun tədqiqi zamanı yaranan problemlərin başvermə səbəblərini, eləcə də qabaqcıl təcrübələri öyrənmək üçün bu vasitədən istifadə etmək əlverişlidir [8].

**Statistik göstəricilərin toplanması**

Problemlərin müəyyənləşdirilməsi məqsədilə xüsusi sorğu blankı hazırlanmışdır. Sorğu anketində peşə təhsili müəssisələrinin mövcud vəziyyəti və imkanlarına dair suallar qeyd olunmuşdur. Sorğu anketi 10 sualdan ibarət tərtib edilmişdir. Sualların formalaşdırılması peşə təhsili sistemində çalışan mühəndis-pedaqoji heyət ilə müzakirə əsasında mümkün olmuşdur.

Aşağıda sorğu anketində yer alan suallar və suallar əsasında əldə olunan qrafiki nəticələr göstərilmişdir:

*Sual 1.*

Təhsil aldığınız peşə təhsil müəssisəsi faktiki yaşayış ünvanınıza yaxındırmı?

1) Xeyr.

2) Çox yaxındır.

3) Yaşayış yeri uzaqdır, lakin ixtisas yalnız bu təhsil müəssisəsində olduğu üçün gəlirəm.

*Nəticə:* Qrafikdən də göründüyü kimi, təhsilalanların 25%-i (yəni 9 nəfər) xeyr cavabını, 33.3%-i (yəni 12 nəfər) çox yaxındır, nəhayət, 41.7%-i isə yaşayış yerinin uzaq olmasının ixtisasa yiyələnmək baxımından problem olmadığını qeyd etmişdir (şəkil 1).

*Sual 2.*

Peşə təhsiil müəssisəsində aldığınız təhsil sizcə ixtisasa dair bacarıqların əldə olunmasına köməklik edirmi?

1) Çox az 2) Az 3) Orta səviyyədə 4) İxtisasla tam uyğundur

*Nəticə:* Qrafikdən də göründüyü kimi, təhsilalanların 2,7%-i (yəni 1 nəfər) çox azdır cavabını, 8.3%-i (yəni 3 nəfər) azdır, 22.3% (yəni 8 nəfər) orta səviyyədə, nəhayət 66.7%-i isə keçirilən fənlərin ixtisas uyğunluğunun və ixtisasa dair bütün məsələləri əhatələdiyini qeyd etmişdir (şəkil 2).

*Sual 3.*

Təhsil aldığınız peşə təhsil müəssisəsini bitirdikdən sonra öz peşə sahənizdə işləmək şansınız var mı?

1) Çox az 2) Az 3) Orta səviyyədə 4) Həddən artıq

*Nəticə:* Qrafikdən də göründüyü kimi, təhsilalanların 30.6%-i (yəni 11nəfər) çox azdır cavabını, 33.4%-i (yəni 12 nəfər) azdır, 19.4% (yəni 7 nəfər) orta səviyyədə, nəhayət, 16.6%-i isə təhsilini tamamladıqdan sonra iş tapmaqda xeyli çətinliklə qarşılaşacağını qeyd etmişdir (şəkil 3).




**Şəkil 1. Yol probleminin təhsilalanlar tərəfindən dəyərləndirilməsi**




**Şəkil 2. İxtisas fənlərindən əldə olunan bacarıqların təhsilalanlar tərəfindən dəyərləndirilməsi**




**Şəkil 3. Liseydə qazanılan kompetensiyalar sayəsində iş tapmaq imkanının təhsilalanlar tərəfindən dəyərləndirilməsi**

*Sual 4.*

Peşə təhsil müəssisəsində tədris olunan ixtisas fənlərinin sayı sizi qane edirmi?

1) Çox az 2) Az 3) Orta səviyyədə 4) Həddən artıq

*Nəticə:* Qrafikdən də göründüyü kimi, təhsilalanların 11.2%-i (yəni 4 nəfər) çox azdır cavabını, 19.4%-i (yəni 7 nəfər) azdır, 52.8% (yəni 19 nəfər) orta səviyyədə, nəhayət, 16.6%-i isə keçirilən ixtisas fənlərin kifayət qədər olduğunu qeyd etmişdir (şəkil 4).




**Şəkil 4. İxtisas fənlərinin ixtisası əhatələnməsinin təhsilalanlar tərəfindən dəyərləndirilməsi**

*Sual 5.*

Tədris laboratoriyalarınızdakı mövcud şərait və təhsil müəssisəsinin maddi texniki bazası sizə ixtisasa dair kompetensiyalara yiyələnməkdə kifayət edirmi?

1) Çox az 2) Az 3) Orta səviyyədə 4) Əladır

*Nəticə:* Qrafikdən də göründüyü kimi, təhsilalanların 19.4%-i (yəni 7 nəfər) çox azdır cavabını, 44.4%-i (yəni 16 nəfər) azdır, 25% (yəni 9 nəfər) orta səviyyədə, nəhayət, 11.2%-i isə laboratoriyaların vəziyyətinin əla olduğunu qeyd etmişdir (şəkil 5).




**Şəkil 5. Tədris laboratoriyalarındakı mövcud şəraitin təhsilalanlar tərəfindən dəyərləndirilməsi**

*Sual 6.*

Təhsil aldığınız peşə təhsil müəssisəsində müasir texnologiyaları özündə cəmləşdirən tədris mühiti təşkil olunurmu?

1) Mən hələ görməmişəm 2) Çox az 3) Orta səviyyədə 4) Demək olar ki, hər bir dərsdə

*Nəticə:* Qrafikdən də göründüyü kimi, təhsilalanların 27.8%-i (yəni 10 nəfər) keçirilən dərslərdə İKT vasitələrinin tətbiqinə rastlamadığını, 38.9%-i (yəni 14 nəfər) çox azdır, 25% (yəni 9 nəfər) orta səviyyədə, nəhayət, 8.3%-i isə tədris mühitinin müasir pedaqoji texnologiyaların intensiv tətbiq olunduğunu qeyd etmişdir (şəkil 6).

*Sual 7.*

Yuxarı kurslara keçid üçün keçid imtahanlarının təşkil olmasına razısınızmı?

1) Bəli 2) Xeyr

*Nəticə:* Qrafikdən də göründüyü kimi, təhsilalanların 77.8%-i (yəni 28 nəfər) keçid imtahanlarının təşkil edilməsinə etirazını bildirir, 22.2% (yəni 8 nəfər) təhsilalan isə keçid imtahanlarının təşkil edilməsi ilə razılaşır (şəkil 7).




**Şəkil 6. Tədrisdə müasir texnologiyaların tətbiqinin təhsilalanlar tərəfindən dəyərləndirilməsi**




**Şəkil 7. Növbəti kurslara keçid imtahanın təşkil edilməsi fikrinin təhsilalanlar tərəfindən dəyərləndirilməsi**

*Sual 8.*

İxtisasınızla əlaqəli olub-olmamasından asılı olmayaraq təhsilinizi tamamladıqdan sonra nə etmək istəyirsiniz?

1) Öz işimi quracam.
2) Dövlət sektorunda işləmək istəyərdim.
3) Özəl sektorda işləmək istəyərdim.
4) Ailə işimizi davam etdirmək istəyərdim.




**Şəkil 8. Təhsilalanların arzu etdikləri iş sahələrinin müəyyənləşdirilməsi**

*Sual 9.*

İxtisasa dair biliklərinizi təkmilləşdirmək üçün təhsilinizi bakalavr (və ya subbakalavr) səviyyəsində davam etdirmək istəyərsinizmi?

1) İstəyərdim

2) Məncə yox (qərarsızam)

3) Xeyr

*Nəticə:* Qrafikdən də göründüyü kimi, təhsilalanların 31%-i (yəni 11 nəfər) qəti olaraq təhsilini davam etdirmək istədiyinin olduğu, 47%-i (yəni 17 nəfər) qərarsız olduğu, 22%-i (yəni 8 nəfər) isə davam etdirmək fikrində olmadığı müəyyənləşdirilmişdir (şəkil 9).




**Şəkil 9. Təhsilalanlarda təhsilin növbəti pillələri üçün marağın olub-olmamasının müəyyənləşdirilməsi**

*Sual 10.*

Sizcə peşə təhsilində ən vacib problem hansıdır?

1) Tədris prosesində istifadə olunan vasitələrin və elementlərin əskikliyi/yoxluğu

2) Tətbiqiyönümlü dərslərin azlığı

3) Sinifdə təhsilalanların çox olması

4) Sənaye ilə qənaətbəxş əlaqələrin olmaması

Qrafikdən də göründüyü kimi, təhsilalanların 19,4%-i tədris prosesində istifadə olunan vasitələrin və elementlərin əskik olması, 38,9%-i ixtisas fənlərində tətbiqi dərslərin olmamasını, 8,3%-i sinifdə təhsilalanların sayının çox olmasını, 33,4%- isə sənaye ilə əlaqələrin olmamasını peşə təhsilində ən vacib problemlərdən olduğunu düşünür (şəkil 10).




**Şəkil 10. Peşə təhsilində əsas problemlərin müəyyənləşdirilməsi**

**Nəticə:** Texnika və Texnologiyalar üzrə Bakı Peşə Təhsil Mərkəzinin tabeçiliyində fəaliyyət göstərən 14 nömrəli Bakı Peşə Liseyində təhsilalanlar ixtisaslarına və təhsil aldıqları peşə liseyinə dair fikirlər və gözləntilərin qiymətləndirildiyi bu tədqiqat işində aşağıdakı nəticələrə gəlinmişdir:

➢ Yaşayış yerinin peşə liseyinə uzaq və ya yaxın olmasından asılı olmadığını qeyd edən 41.7% təhsilalandan görünür ki, peşə-ixtisas təhsilinə üz tutanların böyük əksəriyyətinin məqsədi arzu etdikləri peşə ixtisasına yiyələnməkdir. Buna baxmayaraq Asan xidmət vasitəsilə aparılan qəbul prosesində sənəd verən şəxslərin yaşayış ünvanları da nəzərə alınmalıdır;

➢ Təhsilalanların 64%-i peşə təhsilini tamamladıqdan sonra öz ixtisaslarına dair iş tapmaqda çətinliklə qarşılaşacaqlarını düşünürlər. Bir sözlə, təhsilalanların çoxu öz

ixtisas sahələrinə uyğun iş tapmaqda narahatdırlar. Buna görə də işə götürənlərlə əməkdaşlığın gücləndirilməsi və istehsalat təlimlərinin iş yerlərində intensiv təşkili təhsilalanlarda formalaşan bu fikrin əksinin sübüt olunması üçün vacibdir;

- Təhsilalanların 63,8%-i peşə liseyində laboratoriyalardakı mövcud şəraitin, yəni laboratoriyanın maddi texniki bazası və texnoloji imkanları onları qane etmədiyini düşünür. Bu statistik göstəricilər ümumiyyətlə, peşə liseylərində tətbiqi məqsədlər üçün istifadə olunan emalatxanaların və fənn laboratoriyalarının dövrün müasir tələblərinə uyğun hazırlanması vacibliyini bir daha sübut edir;
- Təhsilalanların 66,7%-i düşünür ki, ixtisas fənlərinin tədrisində müasir təlim texnologiyalarından demək olar ki, istifadə edilmir. Bu problemin həllini Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsil Agentliyi tərəfindən peşə təhsilində işləyən pedaqoji-mühəndis heyətinin ixtsasartırma kursları təqdim edir. Lakin kursların geniş miqyaslı tətbiq edilməməsi səbəbilə mövcud problem hələ də hökm sürür. Onlayn tədris prosesinə keçid dövründə bu məsələ açıq-aydın hiss olunurdu;
- 78% təhsilalanda təhsilin növbəti pillələri üçün marağın olmadığı müəyyən edilmişdir. Bu problemin aradan qaldırılması və elmə həvəsin yaradılması məqsədilə peşə liseyləri digər ali təhsil müəssisələri ilə birgə əməkdaşlıq etməlidir.
- Liseydaxili keçid imtahanlarının təşkil edilməsinə etirazını bildirən 77.8% təhsilalan əsasında müəyyən edilmişdir ki, digər kurslara keçid imtahanına etiraz tələbələrdə qorxu, həyəcan və inamsızlıq səbəbindən yaranmışdır. Amma peşə ixtisas təhsili üzrə məzun olanlara orta ixtisas, yəni subbakalavr dərəcəsinin verilməsi kurslararası keçid imtahanlarının təşkil olması məsələsini qabardır.
- Peşə təhsilində əsas problemlərin (və ya problemin) müəyyənləşdirilməsi məqsədilə ünvanlanan son sualda toplanılan cavablar əsasında bu qənaətə gəlmək olar ki, tədris prosesində əsas problem vasitə çatışmazlığıdır. Təhsilalanlar bu çatışmazlığı istər pedaqoji texnologiyaların əskikliyi və ya tam tətbiqi tapa bilməməsində, istərsə də ixtisas materialları ilə təchiz edilməyən fənn laboratoriyalarının olmasında görür. Peşə təhsilinin nəticəyönümlü və səriştəəsaslı təhsil imkanını təqdim etməsini əsas götürsək, ən vacib problem kimi maddi texniki təchizatın qənaətbəxşliyinin formalaşmasına fokuslanmaq lazımdır.

Peşə təhsil müəssisələrində oxuyan təhsilalanları stimullaşdırmaq, onlara yeni hədəflər göstərmək və özlərini inkişaf etdirmə imkanını təmin etmək qarşıya qoyulan vacib istiqamətlərdir. Bu tip pedaqoji statistik tədqiqatların və müqayisəli analizin aparılması təhsil sistemimizdə formalaşan və getdikcə davam edən boşluqların müəyyənləşdirilməsində məqsədəuyğun olardı.

**Təklif**

Peşə ixtisasına marağın artırılması, peşə təhsilinin nüfuzunun bərpa edilməsi və peşə liseylərində (ümumilikdə peşə təhsili müəssisələri) təqdim edilən təhsilin keyfiyyətinin artırılması üçün araşdırma aparılması lazımdır. Belə halda asanlıqla

buraxılan səhvləri və gələcəkdə yeni islahatların istiqamətini müəyyən etmək olar. Aparılması tövsiyə olunan tədqiqat istiqamətləri aşağıda göstərilmişdir.

- Psixoloji cəhətdən həssas olan təhsilalanların tədris prosesinə təsirinin qiymətləndirilməsi;
- Psixoloji cəhətdən problemli təhsilalanlarda ixtisasa maraq artıran amillərin müəyyənləşdirilməsi;
- Təhsilalanların akedemik göstəricilərinin İKT vasitələrindən asılılığının qiymətləndirilməsi;
- Modul qruplarda tədris planlarının 3-illik və 2-illik ixtisas planları əsasında qiymətləndirilməsi;
- İxtisas fənlərinin tədrisində ənənəvi və interaktiv tədris metodlarının təhsilalanların akademik göstəricilərinə təsirinin qiymətləndirilməsi;

Tədqiqatın kiçik qrup formasında aparılması əldə olunan nəticələrin dəqiqliyinin tam isbat olunmasında şübhə yarada bilər. Tövsiyə olunur ki, Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin bu işə təşəbbüs göstərməsi ilə köklü tədqiqat aparılsın. Artıq bu halda əldə olunan nəticələrin dəqiqliyi yüksək olur.

**Məqalənin elmi yeniliyi**

İlk dəfə olaraq peşə təhsilində problemlərin müəyyənləşdirilməsində təhsilalanlar konteksindən çıxış edilmiş, onların fikirləri və təhsil müəssisəsinin gözləntilərinə əsaslanaraq tədqiqat aparılmış və peşə təhsili sistemindəki mövcud boşluqlar təlsilalanlarin fikirləri əsasında dəyərləndirilmişdir.

## ƏDƏBİYYAT


1. *Ağayev Ş.O., Məmmədova S.H.* Texniki-peşə təhsili müəssisələrində təlimin təşkilinin didaktik məsələləri. Bakı: Nasir, 2010, 204 s.
2. https://edu.gov.az/az/page/418/7329
3. *Qafarov Q.A.* Peşə təhsilində düzgün təlim strategiyasının müəyyənləşdirilməsi: anlayış xəritələrinin tətbiqi // Azərbaycan məktəbi, 2020, № 3 (688), s.79-90
4. *Qafarov Q.A., Rzayeva A.H.* Peşə təhsilində fizika fənninin müasir tədris metodikası: PhET simulyasiya platforma // Azərbaycan məktəbi, 2019, № 2, s.117-125
5. *Nəzərov A.M.* Müasir təlim texnologiyaları: Dərs vəsaiti. Bakı: ADPU, 2012, 103 s.
6. http://edu.gov.az/upload/file/serencama-elave/2016/peshe-tehsil-yol-xeritesi.pdf
7. *Əsgərov R.B., Qurbanov M.R.* İlkin peşə-ixtisas təhsili: problemlər və prespektivlər. Bakı: ŞAHİN-MB, 2016, 250 s.
8. Müasir təhsilin nəzəri və praktiki problemləri / Nəşrə haz. İ.H.Cəbrayılov. Bakı: ŞAHİN-MB, 2016, 250 s.


Redaksiyaya daxil olub 16.08.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2020, C.68, №2, s. 184-191
Transactions of Pedagogical University. Series of humanitarian, social and pedagogical-psychological sciences – 2020, V.68, №2, pp. 184-191

*УДК 37*

***Д.М.Мусаев***
*Азербайджанский государственный педагогический университет*
*musayev_d@yahoo.com*

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ПОНЯТИЙ «ОБРАЗОВАТЕЛЬНАЯ КОМПЕТЕНЦИЯ» И «ОБРАЗОВАТЕЛЬНАЯ КОМПЕТЕНТНОСТЬ»

***Ключевые слова***: *компетенция, образовательная компетенция, современное обучение, коммуникативная компетентность*

В статье анализированы понятия «компетентность», «компетенция» и «образовательные компетенции». Рассмотрены работы ученых в этой области. В результате изучения соответствующей педагогической и психологической литературы были обобщены требования к современным образовательным компетенциям.

***D.M.Musayev***

# «TƏHSİL KOMPETENSİYASI» VƏ «TƏHSİL KOMPETENTLİYİ» ANLAYIŞLARININ MÜQAYİSƏLİ TƏHLİLİ

***Açar sözlər***: *kompetensiya, təhsil kompetensiyası, müasir təhsil, kommunikativ kompetensiya*

Məqalədə “kompetentlik”, “kompetensiya” və “təhsil kompetensiyaları” anlayışları təhlil olunub. Bu sahədə çalışmış tədqiqatçıların əsərləri nəzərdən keçirilib. Müvafiq pedaqoji və psixoloji ədəbiyyatın təhlilindən sonra müasir təhsil kompetensiyalarına verilən tələblər ümumiləşdirilmişdir.

***D.M.Musayev***

# COMPARATIVE ANALYSIS OF THE NOTIONS OF “EDUCATIONAL COMPETENCY” AND “COMPETENCE OF EDUCATION”

***Keywords***: *competence, educational competence, modern education, communicative competence*

The notions of "competence", "competency" and "educational competencies" have been analyzed in the article. The works of researchers in this field have also been considered. Following the analysis of relevant pedagogical and psychological literature, the requirements on modern educational competencies have been summarized.

Модернизация образования Азербайджана это социальный и культурный процесс, который включает в себя работу по созданию новой системы ценностей и новых моделей образования, требует от современной

школы не только формирования целостной системы универсальных компонентов оценивания результатов обучения, т.е. знаний, умений и навыков. Современное общество требует введения новой единицы измерения образования человека, так как нынешние знания, умения и навыки уже не позволяют показать и даже измерить уровень качества образования и полностью не отвечают его требованиям. Под качеством образования мы понимаем его соответствие современным условиям и требованиям.

В последнее время на страницах педагогических изданий все чаще появляются понятия «компетентность» и «компетенция». Слово «компетентность» в переводе с латинского означает круг вопросов, о которых человек хорошо осведомлен, он обладает опытом и познаниями в этой области.

Термин «компетентность» заимствован из когнитивной психологии (1, с.12). Психологические исследования компетентности с конца XX века проводились в таких областях, как математика, физика, программирование и т.д. (2, с.57).

Понятие «компетентность» обладает полисемией, т.е. многозначностью. Компетентный человек обладает соответствующими знаниями и способностями в определенной области, которые позволяют ему эффективно действовать, и обосновано судить об этой области.

Несмотря на то, что понятия «компетенция» и «компетентность» используются синонимически, их следует различать:

- Компетенция это совокупность таких качеств личности как знания, умения, навыки и способов деятельности, которые необходимы для качественной продуктивной деятельности по определенному кругу предметов и процессов.
- Компетентность это обладание человеком соответствующей компетенцией, которые включают его личностное отношение к ней и к предмету его деятельности.

Вопросы компетентности подробно изучены в работах таких ученых как Р.Мейерса, Дж. Равена, А.Г. Бермуса, С. Велде, Э.Ф. Зеера, В.В.Краевского, А.В. Хуторского, И.А. Зимней, Л.В. Заниной, В.Д.Шадрикова, Н.П.Меньшикова, а также в трудах таких ученых как Д.А.Иванова, Е.А. Генике, Ю.А. Володина, В.В. Гузеева, Д.И. Иванова и многих других. Несмотря на то, что данная проблема достаточно изучена зарубежными учеными, в Азербайджане эта проблема фундаментальному изучению пока еще не привлекалась.

Наиболее часто со словом «компетентность» употребляется словосочетание профессиональная компетентность учителя. Она трактуется как «обладание учителем суммой знаний, умений и навыков, которые определяют полноту его педагогической деятельности и личности учителя

как носителя определенных ценностей, идеалов и педагогического сознания» (3, с.62).

Генике Е.А. в своей книге «Профессиональная компетентность педагога» также указывает, что соотношение этих составляющих должно быть равномерным. Это и будет интегративной компетентностью педагога (4, с.19).

Проблему компетенций с психологического аспекта изучила доктор психологических наук, профессор, академик РАО Зимняя Ирина Алексеевна. В своем труде «Педагогическая психология» она обобщает концепции Марковой А.К., Шацкого С.Т., Эльконина Д.Б., Кузьминой Н.В. и мн. др. и отмечает, что педагогическая профессия предъявляет целый ряд специфических требований, среди которых ключевое место занимает – профессиональная компетентность (5, с.62).

Изучением понятий «компетенция» и «компетентность» занимался доктор педагогических наук, член «Международной педагогической академии» Андрей Викторович Хуторской. Он является автором многих исследовательских и образовательных проектов, связанных с компетентностным подходом, метапредметным содержанием образования, технологией дистанционных занятий и др. Хуторской отмечает, что компетенция – отчужденная, заранее заданная социальная норма (требование) к образовательной подготовке обучающегося, который необходим для его эффективной и продуктивной деятельности в определенной сфере. Компетентность – обладание обучающимися соответствующих компетенций, включающих его личностное отношение к ней и предмету деятельности (6, с. 7-15).

Компетентность – совокупность качеств (уже состоявшиеся качества личности) обучающегося и минимальный опыт деятельности в заданной сфере. Совокупность личностных качеств обучающегося (ценностно-смысловых ориентаций, знаний, умений, навыков, способностей), которые обусловлены опытом его деятельности в определенной социально и личностно значимой сфере есть компетентность. Она всегда личностно окрашена качествами конкретного ученика. Таких качеств ученика целый спектр – от смысловых и мировоззренческих (зачем мне необходима данная компетенция) до рефлексивно-оценочных (насколько успешно я применяю данную компетенцию в жизни).

А.В.Хуторской предлагает следующую классификацию ключевых компетенций, которые в свою очередь предполагают соответствующие умения:

1. Ценностно-смысловые компетенции. Это компетенции, связанные с ценностными ориентирами ученика,

– его способностью видеть и понимать окружающий мир,

– осознавать свое предназначение и свою роль,

– ориентироваться в нем,

– умение выбирать цели и смыслы для своих действий и поступков,

– умение принимать решения.

Эти компетенции обеспечивают пути самоопределения ученика в его учебной и пр. деятельности. От них зависит индивидуальная образовательная траектория обучающегося и программа его жизнедеятельности в целом.

2. Общекультурные (или социокультурные) компетенции – это знание и опыт деятельности в сфере национальной и общечеловеческой культуры;

– духовно-нравственные основы жизни человека и человечества, отдельных народов;

– определять свое место в окружающем мире, свою роль в семье, в коллективе, государстве;

– роль науки и даже религии в жизни человека;

– компетенции владения эффективными способами организации свободного времени.

– К этим компетенциям относятся также опыт освоения учеником картины мира и событий происходящих в них.

3. Учебно-познавательные компетенции – совокупность компетенций обучающихся в сфере самостоятельной познавательной деятельности, она включает в себя:

– элементы логической, общеучебной и методологической деятельности;

– способы организации планирования, анализа, самооценки и рефлексии.

– учащиеся овладевают такими навыками как добывание знаний непосредственно из окружающей действительности, овладевает приемами учебно-познавательных проблем, действий в нестандартных ситуациях.

– устно и письменно выступать о результатах своего исследования с применением ИКТ (презентации, текстовые и графические редакторы);

– умение отличать конкретные факты от домыслов, использование вероятностных, статистических и др. методов познания.

4. Информационные компетенции.

– навыки работы с различными источниками информации: учебниками, книгами, справочниками, картами, атласами, словарями, энциклопедиями, каталогами, CD и Flsah-носителями информации, Интернет и т. д.;

– самостоятельно находить, извлекать, анализировать, систематизировать и отбирать необходимую информацию, преобразовывать, сохранять и использовать ее;

– ориентироваться в «потоке информации», уметь выделять в них необходимое и главное; уметь воспринимать нужную информацию,

получаемую по СМИ;

– умение пользоваться техническими средствами - компьютером, телевизором, мобильным телефоном, магнитофоном, факсом, принтером, сканером и т.д.;

– применять в целях обучения информационные технологии: аудио и видеозапись, Интернет, электронную почту и т.д.

5. Коммуникативные компетенции – это:

– Знание языков и способности взаимодействия с окружающими людьми, умение представлять свой класс, школу, страну в разных ситуациях;

– навыки работы в группе, коллективе, умения искать и находить компромиссы, корректно вести учебный диалог;

– обладание разными видами речи (монолог, диалог и т.д.), уметь задавать вопрос, вести дискуссию и др.;

– для освоения коммуникативных компетенций в учебном процессе фиксируется необходимое количество объектов коммуникации и способов работы с ними для обучающихся каждой ступени обучения.

6. Социально-трудовые компетенции.

– Выполнение типичных социальных ролей: семьянина, гражданина, потребителя, покупателя, избирателя, производителя, члена семьи.

– определять свое место и роль в семье, в окружающем мире, в коллективе, государстве;

– иметь представление о социальных нормах и ценностях в своем государстве и других странах; иметь опыт жизни в многонациональном, многоконфессиональном и многокультурном обществе;

– уметь анализировать ситуацию в сфере трудовых отношений, владеть этикой гражданских и трудовых взаимоотношений;

7. Компетенции личностного самосовершенствования направлены на освоение:

– способов физического, духовного, а также интеллектуального саморазвития;

– деятельности в собственных интересах, что выражается в развитии необходимых каждому человеку личностных качеств, в формировании психологической грамотности, поведения и культуры мышления.

– правила личной гигиены, забота о собственном здоровье, половая грамотность, способы безопасной жизнедеятельности и т.д. (7, с.59-61).

Компетенции позволяют искать (получать и обрабатывать новую информацию, консультироваться у экспертов и т.п.); думать (умение устанавливать причинно-следственные связи между прошлыми и настоящими событиями, критически относиться к тому или иному историческому событию, формировать собственную позицию в дискуссии и т.п.); изучать (умение решать проблемы, заниматься самообучением,

организовывать взаимосвязи между различными событиями); приниматься за дело (включаться в проект и уметь организовать свою работу); адаптироваться (умение пользоваться новыми технологиями и т.д.) (8, с.169-171).

В педагогическом контексте возможно употребление специального термина «образовательная компетенция». Образовательные компетенции это требования, которые определяют уровень сформированности личностей обучающихся, связанных с качественным освоением содержания образования. Качественное освоение определяется требованиями и нормами к подготовке выпускника общеобразовательных школ и вузов.

Образовательные компетенции моделируют деятельность обучающихся для их полноценной жизни в будущем. Образовательная компетенция – требование к образовательной подготовке, выраженное совокупностью взаимосвязанных смысловых ориентаций, знаний, умений, навыков и опыта деятельности ученика по отношению к определенному кругу объектов реальной действительности, необходимых для осуществления личностно и социально значимой продуктивной деятельности (6, с.8).

К образовательным компетенциям относятся не все виды деятельности, в которых участвует человек, а только те, которые включены в состав общеобразовательных областей и учебных предметов. Эти компетенции отражают составляющую общего образования и должны обеспечивать полное достижение его целей.

Например, до определенного возраста человек еще не может реализовать у себя какую-либо компетенцию, но это не означает, что ее не надо формировать у школьника. В этом случае следует говорить об образовательной компетенции.

Компетенции для ученика – это образ его будущего, который может послужить ему ориентиром для познания мира. В период обучения у ученика формируются те или иные составляющие «взрослых» компетенций, и чтобы ему не только готовиться к будущему, но и жить в настоящем, он осваивает эти компетенции с образовательной точки зрения. Таким образом, гражданскую компетенцию ученик осваивает в школе, но в полной мере ее компоненты использует только после окончания школы. Так как этим компетенциям он обучался во время его учебы, эти компетенции фигурируют в качестве образовательной.

Образовательная компетенция (у многих авторов представляется как умение учиться) как неизменяемая часть цели, содержания и результата такого процесса, включенная в образовательные стандарты всех уровней образования, может стать его основным фактором, а сами стандарты – реальным руководством по выстраиванию всех звеньев образования в соответствии с непрерывностью развития личности.

Современное общество делает необходимым применение компетентностного подхода в образовании, которое предполагает принципиальные изменения в организации учебного процесса. Это обусловлено главным образом развитием современного общества. Мы живем в эпохе Интернета и электронных средств хранения информации, когда формальные знания человека уже не являются значимым капиталом. Сегодня информационное общество формирует современную систему ценностей, где обладание знаниями, умениями и навыками является необходимым, но не достаточным результатом образования. Наряду с этим от человека требуется наличие определенных компетенций. Таким, если эффективность образовательного процесса раньше зависела от обладания учащимися информацией, то теперь зависит от умения ориентироваться в информационных потоках, от их инициативности, умения искать и использовать нужную информацию, применяя при этом др. ресурсы, умение, работать в группах, коллективе, самостоятельно учиться, восполняя недостаток профессиональных знаний, необходимых для конкретной проблемы.

Таким образом, образовательная компетентность – это не только сумма ЗУН (знаний, умений и навыков), это личностная характеристика, совокупность интериоризированных (присвоение жизненного опыта и становление психических функций и развития в целом) мобильных ЗУН и гибкого мышления.

**Актуальность проблемы** заключается в том, что термин компетенция используется в таких образовательных документах как курикулум, Закон об образовании и т. д., но понятия «компетентности» еще достаточно не изучены.

**Научная новизна** проблемы в том, что данная работа в Азербайджане еще достаточно не изучена. Есть кое-какие отрывочные данные об этой проблеме по другим специальностям.

**Практическая значимость** работы заключается в том, что данная работа может послужить источником информации при изучении не только методики преподавания истории, а также других наук.

## ЛИТЕРАТУРА


1. *Андерсон Дж.* Когнитивная психология. Спб: Питер, 2002, 496 с.
2. *Хуторской А.* Ключевые компетенции. Технология конструирования // Народное образование, 2003, №5, с.55-61
3. *Коджаспирова Г.М.* Педагогический словарь: Для студентов высш. и сред. пед. учеб. Заведений. М.: Академия, 2000, 175 с.
4. *Генике Е.А.* Профессиональная компетентность педагога. М.: Сентябрь, 2008, 176 с. (Биб-ка ж. «Директор школы», 2008, №5, с.19)

5. *Зимняя И. А.* Педагогическая психология: Учебник для вузов. М.: Издательская корпорация «Логос», 2000, 384 с.
6. *Хуторской А.В.* Педагогические основания диагностики и оценки компетентностных результатов обучения // Известия Волгоградского государственного педагогического университета, Сер. 4. «Педагогические науки», 2013, Т.80, № 5, с.7-15
7. *Хуторской А.В.* Ключевые компетенции как компонент личностно-ориентированного образования // Народное образование, 2003, №2, с.58-64
8. *Яковлева Т.С.* Соотношение понятий «образовательная компетенция» и «образовательная компетентность» // Вестник РУДН, серия Вопросы образования: языки и специальность, 2014, № 4, с.168-172

Redaksiyaya daxil olub 07.05.2020

***UOT 37***

***P.H.Rzayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*rzayeva_1984@bk.ru*

# “ŞƏRQ QADINI” JURNALINDA XƏLİL FİKRƏT İMZASI

***Açar sözlər:*** *Xəlil Fikrət, Şərq qadını, jurnal, təhsil, tərbiyə, uşaq, sağlamlıq*

Xəlil Fikrət Azərbaycana dəvət olunan türk pedaqoqlardan biridir. O, 1923-1926-cı illər ərzində Azərbaycanda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Bakı Dövlət Universitetində mühazirə demiş, dövrü mətbuatda elmi, elmi-kütləvi, elmi-metodiki yazılarla çıxış edirdi. Bu jurnallardan bir də “Şərq qadını” jurnalıdır.

“Şərq qadını” jurnalı ilk nömrələrindən başlayaraq analığı və körpə uşaqları mühafizə işinə aid müxtəlif məzmunlu yazılar dərc etmişdir. Jurnal səhifələrində yaslilər, uşaq baxçaları, uşaq məsləhətxanaları, doğum evləri, uşaq xəstəxanaları və s. haqqında materiallar çap etməklə böyük pedaqoji təbliğat aparmışdır. Bu materialların böyük bir hissəsini Xəlil Fikrətin məqalələri təşkil edir.

***П.Г.Рзаева***

## ПОДПИСЬ ХАЛИЛА ФИКРЕТА В ЖУРНАЛЕ "ШАРК КАДИНИ"

***Ключевые слова***: *Халил Фикрат, “Шарк кадини”, журнал, образование, воспитание, ребёнок, здоровье*

Халил Фикрет – один из тюркских учителей, приглашенных в Азербайджан. Он занимался педагогической деятельностью в Азербайджане в 1923-1926 гг. Он читал лекции в Бакинском государственном университете и публиковал научные, научно-массовые, научно-методические статьи в прессе. Одним из таких журналов является «Шарк кадини».

Начиная с первых номеров журнала «*Шарк кадини*» были опубликованы различные статьи о защите материнства и младенцев. Журнал публиковал материалы о детских садах, родильных домах, детских больницах и проводил большую педагогическую пропаганду. Большинство из этих материалов – статьи Халила Фикрета.

***P.H.Rzayeva***

## KHALIL FIKRET'S SIGNATURE IN "SHARG GADINI" JOURNAL

***Keywords***: *Khalil Fikret, “Sharg gadini”, journal, education, upbringing, child, health*

Khalil Fikret is one of the Turkish teachers invited to Azerbaijan. He was engaged in pedagogical activity in Azerbaijan during 1923-1926. He gave a lecture at Baku State

University and appeared in scientific, scientific-mass, scientific-methodical articles in the press. One of these magazines is "Sharg gadini ".

First issue of magazine articles relating to the protection of maternity and child from the "Sharg gadini" made of different content. Preschool education, children's clinics, maternity homes and child hospitals and other printed materials about great educational campaign conducted by the magazine. Most of these materials are articles by Khalil Fikret.

## Giriş

1923-cü ildə Azərbaycan Xalq Soveti o zamanlar Azərbaycanın yeganə ali təhsil ocağı olan Bakı Dövlət Universitetində dərs demək üçün Türkiyədən bir qrup türk ziyalını – Muhittin Birgen, İsmayıl Hikmət Ertaylan və Xəlil Fikrət Azərbaycana dəvət etmişdir. Bu ziyalıların Azərbaycanın elmi-pedaqoji fikir tarixində mühüm yeri olmuşdur. "Azerbaycan'da komünizmin bütün uygulamalarını yakından gören Türk bilim adamları dikkatli davranarak Bakü'de uzun süre başarılı çalışmalar yaptılar" [2, s.182]. Öz xidmətləri ilə Azərbaycanda pedaqoji fəaliyyətin yüksəlişinə damğa vuran bu alimlərdən ən önəmlisi Xəlil Fikrət olmuşdur.

Xəlil Fikrət 5 yanvar 1892-ci ildə Yunanıstanda türklərin yaşadığı Serficə qəsəbəsində Osman bəyin ailəsində anadan olmuşdur. Xəlil Fikrət altı aylıq olarkən atası vəfat etmiş və anasının himayəsində qalmışdır. X.Fikrət öz kəndlərində ibtidai təhsil almış, 10 yaşında Manastrda yeni açılan sənət məktəbində təhsilini davam etdirmişdir. O zamanlar sənət məktəblərində tədris olunan fənlər orta məktəblərdə öyrədilən fənlərlə eyni idi. X.Fikrət bir qrup türk gənci kimi orta məktəblərin son imtahanlarında uğur qazandığı üçün Almaniyaya təhsil almağa göndərilir. Türk gəncləri Almaniyaya ali təhsil almağa göndərilməkdə məqsəd müasir təhsil sisteminin öyrənilməsi və buna uyğun olaraq Avropa təhsil modelinə uyğun yeni türk məktəb sistemi yaratmaq idi. O, ilk olaraq 1910-1912-ci illərdə Almaniya liseylərinin birində alman dilini mükəmməl öyrənmiş, əvvəlcə Berlin Universitetinin fəlsəfə, sonra Leyspiq Universitetinin pedaqoji fakültəsində təhsil almışdır. Bu universitetlərdə təhsil alması Xəlil Fikrətin görkəmli təhsil işçisi və bir alim kimi formalaşmasında mühüm rol oynamışdır. O, Türkiyədə təhsil sahəsində dissertasiya işi müdafiə edən ilk elmlər doktorudur.

Almaniyada təhsil alarkən o, Berlin Universitetinin məşhur professoru Eduard Spranqerin doktorantı olmuş və "Pestalossinin dövlət məktəbi ilə bağlı düşüncələri" mövzusunda dissertasiya müdafiə etmişdir. Almaniya təhsilindən sonra ölkəsinə dönən Xəlil Fikrət Maarif Nazirliyində müşavir kimi çalışmış, daha sonra isə İstanbulda bir sıra məktəblərdə müəllimlik fəaliyyəti göstərmişdir. Həmçinin Türkiyə təhsilində ana xətt kimi keçən və miili kadrlar yetişdirən "Köy İnstitutları"nin qurulmasında önəmli çalışmaları olmuşdur [2, s.195]

Bakıya işləməyə dəvət olunarkən X.Fikrət artıq Türkiyədə yaxşı tanınan, bilikli və bacarıqlı şəxslərdən biri kimi seçilirdi. 1923-1926-cı illərdə Bakıda

fəaliyyəti zamanı X.Fikrət ali məktəbdə pedaqogika və psixologiyadan dərs deməklə yanaşı, həm də Xalq Maarif Komissarlığında məktəbəqədər təhsil bölümünün rəhbəri olmuşdur. Onun Azərbaycan təhsilinə verdiyi önəmli töhfələrdən biri də azərbaycanlı tələbələr üçün ilk dəfə olaraq ana dilində "Tədris və tərbiyə tarixi" adlı 2 cildlik dərslik yazması olmuşdur. Bu kitablarda pedaqogika tarixinə dair çox qiymətli məlumatlar yer almışdır. Xəlil Fikrətin həyat və yaradıcılığını araşdıran professor Fərrux Rüstəmov bildirir ki, X.Fikrət ümumilikdə on beşə qədər kitab və kitabçanın, dərslik və dərs vəsaitinin müəllifidir. Həmin kitablardan "Höte və Faust", "Muasir tərbiyə idealları və təhsildə yeniliklər", "Pedaqoji", "Ailədə uşaq tərbiyəsi", "Milliyət idealı və hərtərəfli milli tərbiyə", "Xarakter anlayışı və xarakter tərbiyəsi", "İş pedaqojisi", və s. adlarını çəkmək olar. Elmi-pedaqoji fəaliyyətilə yanaşı, "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət", "Məktəb", "Maarif işçisi", "Yeni məktəb", "Şərq qadını" kimi jurnallarda elmi, elmi-kütləvi, elmi-metodiki yazılarla çıxış edirdi.

"Şərq qadını" jurnalı AK(b)P MK Azərbaycanda qadınlar arsında siyasi, ictimai və mədəni-maarif işlərinin təbliğini daha da qüvvətləndirmək məqsədi ilə 1923-cü ildə yaradılmışdı. Jurnal partiya və hökumətin qərarlarını yerinə yetirmək, onların mənafeyinə uyğun olaraq qadınların siyasi və mədəni tərbiyəsi işini yerinə yetirmək, "sosializm qurucuları" yetişdirmək məqsədi daşıyan partiya orqanı idi. Jurnalın əsas mövzu dairəsi qadınları maarifləndirmək, ictimai fəaliyyətə cəlb etmək, qadın azadlığı, qızların təhsili və savadsızlığın ləğv edilməsi, türk qadınlarını şəriət, din və mövhumat, köhnə adət-ənənələrdən xilas etmək, onları dar ailə məişətindən qurtarmaq və öz həqiqi azadlıqlarını mənimsəyə bilmələri uğrunda qarşıya çıxan bütün qüvvələrlə qəti mübarizə aparmaq tədbirlərini aşılamaqdan ibarət idi.

"Şərq qadını" jurnalının əsasən toxunduğu mövzulardan biri də məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyə mövzusu idi. Bu baxımdan tərbiyə doktoru sayılan Xəlil Fikrətin bu jurnalda pedaqoji məqalələrlə çıxış etməsi təsadüfi deyildi.

X.Fikrət "Şərq qadını" jurnalında "Ailə tərbiyəsi" rubrikası altında dövrü üçün olduqca mühüm əhəmiyyət daşıyan, sırf psixoloji-pedaqoji aspektdə yazılmış materiallarla çıxış etməyə başlayır. Bu məqalələrdə o, uşaq tərbiyəsi işinin əhəmiyyətini, həyatda praktik rolunu oxucuların – qadınların nəzərinə çatdırmağa çalışırdı. "Şərq qadını" jurnalının ilk sayında Xəlil Fikrət yazırdı: "Bizdə pedaqoji denilən elm, hənüz (hələ ki) yeni dünyaya gəlmiş bir cocuq vəziyyətindədir. Onun təkamülü üçün çox, amma lap çox çalışmaq məcburiyyətindəyik... Biz tərbiyədə inqilab yaradacaq deyilik. O inqilab olmuş və artıq bitmişdir. Bizə düşən vəzifə inqilab binasını tamamlamaqdır. Bunu tamamlamağa çalışanlar, tərbiyə binasına bir daş dəxi qoysalar məmnun ola bilərlər" [5, s.34].

Xəlil Fikrət ananın uşağını fiziki tərbiyə etməsini əhəmiyyətli olduğu ilə yanaşı, "ağıl və fikircə" də inkişaf etdirməyin yollarını bilməsini faydalı hesab

edirdi. O, qeyd edirdi ki, uşağın verdiyi suallara cavab verməyi bacarmaq, hissiyatını, fikrini, duyğularını sağlam yolla inkişaf etdirmək üçün ana pedaqogika elminə bələd olmalıdır.

Xəlil Fikrət qeyd edir ki, ilk iş dünyaya gələn uşaqları altı yaşına qədər, yəni məktəb yaşına qədər yaşatmaq və onlara müvafiq bir tərbiyə verməkdir. 1-6 yaşına qədər uşaqlara tərbiyə vermək asan iş deyil, tərbiyənin əsas qismi bu yaşda olan uşaqlarla məşğul olmaqdır. Bu yaşda olan uşaqların ailədə tərbiyə almasını nəzərə alaraq yazır: "Ailə tərbiyəsi qüvvətli olmayan bir millətin ümumtərbiyəsi çürük, təməlsiz olur. Təmiz və qüvvətli bir ailə tərbiyəsi bir millətin və ümumbəşəriyyətin mükəmməlləşməsinin ən mühüm amilidir. Ümumi tərbiyəsi eyni olan cocuqları məktəb asan idarə edə bilər" [5, s.34].

Jurnalı tədqiq etdikcə görürük ki, müəllifin ailə tərbiyəsi mövzusunda məqalələri silsilə şəklində davam edir. O, məqsədi haqqında yazır ki, ailə tərbiyəsi məsələsinin kökündən həll ediləcəyini düşünmürük, lakin bu sahədə el birliyi ilə çalışılarsa, səlahiyyətli şəxslərin hər biri bu mövzuların ətrafında danışarsa, şübhəsiz ki, ailə tərbiyəsinin düzəlməsinə doğru qüvvətli addımlar atılmış olar.

X.Fikrət uşaqların yaş dövrlərinin bölgüsünü aparmışdı. 1923-cü ildə Xəlil Fikrətin ayırdığı bu bölgü elmi əsaslara malik deyildi və bugünkü yaş dövrləri ilə uyğun gəlmir. Lakin uşaqların inkişafında dövrləri – onların yaşlarını nəzərdə tutmağın böyük əhəmiyyəti var idi. Xəlil Fikrət dövrlər üzrə uşaq tərbiyəsinə aid geniş materiallar verir, yeri gəldikcə yaramayan keçmiş tərbiyə qalıqlarını da tənqid edirdi.

Birinci dövr ilk həftəni təşkil edir. Uşaq dünyaya gələr-gəlməz onun vücudunda baş verən fizioloji dəyişiklik haqqında məlumat verilir. Göstərilir ki, uşaq doğulan kimi onun bədənində dəyişiklik olur. Çünki bu vaxta qədər onda fəaliyyət göstərməyən bəzi üzvlər, yeni şəraitdə fəaliyyətə başlayır. Məsələn, ciyərlər dərhal işə düşürlər, qan dövranı hərəkət formasını dəyişir və s. Bütün bunları bilmək lazımdır ki, təbii tələbləri yerinə yetirmədə səhvə yol verilməsin. "Uşağın tərbiyəsinə dair məsələlərə diqqət etmək hər ananın vicdan borcudur" [5, s.36].

Birinci həftədən sonra müəllifin yazdığına görə uşağın süd əmdiyi dövr başlanır ki, bu dövr təqribən 8-12 aya kimi davam edir. Burada Xəlil Fikrət uşaqların aybaay artımı üzərində dayanır, bir uşağın gündəlik yeməyi nə qədər olmalıdır kimi məsələərə valideynlərin diqqət yetirməsini tələb edir.

Müəllif bu dövrdə uşaqların tərbiyəsində əsasən aşağıdakıları daha geniş icra etməyi tələb edir:

1. Bədən tərbiyəsi
2. Ruh tərbiyəsi

Bədən tərbiyəsinə qida, yuxu, hərəkətlər və təmizlik daxil edilir. Müəllif bir-bir bunlar haqqında məlumat verir, faydasını göstərir. Bu məsələlərlə bağlı anaların qarşısında dayanan vəzifələrdən danışır.

Jurnal uşaqların həm bədən tərbiyəsi, həm də mənəvi tərbiyəsində lazımı keyfiyyətlərin vərdiş və yamsılamaqla qazanıla biləcəyini göstərir. Tərbiyəçinin şəxsi nümunəsi burada əsas hesab edilir.

Jurnalda uşağın inkişafı zamanı onda əmələ gələn dəyişikliklər, yeniliklər izah edilərək ananın bu halın gələcəyini əvvəlcədən bilməsini vacib bir məsələ kimi diqqətə çatdırılır.

Müəllifin fikrinə görə, elə o zamandan uşağın qulaq təsəvvürləri də oyanmağa başlayır. Bundan sonra dilini "lalala" şəklində oynadır, kəlmələri təqlid etməyə başlayır. 5-6-cı aylarda özünəməxsus dillə danışmağa başlayır.

Yeddinci və səkkizinci ayda uşaq öz-özünə oynamağı sevir, – yazan müəllif böyüdükcə uşağın mənəvi tərbiyəsinə diqqəti artırmağı tələb edir.

Pedaqoq uşaqların inadcıl, ağlağan böyüməməsi üçün valideynlərin onlarla kiçik yaşlardan məqsədəmüvafiq münasibətdə olmalarını lazım bilirdi.

Müəllif uşağı qorxaq böyüdən valideynlərin əleyhinə çıxır. Müəllif uşağın ailədə mehriban, şən münasibətlər əhatəsində böyüməsini faydalı bilir. Əgər ata hirsli olarsa, onun əsəbiliyini övladına da sirayət etdirir. Uşaq həmişə şənliyi sevir. Buna görə də onun bu ehtiyacını ödəmək lazımdır.

Südəmər dövr haqqında geniş məlumat verdikdən sonra jurnal növbəti saylarda "cocuqluq dövrü" adlanan yeni dövrdən bəhs edir. Bu dövr birinci yaşın sonlarından başlayaraq yeddi yaşına qədər, yəni süd dişlərinin çıxması zamanına qədər davam edir. Buna görə də bu dövrə süd dişləri dövrü də deyilir. Bu dövrdə uşaqlar "bədən, ruh, fikir cəhəti ilə" digər dövrlərə nisbətən daha sürətlə inkişaf edir. Müəllif burada ilk əvvəl uşaqların boy, çəki artımı, ürək döyüntüləri ilə bağlı məlumatlar verir.

Doktor Xəlil Fikrətə görə, "cocuqluq dovrü" iki qismə ayrılır:

1. Birinci cocuqluq dövrü birinci ilin axırından ikinci, üçüncü və bəzi zəif uşaqlarda dördüncü yaşın sonuna kimi davam edir.
2. İkinci cocuqluq dövrü dörd, beş, altı yaşlarına və bəzən zəif uşaqlarda 7 yaşlarına aiddir.

Müəllif qeyd edir ki, birinci cocuqluq dövründə uşaqların bədəni ilk zamanlarda artıq dərəcədə incə və narındır. Hava, su kimi xarici təsirlərə tez məruz qalırlar və tez-tez xəstələnirlər. Zaman keçdikcə uşaqların xarici və zərərli təsirlərə qarşı müqavimət qüvvələri çoxalır və nəticədə, uşaqların xəstlələnməsi də azalır.

Bu dövrdə uşaqların fizioloji xüsusiyyətləri, psixoloji halları, anatomik vəziyyəti haqqında elmi məlumat verdikdən sonra müəllif hansı vəziyyətdə nəyə daha çox diqqət yetirmək lazım olduğunu şərh edir. Məsələn, göstərilir ki, bu dövrdə "cocuğun vücuduna artıq dərəcədə diqqət yetirmək lazımdır". Bəs bu diqqət özünü hansı obyektlər üzərində cəmləşdirməlidir ki, "uşağın vücudu" sağlam böyüsün. Bunun üçün uşağın qidasına, dərisinin təmizliyinə, nəfəs aldığı havanın hərarətinə, yuxusuna, hiss üzvlərinin və duyğularının təliminə xüsusi diqqət yetirilməlidir.

Müəllif həm də kiçik yaşdan uşağın nəfsini tərbiyə etməyin vacib olduğunu bildirir ki, uşaq hər şeyə "isəyirəm" deməsin . Belə ki, uşağı hər şeyə həvəs etməməyə, hər həvəs edilən şeyə sahib olmamağa, yəni onları daha kiçik yaşlarından nəfslərinə hakim etməyə alışdırlmalıdır.

Xəlil Fikrətin fikrinə görə, bu dövrdə yaxşı və pis alışqanlıqların qüvvətli bir surətdə kök salmağa başladığı dövrdür. Böyüklər üçün əhəmiyyətsiz görünən məsələlərin uşaq üçün daima bir həyati əhəmiyyəti vardır. Uşaqları tərbiyələri nöqsanlı olan tərbiyəçilərin öhdəsinə təslim etmək, uşaqların həm səhhət, həm də tərbiyəsi nöqteyi-nəzərindən bağışlanmaz qüsur və qəbahətdir.

Müəllif qeyd edir ki, bəzi valideynlər düşüncəsizlik edib teatra, kinoya, qonaqlığa gedərkən uşaqları özləri ilə aparırlar. Bu, uşaqların səhhəti və həyatındakı intizamları üçün mənfi haldır. Əvvəla, uşaqların yuxu rejimi pozulur, sonra isə "cocuğun ciyərləri hələ ki, tər və təzədir, hələ ki, təzə qüvvətlənir və biz bilirik ki, qüvvətli ciyər qədər, bədənə lazım heç bir şey yoxur" [6, s.19].

Müəllif bildirir ki, bu uşaqlar 400-500 adamın tənəffüs etdiyi bir hava içində saatlarca qalarsa bu onların sağlamlığı üçün çox zərərlidir.

Jurnal bu dövrdə uşağın hərəkətlərinə müstəqillik vermək və onu inkişaf etdirməkdən də xüsusi olaraq bəhs edir. Qeyd edir ki, uşağın hər hansı bir hərəkəti etməsində ona mümkün qədər kömək etməməkdir. Uşaq edə biləcəyi hər işi özü etməlidir. Çünki uşağın iradəsinin möhkəmlənməsi və edəcəyi hərəkətlərə hazır olmasının başlanğıcı bu dövrdədir.

Uşaqlarda baş verən cəsarətsizlik və qorxaqlıq kimi halların əmələ gəlməsini bu zamandan baş verdiyini bildirən müəllif yazır ki, uşaqlar oynayarkən, qaçarkən bəzən yıxılırlar, bir-birlərini incidirlər. Bu kimi hallar zamanı valideyn sükutu pozmamalı, heç bir şey olmamış kimi davranmalıdır. "Sənə nə oldu?" "Haranı əzdin?" "Vay-vay" kimi qorxaq və əsəbi sözlərin faydası yox, amma zərəri vardır. Bu vəziyyətdə uşağı çox əzizləmək olmaz. "Özü yıxılan ağlamaz" qaydası uşaqlara bu dövrdən tətbiq edilməlidir. "Əks təqdirdə cocuqlar cəsarətsiz və nazlı olurlar və irəlidə həyatın çətinlikləri qarşısında daim əzəmətsiz qalır və məğlub olurlar" [6, s.23].

Belə vəziyyətlərdə sakit olmaq, problem nədirsə soyuqqanlılıqla həllinə istiqamətlənmək lazımdır.

Cocuqluq yaşının birinci dövrünün əsas xüsusiyyətlərindən biri bu yaşda danışmağa başlamasıdır. Ona görə də jurnal uşaqların dil açması xüsusiyyətləri, bununla əlaqədar olaraq valideynlərin işləri barəsində öz məsləhətlərini verir. Valideyndən nələr tələb edilir:

1. Uşağa söz söyləyərkən aydın və yavaş söylənilməli, hər kəlmə ayrıca tələffüz olunmalı ki, uşaq sözün düzgün tələffüzünü tuta bilsin.
2. İzah edilən, söylənilən əşyanın mümkünsə özü də göstərilsin. Bununla uşaq təsəvvüründə olan əşyanın həqiqi şəklini də görsün və hafizəsinə yerləşdirsin.
3. Uşağın özünün də düzgün, aydın tələffüzlə danışmasına nəzarət edilməlidir.

Bu kimi məsələlərin izahından sonra jurnal "Birinci cocuqluq dövründə fikri və əxlaqi tərbiyə" məsələsindən bəhs edir. Xəlil Fikrət əqli və əxlaqi tərbiyədə ilk növbədə xarici aləmlə baş beyin arasında əlaqə yaradan hissləri tərbiyə etməyi lazım bilir və yazır ki, birinci cocuqluq dövründə uşağın fikri tərbiyəsi beş hissin təlimindən başlayır. Dünya haqqındakı məlumatımız bu beş hissdən hansı sürətlə girərsə məlumat o səviyyədə yerləşər və beynimizdə qalar. Uşaq nə görür, nə eşidir və nəyə toxunursa daima öz-özünə təcrübə toplayır, bu təcrübədən xaric məlumat onun üçün qurudur, ruhsuzdur.

Valideynlər çox vaxt düşünmürlər ki, uşaqlar təqlidçidirlər. Uşaqlar anasının, atasının, dayənin və hətta tez-tez təmasda olduğu insanların hərəkətlərində, üzlərində gördüyünü daim təkrar edir. Üz ruhun aynasıdır. Uşaqlar qarşılarında hirsli, əsəbi, kefsiz insanlar görürsə, o da zaman keçdikcə əsəbi, hirsli, qaraqabaq olur. "Təcrübə ilə sabitdir ki, nəşəli olmayan bir ruh çabuq xəstə olur. Nəşə bir növ qüvvəyi-mənəviyyatdır. İnsan azarlı olduğu zamanlarda belə nəşəsini itirməzsə azarlılıq tez yox olur" [7, s.78].

Buna görə də uşaqlara qarşı daim şən olmalı, onlarla bol-bol gülməli, oynamalıdır. Gülmək səhhətin atasıdır.

Xəlil Fikrət qeyd edir ki, uşaqlar çox fəaldırlar, daim bir iş ilə məşğul olmaq istəyirlər və hətta onlar anasının, atasının da onlarla məşğul olmasını istəyirlər. "Bu xüsusda yapılacaq ən mühüm iş cocuğu yalnız başına uğraşdırmaqdan zövq aldırmaqdır. Bunun üçün də onları fubel və montessuri oyuncaqları ilə uğraşdırmaq lazımdır. Ən iyi məşğuliyyət uşaqlarda yaradıcı qüvvələri hərəkətə gətirməkdir, yəni onlara elə məşğuliyyətlər verməli ki, bir şey yapsınlar, bir şey meydana gətirsinlər" [7, s.78].

Uşaqda iradə möhkəmliyi oyunlar vasitəsi ilə yaradılmalıdır. O, başladığı oyunu sona çatdırmalıdır. Uşaq özü nəyi isə qurmağa, yaratmağa meyil etməlidir.

Xəlil Fikrət qeyd edir ki, tərbiyənin başında itaət vardır. "İtaətin birinci cocuqluq dövründə əldə edilməsi vacibdir. Yarın cocuğa veriləcək tərbiyənin əsası itaətdədir. İtaət olmazsa tərbiyədə gec müvəffəq oluruz" [7, s.79].

Xəlil Fikrət bu barədə olan müxtəlif fikirləri izah edib göstərir ki, bəziləri itaətə əhəmiyyət verilməsini istəməzlər, çünki onlar itaət ilə uşağın fərdiyyətinin əziləcəyini düşünürlər. Fərd sərbəst inkişaf etmək istərsə, əsarət çəpərindən keçməməlidir. "İtaət insanı həqir və alçaq ruhlu (təvazökar) yapar" [7, s.79].

Uşaqlarda itaəti təmin etmək üçün ata və ana hərəkətlərində daima sabit və təvazökar olmalı, zamana görə dəyişməməlidir. Əgər ailə bir işin uşaq tərəfindən görülməsini istəmirsə, o işin görülməsinə heç vaxt icazə verməməlidir. Uşaqlara qadağalarımızı hirslənmədən, sükunətlə tətbiq etməliyik və bir işi etmə desək, uşaq edə biləcəyini ağlına belə gətirməməlidir. Əgər uşaq bizə yalvararsa, əvvəlcə etməsini istəmədiyimiz işə yalvardığı üçün etməsinə icazə versək, çox səhv bir iş görmüş olarıq. "O zaman cocuq bizim qadağan etdiyimiz şeylərin prinsip olmadığını, ana, ata keyfindən meydana gələn bir məsələ olduğunu, kiçik qafası ilə

bulur” [7, s.79]

Daha sonra Xəlil Fikrət birinci cocuqluq dövründə uşaqlarda yalançılıq, xudbinlik kimi mənfi xüsusiyyətlərin yaranma səbəblərini və bu xüsusiyyətlərdən çəkindirmək yollarını anaların diqqətinə çatdırır.

Bu yaş dövründə diqqət ediləcək məsələlərdən biri də uşaqların lovğa olmasıdır. Lovğa olmaq özünü hər kəsdən üstün görmək, hər kəsə yuxarıdan aşağıya baxmaqdır. Lovğalığın dostu kimi qısqanclıq, paxıllıq, hiyləgərlik, haqsızlıq və s. göstərmək olar.

Valideyn çalışmalıdır ki, uşağı təvazökar ruhda böyüsün. “Bunu nə surətlə yapmalıdır?” sualını müəllif belə cavablandırır: “Hər şeydən əvvəl çocuğu başqalarının yanında “mənim oğlum belədir, mənim oğlum elədir, filan çocuq pisdır... ilaxır” şəklində söz söyləməməli. Çocuq anasının, atasının ağzından eşitdiklərini doğru sayır və kəndisincə fəzla əhəmiyyət verərək digər çocuqları bəyənməməyə başlar” [10, s.50]

Lovğa, başqasını bəyənməyən uşaq böyüdüyü zaman öz həyatından da razı qalmaz.

Müəllif haqlı olaraq yazır ki, məncə həyatın ən böyük sərvəti qazancı ilə ehtiyaclarını uyğun bir tərzdə birləşdirməyə çalışmaq və qəlbən heç bir zaman yaşadığı həyatdan məmnun qalmayacaq bir surətdə gözünü başqalarına dikməməkdir. Xəlil Fikrət qədim yunan filosofu Sokrat haqqında belə bir əhvalat yazır: “Məşhur filosof Sokrat bazara gedib gəldikdən sonra daima keyflənir, gülər və sevinərmiş. Səbəbini soran kimsələrə cavab olaraq: Görürəm ki, dışarıda ağıla, xəyala gəlməyən bir çox əşya sərilmiş, hər dükanda bir çox şeylər var və hər kəs böyük bir təlaşla bunları əldə etmək üçün arı kimi bir oraya, bir buraya qoşuyor və hər kəs bu şeylər üçün bütün mövcudiyyətini əfna etməyə çalışır. Mən isə bütün bu şeylərə qətiyyən möhtac olmadığım üçün nə qədər məsud (xoşbəxt)və bəxtiyar olduğumu düşünərək sevinirəm” [9, s.32].

Ona görə də valideynlər uşaqlarını hər şeyə qarşı acgöz yetişdirməsələr, onalrı bir çox əxlaqsızlıqlardan qurtarar və onlara insani hissləri təlqin etmiş olarlar. Bunun üçün uşağın kaprizlərinə əhəmiyyət verməməli, onları sadə, düzgün, təmiz bir həyata alışdırmalıyıq.

Jurnal çocuqluq dövründə əxlaq tərbiyəsi ilə bağlı fikirləri genişləndirərək yazır ki, əsasən ailə tərbiyəsində analar və atalar tərbiyə işinə agah olaraq balalarının fiziki, mənəvi və əxlaqi tərbiyələrini təmin etməyə müvəffəq olarlarsa və həmçinin məktəblərdə yeni tərbiyə prinsipləri ilə bu ev tərbiyəsi görən uşaqların ruhlarını və bədənlərini daha da mükəmməl yapacaq olurlarsa, o zaman qəti olaraq deyə bilərik ki, bütün ictimai və insani məsələləri mükəmməl bir surətdə həll etmək mümkün olar. Əks təqdirdə, yəni gənclərin bədəni və əxlaqı, mənəvi tərbiyələri geri qalarsa, məmləkətdə tam mənası ilə ictimai bir inqilab yaratmaq mümkün olmaz. Bunun üçün ev tərbiyəsini ətraflı olaraq düşünmək lazımdır.

Xəlil Fikrət məqalələrində J.J.Russo, Spenser və Frebel kimi pedaqoqlara

istinad etmiş, bu pedaqoqların təbii cəza, təbii oyun, itaətkarlıq kimi fikirlərindən istifadə edərək lazımi məsləhətlər vermişdir.

Xəlil Fikrət yazır ki, uşaq yıxıldığı və ya başını masaya vurduğu vaxt bir ağrı hiss edər ki, bunun xatirəsi uşağı gələcək üçün daha diqqətli edər və bu uşaq üçün bir həyat təcrübəsidir. Çünki bu hallar dəfələrlə təkrar olunarsa, uşaq özünü daha yaxşı idarə etməyə başlar. "Atəş qarışdırmağa məxsus maşaya toxunur, əlini şamın alovuna gətirir və yaxud dərisinin üzərinə qaynar su tökərsə, bu yanma qulay-qulay unudulacaq, yaddan çıxacaq bir dərs deyildir. Buna bənzər bir çox hadisələrin hüsula gətirəcəyi dərslər o qədər dərin və çox olur ki, çocuq gələcəkdə heç bir surətlə həyatın sarsılmaz qanunlarına qarşı gəlməməyə çalışır" [10, s.50].

Demək olar ki, bu dərsləri bizə verən təbiətdir. "Məlimdur ki, bütün insanlar nəzərində fel və hərəkətlərin həqiqi ölçüsü, onlardan hüsula gələn səadət və fəlakətdir" (10, s.50). Əgər oğurluq oğurlayana və ailəsinə xoşbəxtlik gətirsə idi, bunu mənfi xasiyyətlər qrupuna aid etməzdik. Müsbət xüsusiyyətlər, hərəkətlər insanların həyatına pis təsir etsə idi, onları pis hərəkətlər qrupuna aid edərdik. "O halda haqq və nahaq ölçüsü, mənfəət və zərərdir" [10, s.51].

Uşaq bu kimi nadincliklər edərsə, onun cəzası təbiətin verəcəyi cəza olmalıdır. Bu hal yalnız kiçik uşaqlar üçün deyil, böyüklər üçün də doğrudur. Hər halda süni cəzalar, yəni insanların tərbiyəsi məqsədi ilə tərtib edildiyi cəzalar, əxlaqın yaxşılaşması haqqında heç bir zaman təsirli olmamış və bir çox cinayətləri çoxaltmışdır.

X.Fikrət uşaqlarda dəqiqlik kimi keyfiyyətin formalaşdırılmasının əhəmiyyətini aşağıdakı cümlə ilə ifadə edir. "Dünyada hazırlıqsız bulunmaq əldə ediləcək mənfəətlərin qaçmasını icab etdirir" [10, s.52].

Müəllif valideyn-uşaq münasibətlərində maraqlı bir məqama toxunur. Hal-hazırda valideyn uşaqları tərəfindən dost-düşmənlər kimi qiymətləndirilirlər. Müəllifin izahına səsasən bu hal necə baş verir? Bir ana kiçik yaşlı övladına özünün ən sevimli dostu olduğunu söyləyir və uşaq da ilk zamanlar buna inanır. "Bunların hamısı sənin faydan üçündür" və yaxud "Sənə layiq olanı mən səndən daha yaxşı bilirəm" və yaxud "Sən hələ ki, bunu anlayacaq yaşda deyilsən, lakin böyüdüyün zaman belə etdiyimə görə mənə təşəkkür edəcəksən"... və s. deyir. Bu kimi sözlər hər gün təkrar edilir. Bu zaman ərəfəsində uşaq bəzən də cəzalanır-döyülür, söyülür, etmək istədikləri bəzi işlərdən məhrum edilir. Valideyn bunları uşağın gələcəyi üçün, xoşbəxt olması üçün etdiyini söyləyir. Uşaq anasının həmişə söylədiyi bu gələcəyin nə cür bir şey olduğunu və yaxud həmişə anasının, atasının sərt rəftarları ilə gələcək xoşbəxtliyinə nə cür köməyi olacağı fikrində acizdir. "Cocuq daima nəticələrə görə hökm verir. Özünün hiss etdiyi nəticələr isə daima naxoşdur, acıdır və nəhayət, cocuq valideynin dostluğundan şübhə etməyə başlar. Bu nəticəyə varmaq qayət təbiidir. Halbuki bizim söylədiyimiz üsula görə hərəkət etsək, ata və ana özləri cəza verməkdən vaz keçsələr, cocuqlarına yalnız təbii cəza versələr, nəticə tam başqa olur" [11, s.40].

Təbii cəza üsuluna aid müəllif bir nümunə yazır. Uşağın qarşısında şam yanır. Uşaq kağız alıb şamda yandırmaq istəyir. Yaxşı düşünməyən ana qəzadan qorxar və uşağa: Belə bir şey etmə! Əllərini qıraram! deyir, lakin bir az zəkalı ana belə mühakimə yürüdür: "Əgər uşağın bu oyununa maneə olsam, uşağın təcrübə qazanmasınada maneə olacağam deməkdir. Uşağa "etmə" deməklə, uşağın bir tərəfini yandırmaqdan xilas edə bilərəm, lakin sonra nə olacaq? Uşaq bu təcrübəni etməzsə, yanında heç kim olmadıqda bu hərəkəti etmək istərsə, o zaman təhlükə daha da böyük olar. Həm özü yanar, həm də evi yandırar. Bu vəziyyətdə işin ən yaxşı cəhəti uşağı oyunla sərbəst buraxmaq və təhlükə olacağını düşünərək hazırlıqlı olmaqdır.

Müəllifin fikrinə görə, bu vəziyyətdə uşaq əlini yandırarsa nə qazanmış olacaq:

1. Öz salamatlığı üçün yaxşı bir təcrübə qazanacaq.
2. Anasının tənbehlərinin onun xeyrinə olduğunu daha yaxşı dərk etmiş olur. Bu da anasını daha çox sevməklə, onun sözlərinə daha artıq əhəmiyyət verməyə səbəb olar.

Müəllif nümunə göstərərək yazır ki, əgər uşaq oğurluq edərsə, bunun təbii cəzası nədir? "Bunun iki nəticəsi olur: ya doğrudan doğruya və yaxud əksi, yəni bilavasitə. Doğrudan doğruya olan nəticə, ədalətin əmrini yerinə yetirmək, yəni zərəri ödəməkdir" [11, s.41].

Zərəri ödəmək dedikdə, müəllif onu nəzərdə tutur ki, uşağı xərcliklərdən məhrum etmək, ürəyi istədiklərini almamaq oğurladığını həmin pul ilə almaqdır.

"Bilavasitə olan cəza isə valideynin ciddi bir surətdə təəssüfüdür" [11, s.42].

Bu təəssüf yuxarıda da qeyd olunduğu kimi, uşaq ağıllanana qədər davam etməli, uşaqla oynamamalı, ona üz verilməməli, tək qoyulmalıdır, ta ki, səhvini anlayıb etdiklərinə görə üzr istəsin. "Burada şərt, cocuğun valideyninin səmimi dostu olmasıdır. Hər halda döymək, kobudluq etmək olmamalıdır. Vəhşət vəhşət doğurur, nəzakət isə nəzakət doğurur" [11, s.42].

Müəllif məşhur pedaqoq Con Lokdan sitat gətirərək yazır: "Cəzaların çox şiddətli olması tərbiyədə çox zərərlidir. Çox cəza görmüş olan uşaqlardan mükəmməl adamlar yetişməsi nadirdir" [11, s.42].

Müəllifin qeydlərinə görə, uşağa çox əmr verilməməli və çox tənbeh edilməməlidir. Digər vasitələr fayda verməzsə əmr verilməlidir. Hər nə qədər əmr edirsinizsə əzm və etiqadla edin. Ediləcək hərəkətləri əvvəlcə düşünməli, düşündükdən sonra qanunu ortaya çıxarmalı və bu qanun mütləq həyata keçirilməlidir. Verilən əmrlər qəti olmalı və uşaq da bu əmrlərdən boyun qaçırmağın mümkün olmadığını hiss etməlidir. Bu şəkildə qəti itaətin faydası vardır.

Xəlil Fikrət qeyd edir ki, bütün tərbiyədə məqsəd və qayə özü-özünü idarə edən insan yetişdirməkdir. Əgər onları daima əzsəniz, onlar əsir kimi yaşamağa,

əsarətə alışar. Bu zaman onlar gələcəkdə sərbəst və öz hərəkətlərini özləri kontrol edə bilməz. Ona görə də uşaqlar kiçik yaşlarından öz hərəkətlərinə nəzarət və kontrola, özü-özünü idarəyə alışdırılmalıdır. Müəllif yazır ki, hər inqilab təhlükəlidir. Lakin ailənin içindən çıxıb həyatın keşməkeşlərinə daxil olmaq daha qorxulu bir inqilabdır. Bu inqilabı yaxşı idarə etməyin asan yolu ancaq uşaqların yavaş-yavaş özlərini idarəyə alışdırılmasıdır.

Müəllif məqalənin sonunda onu da qeyd edir ki, tərbiyə etmək asan bir iş deyildir, əksinə son dərəcə çətin bir işdir. Bunun üçün yaxşı düşünmək, oxumaq və çətin vəziyyətlərdə hirslənməmək, səbirli olmaq lazımdır. Uşaqların hamısına eyni tərbiyəni vermək olmaz, onların qüvvələrinə və yaşlarına görə tərbiyə tətbiq edilməyə çalışılmalıdır.

Ötən nömrədə uşaqların cəzalandırılması haqqında geniş məlumat verdikdən sonra müəllif "Ailə təbriyəsi" rubrikasında jurnalın növbəti sayında uşaqların mükafatlandırılması haqqında valideynlərə məlumat verir.

"Ümumiyyətlə, bu məsələdə ümumi qayda mükafatı az verməkdir. Bol-bol cəzanın qiymət və əhəmiyyətinə zərərlər gətirdiyi kimi, bol-bol mükafat dəxi mükafatın qiymətini heçə endirir. Hər yaxşı hərəkət mütləq mükafatı haqq etməz" [12, s.46].

Yəni müəllif qeyd edir ki, əgər bunun əksinə olsa, o zaman uşaq böyüdükcə etdiyi və ya edəcəyi hər işdən bir mənfəət, bir fayda gözləyəcək. Bir fayda, mənfəət görməzsə yaxşı işləri sevsə də etməyəcək. Bu şəkildə yetişən insanların ictimai vəzifələrini mükəmməl yerinə yetirmələri mümkün deyil. Belə insanlar öz işlərinə qarşı məsuliyyətsiz olurlar.

"İctimai məziyyətlərin qüvvətli olaraq bizdə kök salması lazımdır. Biz çox vaxt mükafat gözləməyərək üzərimizə aldığımız vəzifəni yaxşı bacarmağı və özgələrə mənfəət verəcək surətdə yapmağa məcburuq. Hələ bu kimi mənfəət düşkünü olanlar arasında fədakar insanların yetişməsi imkansızdır. Hər halda qəti olaraq demək olur ki, mükafat almaq üçün işləyənlər, faydadan ziyadə zərərli məxluqdurlar. Bunlar qayət tez dalqabaq olurlar. Zira dalqabaqlıq onlara mənfəət verir" [11, s.41].

Uşaq yeməyini səliqəli yeyirsə, yuxudan qalxan kimi üzünü, dişlərini yuyursa, bunlar üçün uşaqlara mükafat vermək lazım deyildir. Bunlar uşaq üçün gündəlik təbii vəzifələr sayılmalıdır. Lakin uşaq məsələn, bacı və qardaşının tökdüyü oyuncaqları yığışdırarsa, yıxılan bir uşağa ayağa qalmaqda, üst-başını təmizləməkdə kömək edərsə, bu zaman uşağa mükafat vermək olar.

Mükafat yerinə görə ya uşağın xoşuna gələcək bir hədiyyə vermək və yaxud ana-ata tərəfindən gəzməyə aparıla bilər. "Ən yaxşı mükafat valideynin gülər üzündən cocuğunun sevinməsidir" [12, s.45].

Müəllif ən əsas olaraq onu qeyd edir ki, uşağın yanında onu başqa uşaqlarla müqayisə etmək və "mənim uşağım belə yaxşıdır", "Sənin uşağın elə deyildir" deyərək "birini mədh, digərini zəm etmək çox fənadır". Belə hərəkətlər uşaqlarda

qısqanclıq hissi oyandırır. Tərifələnən uşaqda "özünü bəyənmək" hissi, digərində isə "özünə inamsızlıq" hissləri yaradır.

Müəllifin fikrinə görə, valideynin tez-tez uşağını öpməsi də düzgün deyildir. Uşaqların özgələri tərəfindən əzizlənib öpülməsi də heç yaxşı bir hal kimi qarşılanmır. "Çünki öpülmək ilə cocuqlara bir sıra xəstəliklər keçdiyini doktorlar söyləməkdədir. Hətta sarı xəstəliklər arasında siflis xəstəliyi bu surətdə bəzi cocuqlara keçmişdir" [12, s.46].

Xəlil Fikrət ikinci uşaqlıq dövrünə aid də qiymətli fikirlər vermişdir.

Jurnalın 1926-cı il 6 №-li sayında "Ailə tərbiyəsi" rublikasında "İkinci cocuqluq dövründə tərbiyənin ümumi xətaları" adı altında Xəlil Fikrət maraqlı fikirlər bildirir. İkinci uşaqlıq dövründə uşaq vaxtının bir qismini dostları ilə keçirir və onların təsiri altına düşür. "Demək ki, cocuğu yalnız ailə deyil, onun öz mühiti daha dəxi tərbiyə etməkdədir. Bunun üçün də imkan olduğu nisbətdə cocuğa cocuq mühiti bulmalıdır" [13, s.30].

Xəlil Fikrətə görə, ikinci uşaqlıq dövründə uşağın tərbiyəsində ümumi qayda budur: "Sənə yapılması arzu etdiyin hər şeyi sən digərlərinə yapmağı arzu et və yap! Bu dövrdə az söz, çox iş mühümdür" [13, s.30] Yəni uşağa bunu et, bunu etmə deməkdənsə, məsləhət görülən işləri gördürmək daha faydalıdır.

Müəllifin fikrinə görə, ikinci uşaqlıq dövründə diqqət ediləcək məsələlərdən biri də uşağın təvazökar böyüdülməsidir. "Dünyada o güvəniləcək, iftixar ediləcək məziyyətlər çalışmaq və yenə çalışmaqla və insan olmaqla mümkün olduğu hissi cocuğun qanına işləməlidir" [13, s.30].

Müəllif yazır ki, uşaq eqoist olmamalıdır. Uşaq öz haqlarını bilməlidir və onu əlindən verməməyi öyrənməlidir. Həmçinin bu dövrdə uşağı intizama alışdırmaq, sözünü tutmağı öyrətmək, təmizliyi sevdirmək üçün nə qədər çalışsa yeridir. "Zahirə bu kimi məziyyətlər cocuğa ölüncəyə qədər lazım olacaqdır. Bu dövrdə bu kimi məziyyətlər əldə edilməzsə, irəlidə daha gecdir" [13, s.30].

Uşağın bu dövrdə iradəsini qüvvətləndirəcək çarələrə baş vurmaq lazımdır. Bunun üçün ən yaxşı çarə uşağa çox şey etdirməkdir. İş iradə tərbiyəsində mühüm bir rol oynayır. Müəllifin fikrinə görə, bu baxımdan valideynlər çox səhvlər edirlər. Ən böyük səhv uşağa bir işi sonuna qədər etdirməməkdir. "Şərqin əsrlərdən bəri çiyinlərinə çökən ən amansız, ən insafsız xəstəliklərdən biri yarımçıqlıqdır" [13, s.31].

Uşağa evdə nə iş görə bilərsə onları sevərək etdirilməlidir. Bəzən tənbəl ruhlu uşaqlar iş etməyə gəlincə üzlərini turşudurlar. Nə olursa-olsun əhəmiyyət verilməməlidir. "Cocuq heç bir işə kiçik, həqir gözlə baxmamalı, işin daim möhtərəm, daima sevilən bir həyat insanları olduğunu cocuqlara böylə yapdırmaq yolu ilə mümkündür" [13, s.31].

Jurnal yazır ki, uşaqlara əl işləri hazırlatmağın böyük əhəmiyyəti vardır. Uşağa boş vaxtlarında kağız kəsməyi, kiçik ibtidai şəkildə rəsm çəkmək öyrədilməlidir. Əgər uşaq belə əl işləri hazırlamağı öyrənərsə, kağız və parçalardan

çox əşyalar hazırlayar və canı sıxılmaz. "Cocuğu uğraşdırmağı bilmək, ev tərbiyəsinin birinci dərəcəli ən mühüm işlərindəndir" [13, s.32]. Əl işləri həm iradə, həm də fikri tərbiyə cəhətdən faydalıdır. Uşaq əl işləri sayəsində bir çox fikirlər qazanır.

Xəlil Fikrət yazır ki, gözə, qulağa və lamisəyə aid təlimlər də uşaqların duyğularının inkişafı üçün faydalıdır. Məsələn, "buradan qapıya qədər neçə addım olar?", "İndi isə say görək", "Bu rəng necə bir rəngdir?", "Gözlərini bağlayaraq de görək əlində tutduğun nədir" kimi təcrübələr faydalıdır.

Müəllif yazır ki, iradənin həm müsbət, həm də mənfi cəhətləri vardır. Müsbət cəhəti bir işi axıra qədər etməkdir. Məsələn dostumun gizlin olaraq söylədiyi bir sözü heç kimə söyləməmək, ürəyimin istədiyi bir işi etməmək və s. nəzərə alınmalıdır. Disiplin çox vaxt iradənin mənfi qismi ilə əlaqədardır. Məsələn, dostlarım mənə hansısa bir işi etmə deyərlərsə, mənim etməməyim lazımdır. Daxildən bir qüvvə məni həmin işi etməyə sövq edər, lakin iradəm qüvvətlidirsə, daxilimdəki qüvvəni məhv edə bilərəm.

Əgər hansısa bir qida bizə zərərlidirsə, ürəyimiz istəsə belə onu yeməməliyik. Siqaret çəkənlərin insanların içində müsbət iradəli çox adamlar vardır ki, böyük və zəhmətli işləri sona çatdırırlar. Lakin mənfi iradələri qüvvətsiz olduğu üçün zərərini bildikləri halda siqaretdən əl çəkə bilmirlər. "Demək ki, iradənin sırasına görə etmək və sırasına görə etməmək kimi iki cəhəti vardır" [13, s.33].

Müəllifin fikrinə görə, uşaqlarda bu iradə formasını formalaşdırmaq üçün aşağıdakı oyun formalarından istifadə etmək olar. Gülünc vəziyyətlərdə gülməmək, söz söyləmək lazım olan yerlərdə susmaq, ara-sıra üç dəqiqəyə qədər qarşı-qarşıya anası ilə hərəkətsiz sükut etmək kimi tərbiyələr oyun şəklinə salına bilər.

Xəlil Fikrət 1926-cı ilə qədər Azərbaycanda fəaliyyət göstərmişdir. 1926-cı ildə Xəlil Fikrət bütün Avropada təhsil nailiyyətlərinə görə məşhur olan Odenvald məktəbinin təcrübəsini öyrənmək üçün Almaniyaya gedir. Həmin dövrdə keçmiş SSRİ-də siyasi vəziyyət gərginləşmişdi. Buna görə də Xəlil Fikrətə Azərbaycana qayıtmağa icazə verilmir. O, 1927-ci ildə Almaniyadan Türkiyəyə dönür.

Azərbaycanda Xəlil Fikrət yaradıcılığı professor Fərrux Rüstəmov və tarix üzrə tədqiqatçı Nazim Nəsrəddinov tərəfindən araşdırılmışdır.

**Nəticə**

Azərbaycanda göstərdiyi üç illik fəaliyyəti dövründə Xəlil Fikrət pedaqoji fikrin təbliğində fədakarlıqla çalışmış, müəllim kadrlarının hazırlığında böyük xidmətlər göstərmişdir. Azərbaycan-Türkiyə pedaqoji əlaqələrinin inkişafında da Xəlil Fikrətin adını qeyd etmək olar. "Şərq qadını" jurnalının Azərbaycan qadınlarının inkişafı, təlim-tərbiyə fikrinin təbliğində mədəni inqilab hesab etmək olar və jurnalın çapa başladığı ilk dövrlərdə tərbiyə məsələləri sırf Xəlil Fikrətin adı ilə bağlıdır. Bu jurnalda Xəlil Fikrət pedaqoji fikrin inkişafına dair dərin xəzinə

buraxmışdır.

Xəlil Fikrətin məqalələri analara asan praktik biliklər verir və qarşılaşacaqları çətin vəziyyətlərdə necə davranacaqlarına dair yol göstərir. Bu məqalələrin əsas faydalı xüsusiyyətlərindən biri də anaları etdikləri səhvlərə görə günahlandırmadan, onlara yol göstərən bir üslubda yazılmasıdır. Bu məqalələri oxuyan analarda günahkarlıq duyğusu keçirmək əvəzinə məsuliyyət duyğusunu inkişaf etdirir və bunun nəticəsində də davranışlarında müsbət istiqamətli dəyişikliklər yaradır.

Bu pedaqoji yazılar indiyə qədər araşdırılmamışdır, bu baxımdan tədqiq olunub öyrənilməsi aktual mövzudur.

**ƏDƏBİYYAT**


1. *Аскерзаде Q.A., Таваккулоглы A.* История Азербайджанской журналистики. Баку, 2015, 455 с.
2. *Enver Kartekin.* Devrim Tarihi ve Türkiye Cumhuriyeti Rejimi, Sinan Yayınları, 1973, İstanbul, 267 s.
3. *Rüstəmov F.* Azərbaycan-Türkiyə elmi-pedaqoji əlaqələrinin inkişafı tarixindən // Azərbaycan məktəbi, №6, 2013, s.21-27
4. *Şahverdiyev A.B.* Azərbaycan mətbuatı tarixi. Bakı: Təhsil, 2006, 252 s.
5. *Xəlil Fikrət.* Ailə tərbiyəsi // Şərq qadını, 1923, №2, s.33-36
6. *Xəlil Fikrət.* Cocuqluq dövrü // Şərq qadını, 1924, №8, s.18-23
7. *Xəlil Fikrət.* Cocuq əxlaqı və iradi tərbiyəsi // Şərq qadını, 1924, №10, s.78-79
8. *Xəlil Fikrət.* Birinci çocuqluq dövründə fikri və əxlaqi tərbiyə // Şərq qadını, 1924, №2, s.36-37
9. *Xəlil Fikrət.* Ailə tərbiyəsi // Şərq qadını, 1924, №12, s.29-32
10. *Xəlil Fikrət.* Cocuqluq dövründə əxlaq tərbiyəsi // Şərq qadını, 1925, №3, s.50-52
11. *Xəlil Fikrət.* Ailə tərbiyəsi // Şərq qadını, 1925, №6. s. 40-42
12. *Xəlil Fikrət.* Cəza və rəğbətləndirməm // Şərq qadını, 1925, №9, s.45-46
13. *Xəlil Fikrət.* Ailə tərbiyəsi // Şərq qadını, 1926, №6, s.30-33
14. https://www.turkyurdu.com.tr/
15. https://www.halduncezayioglu.com/


Redaksiyaya daxil olub 06.07.2020

# YAZI QAYDALARI

- “Pedaqoji Universitetin Xəbərləri” dövri elmi jurnalının “Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər” seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- “Humanitarian, social and pedagogical-psychological sciences” series of the periodic scientific journal “Transactions of Pedagogical University” accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal’s electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmışdır: 05.11.2020
Kağız formatı $70\times100^{1/16}$, 13,0 ç.v.
Sifariş 141. Sayı 200.

---

**ADPU mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68